AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI

DİA-nın Beynəlxalq münasibətlər kafedrasının dosenti

H.M.RƏCƏBLİ

66.4(0)
R-47

# BMT-nin İXTİSASLAŞMIŞ QURUMLARI

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 826 №-li, 06.10.2003-cü il tarixli qərarı ilə ali məktəblərdə Beynəlxalq münasibətlər, beynəlxalq hüquq, beynəlxalq jurnalistika, beynəlxalq iqtisadı əlaqələr və digər beynəlxalq ixtisaslar üzrə təhsil alan Bakalavr və magistrlər üçün dərs vəsaitı kimi tövsiyə olunmuşdur.*

AZƏRBAYCAN NƏŞRİYYATI

BAKI - 2003

195
KİTABXANASI

R 38 (03)

Elmi redaktoru -DİA-nın Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının müdiri, tarix elmləri doktoru, prof. Əli Həsənov

Rəyçilər -DİA-nın professoru, tarix elmləri doktoru, Namiq Axundov
-DİA-nın dosenti, siyasi elmlər namizədi Elçin Əhmədov

**H. M. Rəcəbli**
R 38 (03) BMT-nin ıxtisaslaşmış qurumları. - Bakı, "Azərbaycan" nəşriyyatı, 2003.-256 səh.

*Müəllif Azərbaycanda ilk dəfə ana dilində hazırlanmış bu dərslikdə BMT sistemi, onun ixtisaslaşmış qurumları, İqtisadi və Sosial Şurasına daxil olan strukturlar haqqında ətraflı məlumat verir, onlar arasındakı qarşılıqlı əlaqələrin ümumidən xüsusiyə öyrənilməsi prinsipinə əsaslanaraq bu sahədəki elmi boşluğu doldurmağa müvəffəq olur.*

*Dərslikdə bu qurumlarla ayrı-ayrı dünya ölkələri və yerli qeyri-hökumət təşkilatlarının əməkdaşlığına və Azərbaycandakı fəaliyyətlərinə də xüsusi diqqət yetirilmişdir.*

*Kitab beynəlxalq münasibətlərin ayrı-ayrı sahələri ilə məşğul olan mütəxəssislər, tələbələr, magistr və aspirantlar, habelə geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

R $\frac{4804000000-038(03)}{M\ 670(07)-2003}$ Sifarişlə

©"Azərbaycan" nəşriyyatı, 2003.

**Müəllifdən**

Zaman böyük yaradıcıdır – deyənlər səhv etməyib, suverenliyinin yaşı XX yüzilliyin sonlarından başlayan, dövlətçiliyinin yaşı isə minilliklərin dərinliyinə gedib çıxan Azərbaycan cəmi on ildən artıq bir dövr ərzində nəhəng quruculuq işlərini həyata keçirmiş, Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının qəbulundan sonra ilk növbədə informasiya blokadasından qurtulmuş, dövlətçiliyimizin məhvinə yönəlmiş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində müvəqqəti atəşkəsə nail olmuş, hüquqi dövlət quruculuğunu, demokratik təsisatların yaradılması və inkişafını təmin etmiş, neft və kommunikasiya diplomatiyasının gücü ilə dünyanın marağını nəinki Azərbaycana, habelə bütün cənubi Qafqaz bölgəsinə cəlb etmiş, dünya birliyinin sıralarına qoşulmuş, BMT-yə, onun ixtisaslaşdırılmış qurumlarına, İKT-yə, ATƏT-ə, QİƏT-ə, Avropa Şurasına və digər beynəlxalq təşkilatlara daxil olaraq xalqımızın haqq səsini bütün dünyaya çatdırmış, haqq işinin müdafiə olunması üçün beynəlxalq dəstək əldə etmişdir.

Dəyişən dünyada Azərbaycanın yerinin düzgün müəyyənləşdirilməsi Heydər Əliyev diplomatiyasının ən böyük uğurlarından biri, dövlətçiliyimiz tarixində yeni epoxanın başlanğıcıdır. On ildən yuxarı BMT-nin bərabərhüquqlu üzvləri sırasında fəaliyyət göstərən Azərbaycan Respublikası BMT çərçivəsində dünya inteqrasiya proseslərinə qoşulmuş, dünya dövlətləri ilə siyasi, sosial, iqtisadi, beynəlxalq, hüquqi, mədəni və s. sahələrdə əməkdaşlığın reallaşdırılmasına nail olmuş,

Azərbaycanın Nyu-York və Cenevrədəki BMT iqamətgahlarında nümayəndəlikləri fəaliyyət göstərməyə başlamış, respublikamız BMT strukturunun bütün sisteminə və ixtisaslaşdırılmış qurumlarının demək olar ki, hamısına qoşulmuşdur.

BMT sisteminin ixtisaslaşdırılmış qurumlarının Azərbaycanda fəaliyyəti nəzərəçarpacaq dərəcədə böyükdür. Bu kitabın yazılmasında başlıca məqsədimiz BMT ilə sıx təmasda olan, qloballaşan dünyada Azərbaycan Respublikasının layiq olduğu yerin mahiyyət və məzmununa aydınlıq gətirməkdən ibarətdir.

BMT Baş Məclisinin 58-ci sessiyasında çıxış edən Azərbaycan nümayəndə heyətinin başçısı İ.Əliyev BMT strukturları, idarəetmə və təsir mexanizmlərinin islah olunması fikrini irəli sürməklə ömrünün altıncı onilliyinə qədəm qoymuş bu nəhəng "dünya evinin", ümumilikdə dünyamızın yeni dövrə qədəm qoyduğunu açıb göstərdi. Dünya yeni dövrə qədəm qoyur, onun proqram sənədinin hazırlanması isə tədqiqatçıların üzərinə düşür.

Çıxışın məzmununun Azərbaycan – BMT münasibətlərinin yeni dövrünü təyin edəcəyini, gələcək əməkdaşlığın prioritetlərini müəyyənləşdirdiyini, görülən işlərə kəskin tənqidi münasibət göstərdiyini nəzərə alaraq mətni bu dərslikdə dərc edir, onu tələbələrin və mütəxəssislərin sonrakı fəaliyyətlərində istifadə üçün vacib sənəd kimi tövsiyə edirik.

Hesab edirik ki, qloballaşan dünyada BMT təkmilləşəcək, daha çevik və işlək təsir mexanizmi olan universal beynəlxalq təşkilat kimi cahanda sülhün, əmin-amanlığın, konstruktiv inkişafın, firavan həyatın, xalqlar və dövlətlər arasında qarşılıqlı dostluq və əməkdaşlığın qarantına çevriləcəkdir.

H. Rəcəbli



## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ İLHAM ƏLİYEVİN SENTYABRIN 24-də BMT BAŞ MƏCLİSİNİN 58-ci SESSİYASINDA ÇIXIŞI



Əziz cənab sədr!

Xanımlar və cənablar!

Hər şeydən əvvəl, icazə verin, cənab Julian Robert Hanteni Baş Məclisin 58-ci sessiyasının sədri seçilməsi münasibətilə təbrik edim və cənab Yan Kavana 57-ci sessiya dövründəki sədrlik fəaliyyətinə görə minnətdarlığımı bildirim.

Cənab sədr,

Bu il BMT üçün çətin il oldu. İraq ətrafındakı hadisələr beynəlxalq təhlükəsizlik sistemindəki kövrək məqamları büruzə verdi. Artıq birinci dəfə deyil ki, BMT-nin Təhlükəsizlik Şurası üzvlər arasındakı qarşılıqlı anlaşılmazlığa görə, bəyannamələrini tətbiq edə və müvafiq olaraq vəziyyətlə bağlı lazımi reaksiya göstərə bilmir.

Bu cür anlaşılmazlıqlar həm İraq ətrafında, həm də digər münaqişə və böhranlarla bağlı məsələlərdə Təhlükəsizlik Şurasının fəaliyyətinə mənfi təsir göstərməkdə davam edir. İndi artıq aydındır ki, mövcud BMT mexanizmləri zamanın tələbinə cavab vermir. Bununla bağlı Birləşmiş Millətlər Təşkilatında islahat vacib məsələyə çevrilmişdir. Təhlükəsizlik Şurasının da islahatına ehtiyac vardır, orada da həm bu günün reallıqları, həm də yarıməsrlik reallıqlar öz əksini tapmalıdır.

Azərbaycan baş katib Kofi Annanın islahatlarla bağlı məlum təkliflərini, xüsusilə Təhlükəsizlik Şurası üzvlərinin ge-

nişlənməsi ideyasını dəstəkləyir. Biz BMT mexanizmlərinin yenidən işlənməsi, xüsusilə də veto hüququna yenidən baxılması kimi məsələlərdə Şuranın daimi üzvlərinin xoş məramına ümid edirik.

Biz ümid edirik ki, indi beynəlxalq icma öz səylərini birləşdirə bilib, birləşmiş və bölünməz İraqın bərpası və güclənməsi işinə yönəldəcəkdir və bütün İraq xalqının azad iradəsinə əsaslanmış demokratiya qurmağa yardımçı olacaqdır. Bu prosesdə iştirak etməyə hazırlığını bildirən ölkəmiz artıq İraqın təhlükəsizliyi və sabitliyi işinə öz töhfəsini verməyə başlamışdır.

Bağdadda BMT nümayəndəliyinin iqamətgahına qarşı terror aktı bütün beynəlxalq icmanı lərzəyə gətirdi. Serjio De Mello və onun həmkarlarının ölümü həm təşkilat, həm də bizim hamımız üçün faciəvi fikirdir. Bağdadda baş verənlər terror qarşısında nə qədər aciz olduğumuzu bir daha göstərdi və bizə sübut etdi ki, terrorçular istənilən cür cinayətə hazırdırlar.

Burada yeganə cavab terror yolunu seçənlərə qarşı amansız, rəhmsiz savaş olmalıdır. Fərqi yoxdur, terrorçular bu terror aktlarını hansı məqsədlə həyata keçirirlər. Bu savaşda ayrı-seçkilik və ikili standartlara yer yoxdur.

Ermənistanın ölkəmizə qarşı başladığı təcavüzün, işğalın və terrorun qurbanına çevrilmiş Azərbaycan artıq illər boyudur ki, terrorizmə qarşı təkbaşına savaşır. Terrorizmə qarşı mübarizədə səyləri gücləndirmək barədə beynəlxalq icmaya çağırışlarımız cavabsız qaldı. Yalnız 2001-ci ilin 11 sentyabrından sonra həyəcan təbili çalındı.

Terrorizmi törədən səbəblərin, eləcə də onun yayılması üçün münbit şərait yaradan amillərin kökü kəsilməsə, terrorizmə qarşı mübarizədə uğur heç vaxt mümkün olmayacaqdır. Digər tərəfdən, bütün dünyadakı, eləcə də Cənubi Qafqazdakı münaqişələri daimi terror praktikası və onun dövlət səviyyəsində dəstəklənməsi şəraitində həll etmək mümkün deyildir.

Biz yadda saxlamalıyıq ki, separatçı və ekstremist qüvvələrin yaradıb, inkişaf etdirdiyi terrorçu qruplar, adətən, qeyri-qanuni nəzarət ərazilərində, yəni separatçılıq və xarici təcavüz nəticəsində əmələ gəlmiş "boz zonalar" deyilən ərazilərdə fəaliyyət göstərirlər. Bu, nəzarətsiz "boz zonalardan" biri Azərbaycan Respublikasının Ermənistan hərbi qüvvələri tərəfindən işğal olunmuş Dağlıq Qarabağ bölgəsi və digər əraziləridir. Terrora qarşı hərtərəfli mübarizə apararaq və münaqişələrin beynəlxalq hüquq normaları əsasında həllinə çalışaraq, beynəlxalq icma gücdə qətiyyətlə istifadə etməlidir. Bu, ədalətli və qanunun aliliyini bərpa edə biləcək yeganə yoldur.



Azərbaycan nümayəndə heyəti bu yüksək kürsüdən beynəlxalq icmanın diqqətini, davam edən Ermənistan-Azərbaycan münaqişəsinə dönə-dönə cəlb etmişdir. Təhlükəsizlik Şurasının 4 qətnamə qəbul etməsindən artıq 10 il keçir. Bu qətnamələr erməni işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxmasını tələb edir.

Bununla belə, Ermənistan bu qətnamələri saymazlığı ilə beynəlxalq icmaya meydan oxuyur. BMT Təhlükəsizlik Şurası və ATƏT-in Minsk qrupu isə bununla bağlı heç bir adekvat qərar qəbul etmirlər.

Azərbaycan münaqişənin beynəlxalq hüquq normalarına və prinsiplərinə əsasən, sülh yolu ilə həllinə tərəfdar olduğunu dəfələrlə bildiribdir. Biz bu yöndə səylərimizi davam etdirməkdə israrlıyıq və beynəlxalq icmanın fəal iştirakına ümid edirik. Azərbaycan heç zaman "mövcud reallıqlar" əsasında həll variantı ilə razılaşmayacaq və torpağın bir qarışını belə heç kimə verməyəcəkdir. Azərbaycanın səbri sonsuz deyil və heç kim bundan sui-istifadəyə cəhd etməsin. Məsələnin həll olunmamasına görə məsuliyyət işğalçı Ermənistanın üzərinə düşür. İşğalın qurbanı olan Azərbaycanın üstünə yox. Beynəlxalq icmanın tutduğu passiv müşahidəçi mövqeyi yaranmış çıxılmaz vəziyyəti daha da gərginləşdirə bilər.

Ermənistan yalnız Azərbaycan ərazilərini tərk etdikdən və bununla da münaqişənin sülh yolu ilə həllinə əsas yarandıqdan sonra Azərbaycanla normal dövlətlərarası münasibətlərə və əməkdaşlığa ümid edə bilər. Bizim beynəlxalq hüquq qaydalarına əsaslanan konstruktiv təkliflərimizi rədd etməklə Ermənistan özünün əsl məqsədini - Azərbaycanın işğal olunmuş torpaqlarını öz ərazisinə qatmaq niyyətini nümayiş etdirir.

Ermənistanın rəhbərliyi təcavüzkar millətçilik, militarizm, separatizm və terrorizm ideologiyasını əsas tutmaqda davam edərək, öz xalqını ən dərin böhran uçurumuna sürüyür. Əraziləri genişləndirmək və ətrafda düşmən axtarmaq hisslərinin milli ideya kimi aşılandığı cəmiyyətdə heç vaxt demokratiya və plüralizm kök sala bilməz. Ermənistanda dərk etməlidirlər ki, belə getsə, Azərbaycanla hazırkı münaqişə vəziyyəti nəinki həll olunmayacaq, həm də Ermənistanın özünün ciddi daxili sosial və iqtisadi problemlərini daha da pisləşdirəcəkdir.

Təəssüf hissi ilə bildirirəm və bunu hamı anlamalıdır ki, beynəlxalq icmanın fəaliyyətsizliyi bu pozucu siyasəti davam etdirməkdə Ermənistanın özünə arxayınlığını gücləndirməyə xidmət edir. Həm ATƏT-in Minsk qrupu, həm də BMT-nin Təhlükəsizlik Şurası təcavüzkarın qarşısından geri çəkildilər və bununla öz fəaliyyətlərinin və niyyətlərinin ciddi surətdə davam etdirilməsini şübhə altına aldılar.

İşğalçının cəzalandırılmaması nəinki bütün beynəlxalq təhlükəsizlik sistemini, həm də beynəlxalq hüququn prinsipləri və normalarını ciddi surətdə şübhə altına almağa başlayır. Bu cür münasibət beynəlxalq icmaya bir çox hallarda baha başa gəlibdir.

Biz Təhlükəsizlik Şurasına müraciət edirik ki, yuxarıda sadalanan 4 qətnamə ilə bağlı lazımi tədbirlər görülməsini təmin etsin və gözləyirik ki, təmas xəttində, eləcə də işğal olunmuş ərazilərdə cinayətkar və təcavüzkar əməllərə son qoyulacaq, işğalçı qüvvələr Azərbaycan ərazilərindən qeyd-şərtsiz, dərhal və tamamilə çıxarılacaqdır.

Cənab sədr! Münaqişə, təxminən 1 milyon azərbaycanlını evsiz-eşiksiz qoymuşdur. Aydındır ki, qarşıdan gələn qış qaçqın və köçkünlər üçün daha bir sınağa çevriləcəkdir. Onlardan yüz minlərlə nəfər hələ də çadır düşərgələrində yaşamaqda davam edir. Azərbaycan hökuməti öz məhdud ehtiyatlarından istifadə edərək, onların əzablarını yüngülləşdirmək üçün əlindən gələni edir. Bu yaxınlarda Azərbaycan Respublikasının Prezidenti öz qərarı ilə qaçqın-köçkünlər üçün evlər tikilməsinə 70 milyon ABŞ dollarından artıq vəsait ayırmışdır.



Beynəlxalq icmanın yardımını yüksək qiymətləndirərək, biz eyni zamanda, yardımın azalmasından narahatlıq keçiririk. Biz BMT-nin müvafiq agentliklərini, donor ölkələri, qeyri-hökumət təşkilatlarını təkidlə inandırırıq ki, diqqətlərini Azərbaycanın öz torpaqlarından zorla qovulmuş insanların problemlərinə yönəltsinlər və onların ehtiyaclarına adekvat cavab versinlər. Problemin uzunmüddətli həllinə gəldikdə isə, əlbəttə ki, bunun əsasında Ermənistanla Azərbaycan arasında münaqişənin aradan qaldırılması və qaçqın-köçkünlərin öz yerlərinə qayıtması durur.

Bu münaqişə Azərbaycanın iqtisadiyyatına ağır zərbə vurmuşdur. Bununla belə, daxili ehtiyatlarımızı səfərbər edərək, biz sosial-iqtisadi böhrana üstün gəlməyi, sabitlik və inkişaf yolu ilə irəliləməyi bacardıq. Azərbaycan Respublikasının Prezidenti zati-aliləri Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və tətbiq olunmuş iqtisadi islahatlar və neft strategiyası artıq konkret nəticələrini verməyə başlamışdır. Bu islahatlar makroiqtisadi sabitliyə və yüksək iqtisadi göstəricilərə gətirib çıxarmışdır.

Bazar iqtisadiyyatına keçid və sahibkarlığın inkişaf etdirilməsi iqtisadiyyatda özəl sektorun payını 73 faizə çatdırdı. Ölkə əhalisinin sayı ilə müqayisədə, birbaşa xarici sərmayələrə dair rəqəmlər göstərir ki, Azərbaycan keçid iqtisadiyyatı ölkələri arasında liderdir. Orta hesabla illik iqtisadi artım 8-10 faiz təşkil edir.

Azərbaycanın təşəbbüsü ilə Xəzər dənizindəki karbohidrogen ehtiyatlarının işlənilməsini və dünya bazarına çıxarılmasını nəzərdə tutan genişmiqyaslı transregional layihələrin tətbiq olunması Şərq-Qərb dəhlizi boyunca yerləşmiş ölkələrin sosial-iqtisadi inkişafı üçün yeni imkanlar açır. Bu layihələr də tarixi İpək yolunun bərpa olunması üçün nəzərdə tutulur.

Cənab sədr, radikal siyasi islahatların həyata keçirilməsi və eləcə də, demokratik cəmiyyətin inkişaf etdirilməsinə münbit şərait yaratmış daxili siyasi sabitlik olmasaydı, bu tərəqqi mümkün olmazdı.

Bu günlər Azərbaycan demokratiyası növbəti yetkinlik və möhkəmlik sınağının ərəfəsindədir. Oktyabrın 15-də Azər-

baycan Respublikasında prezident seçkiləri keçiriləcəkdir. Ölkədə əsl azad və ədalətli seçki keçirilməsi üçün qanunverici baza mövcuddur. Bu yaxınlarda qəbul olunmuş Seçki Məcəlləsi həm yerli, həm də beynəlxalq səviyyədə geniş müzakirələrdən keçib və beləliklə, ən yüksək beynəlxalq standartlara uyğundur. ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatları təmsil edən çoxsaylı müşahidəçilər və eləcə də yerli müşahidəçilər prezident seçkilərinin keçirilməsini izləyəcəklər.

Qlobal səviyyədə demokratiyanın qələbəsi, sosial tərəqqi və davamlı inkişaf yoxsulluq problemləri və iqtisadi göstəricilər üzrə müxtəlif ölkələr və regionlar arasındakı kəskin fərqlər həll olunmadan mümkün deyildir. Bununla bağlı minilliyinin inkişafı məqsədləri adlanan proqramın həyata keçirilməsi xüsusilə vacib xarakter alır. Yoxsulluğa qarşı mübarizə üçün inkişaf etmiş ölkələr keçid dövrünün iqtisadiyyatını yaşayan ölkələrin problemlərinə daha çox fikir verməlidirlər. Təcrübə göstərir ki, çox zaman dardüşüncəli, yalnız öz maraqlarına xidmət edən məqsədlər üstün gəldikdə, danışıq prosesində irəliləyiş olmur. Azərbaycan inanır ki, çoxtərəfli ticarət sistemində tərəflərin tərkibi genişləndirilərsə, inkişaf etməkdə olan ölkələrə və keçid iqtisadiyyatını yaşayan ölkələrə beynəlxalq ticarət təşkilatında xüsusi, fərqli münasibət göstərilərsə, bunun qlobal inteqrasiyanın uğuruna böyük xeyri dəyər.

Biz qəti inanırıq ki, sivilizasiyalar və mədəniyyətlər arasında dialoqu inkişaf etdirmək vacibdir. Yalnız dialoq və xoş məram vasitəsilə biz inamsızlıq və qarşıdurmanı məğlub edəcək, ümumi təhlükələrə və çətinliklərə qarşı birləşib bir qüvvə kimi çıxış edə biləcəyik.

Sonda cənab sədr, icazə verin, Azərbaycanın güclü demokratik dövlət, bazar iqtisadiyyatı qurmaq siyasi xəttinə qəti sadiq olduğunu bir daha təkrar edim və bildirim ki, bizim əsl iradəmiz və arzumuz beynəlxalq sülh və təhlükəsizliyə səmərəli töhfə verməkdir.

Sağ olun!



# G İ R İ Ş

*Bu gün heç zaman olmayacaq dərəcədə vahid, universal təşkilata ehtiyac yaranmışdır, elə bir təşkilata ki, mövcud fəlakətləri aradan qaldırmaq naminə bütün xalqların adından fəaliyyət göstərsin...*

***Kofi Annan***

XX yüzilliyin sonlarında dünyanın siyasi həyatında baş vermiş dəyişikliklər, dövlətləri, xalqları, insanları bir-birindən ayıran "soyuq müharibə"nin başa çatması, Şərqi Avropa ölkələrində baş vermiş "məxmər inqilabları", dünyanın ən qüdrətli imperiyalarından olan SSRİ-nin, ardınca onun yetirməsi olan dünya sosializm sisteminin çökməsi bəşər tarixinin yeni erasının başlandığını göstərirdi. "Soyuq müharibə"nin başa çatması xalqlar və ölkələr arasındakı münasibətlərin genişlənməsinə, inteqrasiya proseslərinin ümumplanet miqyası almasına şərait yaratmaqla qloballaşma proseslərinə təkan vermiş oldu. Yeni tarixi şəraitdə beynəlxalq dövlət və qeyri-dövlət təşkilatlarının dünya siyasətində rolu görünməmiş dərəcədə artdı. ABŞ-da törədilmiş 2001-ci il 11 sentyabr faciəsi göstərdi ki, millətləri və dövlətləri bir-birinə yaxınlaşdıran inteqrasiya prosesləri eyni dərəcədə beynəlxalq cinayətkarlığa, terrorizmə, narkobiznesə, qaçaqmalçılığa və s. şamil edilə bilər.

11 sentyabr hadisəsi bir daha əyani şəkildə göstərdi ki, ümumbəşəri və qlobal problemlərin həlli ayrılıqda götürülmüş bir və bir neçə dövlətin fəaliyyətindən deyil, dünya dövlətlərinin bu istiqamətdəki birgə səylərindən asılı olduğundan dövlətlərarası təşkilatların müasir dövrdəki rolu kəskin şəkildə artır. Belə təşkilatlardan ən böyüyü və mötəbəri olan BMT-nin əsas məqsədləri də beynəlxalq sülhü və təhlüksizliyi qorumaq, beynəlxalq cinayətkarlığa və terrorizmə qarşı mübarizə aparmaq, xalqların bərabərliyi və öz

müqəddəratını təyin etmək prinsiplərini rəhbər tutaraq millətlər arasında dostluq münasibətlərini inkişaf etdirmək, iqtisadi, sosial, mədəni və humanitar xarakterli problemlərin həllində beynəlxalq əməkdaşlığı həyata keçirmək kimi vacib məsələləri özündə birləşdirir. BMT və onun sisteminə daxil olan bütün digər təşkilatların fəaliyyəti məhz bu məqsədlərə xidmət göstərir.

Beynəlxalq aləmdə baş verən proseslərə fəal şəkildə qoşulmaq, başqa ölkələrlə münasibətlər yaratmaq və bu münasibətləri müsbət istiqamətdə inkişaf etdirmək, ümumbəşəri və qlobal problemlərin həllindən kənarda qalmamaq üçün BMT-nin üzvü olmaq əsas amillərdən biri kimi meydana çıxır. BMT-nin tribunası dövlətin öz məqsəd və məramlarını dünyaya bəyan etmək, istər xarici, istərsə də daxili problemlərin həlli üçün digər ölkələri əməkdaşlığa çağırmaq məqsədilə istifadə edə biləcəyi ən ali kürsüdür.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul olundu. Bu aktla öz suverenliyini bəyan etmiş Azərbaycan Respublikası müstəqilliyinin ilk günlərindən başlayaraq BMT üzvü olmaq istiqamətində addımlar atmış, nəhayət, 1992-ci il martın 2-də bu beynəlxalq təşkilata daxil olmuşdur. BMT-nin Minillik sammitində çıxış edən respublika prezidenti H.Əliyev Azərbaycanın BMT ilə bağlı ümidlərindən bəhs edərək göstərirdi ki, "təcavüzkarlıq aktları, ərazilərinin işğalı, etnik təmizlənmə, təcavüzkar separatizm və terrorçuluqdan əziyyət çəkən dövlətimiz Birləşmiş Millətlər Təşkilatından ədalətli sülhün bərqərar olunması, təhlükəsizlik, BMT Nizamnaməsi prinsiplərinin qorunması sahəsində səmərəli fəaliyyət gözləyir".

BMT və onun təşkilatlarına aid elmi-tədqiqat işlərinin yerinə yetirilməsi istər beynəlxalq təşkilatların müasir dövrün siyasi həyatındakı rolunun öyrənilməsində, istər üzv-dövlətlərin bu qurumlardakı fəaliyyətinin təyin edilməsində, istərsə də dövlətlərarası əməkdaşlıq münasibətlərinin yüksək səviyyədə qurulmasında olduqca böyük əhəmiyyət kəsb edir. Tədqiqat prosesində beynəlxalq təşkilatlarla əlaqələr mexanizminin ölkənin xarici siyasətinə müsbət təsir istiqamətində qurulması və inkişaf etdirilməsinin yeni-yeni formaları, üsulları və yollarına aid biliklər əldə olunur.



BMT bütün struktur komponentləri qarşılıqlı əlaqədə işləyən çoxşaxəli sistem olmaqla yanaşı, daha mürəkkəb kompleksi təşkil edən beynəlxalq münasibətlər sisteminin tərkib hissəsidir. BMT sisteminin komponentləri üzv dövlətlər, müxtəlif orqan və təşkilatlardan ibarətdir. Beynəlxalq sistemin komponentləri isə beynəlxalq təşkilatlar və dövlətlərdir.

Beynəlxalq təşkilatların əsas məqsəd və məramlarının, bu məqsədləri həyata keçirmək üçün yerinə yetirdikləri funksiyaların öyrənilməsi, BMT-nin struktur və sisteminin, onun müxtəlif orqan və təşkilatları arasındakı əlaqə mexanizminin aydınlaşdırılması ölkənin öz daxili və xarici problemlərinin həllində BMT ilə əməkdaşlığının düzgün istiqamətlərinin müəyyənləşdirilməsi baxımından da əhəmiyyətlidir.

Keçmiş SSRİ-də müxtəlif elmlərin inkişafına xüsusi diqqətlə yanaşılsa da, bəzi elm sahələrinin xüsusilə siyasiləşdirilməsi bir çox problemlərin lazımi səviyyədə öyrənilməməsinə, qeyri-obyektiv elmi nəticələr irəli sürülməsinə səbəb olmuşdur. Bu cəhət özünü BMT-yə aid elmi-tədqiqat işlərində aydın göstərir. BMT-ni siyasi təşkilat kimi görmək meyli beynəlxalq münasibətlərə aid tədqiqatlara da öz təsirini göstərmiş, nəticədə BMT-nin ixtisaslaşmış qurumlarının əksəriyyətinin fəaliyyəti çox zaman ya alimlərin öyrəndikləri mövzular dairəsinə daxil edilməmiş, ya da bu məsələlər səthi araşdırılmışdır.

Müstəqilliyin qazanılması ilə Azərbaycanın tarixində açılan yeni dövrün hərtərəfli öyrənilməsi, hadisə və faktların xronologiyasının yazılması, toplanmış materiallar əsasında elmi təhlilin aparılması da vacib məsələlərdəndir. Təsadüfi deyildir ki, Azərbaycan Respublikası ilə BMT və onun ixtisaslaşmış qurumları arasında əlaqələrin yaranmasının, inkişaf edib möhkəmlənməsinin, onların tarixi kökləri və hüquqlarının əsaslarının tədqiq edilməsi, BMT ilə əməkdaşlığın ölkənin xar-

ici siyasətindəki və daxili həyatındakı rolunun öyrənilməsi, bu sahədə əldə olunmuş nailiyyətlərin ümumiləşdirilməsi, buraxılmış nöqsanların aradan qaldırılması, perspektiv istiqamətlərin müəyyənləşdirilməsi kimi məsələlərin işıqlandırılmasına ehtiyac aydın hiss olunur.

BMT-nin ixtisaslaşmış qurumlarının fəaliyyəti bir çox hallarda bir-biri və BMT-nın orqan və digər təşkilatlarının işi ilə əlaqələnir. Belə əlaqələnmə birgə əməkdaşlıq və fəaliyyət mexanizmlərinin mövcudluğunu sübuta yetirir. Ona görə də, ixtisaslaşmış qurumların dövlətlə əməkdaşlığı BMT sisteminin orqan və digər təşkilatlarının işindən təcrid olunmuş şəkildə deyil, onlarla qarşılıqlı rabitədə öyrənilməlidir.

Oxuculara təqdim olunan bu əsər BMT-nin yaradılması, strukturu, dünya siyasətində rolu, ixtisaslaşmış qurumların mahiyyəti və məzmunu ilə bağlı məsələlərə aydınlıq gətirir, BMT-nin ixtisaslaşmış qurumları ilə Azərbaycan arasındakı əlaqələrin inkişaf yolları və perspektivlərini açıb göstərir. Müəllif kitabda qüsurlu cəhətlərin və mübahisə doğuracaq məsələlərin ola biləcəyini istisna etmir, əsərlə bağlı rəy və təkliflərini göndərəcək oxuculara qabaqcadan öz minnətdarlığını bildirir.



## I. BMT-nin YARADILMASI. TƏŞKİLATIN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ. BMT SİSTEMİNİN TƏSNİFATI VƏ STRUKTURU

1939-cü il sentyabrın 1-də dünya müharibəsinin başlanması MC-nin heç nəyə qadir olmadığını göstərdi. 1939-cu ilin avqustunda Moskvada bağlanmış Ribbentrop-Molotov paktı və onun gizli protokolları Almaniyanın şərqində və SSRİ-nin qərbində qalmış ərazilərin iki imperiya arasında bölüşdürülməsini reallaşdırdı.

Qərb dövlətlərinin Almaniyanı şirnikləndirmək siyasəti acı nəticələrini verdi. 1940-cı ilin may-iyununda Fransa süqut etdi, orada oyuncaq "Vişi hökuməti" yaradıldı, İngiltərə və ABŞ təklənmiş oldu. Lakin müharibənin SSRİ-yə qarşı başlanması sovet rəhbərliyində ciddi çaşqınlıq yaratdı.

Yaranmış şəraitdə Almaniyaya və Yaponiyaya qarşı duran dövlətlərin hərbi-siyasi ittifaqının yaradılması zərurəti meydana gəldi.

1941-ci il avqustun 14-də ABŞ prezidenti F.Ruzvelt və İngiltərə baş naziri U.Çörçill arasında Atlantik Xartiyası adlı saziş bağlandı. Xartiya 8 bənddən ibarət idi (Ruzveltin oğlu E.Ruzvelt yazırdı ki, xartiyanın layihəsini onun atası Samner Uelslə birgə hazırlayıb). Bu maddələrdə gələcək sülhə nail olmağın yolları, habelə mübarizənin istiqamətləri göstərilirdi.

SSRİ 1941-ci il 24 sentyabr Bəyannaməsi ilə Xartiyaya qoşulduğunu bildirdi və London konfransı (1941, sentyabr) Birləşmiş Millətlərə yardım və bərpa İdarəsinin yaradılması haqqında qərar qəbul etdi. Birləşmiş Millətlərə yardım və bərpa İdarəsi 1943-cü ilin noyabrında işə başladı.

1942-ci il yanvarın 1-də Vaşinqtonda, Ağ evdə 26 ölkə adından "Ox" ölkələrinə qarşı birgə mübarizə" Bəyannaməsi imzalandı ki, bu Bəyannamə ilə də antihitler koalisiyasının əsası qoyuldu. 1942-ci ilin yanvarından Birləşmiş Millətlər

terminı leksikona daxil oldu. Bəyannaməni ABŞ tərəfdən F.Ruzvelt, SSRİ tərəfdən M.M.Litvinov imzalamışdı.

Birləşmiş Millətlərin sayı getdikcə artaraq 1945-ci ilin aprelində 47-yə çatmışdı. Bəyannamə onun iştirakçılarının üzərinə iki vəzifə qoyurdu:

1. Bəyannaməni imzalayan dövlət öz hərbi və iqtisadi ehtiyatlarını Üçlər ittifaqına və onun müttəfiqlərinə qarşı mübarizəyə səfərbər edirdi,

2. Bəyannaməni imzalayan dövlətlər düşmən dövlətlərlə separat sülh və ya barışıq bağlamamalı idi.

1943-cü il 19-30 oktyabrda Birləşmiş Millətlərin Moskva konfransı oldu. Konfransa M.Litvinov başçılıq edirdi, onun gündəliyində 17 məsələ dururdu. Oktyabrın 30-da konfrans: "Ümumi təhlükəsizlik təşkilatının yaradılması haqqında" Bəyannamə qəbul etdi. Burada, habelə Almaniya və onun müttəfiqlərinin danışıqsız təslim olması haqqında qərar da qəbul edildi. 1943-cü il dekabrın 1-də Tehranda üç dövlət rəhbərlərinin görüşündə də həmin bəyannamə təsdiqləndi.

Ümumi təhlükəsizlik təşkilatının yaradılması yolunda mühüm mərhələ Dumbarton-Oks (Vaşinqtonun yaxınlığında) konfransı oldu. Konfrans 1944-cü il avqustun 21-dən oktyabrın 7-dək keçirildi. Orada I hissədə üç dövlətin (SSRİ, ABŞ, İngiltərə) nümayəndələri, II hissədə isə Çin nümayəndəsi də iştirak edirdi. Konfrans əslində ekspertlərin görüşü idi.

Dumbarton-Oks konfransı "Birləşmiş Millətlər" adı altında beynəlxalq təşkilatın yaradılması haqqında tarixi qərar qəbul etdi və həmin təşkilatın strukturunu işləyib hazırladı ki, sonralar bu, BMT Nizamnaməsi üçün əsas oldu. Burada BMT-nin əsas orqanları, onlarda səsvermə qaydası, BMT-nin ilk üzvü olan dövlətlərin məsələsi və s. müzakirə edildi. Qərara alındı ki,

1. Təhlükəsizlik Şurasının hər bir üzvünün 1 səsi var;

2. Təhlükəsizlik Şurasının prosedura (üsul) məsələləri üzrə qərarı 7 səs çoxluğu ilə qəbul edilir;

3. Qalan məsələlər üzrə Təhlükəsizlik Şurasının qərarı 7 səs çoxluğu ilə (o cümlədən 5 daimi üzvün səsi) qəbul edilir, mübahisədə maraqlı olan tərəflər səsvermədən kənarlaşdırılır.



Sonralar Təhlükəsizlik Şurasında səsvermənin bu qaydası "Yalta formulası" adlanmağa başladı, çünki bu qayda Krım konfransında hüquqi status qazanmışdı.

BMT-nin yaradılması məsələsi praktiki olaraq 1945-ci il 4-11 fevralda Krımda Livada (Yalta) sarayında olan konfransda həll edildi. Konfrans "Yalta formulası"nı təsdiq etdi. SSRİ-nin təklifi ilə Belorusiya və Ukrayna da BMT-nin təsisçiləri sırasına daxil edildi. Krım konfransı BMT-nin yaradılması üçün San-Fransiskoda (ABŞ) 1945-ci il aprelin 25-də konfrans çağırılmasını qərara aldı. Müttəfiqlər MC-nin mandat sistemi əvəzinə, BMT qəyumluq sisteminin yaradılması məsələsində razılığa gəldilər. Burada habelə BMT-nin təsis məclisinə dəvətin mətni müzakirə və qəbul edildi, onun SSRİ, ABŞ və İngiltərə adından 1 yanvar 1942-ci il Bəyannaməsini imzalamış dövlətlərə göndərilməsi qərara alındı. Dəvətə Çin hökuməti də qoşuldu, lakin Fransa Müvəqqəti hökuməti Dumbarton-Oks və Krım konfranslarında iştirak etmədiyi üçün təklif etdi ki, həmin iki konfransın qərarı gələcək təşkilat üçün çıxış nöqtəsi yox, müzakirə obyekti olsun. Təklif qəbul edilmədiyi üçün Fransa dəvətə qoşulmadı. Dəvət 1945-ci il martın 5-də 4 dövlətin adından göndərildi.

1945-ci il 25 apreldə San-Fransisko konfransı işə başladı. Onun işində 50 ölkədən 282 nümayəndə, 1500-dən çox məsləhətçi və ekspert, 3500-ə yaxın müxbir və s. iştirak edirdi.

Konfransda SSRİ nümayəndə heyətinə SSRİ-nin ABŞ-dakı səfiri A.A.Qromıko (25 aprel-10 may arasında nümayəndə heyətinə Xİ naziri V.M.Molotov özü başçılıq edirdi) - 10 nəfər; ABŞ-dan dövlət katibi E.Stettinius - 7 nümayəndə, İngiltərədən – Xİ naziri A.İden - 4 nümayəndə, Çindən doktor Sui Tszveninin başçılığı altında - 10 nümayəndə, Fransadan Xİ naziri J.Bidonun başçılığı altında – 5 nümayəndə gəlmişdi.

Konfransın işinə rəhbər komitə və icra komitələri başçılıq edirdi. İki ay ərzində konfrans BMT Nizamnaməsini müzakirə, qəbul və təsdiq etdi. Konfransın işçi dili kimi ingilis, fransız, rus, çin, ispan dilləri və 18 latın Amerikası ölkəsinin dili qəbul edildi.

Konfransa 1200 təklif daxil olmuşdu ki, bu təkliflərdən xidməti istifadə üçün 400 səhifəlik kitab nəşr edildi.



195

1945-ci il iyunun 26-da San-Fransiskoda Veteranlar evində (iclaslar həm də Opera teatrında gedirdi) konfransın 50 iştirakçısı (sonralar Polşa da ilk təsisçilər sırasına daxil edıldı) BMT-nin yaranması haqda Nizamnaməni imzaladılar. Oktyabrın 24-də ratifikasiyadan sonra Nizamnamə qüvvəyə mındı və həmin gün Birləşmiş Millətlər günü kimi hər il qeyd edılır.

Nizamnaməyə görə, BMT-nin başlıca orqanları aşağıdakılardır:

1) BMT Baş Məclisi

2) Təhlükəsizlik Şurası

3) İqtisadi və Sosial Şura (EKOSOS)

4) Qəyyumluq Şurası

5) Beynəlxalq Məhkəmə

6) Katiblik

Baş Məclis və Təhlükəsizlik Şurasının rəsmi və işçi dilləri aşağıdakılardır: ingilis, ərəb, rus, fransız, çin və ispan dilləri.

**Baş Məclis** - BMT-nin başlıca məşvərətçi orqanı olub, 185 dövlətın (1998) nümayəndələrindən ibarətdir. Nizamnaməyə görə, təşkilatın hər bir üzvünün yalnız bir səsi var, üzv ölkələr 5 nümayəndə və onun 5 müavini ilə təmsil oluna bilərlər.

Baş Məclıs BMT Nizamnaməsi çərçivəsində, öz səlahiyyətləri daxilində hər hansı məsələni müzakirə etmək, qərar çıxarmaq, BMT orqanlarına və Təhlükəsizlik Şurasına məcburi xarakter daşımayan tövsiyələr vermək, beynəlxalq sülh, təhlükəsizlik və əməkdaşlıqla bağlı hər hansı məsələyə baxmaq və məsləhətlər vermək hüququna malikdir.

Təhlükəsizlik Şurası öz fəaliyyəti haqqında Baş Məclisə illik və xüsusi məruzələr edir, digər BMT orqanları isə müvafiq hesabatlar təqdim edirlər. BMT-nin maliyyə məsələləri, büdcəsi, seçkili orqanları, yeni üzvlərin qəbulu kimi məsələlər də Baş Məclisin səlahiyyətlərinə daxildir.

Baş Məclisin işini onun bütün üzvləri tərəfindən seçilmiş sədr və sədrin 21 müavini aparır. Onların səlahiyyətləri növbəti sessiya başlayana qədərdir. Sədr səsvermədə iştirak etmir, onun və müavinlərinin seçilməsi ədalətlı coğrafi bölgü prinsipinə əsasən aparılır. Təhlükəsizlik Şurası daimi üzvlərinin nümayəndələri BM-in və onun başlıca komitələrinin sədrləri seçilə bilməzlər.



BM-də qərarlar 2/3 və adi səs çoxluğu ilə qəbul edilir.

Baş Məclis növbəti, xüsusi və fövqəladə sessiyalara toplaşa bilər, onun başlıca sessiya orqanları 7 komitədən ibarətdir (bunları baş komitələr adlandırırlar).

Baş Məclisin 1972-ci ıl 11 dekabr tarixli 2951 saylı qətnaməsinə əsasən iqamətgahı Tokioda (Yaponiya) yerləşən BMT Universiteti yaradıldı. Onun başlıca vəzifəsi BMT və onun orqanları, ixtisaslaşdırılmış təşkilatları, komitə və proqramları haqqında bilgilərin toplanması və yazılmasından ibarətdir.

**Təhlükəsizlik Şurası** 15 üzvdən təşkil olunur, bunlardan 5-i daimi, 10-u müvəqqəti üzvlərdir. Müvəqqəti üzvlər 2 illiyə seçilir və sonra dəyişdirilir. 10 müvəqqəti üzvü Baş Məclis seçir, bunların dərhal seçilmək hüququ olmur.

Baş Məclisin 18-ci sessiyasının 1994 saylı 17 dekabr 1963-cü il tarixli qərarı ilə Təhlükəsizlik Şurasının müvəqqəti üzvlərinin sayı 6-dan 10-a çatdırıldı.

Təhlükəsizlik Şurasının səlahiyyətinə aşağıdakılar daxildir:

1) BMT-yə təzə üzvlərin qəbulunu və Beynəlxalq Məhkəməyə üzvlüyə qəbulun şərtlərini tövsiyə edir.

2) "Strateji regionlar"da BMT-nin qəyyumluq vəzifəsini həyata keçirir.

3) Baş Məclisə BMT Baş katibinin seçilməsi haqqında tövsiyə verir.

4) Baş Məclislə birlikdə Beynəlxalq Məhkəmənin hakimlərini seçir.

5) Baş Məclisə illik və xüsusi məruzələr edir.

Təhlükəsizlik Şurasının hər bir üzvünün yalnız 1 səsi var. Səsə qoyulan məsələlərə 9 səs verilsə, o qəbul edilə bilər. Daimi 5 üzvün veto hüququ var.

Təhlükəsizlik Şurasının köməkçi orqanları aşağıdakılardır:

1) Hərbi Qərargah komitəsi – hərbi məsələlər üzrə Təhlükəsizlık Şurasına tövsiyələr verir, 5 daimi üzvün baş qərargah rəislərindən və ya onların nümayəndələrindən ibarət olur, Təhlükəsizlik Şurasının hərbi qüvvələrinə strateji rəhbərliyi həyata keçirir.

2) Ekspertlər komitəsi - Təhlükəsizlik Şurasının bütün üzvlərindən təşkil olunur.

3) BMT-yə yeni üzvlərin qəbulu komitəsi - Təhlükəsizlik Şurasının bütün üzvlərindən təşkil olunur. BMT-yə üzv qəbul olunmaq istəyən dövlətlərin ərizələrinə baxır və öz qeydlərini verir.

4) Mikrodövlətlər məsələsinə dair ekspertlər komitəsi - Təhlükəsizlik Şurasının bütün üzvləri daxildir, kiçik dövlətlərin BMT-yə qəbulu məsələləri ilə məşğul olur.

5) İki xüsusi komitəsi var:

-Namibiya üzrə xüsusi komitə – 1970-ci il yanvarın 30-da yaradılıb;

-507-ci qətnamə əsasında yaradılmış xüsusi komitə - tərkibinə 4 dövlət daxildir: Fransa (sədr), Qayana, İordaniya, Uqanda – 1982-ci il mayın 28-də yaradılıb, məqsədi Seyşel adaları respublikasının iqtisadiyyatını bərpa etməkdən ibarətdir.

6) Təhlükəsizlik Şurasının mərkəzi təşkilatlarından kənarda şuranın iclaslarını keçirmə komitəsi – 1972 və 1973-cü illərdəı Ədıs-Əbəbədə və Panamada Təhlükəsizlik Şurasının iki səyyar iclası keçirilmişdir.

7) 421 saylı qətnamə üzrə yaradılmış Cənubi Afrika Komitəsi – 1977-ci il dekabrın 9-da yaradılıb, Cənubi Afrikaya silah göndərilməsinə embarqonun həyata keçirilməsi ilə bağlı fəaliyyət göstərir.

8) Təhlükəsizlik Şurasının yanında iki komissiya fəaliyyət göstərir:

-446 saylı qətnamə ilə əlaqədar yaradılan komissiya: 3 dövlət daxildir: Boliviya, Zambiya, Portuqaliya. 1967-ci ildən sonra işğal olunmuş ərəb ərazilərindəki yaşayış məskənlərinin problemləri ilə əlaqədar yaradılmışdır;

-496 saylı qətnamə ilə əlaqədar yaradılan komissiya. Şuranın üç üzvünün iştirakı ilə - İrlandiya, Panama, Yaponiya yaradılmışdır. Məqsədi muzdlular tərəfindən Seyşel ada respublikasına qarşı hücumların qarşısını almaqdan ibarətdir.

BMT Təhlükəsizlik Şurasının sərəncamında hərbi qüvvələr yoxdur. Belə qüvvələr yalnız lazım olduqda Təhlükəsizlik Şurasının tövsiyəsi ilə yaradılır. Hazırda BMT hərbi qüvvələri Kıprdə, Lıvanda, Fələstində, Yuqoslaviyada və Gürcüstanda yerləşdirilib, Hindistan və Pakistanda isə hərbi nəzarətçilər fəaliyyət göstərirlər.



**İqtisadi və İctimai Şura** – hazırda 54 üzvdən ibarət olub, Baş Məclis tərəfindən 3 il müddətinə seçilir, üzvlərin 1/3 hissəsi hər il dəyişilir. Şuranın ildə iki dəfə iclası keçirilir, qərarlar səs çoxluğu ilə qəbul olunur.

Şuranın qarşısında duran başlıca vəzifəsi əhalinin rifahının, həyat tərzinin yüksəlməsinə, sosial-iqtisadi tərəqqiyə və inkişafa kömək etməkdən, səhiyyə, mədəniyyət və təhsil sahələrində əməkdaşlığa, irqi, cinsi, dil və din fərqlərindən asılı olmayaraq, insan hüquqlarına və hamı üçün əsas azadlıqlara hörmət edilməsinə yardım göstərməkdən ibarətdir.

Şuranın nəzdində müxtəlif məsələlər (nəqliyyat və rabitə, ınsan hüquqları, qadın hüquqları, statistika, iqtisadi və s.) üzrə daımi komissiyalar fəaliyyət göstərirlər. Şura BMT-nin ixtisaslaşdırılmış müəssisələri ilə saziş bağlayır və 300-dən çox iqtisadi, elmi, texniki və mədəni xarakterli müxtəlif təşkilatla əlaqə saxlayır, inkişaf etməkdə olan ölkələrə texniki-iqtisadi yardım göstərir.

Şuranın nəzdində Avropa, Asiya və Sakit okean, Latın Amerikası və Karib regionu, Afrika və Qərbi Asiya üzrə beş məhəlli-iqtisadi komissiya fəaliyyət göstərir.

**Qəyyumluq Şurası** qəyyumluq idarəçiliyi altında olan ərazilərə nəzarət edən bir orqandır. Onun tərkibinə 2 qəyyum dövlətin və 5 böyük dövlətin nümayəndələri, habelə göstərilən ıkı qrup dövlətlərin Baş Məclis tərəfindən 3 il müddətinə seçilmiş üzvləri daxildirlər. Qəyyumluq sistemi qarşısında qoyulmuş əsas vəzifə bu sistemlə əhatə olunmuş ölkələrin xalqlarını öz müqəddəratını təyin etmək və istiqlaliyyət əldə etmək istiqamətində inkişaf etdirməkdən, yerli əhalinin siyasi, ıqtısadı və ıctımai tərəqqisinə, hüquq və azadlıqlarının təmin olunmasına yardım etməkdən ibarətdir. ABŞ 1947-ci ildə Sakit Okeanın Qərb hissəsindəki Marian, Marşal adalarını və 2100-dən çox ada və ərazini əhatə edən Mikroneziyanı öz qəyyumluğunda saxlayırdı.[1]

Müasir dövrdə müstəmləkəçiliyin dağılması, qəyyumluq sisteminin də ləğv edilməsini zoruri etmiş, təşkilat 1994-cü ildən

[1] Bax: Подопечные территории ООН. "Международная жизнь", 1975, №1, с.158-159

öz fəaliyyətini dayandırmışdır. Hazırda onun ləğv edilməsi və ya yeni bir quruma çevrilməsi ətrafında danışıqlar aparılır.

**Beynəlxalq məhkəmə** BMT-nin baş məhkəmə orqanı olub, 15 hakımdən ibarətdir, hakimlər Təhlükəsizlik Şurası və Baş Məclis tərəfindən 9 il müddətinə seçilir, üzvlərinin 1/3 hissəsi 3 ildən bir dəyişir. Beynəlxalq Məhkəmə BMT Nizamnaməsində nəzərdə tutulan xüsusi Statut əsasında fəaliyyət göstərir. O, dövlətlər arasındakı beynəlxalq mübahisələrin həllində mühüm bir institut olmaqla, həm də Baş Məclisin, Təhlükəsizlik Şurasının və digər orqanların hüquqi məsələlərdə sorğuları üzrə məsləhətçi rəylər verir.

Beynəlxalq Məhkəmənin rəsmi və işçi dilləri ingilis və alman dilləridir. İqamətgahı Haaqa (Niderland) şəhərindədir.

**Katiblik** BMT-nin əsas inzibati orqanı olub Təhlükəsizlik Şurasının tövsiyəsi ilə Baş Məclis tərəfindən 5 il müddətinə seçilir və Baş Katibin rəhbərliyi altında fəaliyyət göstərir. Baş Katib sülhə və təhlükəsizliyə qorxu törədə biləcək bütün məsələləri Təhlükəsizlik Şurasının nəzərinə çatdırmaq hüququna malikdir. BMT-nin vəzifəli şəxslərinin diplomatik immunitet hüququ və üstünlükləri də vardır.

BMT Katibliyinin personalı 25000 nəfərə qədər əməkdaşdan ibarətdir. Bunun yarısından çoxu Nyu-Yorkda BMT qərargah mənzilində fəaliyyət göstərir. Katiblik siyasi, iqtisadi-ictimai, məlumat, hüquq, inzibati və s. məsələlər üzrə departament və idarələrdən ibarətdir. 1993-cü ildə Katibliyin tərkibində İnsan hüquqları üzrə ali komissar vəzifəsi təsis olunmuşdur.

BMT-nin rəsmi dili ingilis, fransız, ispan, ərəb, rus və çin dilləridir. Təşkilatın büdcəsi BMT Baş Məclisi tərəfindən müəyyən edilmiş xüsusi bölgüyə əsasən, onun üzvlərindən toplanır. 1998-1999-cu illər üçün təşkilatın büdcəsi 2.532 mln. ABŞ dollarından ibarət olmuşdur.

Katibliyin tərkibinin düzgün seçilməsinin, BMT Nizamnaməsinin 101-ci maddəsində göstərildiyi kimi, vəzifələrin bölünməsində ədalətli coğrafi bölgü prinsipi gözləməyin, onun işinin hərtərəfli düzgün təşkil edilməsinin bütün təşkilatın müvəffəqiyyətli fəaliyyəti üçün çox böyük əhəmiyyəti vardır.



**Yoxlama sualları:**

1.BMT-nin yaradılması ətrafında diplomatik mübarizə.

2.San-Fransisko konfransı və beynəlxalq nəticələri.

3.Millətlər Cəmiyyətinin təcrübəsindən istifadə və əhəmiyyəti.

4.BMT-nin yaradılması və beynəlxalq nəticələri.

5.BMT-nin quruluşu: rəhbər və icra orqanları.

6.BMT Baş Məclisi: quruluşu, tərkibi, səlahiyyət və iş prinsipləri.

7.Təhlükəsizlik Şurası: daimi və müvəqqəti üzvləri, quruluşu, səlahiyyətləri və iş prinsipləri.

8.Təhlükəsizlik Şurasının beynəlxalq sülh, təhlükəsizlik və dövlətlərin əməkdaşlığı uğrunda mübarizəsi.

9.İqtisadi və Sosial Şura (EKOSOS): quruluşu, tərkibi və fəaliyyət mexanizmi.

10.BMT Qəyyumluq Şurasının yaradılması və fəaliyyəti.

11.BMT Qəyyumluq Şurasının tərkibi, quruluşu, fəaliyyətinin başa çatdırması.

12.BMT-nin ali məhkəmə orqanı – Beynəlxalq Məhkəmənin yaradılması, quruluşu, səlahiyyətləri.

13.BMT Katibliyi: quruluşu, personalı və fəaliyyəti.

14.BMT Baş katibinin seçilməsi – səlahiyyətləri və fəaliyyət sahələri.

## II. BMT-nin MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ YERİ VƏ ROLU

Müasir dünya siyasətində aparıcı mərkəz rolunu oynayan BMT-nin yerinə və əhəmiyyətinə dair baxış və nəzəriyyələrdə "dünya evinə" müxtəlif mövqelərdən qiymət verilir. Bir qrup tədqiqatçılar onu "böyük dövlətlərin əlində alət", digərləri "dünya polisi", "lazımsız mexanizm", inteqrasiyanın ən yüksək səviyyəsi və s. kimi qiymətləndirirlər. Dünya müharibəsindən sonra keçən dövr ərzində məhz BMT-nin mövcudluğu nəticəsində bəşəriyyət lokal xarakterli müharibə və münaqişələrlə qarşılaşsa da, Birinci və İkinci Dünya müharibələrinə bənzər müharibələrin başlanmasına yol verilməmişdir.

BMT-nin "dünya hökuməti" kimi qiymətləndirilməsi də obyektivlikdən uzaq olar. Suveren və müstəqil, bərabərhüquqlu və azad dövlətlərin təşkilatı olmaq etibarı ilə, o yalnız üzv dövlətlər arasındakı razılığa əsasən ona həvalə olunmuş məsələləri həll edir.

BMT-nin bütün üzvləri suveren dövlətlərdir və onun Nizamnaməsi suverenliyin ən möhkəm qarantlarından olaraq, suverenliyi özünün əsas prinsiplərindən biri elan etmişdir. Eyni zamanda dünyanın üz-üzə gəldiyi problemlər o qədər ziddiyyətli və mürəkkəbdir ki, bunlar dövlətlərin hər hansı biri tərəfindən təklikdə həll edilə bilməz, bu mənada BMT dünya ölkələrinin ümumi problemlərin həlli üçün bir yerə toplaşdıqları beynəlxalq qurumdur.

BMT vasitəsilə konkret sahələrdə – beynəlxalq, hüquqi, siyasi, iqtisadi, sosial, elmi, mədəni, humanitar, ekoloji və s. sahələrdə əməkdaşlıq edən dünya dövlətləri beynəlxalq həyatın müxtəlif sahələrini tənzimləyən strukturlar yaradırlar.



Beynəlxalq müqavilələr onu imzalamış dövlətlərdən müxtəlif sahələrdə öz üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirmələrini tələb edir. BMT-nin ixtisaslaşdırılmış qurumları və digər təsisatları məhz bu zəmində formalaşmışdır.

Üzv-dövlətlər BMT vasitəsilə insan hüquqlarının kütləvi pozulması halları ilə əlaqədar problemlərin aradan qaldırılması üçün müvafiq konvensiya və mexanizmlər işləyib hazırlamağa müvəffəq olmuşlar. İnsan hüquqlarının qorunması və ədalətin təmin edilməsi BMT-nin yarım əsrdən yuxarı davam edən fəaliyyətinin başlıca qayəsi olmuşdur.

BMT-nin ən mühüm nailiyyətlərindən biri məhz İnsan hüquqları haqqında bütün ölkələrin qoşula biləcəyi hərtərəfli qanunların işlənib hazırlanması və onun reallaşdırılması üçün müvafiq icra strukturlarının yaradılması olmuşdur.

BMT strukturunda İnsan hüquqları üzrə Ali Komissar və İnsan hüquqları Komissiyası fəaliyyət göstərir.

BMT, özündə 1948-ci ildə qəbul olunmuş İnsan hüquqları haqqında Ümumi Bəyannaməni, habelə 1966-cı ildə qəbul edilmiş İnsan hüquqları haqqında iki beynəlxalq paktı (Vətəndaş və siyasi hüquq haqqında Pakt, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Pakt) birləşdirən İnsan hüquqları haqqında ilk Ümumdünya Billini işləyib hazırlamışdır ki, bu da Ümumi bəyannaməyə mütləq hüquqi qüvvə verə bilmək funksiyasına malikdir. Bunlarla yanaşı, BMT siyasi, vətəndaş, iqtisadi, sosial və mədəni hüquqları təşviq edən 80-dən çox beynəlxalq müqavilə və sazişlərin imzalanmasına yardımçı olmuşdur.

BMT fəaliyyətinin bütün sahələri beynəlxalq aləmdə sülhün və xalqların təhlükəsizliyinin möhkəmləndirilməsi işinə yönəlmişdir. BMT-nin bu sahədə məqsəd və vəzifələri Nizamnamənin girişində və 1-ci maddəsində öz əksini tapmışdır. BMT həm adi silahlar, həm də atom-nüvə silahları ilə silahlanmanın dayandırılması, silah satışının və nüvə silahı sınaqlarının qadağan olunması, lokal münaqişələrin böyük müharibələrə çevrilməsi, "nüvə silahından azad" zonaların yaradılması uğrunda mübarizəni özünün başlıca məqsədi elan etmişdir. Dünya dövlətlərinin təkcə bir il ərzində hərbi məqsədlərə sərf etdikləri məbləğin astronomik rəqəm - təqribən 740 milyard

ABŞ dolları olduğunu nəzərə alsaq, bu mübarizənin nə qədər çətin olduğu aydın görünər.

ABŞ-da ilk atom-nüvə silahının meydana gəlməsi və onun Yaponiyaya qarşı tətbiq edilməsi yeni kütləvi qırğın silahının bəşəriyyətin mövcudluğu üçün törətdiyi təhlükəni aydın göstərdi. Məhz bu zərurət 1946-cı ilin iyununda BMT Atom enerjisi Komissiyasının təsis olunmasını zəruri etdi. Komissiyanın çoxillik fəaliyyəti nəticəsində 1957-ci ilin iyulundan etibarən Atom Enerjisi üzrə Beynəlxalq Agentlik (MAQATE) yaradıldı, 1962-ci ilin martında isə başlıca məqsədi atom enerjisindən qeyri-dinc məqsədlərlə istifadəyə qarşı mübarizə olan "18-lər komitəsi" təsis edildi.

BMT-nin apardığı çoxillik mübarizə nəticəsində nüvə silahı sınaqlarının üç sahədə qadağan olunması haqqında 1963-cü il Müqaviləsi və nüvə silahının yaradılması haqqında 1970-ci il Müqaviləsi (1995-ci ildə müddəti uzadılmışdır) imzalandı, atom enerjisindən qeyri-dinc məqsədlərlə istifadə beynəlxalq nəzarətə götürüldü.

Beynəlxalq aləmdə təhlükəsizlik və sülh şəraitinin təmin edilməsi BMT-dən çevik tədbirlər görməyi tələb edirdi, məhz bu zərurət qərargahı Nyu-Yorkda olan, həm Təhlükəsizlik Şurası, həm də Baş Məclislə birbaşa əlaqəli olan Situasiya Mərkəzinin yaradılmasını zəruri etmişdi.

BMT-nin müasir dünya siyasətində rolu onun müstəmləkə sisteminə qarşı apardığı mübarizədə daha aydın hiss edilir. Məlum olduğu kimi, BMT-də Millətlər Cəmiyyətinin mandatı altında olan 11 ərazi miras qalmışdı. Bunlar Raundu-Urundi, Somali, Tanqanika, Qərbi Samoa, Nauru, Yeni Qvineya, İngiltərə Kamerunu və Toqosu, Fransa Kamerunu və Toqosu, Sakit okean adaları (Mikroneziya adaları) idilər ki, BMT Qəyyumluq Şurası məhz bunlarla əlaqədar fəaliyyətə başlamışdı.

İnsan hüquqlarını əsas götürən BMT Baş Məclisi 1950-ci ildə xalqların və millətlərin öz müqəddəratlarını təyin etmə hüququnu şəxsiyyətin başlıca hüququ elan etdi, 1960-cı il dekabrın 14-də BMT Baş Məclisinin XV sessiyası "Müstəmləkə ölkələri və xalqlarının istiqlaliyyət Bəyannaməsi" adlanan tarixi sənədi qəbul etdi. Bəyannamənin lehinə 90 ölkə səs vermiş,



90 ölkə bitərəf qalmışdı. Baş Məclisin qərarına əsasən müstəmləkə sisteminin ləğvi ilə məşğul olmaq üçün Xüsusi Komitə yaradılırdı. Bəyannamənin həyata keçirilməsi nəticəsində 1960-1998-ci illər arasında dünyanın siyasi xəritəsinə 51 yeni və müstəqil dövlətin adı daxil edildi.

Yeni müstəqil dövlətlərin dünya siyasət meydanına daxil olması 60-cı illərin əvvəllərindən etibarən BMT-də struktur islahatlarının həyata keçirilməsini tarixi zərurətə çevirdi. BMT Baş Məclisinin 1963-cü il 17 dekabr tarixli, 1991 saylı qətnaməsinə əsasən Təhlükəsizlik Şurasının müvəqqəti üzvlərinin sayı 6-dan 10-a çatdırıldı və onların seçilməsi üçün yeni kvota müəyyənləşdirildi. Eyni zamanda BMT-nin digər beynəlxalq və regional təşkilatlarla əlaqələrini tənzimləmək üçün onlara müşahidəçi statusunun verilməsi və daimi nümayəndəliyin təsis olunması da qərara alındı.

XX yüzilliyin 90-cı illəri dünyanın siyasi həyatında da köklü dəyişikliklərə səbəb oldu. SSRİ-nin süqutu, kommunist rejimi sistemlərin dağılması nəticəsində öz müstəqilliyini dünyada elan edən dövlətlərdən biri də Azərbaycan Respublikası idi. Respublikamızın dövlət müstəqilliyi haqqında 18 oktyabr 1991-ci il tarixli Konstitusiya Aktının qəbulundan sonra Azərbaycan parlamenti dünya dövlətləri və beynəlxalq təşkilatlara Azərbaycanın dövlət müstəqilliyinin tanınması ilə bağlı müraciət qəbul etdi. Respublikamız 1992-ci il martın 2-dən BMT-nin bərabərhüquqlu üzvləri sırasında özünə məxsus yer tutdu, martın 6-da Nyu-Yorkda Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyi fəaliyyətə başladı.

Sovet imperiyasının dağılması olduqca mürəkkəb proses olub, ərazi problemləri zəminində çoxlu sayda etnosiyasi münaqişələrlə müşayiət olunurdu ki, bunlardan biri də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi idi.

Ermənistanın Azərbaycana ərazi iddiaları üstündə köklənmiş bu münaqişə cənubi Qafqaz üstündə böyük dövlətlər arasında gedən geosiyasi mübarizə zəminində lokallıqdan çıxaraq beynəlmiləlləşmiş, BMT, ATƏT və İKT kimi beynəlxalq təşkilatlarda müzakirə obyektinə çevrilmişdi. Lakin öz lobbisinin gücünə Rusiyanın, ABŞ-ın və Fransa kimi

dövlətlərin himayədarlığına güvənən Ermənistan qoşunları 1992-93-cü illər ərzində Şuşanı, Laçını, Kəlbəcəri, Ağdamı, Füzulini, Qubadlını, Cəbrayılı və Zəngilanı ələ keçirərək Azərbaycan torpaqlarının 16 min kv. kilometrlik bir hissəsini (halbuki Dağlıq Qarabağın ərazisi 4 min kv km-dir) öz işğalı altına aldı. Münaqişə ilə bağlı BMT TŞ 4 qətnamə (822, 853, 874 və 884 saylı), TŞ-nin sədri isə 6 bəyanat qəbul etmişdi.

BMT-nin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bütün sənədlərdə işğal faktorunun pislənməyinə, işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi tələb olunmağına baxmayaraq, işğalçı dövlətin adı mücərrəd saxlanmış, eyni tipli başqa münaqişələrdə işğalçı dövlət konkret şəkildə göstərilsə də, Dağlıq Qarabağ münaqişəsində "can qurtaran", "ikili standarta" üstünlük verilmişdi. "ikili standartın" səbəbi erməni lobbisinin gücündə, ermənipərəst dövlətlərin havadarlığında axtarılmalıdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması yolunda dönüş 1993-cü ilin ortalarından başlayır. Cənubi Qafqazda gedən geosiyasi mübarizəni və neft diplomatiyasını Qarabağ probleminin həlli ilə bağlayan Azərbaycan Respublikasının Prezidenti H.Əliyev ilk növbədə 1994-cü il mayın 12-də cəbhə xəttində müvəqqəti atəşkəsə nail oldu ki, bununla da Azərbaycan torpaqları yeni işğallardan, əhali isə Ermənistanın həyata keçirdiyi kütləvi soyqırımından xilas oldu. Münaqişənin mərhələlərlə, "paket həlli" və s. kimi müxtəlif modellər diplomatik leksikona daxil oldu.

Müasir beynəlxalq münasibətlərdə Dağlıq Qarabağ münaqişəsinə bənzər münaqişələr az deyil, lakin nə qədər ki, beynəlxalq təşkilatlar, xüsusilə BMT, ATƏT və s. problemə ikili standartlar mövqeyindən yanaşacaqlar, münaqişələrin aradan qaldırılması mümkün olmayacaqdır.

Azərbaycanda siyasi sabitliyin pozulması, ağır sosial-iqtisadi və maliyyə böhranı, etnik təmizləmə siyasəti nəticəsində azərbaycanlıların Ermənistan torpaqlarından və Azərbaycan rayonlarından qovulması, öz vətənində qaçqına çevrilməsi sosial partlayış təhlükəsi ilə yanaşı, respublikamızın təkbaşına həll edə bilməyəcəyi ağır problemlər yaratmışdı. Bunların aradan qaldırılması üçün BMT-nin ixtisaslaşmış qurumları digər



beynəlxalq təşkilatlar kimi Azərbaycana iqtisadi, maliyyə və humanitar xarakterli yardımları həyata keçirməkdədirlər.

**Yoxlama sualları:**

1.Müasir beynəlxalq münasibətlərdə BMT-nin roluna dair baxış və nəzəriyyələr.

2.BMT-də struktur dəyişiklikləri: mövcud vəziyyəti və perspektivləri.

3.BMT Nizamnaməsinin beynəlxalq təhlükəsizlik və sülhün qorunması ilə bağlı müddəaları.

4.BMT-nin sülh və müharibə təhlükəsinin qarşısının alınması uğrunda mübarizəsi.

5.BMT və insan hüquqlarının qorunması problemi.

6.BMT-nın müstəmləkə sisteminin ləğvi uğrunda mübarizəsi.

7.Müstəmləkəçiliyin ləğvi haqqında 1960-cı il 14 dekabr Bəyannaməsi və beynəlxalq nəticələri.

8.BMT-nin digər beynəlxalq və regional təşkilatlarla əlaqələri.

9.Azərbaycan Respublikasının BMT ilə əməkdaşlığı.

10.BMT Təhlükəsizlık şurasının Dağlıq Qarabağ münaqişəsinə dair qətnamə və bəyanatları.

11.Azərbaycan-BMT əməkdaşlığı H.Əliyevin prezidentliyi dövründə.

12.Azərbaycanın BMT-nin ixtisaslaşdırılmış qurumları ilə əlaqə və əməkdaşlığı.

## III. EKOSOS-BMT-nin BAŞLICA İQTİSADİ VƏ SOSİAL QURUMUDUR

BMT-nin beş başlıca orqanlarından biri olan İqtisadi və Sosial Şuranın statusu Nizamnamənin X fəslinin 61-72-ci maddələrinə əsasən müəyyənləşdirilmişdir. Nizamnamənin IX fəslinin 55-60-cı maddələri isə beynəlxalq iqtisadi və sosial əməkdaşlığın mahiyyət və məzmununa aydınlıq gətirir.

BMT-Nizamnaməsinə əsasən EKOSOS təşkilatın 18 üzvünün iştirakı əsasında yaradılırdı. Lakin 60- cı illərin əvvəllərində yaranmış yeni beynəlxalq şəraitə uyğun olaraq Baş Məclisin 1963-cü ilin dekabrında olmuş 18-ci sessiyası EKOSOS üzvlərinin sayını 18-dən 27-yə, 1971-ci ilin dekabrında olmuş 26-cı sessiyası isə 27-dən 54-ə çatdırmaq haqqında qətnamə qəbul etdi və Nizamnamənin 61-ci maddəsinə müvafiq düzəliş edildi.

Nizamnaməyə edilmiş 1971-ci il düzəlişinə əsasən EKOSOS üzvlərindən 18-i Baş Məclis tərəfindən hər il üç illiyə seçilir, hər bir üzvün dərhal təkrar seçilmək hüququ olurdu. EKOSOS üzvlərindən 14-ü – Afrika, 11-i – Asiya, 10-u – Latın Amerikası, 13-ü – Qərbi Avropa, 6-sı isə Şərqi Avropa dövlətlərindən seçilirdi. Təşkilatın hər bir üzvü yalnız bir səsə malikdir. Qərarlar adı səs çoxluğu ilə qəbul edilir.

Müasir beynəlxalq münasibətlərdə EKOSOS ümumdünya iqtisadi və sosial əməkdaşlıq mərkəzi rolunu oynayır və Nizamnamənin 55-ci maddəsinə əsasən aşağıdakı vəzifələrin həyata keçirilməsini təmin etməlidir:

-həyat səviyyəsinin yüksəldilməsinə, əhalinin tam məşğulluğuna, iqtisadi və sosial tərəqqiyə və inkişaf şəraitinə dəstək verilməsi:

-iqtisadi, sosial, səhiyyə, mədəniyyət, təhsil və s. sahələrdə beynəlxalq problemlərin həllinə və beynəlxalq əməkdaşlığa nail olunması;



-irqinə, cinsinə, dilinə və dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hamılılıqla hörmət edilməsinə riayət edilməsi.

BMT Baş Məclisinin 1977-ci il 20 dekabr tarixli 32/197 saylı qətnaməsinə əsasən EKOSOS-un funksiyalarına aşağıdakılar daxildir:

-beynəlxalq iqtisadi və sosial problemlərin ətraflı müzakirəsi və bu sahələrə dair BMT sıyasəti və fəaliyyət prinsiplərinin işlənib hazırlanması;

-iqtisadi və sosial məsələlərdə bağlı bütün BMT sisteminin, o cümlədən ixtisaslaşdırılmış təşkilatların fəaliyyətinin əlaqələndirilməsi;

-beynəlxalq iqtisadi və sosial əməkdaşlığın ümumi və xüsusi problemlərinə dair tədqiqat və məruzələrin hazırlanması.

EKOSOS daimi orqan deyildir, o sessiyalar qaydasında fəaliyyət göstərir. Təşkilati sessiyalar hər ilin fevralında, birinci növbəti sessiya aprel-mayda Nyu-Yorkda, ikinci növbəti sessiya isə iyulda Cenevrədə keçirilir. Lakin 1992-ci ildən etibarən sessiyaların keçirilmə qaydasında da bəzi dəyişikliklər edilmişdir. EKOSOS-un növbəti sessiyaları üç sessiya komitəsində aparılır: Birinci (iqtisadi), İkinci (sosial), Üçüncü (proqram və əlaqə) komitələr.

EKOSOS öz səlahiyyətinə aid olan məsələlərlə bağlı beynəlxalq Konfrans çağırmaq, habelə Baş Məclisə Konvensiyalar təklif etmək hüququna malikdir. Təsadüfi deyildir ki, məhz EKOSOS-un iştirakı ilə insan hüquqlarına dair Ümumi Bəyannamə, İnsan hüquqlarına dair Paktlar, Uşaq hüquqlarına dair Bəyannamə və Konvensiya, Qadınların siyasi hüquqlarına dair Konvensiya, İrqi ayrı-seçkiliyin bütün təzahür formalarının aradan qaldırılmasına dair Bəyannamə və Konvensiya və s. aktlar hazırlanmış və qəbul edilmişdi.

Nizamnaməyə əsasən, EKOSOS, ixtisaslaşdırılmış qurumlar beynəlxalq dövlət və qeyri-dövlət təşkilatları ilə məsləhətləşmələr aparmaq hüququna malikdir. Hazırda məsləhətçi statusu ilə EKOSOS-un işində 1500-dən yuxarı qeyri-dövlət təşkilatı iştirak edir ki, bunlar üç kateqoriyaya bölünmüşdür.

BMT Nizamnaməsinin 68-ci maddəsi EKOSOS-un iqtisadi, sosial, insan hüquqları və s. sahələrdə köməkçi orqanlar və ya komissiyalar yaratmaq hüququnu əks etdirir. Hazırda EKOSOS-un aşağıdakı 9 funksional komissiyası fəaliyyət göstərir:

-statistik komissiya;

-əhali və inkişaf komissiyası;

-sosial inkişaf komissiyası;

-insan hüquqları komissiyası;

-qadınların vəziyyəti üzrə komissiya;

-narkotik vasitələr üzrə komissiya;

-cinayətkarlıqla mübarizə komissiyası;

-elm və texnikanın inkişafı komissiyası;

-davamlı inkişaf komissiyası.

BMT Baş Məclisinin bölgüsünə əsasən EKOSOS-un fəaliyyət sferasına aşağıdakı 5 komissiya daxildir:

-Avropa İqtisadi Komissiyası – 1947-ci ildə yaradılmışdır, 1951-ci ildən BMT-nin daimi orqanı statusuna malikdir, istiqamətgahı Cenevrədədir.

-Asiya və Sakit okean regionu iqtisadi və sosial komissiyası – 1947-ci ildə yaradılmışdır. 1974-cü ildən bu ad altında fəaliyyət göstərir, iqamətgahı Banqkokdadır (Tailand).

-Latın Amerikası və Karib rayonu iqtısadi komissiyası – 1948-ci ildə yaradılmışdır, 1984-cü ildən bu ad altında fəaliyyət göstərir, iqamətgahı Santyaqodadır (Çili).

-Afrika iqtısadı Komissiyası – 1958-ci ildə təsis edilmişdir, 4 subregional şöbədən ibarətdir, iqamətgahı Əddis-Əbəbədədir (Efiopiya)

-Qərbi Asiya iqtisadi və sosial komissiyası – 1973-cü ildə yaradılmışdır, iqamətgahı Beyrutdadır (Livan).

EKOSOS-un strukturuna 4 daimi komitə də daxildir. Bunlar aşağıdakılardır:

-Proqramlaşdırma və əlaqə komitəsi – 1962-ci ilin avqustunda təsis olunmuşdur, 21 üzvün nümayəndələrindən ibarət bu orqan BMT-nin sosial-iqtısadi sahədə bütün proqramlarını nəzərdən keçirir və əlaqələndirir.

-Qeyri-dövlət təşkilatları komitəsi – 1946-cı ilin iyununda yaradılmış bu orqan öz sıralarında 19 dövləti birləşdirir



(üzvlərin hər biri 4 il müddətinə seçilir), qeyri-dövlət təşkilatlarına EKOSOS-da müşahidəçi statusunun verilməsi məsələlərinə baxır və Şuraya müvafiq tövsiyyələr verir.

-Yaşayış məntəqələri Komissiyası – 1977-ci ilin dekabrında EKOSOS-un 58 üzvünün iştirakı ilə yaradılmışdır (üzvlər üç illiyə seçilir). Komissiya əvvəllər mövcud olmuş yaşayış məskənləri, onların planlaşdırılması və tikintisi üzrə BMT komitəsinin işini davam etdirir.

-Dövlətlərarası təsisatlarla danışıqlar Komitəsi.

Göstərilən daimi komitələrlə yanaşı EKOSOS sferasında bir sıra ekspert orqan və təsisatları fəaliyyət göstərirlər: inkişafın planlaşdırılması, təbii ehtiyatlar, enerji mənbələri, iqtisadi, sosial və mədəni hüquq, habelə 1997-ci ildə təsis olunmuş meşələr üzrə dövlətlərarası qrup belə qurumlardandır.

Müasir dünyanın qlobal sosial-iqtisadi problemləri, qlobal təhlükə mənbələri: cinayətkarlıq, terrorizm, narkomaniya, qaçqınlar, qadınların vəziyyəti, ərzaq problemləri və onlara qarşı mübarizə EKOSOS-u BMT ilə sıx əməkdaşlığa sövq edir. Belə qurumlar içərisində Qaçqınlar məsələsi üzrə BMT Ali Komıssarının İdarəsi, ərzaq yardımları siyasəti və proqramı Komitəsi, narkotik maddələr üzərində Beynəlxalq Nəzarəti Şurası, narkotik maddələrdən sui-istifadəyə qarşı mübarizə məsələləri üzrə BMT Fondu, Qadınların vəziyyətinin yaxşılaşdırılması üzrə Beynəlxalq təhsil və elmi-tədqiqat institutunu, BMT Uşaq Fondu, BMT İnkişaf Proqramı, Dünya Ərzaq Proqramı və s. xüsusi əhəmiyyət kəsb edir. Umumplanet miqyası almış dünya problemlərinin aradan qaldırılmasında EKOSOS-un rolu ildən-ilə artır.

**Yoxlama sualları:**

1.EKOSOS-un statusu və strukturu.
2.EKOSOS-un fəaliyyət prinsipləri, məqsəd və vəzifələri.
3.EKOSOS və dünyanın qlobal sosial iqtisadi problemləri.
4.EKOSOS-un ixtisaslaşdırılmış qurumlarla əməkdaşlığı.
5.BMT qurumlarının EKOSOS-la əlaqələri.

## IV. BMT-nin İXTİSASLAŞMIŞ QURUMLARI VƏ ONLARIN TƏSNİFATI

Beynəlxalq siyasi proseslər səciyyələndirən və siyasətşünaslıqda xüsusi qeyd olunan əsas elementlərdən biri beynəlxalq siyasi fəaliyyətin və münasibətlərin subyektləridir. Beynəlxalq münasibətlərin və siyasi prosesın xüsusiyyətləri ilk növbədə bu subyektlərin dərin politoloji təhlili prosesində aşkarlanır. Dövlətlərarası təşkilatlar beynəlxalq siyasi prosesin dövlətdən sonrakı əsas subyektləridir. Bu baxımdan, BMT ixtisaslaşmış qurumlarının ümumi səciyyəsinin öyrənilməsi siyasətşünaslıq üçün böyük elmi-nəzəri əhəmiyyət daşıyır.

Elmi-siyasi ədəbiyyatlarda ixtisaslaşmış qurumlar belə təyin olunur: **BMT-nin ixtisaslaşmış qurumları xüsusi sahələrdə əməkdaşlığı həyata keçirən, BMT ilə İqtisadi və Sosial Şura xətti ilə bağlanan universal xarakterli dövlətlərarası təşkilatlardır.**[1] "BMT-nin ixtisaslaşmış qurumları anlayışı"nı aydınlaşdırmaqdan ötrü aşağıdakı suallara cavab vermək lazım gəlir: a) ixtisaslaşma nədir? b) ixtisaslaşmış qurumların yaradılması zərurəti nə üçün ortaya çıxmışdır? v) BMT-dən əvvəl belə qurumlar mövcud olmuşdurmu? q) nə üçün bu qurumlar BMT-yə aid edilir? d) BMT ilə bu qurumlar arasındakı əlaqələrin mexanizmi necədir?

Tədqiqatçılar tərəfindən yuxarıdakı məsələlərin ardıcıl şərh edilməməsi nəticəsində BMT-nin ixtisaslaşmış qurumları anlayışının izahında mübahisəli məsələlər meydana çıxır. Bir tərəfdən, bu qurumlar avtonom təşkilatlar adlandırılırsa da, digər tərəfdən onlar BMT-yə aid edilir və BMT Nizamnaməsinin 57-ci maddəsinə görə səciyyələndirilirlər.

[1] Специализированные учреждения ООН в современном мире. М., 1967, с.5-6; Шибаева Е.А. Специализированные учреждения ООН. М., 1966. с.19; Международное право. М., 1995, с.217



Y.Şibayeva BMT-nin ixtisaslaşmış qurumları haqqında monoqrafiyasında onların yaranma tarixindən bəhs edərkən ilk növbədə beynəlxalq inzibati ittifaqlar haqqında məlumat verir. O göstərir ki, beynəlxalq iqtisadi münasibətlərin inkişafı prosesində müəyyən sahələr üzrə dövlətlərarası əməkdaşlıq və əlaqələndirmə zərurəti ortaya çıxmışdır. Bu tələb beynəlxalq iqtisadi münasibətlərin hüquqi tənzimlənməsi üçün ikitərəfli müqavilələr əsasında beynəlxalq inzibati ittifaqlar yaradılmasını reallaşdırmışdır.[1] İqtisadi əməkdaşlığın genişlənməsi, bəzi məsələlərin həllində əlaqələndirmənin vacibliyi (məsələn, eyni ölçü vahidlərindən istifadə, rabitə xidmətində identik vasitələrin tətbiqi, dəmir yollarının çəkilişi və istismarında eyni standartlara əsaslanma və s.) beynəlxalq inzibati ittifaqlara daxil olan ölkələrin sayının artmasını, müqavilələrin çoxtərəfliyini şərtləndirmişdir. Beynəlxalq əlaqələr sisteminin müxtəlif sahələrində istifadə olunan vasitlərin eyniliyini, yəni onların vahid standartlara uyğun gəlməsini təmin etmək lazım gəlirdi. Aydındır ki, bu funksiyaların dövlətlərarası təşkilatlar səviyyəsində həyata keçirilməsi daha düzgün idi. Məsələn, poçt rabitəsində istifadə edilən markaların, zərflərin, aparat və avadanlıqların, xidmətlərin beynəlxalq səviyyədə tənzimlənməsi, yaxud mülki aviasiya xidmətinin həyata keçirilməsində əlaqələndirmə və s. Buradan belə nəticə çıxır ki, ixtisaslaşma anlayışı müəyyən bir sahəyə aidliklə və məhz bu sahədə beynəlxalq əlaqələrin yaradılmasında iştirakla əsaslandırıla bilər.

BMT-nin ixtisaslaşmış qurumlarından bəzilərinin BMT-dən əvvəl inzibati təşkilatlar kimi fəaliyyət göstərməsi faktı yuxarıdakı fikri bir daha sübut edır. Beynəlxalq Əmək Təşkilatı (BƏT) Versal müqaviləsinin XIII hissəsinə əsasən hələ 1919-cu ildə yaradılmışdı və dövlətləri, sahibkarları, habelə əməkçiləri bərabər hüquqlar zəminində öz tərkibində birləşdirir, iş gününün uzunluğu, əmək haqqının ödənilməsi, əməyin mühafizəsi kimi məsələlərə aid qanunların yaradılması

[1] Бакы: Шибаева Е.А. Специализированные учреждения ООН. М., 1966. с.6

sahəsində iş görürdü. Beynəlxalq Telekommunikasiya İttifaqı 1865-ci ildə yaradılmış Beynəlxalq Teleqraf İttifaqının varisidir. Ümumdünya Poçt İttifaqı 1874-cü ildə Bern konvensiyasına əsasən yaradılmışdı. İntellektual Mülkiyyətin Ümumdünya Təşkilatının əsası isə, əslində Paris (1883-cü il) və Bern (1886-cı il) konvensiyaları ilə qoyulmuşdur. Göründüyü kimi, BMT-nin dörd ixtisaslaşmış qurumu dövlətlərarası inzibati orqan kimi əvvəllər də fəaliyyət göstərmişdir.

BMT-nin yaranması inzibati ittifaqların işinin dünya dövlətləri səviyyəsində qurulmasına imkan vermişdir. BMT Nizamnaməsinin hazırlanması prosesində dünya dövlətlərinin müəyyən sahələr üzrə əlaqələrinin mərkəzləşdirilməsi də diqqət mərkəzinə çəkilmişdir. Məhz bu cəhət, ixtisaslaşmış qurumlar haqqında maddələrin Nizamnaməyə daxil edilməsini vacibləşdirmişdir. Əgər müəyyən sahə üzrə beynəlxalq münasibətləri BMT sisteminə daxil olan bir təşkilat tənzimləyə bilirsə, bu halda həmin işin dar çərçivədə beynəlxalq inzibati ittifaqlarda həyata keçirilməsinə ehtiyac qalmırdı. Göstərilən səbəb BMT-nin yaranmasınadək mövcud olmuş inzibati ittifaqların (məsələn, Beynəlxalq Poçt İttifaqı, Ölçü və Çəki üzrə Beynəlxalq Komitə, Ədəbiyyat və Bədii Mülkiyyətin Müdafiəsi üçün Beynəlxalq İttifaq və s.) ixtisaslaşmış qurumlara çevrilməsinə gətirib çıxarmışdır.

BMT-nin ixtisaslaşmış qurumlarından bəzilərinin əvvəl mövcud olmuş dövlətlərarası inzibati ittifaqların bazasında yaranması onların hüquqi varislik məsələsinin həllini tələb edirdi. Meydana çıxmasından və təşkilatın yaranmasından asılı olaraq bu cür problemlər müxtəlif şəkillərdə həll edilmişdir.

İxtisaslaşmış qurumların yaradılması, fəaliyyəti və onların BMT ilə əlaqələrinin ümumi hüquqi mexanizmini təyin etmək üçün xüsusi əsas tələb olunurdu. Bu əsaslar BMT Nizamnaməsinin bir sıra maddələrində öz əksini tapır. Nizamnamənin 57-ci maddəsində ixtisaslaşmış qurumların əsas səciyyəvi cəhətləri qeyd olunur: a) belə təşkilatların yaranması haqqında sazişlərin dövlətlərarası mahiyyət daşıması; b) onların öz təsis aktları çərçivəsində geniş beynəlxalq məsuliyyət daşıması; v) BMT ilə bağlılığı; q) müəyyən sahələrdə (iqtisadi, sosial, elmi-texniki,



mədəni, humanitar və s.) fəaliyyət göstərməsi, yəni ixtisaslaşması. Qeyd olunan 4 cəhət xüsusi əhəmiyyət kəsb etdiyinə görə onlardan hər birinin ayrı-ayrılıqda nəzərdən keçirilməsi vacibdir.

I. BMT ixtisaslaşmış qurumlarının fəaliyyət sahələri, onların funksiyaları və səlahiyyətləri çoxtərəfli beynəlxalq müqavilə ilə təyin olunur. Bu beynəlxalq müqavilə təsis aktı sayılır və iştirakçı dövlətlər tərəfindən qəbul olunur. BMT Nizamnaməsinin 57-ci maddəsində deyilir: "Dövlətlərarası sazişlərlə yaradılan, iqtisadi, sosial, mədəniyyət, təhsil, səhiyyə və digər sahələrdə geniş səlahiyyətləri öz təsis aktları ilə təyin edilən müxtəlif ixtisaslaşmış qurumlar təşkilatla 63-cü maddənin müddəalarına uyğun əlaqədə olurlar.[1] Göründüyü kimi, ixtisaslaşmış qurumun yaradılmasının hüquqi əsasını beynəlxalq çoxtərəfli saziş təşkil edir. Məhz bu cəhət onun avtonomluğunu təmin edir. Yəni ixtisaslaşmış qurumu BMT yaratmır, o, suveren dövlətlərin qarşılıqlı razılığı əsasında təsis olunur. Müəyyən sahədə geniş səlahiyyətlərə malıklik də təsis aktında təsbit edilir. Deməli, səlahiyyət dairəsinin təyini BMT-dən bilavasitə asılı deyildir və avtonom müəyyənləşdirilir; 57-ci maddə ixtisaslaşmış qurumun BMT ilə əlaqədə olmasını müstəqim mənada ifadə edır. Həmın maddənın 2-cı bəndındə yuxarıdakı qaydada yaradılan təşkilatların "ixtisaslaşmış qurum" adlandırılacağı qeyd olunur. Buradan aydın olur ki, "ixtisaslaşmış qurum" anlayışı BMT Nizamnaməsində işlənir və bu terminin rast gəlindiyi ilkın mənbə də Nizamnamədir.

Nizamnamənin 58-ci maddəsində deyilir: "Təşkilat ixtisaslaşmış qurumların siyasətinin və fəaliyyətinin razılaşdırılması üzrə tövsiyələr verir".[2] BMT-nin ixtısaslaşmış qurumların fəaliyyətinə təsiri, bir qayda olaraq, tövsiyə xarakteri daşıyır. BMT marağı olan ölkələr qarşısında müəyyən məqsədlərin həyata keçirilməsi üçün yeni ıxtisaslaşmış qurumlar yaratmaq təşəbbüsünü qaldıra bilər. Müəyyən məqsədlər kompleksi Nizamnamənin 5-ci maddəsində təyin olunur. BMT əhalinin həyat səviyyəsinin yüksəldilməsinə, tam məşğulluğun əldə olunmasına, iqtisadi və sosial tərəqqi üçün şəraıt yaradılmasına,

[1] Устав ООН..., c.39
[2] Yenə orada.

iqtisadi, sosial, səhiyyə, habelə digər sahələrdəki beynəlxalq problemlərin həllinə, mədəniyyət və təhsildə əməkdaşlığa, insan hüquqlarının qorunmasına hərtərəfli yardım göstərir. Yeni ixtisaslaşmış qurumların yaradılması təşəbbüsünün qaldırılması da göstərilən məqsədlərin həyata keçirilməsi üçün lazım gələ bilər. Maraqlı olan dövlətlər qarşısında yeni qurumun yaradılması təşəbbüsünü qaldırarkən BMT əlavə təsisatın zəruriliyini tam şəkildə əsaslandıran materiallar təqdim edir. Lakin ixtisaslaşmış qurumun yaradılması üçün bu, zəruri şərt olsa da, kafi deyildir. Qurumun yaradılması ona marağı olan dövlətlərin səlahiyyətləri daxilində həll edilir. Yəni BMT tərəfindən əsaslandırılmış şəkildə qaldırılan təşəbbüs, marağı olan dövlətlərin bu işdən imtina etməsi nəticəsində reallaşmaya da bilər.

II. İxtisaslaşmış qurumların öz təsis aktları çərçivəsində geniş beynəlxalq məsuliyyət daşıması məsələsi bu qurumların BMT ilə əlaqələri zəminində meydana çıxır. Çünki ixtisaslaşmış qurumların təsis aktlarında, Nizamnamə və konvensiyalarında nəzərdə tutulmuş maddələrin bir qismi üzv-dövlətlərlə münasibətlərin hüquqi əsaslarını yaradırsa, BMT ilə bağlanmış müqavilələrdə həmin münasibətlərdə təyin olunmuş normalara əməletmə öhdəçiliyi əksini tapır. Buna baxmayaraq, beynəlxalq hüquqa aid bəzi ədəbiyyatlarda ixtisaslaşmış qurumun öz təsis aktlarına görə geniş məsuliyyət daşıması səciyyəvi cəhət sayılmır. Zənnimizcə, təsis aktları çərçivəsində geniş beynəlxalq məsuliyyət fərqləndirici əlamətlərdən biridir və bu əlamət ixtisaslaşmış qurumun universal xarakterini açır, onu regional dövlətlərarası təşkilatlardan ayırmağa imkan verir.

III. İxtisaslaşmış qurumlarla bağlı funksiyaların yerinə yetirilməsinə görə BMT Baş Məclisi məsuliyyət daşıyır. Eyni zamanda Baş Məclisin rəhbərliyi, İqtisadi və Sosial Şura (İSOŞ) göstərilən funksiyaların həyata keçirilməsində bilavasitə iştirak edir. bu məqsədlə İqtisadi və Sosial Şuraya müəyyən səlahiyyətlər verilir. İSOŞ ixtisaslaşmış qurumlarla bağlı fəaliyyətini onlarla məsləhətləşmələr vasitəsilə həyata keçirmək səlahiyyətinə malikdir. Belə qurumlara tövsiyələrin verilməsi zamanı İSOŞ BMT üzvlərinin və Baş Məclisin göstərişlərini rəhbər tutur, yaxud hərtərəfli nəzərə alır.



İxtisaslaşmış qurumlarla əlaqələrin müəyyən nəzarət altında olması görülən işlərin uzlaşdırılmasını tələb edir. Bu məqsədlə İSOŞ-a ixtisaslaşmış qurumlardan müntəzəm olaraq məruzələr almaq səlahiyyəti verilir.

İxtisaslaşmış qurumların avtonom təşkilat olması Nizamnamədə İSOŞ-a verilmiş səlahiyyətin reallaşdırılmasının hüquqi mexanizminin yaradılmasını tələb edir və Nizamnamənin 64-cü maddəsində göstərilən hüquqi mexanizmin yaradılması yolu açıqlanır. İSOŞ ixtisaslaşmış qurumlardan müntəzəm məruzələr almaq üçün onlarla sazişlər bağlayır. Məruzələrdə ixtisaslaşmış qurumların fəaliyyəti, habelə onların İSOŞ-un və Baş Məclisin məsləhətlərini həyata keçirməsi məsələləri əksini tapır. İSOŞ Baş Məclisə məruzələr haqqında qeydlərini təqdim edir.

İxtisaslaşmış qurumlarla BMT-nin əlaqələrinin bu cəhəti elmi ədəbiyyatlarda kifayət qədər aydınlaşdırılmır. Yuxarıda verilmiş təhlildən aydın görünür ki, ixtisaslaşmış qurumlarla əlaqələr İSOŞ-un fəaliyyəti çərçivəsində həyata keçirilir. BMT Nizamnaməsində Baş Məclisin öz səlahiyyətlərinə aid olan bir sıra məsələlərlə əlaqədar olaraq ixtisaslaşmış qurumla birbaşa əlaqə yarada biləcəyi göstərilir. Bu əlaqələr Baş Məclisin tövsiyələri ilə bağlı olur ki, həmin tövsiyələrin icrası haqqında məlumat İSOŞ-a təqdim olunan məruzələrdə əksini tapır. Deyilənləri nəzərə alsaq, ixtisaslaşmış qurumların əsas orqanlarla əlaqələr sxemini qura bilərik.

İxtisaslaşmış qurumlar bir-biri, habelə İSOŞ-un digər orqan və təşkilatları ilə həm müstəqil, həm də İSOŞ xətti üzrə əlaqələr yaratmaq imkanına malikdir.

Baş Məclisin və İSOŞ-un ixtisaslaşmış qurumlarla bağlı müəyyən hüquqları vardır. Bu hüquqlar tövsiyələr verilməsindən başqa, maliyyə və büdcə məsələlərini, müzakirələrdə nümayəndə səviyyəsində təmsil olunmağı əhatə edir.

İxtisaslaşmış qurumun xahişi ilə İSOŞ onlar üçün iş görmək səlahiyyəti daşıyır. Belə işlərin görülməsi Baş Məclis tərəfindən qabaqcadan bəyənilməlidir.

İSOŞ nümayəndələri ixtisaslaşmış qurumların tədbirlərində və əksinə, ixtisaslaşmış qurumların nümayəndələri İSOŞ-un ic-

laslarında iştirak etdikdə onlar səs vermək hüququna malik olmurlar.

İxtisaslaşmış qurumların BMT ilə bağlılıq xüsusiyyətlərindən asılı olmayaraq, onların hər biri avtonomdur və beynəlxalq münasibətlər sistemində hüquqi subyektdir. İxtisaslaşmış qurumların xüsusi formalı beynəlxalq hüquqi subyektliyi onlara dövlətlərlə birbaşa müqavillər bağlamağa, nümayəndələr qəbul etməyə, habelə göndərməyə, nümayəndəlik açmağa və s. hüquqlar verir. Beynəlxalq təşkilata aid üç əsas əlamət - konvensiya bazisi (konvensiyalı əsas), fəaliyyət xarakterinin daimiliyi, müəyyən orqanlar sisteminin mövcudluğu ixtisaslaşmış qurumlara da xasdır. BMT ixtisaslaşmış qurumları kütləvi hüquq xarakterli səlahiyyətlərə malikdir. Həmin səlahiyyətlər müvafiq beynəlxalq hüquqi aktlarda dəqiq təyin olunur.

Göstərilənlərlə yanaşı, həm İSOŞ, həm də ixtisaslaşdırılmış qurumlarla bağlı bir sıra qurumlar da mövcuddur ki, bunlar həm avtonom, həm də BMT-nin digər orqanları ilə bağlıdır (sxem 1).






BMT-nin ixtisaslaşmış qurumlarının sayı haqqındakı fikirlərdə mübahisəli cəhətlər vardır. Elmi ədəbiyyatlarda müxtəlif rəqəmlərin göstərilməsi ilə yanaşı, bəzi təşkilatların gah ixtisaslaşmış qurum, gah da müstəqil təşkilat kimi qeydə alınması faktlarına rast gəlinir. Məsələn, Y.Şibayevanın,[1] Ə.Əsgərovun əsərlərində[2] 13, beynəlxalq hüquqa aid bir dərslikdə[3] 14, digərində[4] 16, 1990-cı ildə çapdan çıxmış məlumat kitabında[5] 16 ixtisaslaşmış qurumun olması göstərilir. BMT-nin son nəşrlərindən birinə istinadla[6] qeyd etmək olar ki, ixtisaslaşmış qurumlar on səkkizdir. Beynəlxalq Əmək Təşkilatı (BƏT), Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), BMT Təhsil, Elm və Mədəniyyət Təşkilatı (YUNESKO), Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Ümumdünya Bankı Qrupu (ÜB) (4 bankdan ibarətdir). Beynəlxalq Valyuta Fondu (BVF), Beynəlxalq Mülki Aviasiya Təşkilatı (BMAT), Ümumdünya Poçt İttifaqı (UPİ), Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ), Ümumdünya Metrologiya Təşkilatı (ÜMT), Beynəlxalq Dənizçılik Təşkilatı (BDT), Beynəlxalq İntellektual Dəyərlər Təşkilatı (BİDT), Beynəlxalq Kənd Təsərrüfatının İnkişaf Fondu (BKİF), BMT Sənaye İnkişafı Təşkilatı (YUNİDO), Ümumdünya Ticarət Təşkilatı (ÜTT).[7]

[1] Устав ООН..., maddə 66, II bənd.
[1] Шибаева Е.А. Специализированные учреждения ООН. М., 1966. ц.12
[2] Əsgərov Ə. Beynəlxalq hüquq. Bakı, 1979, s.349-350
[3] Международное право. М. 1978, с.341
[4] Международное право. М. 1995, с.217
[5] Международные организации системы ООН: Справочник. М., 1990, с.136
[6] Организация Объединенных Наций: Основные факты. М., 2000 с.62-79
[7] Basic facts about the United Nations. New York, 1995. P.273: ООН: Основные факты. с.78

Sadalanmış ixtisaslaşmış qurumlardan biri olan Ümumdünya Bankı Qrupu dörd təşkılatdan ibarətdir: Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB), Beynəlxalq İnkişaf Assosiasiyası (BİA), Beynəlxalq Maliyyə Korporasiyası (BMK). İnvestisiya Təminatları Üzrə Çoxtərəfli Agentlik (İTÇA).

IV. İxtisaslaşmış qurumların fəaliyyəti xüsusi sahələri əhatə etdiyi kimi, onların əsas məqsədlərində və funksiyalarında da fərqlər vardır. Bu baxımdan onların ayrı-ayrılıqda nəzərdən keçirilməsi əhəmiyyətlidir. Lakin bundan əvvəl BMT ixtisaslaşmış qurumlarının sahələr üzrə qruplaşdırılması məsələsinə münasibət bildirmək vacibdir.

Y.Şibayeva ixtisaslaşmış qurumları onların fəaliyyət sahələrinə görə üç əsas qrupa bölür: iqtisadi, sosial, mədəni-humanitar. İqtisadi xarakterli ixtisaslaşmış qurumlara o, BVF, BYİB. BMK, BİA, FAO, BMAT, BDT, UPİ, BTİ və ÜMT-ni aid edir.[1] Göründüyü kimi, Y.Şıbayeva ÜB qrupu təşkilatlarını ixtisaslaşmış qurumlar çərçəsində sadalayır. İkinci qrupda BƏT və ÜST, üçüncü qrupda YUNESKO-nun adı çəkilir. Belə bölgü ümumiyyətlə götürüldükdə məqbul sayılsa da, natamam təsir bağışlayır. Nəzərə almaq lazımdır ki, bəzi ixtisaslaşmış qurumların fəaliyyətində hər üç qrupa şamil oluna biləcək işlərə rast gəlinir. Bir sıra qurumlar bölgüdə aralıq mövqedə durur, yaxud iki qrupa aid oluna bilir. Fikrimizcə, aşağıdakı bölgü daha məqsədəuyğun sayılmalıdır: sənaye və meteorologiya sahəsində fəaliyyət göstərən qurum – YUNİDO və ÜMT, maliyyə qurumları – BVF, ÜB qrupu; kənd təsərrüfatı xarakterli qurumlar – FAO, BKİF; nəqliyyat sahəsi qurumları – BMAT, BDT; rabitə qurumları – UPİ, BTİ; sosial xarakterli qurumlar – ÜST, BƏT; mədəniyyət və humanitar sahələrə aid qurumlar – YUNESKO, İMÜT. Verilmiş bölgüdə yeddi qrup fərqləndirilir (sxem 2).

[1] Шибаева Е.А. Специализированные учреждения ООН. М., 1966. с.12






Qeyd etmək lazımdır ki, bütün hallarda bölgü formal xarakter daşıyır və bir qurumun başqa sahəyə aid zəruri fəaliyyətini istisna etmir.[1] Məsələn, bütün qurumlar humanitar və sosial xarakterli iş görə bilərlər.

İxtisaslaşmış qurumların bəzilərini iqtisadi qrupda birləşdirmək olar.

[1] Международное право. М. 1995, с.218

İxtisaslaşmış qurumların dörd əsas səciyyəvi cəhətindən başqa, bütün qurumlar üçün xarakterik olan bir sıra əlamətlər də qeyd olunmalıdır. Bu əlamətlər aşağıdakıları əhatə edir: 1) BMT ilə bağlanmış müqavilədə BMT Nizamnaməsinin 62-ci maddəsinin tətbiq olunmasını tam qəbuletmə; 2) BMT-yə üzvlüyün dövlətin ixtisaslaşmış quruma daxil olması üçün kafi şərt kimi çıxış etməsi; 3) səsvermə zamanı bərabər hüquqluluq; 4) icra orqanında mütənasib və bərabər nümayəndəliyin təmin olunması; 5) BMT İP-də icraçı-qurum kimi iştirak etmək; 6) universal üzvlük.

Göstərilən əlamətlər ixtisaslaşmış qurumların təsis aktlarından və onların BMT ilə əlaqələr mexanizmindən irəli gəlir. Qeyd etmək lazımdır ki, üçüncü əlamət bütün ixtisaslaşmış qurumlara şamil edilə bilmir. Maliyyə sahəsinə aid ixtisaslaşmış qurumlarda səslərin miqdarı başqa cür hesablanır və burada bir dövlət - bir səs prinsipi işləmir. Beynəlxalq Əmək Təşkilatının Baş Konfransında iştirak zamanı da eyni dövlətdən gəlmiş iki nümayəndənin hər birinin müstəqil qərar çıxarmaq hüququ vardır.

**Yoxlama sualları:**

1.BMT-nin ixtisaslaşdırılmış qurumlarının yaradılmasını şərtləndirən amillər.

2.İxtisaslaşmış qurumlar beynəlxalq hüququn müstəqil subyekti kimi.

3.İxtisaslaşmış qurumların digər BMT strukturları ilə əlaqələri.

4.İxtisaslaşmış qurumların fəaliyyət sahələrinə görə təsnifatı.

5.İxtisaslaşmış qurumların fəaliyyət sahələrinə görə təsnifatına dair baxış və nəzəriyyələrin mahiyyəti.

6.İxtisaslaşmış qurumların müasir dünya proseslərində iştirakı.

7.Dünyanın qlobal problemləri və ixtisaslaşmış qurumlar.

8.Azərbaycan Respublikasının BMT-nin ixtisaslaşmış qurumları ilə əlaqələri və əməkdaşlığı.



## V. BMT-nin İXTİSASLAŞMIŞ QURUMLARININ İDARƏETMƏ MEXANİZMİ VƏ FƏALİYYƏTİNİN HÜQUQİ ƏSASLARI

BMT sisteminə bir sıra beynəlxalq təşkilatlar da daxildir ki, bunlar muxtar hüquqlu olur və BMT Nizamnaməsi 57-ci maddəsinin 2-ci bəndinə əsasən "İxtisaslaşdırılmış təsisatlar" adlandırılırlar.

Mövcud tədqiqatlarda və dərsliklərdə ixtisaslaşdırılmış qurumlar aşağıdakı kimi səciyyələndirilir: "BMT-nin ixtisaslaşdırılmış qurumları – universal xarakterli hökumətlərarası təsisatlar olub, xüsusı sahələrdə əməkdaşlığı həyata keçirir və BMT ilə sıx bağlı olurlar.[1]

BMT Nizamnaməsinin 57-ci maddəsinin tələblərinə əsasən ixtisaslaşdırılmış qurumların aşağıdakı xarakterik əlamətlərini ayırmaq olar:

-belə qurumların yaradılması haqqında sazişlərin hökumətlərarası xarakter daşıması;

-təsis aktlarında müəyyən olunduğu kimi üzərlərinə geniş beynəlxalq məsuliyyətin qoyulması;

-sosial, mədəni, təhsil, səhiyyə və s. xüsusi fəaliyyət sahələrində əməkdaşlığın həyata keçirilməsi;

-BMT ilə bağlılıq.

İxtisaslaşdırılmış qurumların BMT ilə əlaqələri xüsusi sazişə əsaslanır, həmin saziş EKOSOS-la qurum arasında bağlanır və Baş Məclis tərəfindən təsdiq edilir. Bu tipli sazişlər ixtisaslaşdırılmış qurumlarla BMT arasındakı əməkdaşlığın hüquqi əsasını təşkil edir.

Nizamnamənin 58-ci maddəsinin tələbinə görə, BMT ixtisaslaşdırılmış qurumların siyasətini və fəaliyyətini əlaqələndirmək üçün müvafiq tövsiyələr verə bilər.

[1] Международное право. Учебник.М., 2000. с.254

BMT Nizamnaməsinin beynəlxalq iqtisadi və sosial əməkdaşlıqdan bəhs edən 55-ci maddəsində təşkilatın başlıca vəzifələrindən biri kimi "millətlər arasında, xalqların hüquq bərabərliyi və özünümüəyyənetmə prinsipinə hörmət əsasında sülh və dostluq münasibətləri üçün zəruri olan sabitlik və əmin-amanlıq şəraitini yaratmaq məqsədi" xüsusi olaraq qeyd edilirdi. Lakin bu maddə eyni zamanda BMT-yə müvafiq təyinatla ixtisaslaşdırılmış təsisatların yaradılması üçün təşəbbüs qaldırmağa da imkan verirdi. Belə ki, Nizamnamənin 59-cu maddəsinə görə, BMT 55-ci maddədə öz əksini tapmış məqsədlərin həyata keçirilməsi üçün tələb olunan hər hansı yeni ixtisaslaşdırılmış təsisatların yaradılması barədə maraqlı dövlətlər arasında danışıqların başlanmasına təşəbbüs edə bilərdi.

BMT Nizamnaməsi ixtisaslaşdırılmış qurumların EKOSOS-la əlaqə və əməkdaşlığına da aydınlıq gətirir. Belə ki, 62-ci maddəyə görə, EKOSOS-un səlahiyyətinə ixtisaslaşdırılmış qurumlar və digər orqanlarla əlaqədar aşağıdakılar daxildir:

-Şura iqtisadi, sosial, mədəni, təhsil, səhiyyə və digər sahələrdə beynəlxalq məsələlərə aid tədqiqatlar və məruzələr edə bilər və ya istənilən belə məsələlərə aid tövsiyələr verə bilər,

-Şura Baş Məclisə təqdim etmək üçün öz səlahiyyəti çərçivəsində olan məsələlərə aid konvensiya layihələri hazırlaya bilər;

-Şura Birləşmiş Millətlər tərəfindən müəyyən edilmiş qaydalara uyğun olaraq öz səlahiyyəti çərçivəsində olan məsələlərə aid beynəlxalq konfranslar çağıra bilər;

-Şura hər bir kəsin əsas hüquq və azadlıqlarına hörmət edilməsinə və riayət edilməsinə dəstək vermək üçün tövsiyələr edə bilər.

BMT Nizamnaməsinin 63 və 64-cü maddələri EKOSOS-un ixtisaslaşdırılmış qurumlarla bağlı funksiyalarına aydınlıq gətirir; belə ki, Şura:

-ixtisaslaşdırılmış qurumların hər hansı biri ilə sazişlərə girə bilər, BM tərəfindən təsdiq edilməli olan bu sazişlər müvafiq təsisatın BMT ilə əlaqəyə gətirilməsinin əsası olan şərtləri müəyyən edir;



-ixtisaslaşdırılmış qurumlarla məsləhətləşmələr aparmaq və tövsiyələr vermək yolu ilə və BM-ə və BMT üzvlərinə tövsiyələr vasitəsilə həmin təsisatların fəaliyyətini əlaqələndirə bilər;

-ixtisaslaşdırılmış qurumlardan müntəzəm məruzələr almaq üçün müvafiq addımlar ata bilər, öz tövsiyələrini və səlahiyyətləri çərçivəsində olan məsələlər üzrə BM tərəfindən edilmiş tövsiyələri həyata keçirmək üçün atılmış addımlar barədə məruzələr almaq məqsədilə BMT üzvləri ilə və ixtisaslaşdırılmış qurumlarla sazişlər bağlaya bilər;

-həmin məruzələrlə bağlı öz qeydləri haqqında BM-ə məlumat verə bilər.

BMT-nin ixtisaslaşdırılmış təsisatlarla bağladığı sazişlərdə zəruri informasiya və sənəd mübadiləsi, BMT tövsiyələrini nəzərə almaq və həyata keçirmək öhdəliyi, proqram fəaliyyətlərinin razılaşdırılması kimi məsələlər nəzərdə tutulur. İxtisaslaşdırılmış qurumların BMT ilə əlaqəsi ilk növbədə onların fəaliyyətinin BMT nizamnaməsinin məqsəd və prinsiplərinə uyğunlaşmasına, beynəlxalq sülh və təhlükəsizliyin qorunması uğrunda mübarizənin dəstəklənməsinə yönəlmişdir.

Mövcud tədqiqatlarda BMT sisteminin strukturuna münasibətdə bir-birindən fərqlənən fikirlərə rast gəlinir. K.Arris BMT sistemini dörd manqaya bölür. O yazır: "BMT sistemində bir neçə manqanı ayırmaq mümkündür. Bu manqalar müxtəlif beynəlxalq təşkilatları özündə birləşdirir. Həmin təşkilatlar bir-birindən hüquqi vəziyyətləri ilə fərqlənirlər. Qeyd olunan hüquqi vəziyyət isə təşkilatların növündən və BMT ilə münasibətlərinin xarakterindən asılıdır. Birinci manqa BMT-nin özü, ikinci – 18 ixtisaslaşmış qurumu, üçüncü – MAQATE, dördüncü – YUNKTAD, YUNEP və BMTİP-dir.[1] Müəllif BMT sisteminin dördüncü manqasına beynəlxalq qeyri-dövlət təşkilatlarını dı aid edir. Ümumiyyətlə, K.Arris bölgüdə BMT-nin özünü bir manqa kimi ayırsa da, nə üçün ayrıca götürülməsini izah etmir. Onun təsnifatındakı fərqləndirici kriteriyalar BMT orqanları ilə əlaqənin növünə əsaslanır.

[1] Аррис К. Понятие и структура системы ООН. АКД. М., 1989, с.8-9

İ.P.Blişenko və A.V.Bikulovun fikrinə görə, BMT sistemi iki alt sistemdən ibarətdir: 1) BMT-nin özü (əsas və köməkçi orqanları, regional və funksional komissiyaları ilə birlikdə); 2) BMT ilə əlaqədə olan beynəlxalq təşkilatlar.[1]

A.A.Titarenko BMT sistemini nisbətən başqa şəkildə qruplaşdırır. Onun təsnifatında iki manqa nəzərə çarpır: 1) BMT; 2) BMT ilə əlaqəli olan beynəlxalq dövlətlərarası təşkilatlar.[2] Əlbəttə, bu bölgü BMT sistemini tam aça bilmir. Biz bunu aşağıdakı səbəblərlə əsaslandırırıq. Əvvəla, BMT sistemin ayrıca vahidi kimi qəbul edilir, ikincisi, BMT ilə əlaqəli təşkilatları müəyyənləşdirmək kriteriyası verilmir; üçüncüsü, MAQATE, Ümumdünya Turizm təşkilatı (ÜTT), habelə Baş Tariflər və Ticarət Sazişi (BTTS-QATT) ixtisaslaşmış qurumlarla eyni struktur vahidinə daxil olur. Göstərilən üç səbəb struktur bölgünün qeyri-dəqiqliyini sübut edir. Digər tərəfdən, BMT-nin sistemin ayrıca vahidi olması məsələsi beynəlxalq hüquqda qəbul edilmiş prinsiplər baxımından özünü doğruldur. Məlumdur ki, "Beynəlxalq təşkilat hər şeydən əvvəl öz quruluşunun sabitliyi ilə səciyyələnir. Ona aşağıdakı elementlər aiddir: 1) çoxtərəfli müqaviləyə görə meydana çıxan Nizamnamə növlü daimi hüquqi əsas; 2) üzvlər sayının nisbi sabitliyi; 3) müəyyən səlahiyyətləri olan və bu səlahiyyətlər daxilində təşkilatın adından qərarlar qəbul edən orqanların mövcudluğu; 4) qərar qəbul edilməsi prosesinin daimi parametrləri (orqanların tərkibi, qərarın hüquqi mənası, səsvermə qaydası)".[3] Əgər göstərilən elementlərin varlığı baxımından məsələyə yanaşsaq, onda BMT, MAQATE, ÜTT, QATT və ixtisaslaşmış qurumun hər biri ayrıca beynəlxalq təşkilat kimi qiymətləndirilməlidir. Buradan belə nəticə çıxır ki, BMT sistemin ayrıca bir vahididir. Sistem isə beş manqadan ibarətdir. Lakin burada da müəyyən ziddiyyətlər meydana çıxır. Deyək ki, MAQATE bir manqanı təşkil etdiyi halda, 14 ixtisaslaşmış

[1] Блищенко И.П. Бикулов А.В. Координация деятельности в системе ООН / Советский ежегодник международного права. 1988. М., 1989, с.138

[2] Международные организации системы ООН: Справочник. 1990, с.127

[3] Моравецкий В. Функции международной организации. М. 1976, с.49



qurum başqa bir manqa şəklində birləşdirilir. Halbuki, hər bir ixtisaslaşmış qurum MAQATE, yaxud QATT və ya ÜTT ilə eyni səviyyədə durur. BƏT, FAO, ÜST, BVF kimi təşkilatların ixtisaslaşmış qurumlar adı altında çoxtərkibli struktur manqa şəklində birləşdirilməsi bu təşkilatların funksiya, fəaliyyət, quruluş və BMT ilə rabitə oxşarlıqlarından irəli gəlir. Əslində isə hər bir qurum BMT sisteminin ayrıca vahidi sayılmalıdır. Bu fakt sistemə daxil olan təşkilatların hüquq subyektliyi prinsipi ilə təsdiq edilə bilər. Beynəlxalq təşkilatın hüquq subyektliyi və hüquq qabiliyyəti həcmi onun nizamnaməsində təyin olunur. "Hüquq subyektliyinin mövcudluğu təşkilatın beynəlxalq münasibətlər sisteminin elementi keyfiyyətinə malik olmasını sübut edən obyektiv beynəlxalq hüquqi əsasdır. Bu əsas təşkilatın fəaliyyətini, onun dövlətlərlə və digər beynəlxalq təşkilatlarla əlaqələrini təmin edir.

Beynəlxalq təşkilatların hüquq subyektliyi dərəcəsi onların fəaliyyəti və funksiyalarına görə məhdudlaşdırıla bilir. Bu baxımdan onlar beynəlxalq münasibətlərdə iştirak səviyyələrinə əsasən bir-birindən fərqlənirlər. BMT ilə hər hansı digər beynəlxalq təşkilatı müqayisə etməklə bu fərqi müəyyənləşdirmək mümkündür. İstər hüquq subyektliyi, istərsə də beynəlxalq münasibətlərdə iştirak dərəcəsi BMT sisteminə daxil olan təşkilatları təyin etmək üçün kriteriya rolunu oynaya bilməz. Deyilənləri ümumiləşdirərək, biz BMT sisteminə daxil olan beynəlxalq təşkilatları müəyyənləşdirmək üçün iki əlaməti əsas götürməyə üstünlük veririk: 1) beynəlxalq təşkilat anlayışını təyin edən dörd prinsipin ödənməsi; 2) beynəlxalq təşkilatın BMT ilə üzvi bağlılığı. Burada göstərilən ikinci əlamət beynəlxalq təşkilatın BMT-nin orqanlarından biri ilə bilavasitə rabitədə olmasını bildirir. Qeyd etmək lazımdır ki, BMT sistemində rəsmi qaydada bir-birindən asılı olmayan qurumlar çoxdur. Ümumiyyətlə, 100-dən artıq belə qurum qeyd olunur.

İxtisaslaşmış qurumları özünəməxsusluğu ilə fərqləndirən başlıca cəhətlərdən biri, qeyd etdiyimiz kimi, BMT ilə əlaqələrinin müəyyən qisminin BMT-nin Nizamnaməsində təsbit olunmasındadır.

BMT ilə ixtisaslaşmış qurumlar arasındakı qarşılıqlı münasibətlərin hüquqi əsasları digər sənədlərdə də əksini tapır. İxtisaslaşmış qurumların nizamnamələri, konvensiya və təsis aktlarında da bu münasibətlərin mexanizmi tətbiq olunur.

İxtisaslaşmış qurumların BMT ilə əlaqələrinin və qarşılıqlı münasibətlərinin tənzimlənməsində ikitərəfli sazişlər də mühüm rol oynayır. Y.A.Şibayeva bu sazişlərə daxil edilən altı başlıca məsələni ayırır: 1) qarşılıqlı nümayəndəlik; 2) BMT-nın məsləhətləri; 3) məlumat və sənədlərin, hesabatların (məruzələrin) mübadiləsi, məsələlərin gündəliyə daxil edilməsi; 4) xidmət heyəti haqqında razılaşma; 5) büdcə və maliyyə məsələləri üzrə qarşılıqlı münasibətlər; 6) fəaliyyət müddəti.[1] Göstərilən məsələlər ayrı-ayrı ikitərəfli sazişlərdə müxtəlif şəkildə həll oluna bilər. Bütün bunlar BMT sistemi təşkilatlarının BMT ilə əlaqələrinin hüquqi əsaslarının kompleksini əhatə edir. Qeyd etmək lazımdır ki, BMT ilə sisteminin digər təşkilatları arasındakı qarşılıqlı münasibətlərin hüquqi əsasları müqayisəli şəkildə tam öyrənilməmiş və mübahisəli cəhətlərinə görə diqqəti özünə çəkən beynəlxalq hüquq problemlərindən biridir. Bununla yanaşı, BMT sistemi təşkilatlarının BMT ilə qarşılıqlı əlaqələrinin bir neçə cəhəti üzərində dayanmaq zəruridir. Elmi ədəbiyyatlarda, o cümlədən BMT-nın nəşrlərində ixtisaslaşmış qurumların bilavasitə İqtisadi və Sosial Şura ilə, MAQATE və ÜTT-nin Baş Məclislə əlaqəli olması qeyd edilir. Lakin BMT ilə ayrı-ayrı ixtisaslaşmış qurumlar arasında bağlanmış sazişləri tədqiq etdikdə istisna hallarla üzləşirik. Məsələn, ÜPİ-nin BMT ilə bağladığı sazişin 10-cu maddəsində Baş Məclisin İttifaqın Konqresinə büdcə məsələləri üzrə tövsiyələr vermək səlahiyyəti nəzərdə tutulur. Yaxud BMT və BƏT arasındakı sazişdə Baş Məclisin təşkilatın inzibati şurasına tövsiyə vermək hüququ qeyd olunur. Bütün bunlar ixtisaslaşmış qurumlarla Baş Məclis arasında birbaşa əlaqələrin mövcudluğunu göstərir. BMT-nin bir sıra proqram və orqanları Baş Məclislə İqtisadi və Sosial Şuranın birgə fəaliyyət dairəsinə girir, məsələn, YUNİSEF, BMT QAKİ,

[1] Шибаева Е.А. Специализированные учреждения ООН. М., 1966.с 48-51



YUNEP, BMTİP və s. Belə proqram və orqanların həyata keçirdiyi tədbirlər bir çox hallarda müxtəlif ixtisaslaşmış qurumlarla ya əlaqələndirilir, ya da birgə hazırlanır. Belə olan təqdirdə, ixtisaslaşmış qurumun müəyyən fəaliyyət proqramı çərçivəsində bilavasitə Baş Məclislə rabitəyə girməsi tam hüquqi əsaslar zəminində baş verir. Buradan belə nəticə çıxarmaq olar ki, BMT sistemi təşkilatları ilə BMT-nin əsas orqanları arasında əlaqə iki xətt üzrə gedir: 1) müvafiq hüquqi sənədlərlə nəzərdə tutulmuş əlaqə xətti; 2) fəaliyyət prosesində meydana çıxan əlaqə xətti. Hər iki əlaqə forması zəruri mahiyyət daşıyır. Lakin ikinci xətt üzrə rabitə daimi xarakterli olmayıb, müəyyən mütəhərrikliyə malikdir. Zaman baxımından bu mütəhərriklik tezliyi ilə səciyyələndirilə bilər. Yəni müəyyən vaxtda rabitə güclü, başqa bir zaman fasiləsində isə nəzərə çaprmayan, qırılan proses kimi özünü göstərəcəkdir. Deyilənlər BMT sisteminə daxil olan təşkilatların, xüsusən ixtisaslaşmış qurumların BMT-nin əsas orqanları ilə əlaqəsinə aiddir.

Qeyd etmək lazımdır ki, BMT sistemi nə qədər mürəkkəb təşkilat olsa da, hazırkı şəraitdə onun orqanları və təşkilatları arasında fəaliyyəti qarşılıqlı əlaqələndirmə məsələləri həmişə dəqiq yerinə yetirilir.

BMT orqanları ilə onun sisteminə daxil olan təşkilatlar arasında əlaqələr mövcud olduğu kimi, müxtəlif təşkilatların özləri də qarşılıqlı əməkdaşlıq tədbirlərini həyata keçirirlər. Bəzi hallarda bu bir təşkilatın öz funksiyalarını həyata keçirərkən məsələyə kompleks yanaşmaqla digər quruma aid işə yardım göstərməsi şəklində üzə çıxır. Bütün bu hallar konkret araşdırmalar tələb edir və ayrı-ayrı regionlar, dövlətlər üçün fərqli xüsusiyyətlərə malikdir. Göstərilən cəhətlər BMT sistemi təşkilatları və orqanları arasında əlaqələrin real faktlar zəminində öyrənilməsinin daha məqsədəuyğun olduğunu bir daha təsdiq edir.

İxtisaslaşmış qurumların ümumi səciyyəsinin tədqiqi və politoloji təhlili prosesində əldə olunmuş nəticələri qısa şəkildə aşağıdakı kimi ümumiləşdirə bilərik.

-«İxtisaslaşmış qurumlar» anlayışı ilk dəfə BMT Nizamnaməsində təsbit olunmuşdur. Buna baxmayaraq, bu

dövlətlərarası təşkilatlar beynəlxalq inzibati ittifaqların hüquqi varisləridir. İlk belə inzibati ittifaqlar XIX əsrdə yaradılmışdı.

-dövlətlərarası münasibətlərdə meydana çıxan və müxtəlif sahələrə aid olan məsələlərin vahid prinsiplər əsasında həllinin vacibliyi ixtisaslaşmış qurumların yaradılmasını zəruriləşdirmişdir. Bununla yanaşı, həmin qurumların dunyanın ən böyük təşkilatı ilə sıx əlaqədə olması zəruri sayılmışdır. Müstəqil beynəlxalq təşkilatlara məxsus bütün elementlərə malik olmaqlarına baxmayaraq, bu qurumlar BMT ilə bağlılığına görə avtonom dövlətlərarası təşkilatlardır. BMT Nizamnaməsinin 57-ci maddəsi ilə səciyyələnən ixtisaslaşmış qurumlar bu təşkilatla əlaqələrinə və beynəlxalq siyasi prosesdə iştiraklarına görə spesifik xüsusiyyətlərə malikdırlər.

-ixtisaslaşmış qurumların dörd əsas səciyyəvi cəhəti və yalnız onlar üçün xaraktkrık olan bir sıra əlamətləri vardır;

-ixtisaslaşmış qurumların fəaliyyət sahələri, funksiyaları və səlahiyyətləri dövlətlərarası çoxtərəfli müqavilə ilə təyin olunur. hazırda BMT-nın 18 ixtisaslaşmış qurumu vardır. Ümumdünya Bankı ixtisaslaşmış qurumu dord təşkilatdan ibarətdir;

-beynəlxalq siyasi prosesin gedişində BMT-nin təşəbbüsünə əsasən, marağı olan dövlətlər yeni ixtisaslaşmış qurumlar yarada bilər.

-qurumlar müxtəlif sahələr üzrə ixtisaslaşsalar da, onların fəaliyyəti qarşılıqlı əlaqələndirilir. İxtisaslaşmış qurumları sahələr üzrə 7 qrupa ayırmaq mümkündür. Sənaye, kənd təsərrüfatı və maliyyə sahəsində ixtisaslaşmış qurumları iqtisadi qrupda birləşdirmək olar,

-BMT-nın hər bir ixtisaslaşmış qurumunun öz yaranma tarixi, məqsədləri, funksiyaları, strukturu, fəaliyyət prinsipləri vardır,

-ixtisaslaşmış qurumların bir-biri və BMT sisteminin digər təşkilat və orqanları ilə əlaqələri müxtəlif formalarda özünü göstərə bilər.

BMT-nin ixtisaslaşdırılmış qurumları təyinatından asılı olmayaraq idarəetmə mexanizmi və struktur baxımından demək olar ki, eynitiplidir ki, bu ilk növbədə onların hər birinin



müvafiq fəaliyyət sahələrindəki funksiya və prinsiplərlə, məqsəd və vəzifələrlə müəyyən edilir.

İxtisaslaşdırılmış qurumların ali orqanları, bir qayda olaraq, Konqress, Baş konfrans və ya Məclisdən ibarətdir. Bu orqanlar təşkilata strateji rəhbərliyi həyata keçirir, onun büdcəsini, strukturunu müəyyənləşdirir və seçkili icra orqanlarını seçir.

İxtisaslaşdırılmış qurumların icra orqanları əsasən İnzibati Şura, İcraiyyə Şurası və Müdirlər Şurasından ibarətdir. Şuralar təşkilata cari rəhbərliyi həyata keçirir, proqram və layihələr hazırlayır, tövsiyələr verir və ali orqanlar qarşısında cavabdehlik daşıyırlar. Bu orqanların müvafiq komitə və komissiyalar yaratmaq və ya bunların yaradılması haqqında ali orqan qarşısında məsələ qaldırmaq səlahiyyətləri var.

İxtisaslaşdırılmış qurumların strukturuna daxil olan müxtəlif orqan, komitə, komissiya və işçi qruplarının fəaliyyətini baş katiblik, katiblik və ya bürolar həyata keçirirlər.

BMT strukturları, o cümlədən də ixtisaslaşdırılmış qurumlar daim inkişafda və təkmilləşdirilməkdədirlər. Zamanın nəbzini tutmaq mövcud reallıqlara cavab vermək, müxtəlif tədbir və əməliyyatların sürətlə həyata keçirilməsini təmin etmək üçün BMT təsisatları kifayət qədər çevik və qətiyyətli olmalıdır.

**Yoxlama sualları:**

1.Müasir beynəlxalq hüquqda ixtisaslaşmış qurumlar anlayışı necə şərh edilir?

2.İxtisaslaşdırılmış qurumların səciyyəvi xüsusiyyətləri.

3.İxtisaslaşdırılmış qurumların BMT strukturları (BM və EKOSOS-la) əlaqələri.

4.BMT Nizamnaməsinin ixtisaslaşdırılmış qurumlarla bağlı müddəaları.

5.İxtisaslaşdırılmış qurumların hüquqi təbiəti.

6.İxtisaslaşdırılmış qurumların idarəetmə mexanizmi.

# VI. KƏND TƏSƏRRÜFATI XARAKTERLİ İXTİSASLAŞMIŞ QURUMLAR (FAO; İFAD)

## §1. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO)

Planetin əhali artımının şəhərlərə istiqamətlənməsinə baxmayaraq, "Dünya kəndinin" taleyi daim BMT-nin diqqət mərkəzində duran problemlərdəndir. Müharibədən sonrakı ilk illərdə ərzaq problemi olduqca aktual olduğu üçün bu sahəyə diqqət təsadüfi deyildi. Bir tərəfdən müharibə nəticəsində bərbad vəziyyətə düşmüş kənd təsərrüfatını dirçəltmək, digər tərəfdən kəskinləşməkdə olan ərzaq problemini həll etmək üçün dövlətlərin həmrəyliyi tələb olunurdu. Məhz bu zərurət 1945-ci il oktyabrın 16-da Kvebek (Kanada) konfransında BMT Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) meydana gəlməsini şərtləndirdi. 1981-ci ildən etibarən "16 oktyabr" Ümumdünya Ərzaq Günü kimi qeyd edilir.

Nizamnaməyə görə, FAO-nun başlıca məqsədləri aşağıdakılardır:

-planet xalqlarının qidalanması və həyat şəraitinin yüksəldilməsi;

-kənd təsərrüfatı məhsuldarlığının yüksəldilməsi, ərzağın bölüşdürülməsi sisteminin və kənd təsərrüfatı məhsullarının yaxşılaşdırılması;

-kənd əhalisinin rifah halının və həyat şəraitinin yüksəldilməsi;

-dünya iqtisadiyyatının inkişafının dəstəklənməsi və aclıqla mübarizəyə yardım göstərilməsi.

FAO-nun strukturuna aşağıdakı orqanlar daxildir:

-Konfrans;

-Şura;



-Regional şöbələr və əlaqə bürosu;

-Baş direktor;

-Katiblik.

FAO-nun ali orqanı Konfrans hesab edilir. Konfranslar iki ildə bir dəfə keçirilir, təşkilatın fəaliyyət istiqamətləri, strategiya və taktikasını müəyyənləşdirir, büdcəsini təsdiq edir, Şura üzvlərini və baş direktorunu seçir. Konfrans üç komissiya yaradır:

-birinci komissiya ərzaq və kənd təsərrüfatı mallarının istehsalı, ticarəti və istehlakı ilə bağlı məsələləri öyrənir və müvafiq tövsiyələr verir;

-ikinci komissiya FAO-nun daimi orqanlarının fəaliyyəti ilə məşğul olur;

-üçüncü komissiya isə statistik məlumatlar hazırlayır, zərərvericilərlə mübarizə, ərzağın koloriliyi, kənd təsərrüfatı istehsalının təbii fəlakətlərdən qorunması və s. kimi məsələlərlə məşğul olur.

Sessiyalar arasındakı dövrdə FAO-nun fəaliyyətinə Şura rəhbərlik edir, Şura 49 üzv dövlətin nümayəndələrindən təşkil olunur, onun başlıca vəzifəsi kənd təsərrüfatının vəziyyəti haqqında icmallar hazırlamaq, FAO-nun üzvü olan hökumətlərə tövsiyələr vermək, kənd təsərrüfatı ilə bağlı hökumətlərarası ticarət sazişlərinin vəziyyəti və inkişaf perspektivlərini öyrənməkdən ibarətdir. Şura beş komitəyə bölünür:

-kənd təsərrüfatı departamenti;

-ərzaq departamenti;

-balıqçılıq departamenti;

-meşəçilik departamenti;;

-ümumdünya ərzaq təhlükəsizliyi departamenti.

FAO katibliyi yeddi departamentdən ibarətdir, ona 6 il müddətinə seçilmiş baş direktor rəhbərlik edir. Hazırda təşkilatın üzvləri 170 dövlətdən və Avropa İttifaqından ibarətdir, mənzil qərargahı 1949-cu ildən etibarən Romada (İtaliya) yerləşir.

FAO-nun fəaliyyətinin genişləndirilməsində və dinamik inkişafında regional büro və şöbələr mühüm rol oynayırlar. Hazırda təşkilatın Afrikada (Akkra/Qana), Asiya-Sakit okean

regionunda (Banqkok/Tailand), Avropada (Roma/İtaliya), Latın Amerikasında (Santyaqo/Çili), Yaxın Şərqdə (Qahirə/Misir) regional şöbələri, Şimali Amerikada isə (Vaşinqton və Nyu Yorkda) əlaqə büroları fəaliyyət göstərir.

FAO-nun maliyyələşdirilməsi mənbələri də olduqca genişdir. Belə ki, üzvlük haqları ilə yanaşı, təşkilatın maliyyələşdirilməsində BMT İnkişaf Proqramı, Dünya Bankı və Qəyyumluq Fondunun vəsaitləri mühüm rol oynayır.FAO regionlar üzrə eyni vaxtda 1800 layihəni həyata keçirir. FAO İnvestisiya Mərkəzi isə inkişaf etməkdə olan ölkələrə investisiyaların qoyuluşu ilə məşğul olur və bu məqsədlə ildə 2 milyon dollar vəsait xərcləyir.

FAO yarandığı gündən dünya ərzaq ehtiyatının yaradılması, aclıqla mübarizə, "artıq məhsulun" başqa regionlara verilməsi və s. ilə ciddi şəkildə məşğul olur. BMT Baş Məclisinin 1960-cı il XV sessiyası ABŞ nümayəndə heyətinin təklifi ilə "artıq məhsulun" ehtiyacı olan regionlara paylanması məsələsini müzakirə edərək 1946 saylı "ümumdünya aclıqla mübarizə proqramı" adlandırılan sənəd qəbul etdi. Proqram 5 illik dövr üçün nəzərdə tutulsa da, sonrakı dövrlərdə növbəti beşilliklər üçün uzadıldı və hal-hazıradək fəaliyyət göstərir. 40 il ərzində aclıqla mübarizə proqramının fəaliyyəti nəticəsində "üçüncü dünya" ölkələrində aclıqdan əziyyət çəkən əhalinin sayı 50%-dən 20%-ə ensə də, bununla belə, BMT-nın məlumatına görə, hazırda dünyada aclıq çəkən əhalinin sayı 800 milyon nəfərdən yuxarıdır.

BMT-nin aclıqla mübarizə proqramına uyğun olaraq FAO "xüsusi ərzaq təhlükəsizliyi proqramı" qəbul etmişdir ki, həmin proqram 86 ölkəni əhatə edir və dünya əhalısinin böyük hissəsi bu ölkələrdə yaşayır. Proqram müxtəlif eksperimentlərdən fermerlik fəaliyyətinədək bütün sahələri əhatə edir.

1996-cı ildə Romada FAO-nun ərzaq təhlükəsizliyinin təmın olunması ilə bağlı Ümumdünya görüşü keçirildi. Görüşdə dünyanın 186 dövlətinin nümayəndələri iştirak edirdilər. Görüşdə dünya ərzaq təhlükəsizliyinə dair Bəyannamə və Fəaliyyət Planı qəbul edildi ki, bu sənədlərə görə 2015-ci il



üçün aclığın ıki dəfə azaldılması nəzərdə tutulurdu. Yeddi bənddən ibarət fəaliyyət planı eyni zamanda iştirakçı dövlətlərin üzərinə bu sahədə ciddi öhdəliklər qoyurdu.

Birinci aclıqla mübarizə beşilliyi (1961-1965) üçün nəzərdə tutulan 400 mln. dollar problemin həllinə ciddi təsir edə bilməzdi, məhz buna görə, 1963-cü ıldə FAO-nun XII konfransında Ümumdünya Ərzaq Proqramının yaradılması haqqında qərar qəbul edildi. Proqram eksperiment xarakterli olub, üç illik dövrü əhatə edirdi. İlk üçillikdə proqrama 94 mln. dollar xərcləndi. 1966-cı ilin sonunda Ümumdünya Ərzaq Proqramı daha üç illiyə prolonqasiya edildi və müvafiq dövlətlərarası komitə yaradıldı. 1974-cü ildə həmin proqram dünyanın müxtəlif ölkələrində 53 mln. nəfəri əhatə edirdi. Son üç onillik ərzində ərzaq proqramı çərçivəsində 90 ölkəyə 14 mlrd. dollar məbləğində yardım edilmişdir.

## §2. Beynəlxalq Kənd Təsərrüfatının İnkişaf Fondu (İFAD)

1974-cü ildə keçirilmiş Ümumdünya Ərzaq Konfransı BMT-nin aclıqla mübarizə və ərzaq proqramlarının qloballığını nəzərə alaraq yeni ixtisaslaşdırılmış qurumun yaradılmasını zəruri hesab etdı və 1976-cı ildə BKİF-Beynəlxalq Kənd Təsərrüfatının İnkişaf Fondu (İFAD) təsis edildi. FAO-nun fəaliyyətinə baxmayaraq Afrika, Asiya və Latın Amerikasının kənd təsərrüfatında yoxsulluq və aclıqla mübarizənin səmərəliliyini artırmaq məqsədilə yaradılan Fond 1977-ci il dekabrın 15-dən etibarən fəaliyyət göstərməkdədir. Hazırda fond öz sıralarında 157 dövləti birləşdirir, iqamətgahı Romadadır (İtaliya).

BKİF üzvləri üç kateqoriyaya bölünürlər:

-birinci kateqoriyaya inkişaf etmiş donor ölkələr daxildir, bunlar 22 dövlətdən ibarətdir.

-ikinci kateqoriyaya inkişaf etməkdə olan donor ölkələr daxildir, bunlar 12 OPEK üzvü olan dövlətdən ibarətdir.

-üçüncü kateqoriyaya isə inkişaf etməkdə olan donor ölkələr, o cümlədən Azərbaycan Respublikası daxildir, bunlar

123 dövlətdən ibarətdir.

Nizamnaməyə görə, Fondun strukturuna aşağıdakılar daxildir:

-Müdirlər Şurası;

-İcraiyyə Şurası;

-Prezident;

-Katiblik.

Müdirlər Şurası BKİF-in ali orqanı hesab edilir, hər bir ölkə büroda bir direktor və bir müavinlə təmsil edilir, lakin bütün kateqoriyalar səsvermədə bərabərhüquqlu hesab olunur. Şuranın sessiyaları ildə bir dəfə keçirilir, fövqəladə sessiyalar İcraiyyə Şurasının qərarı ilə keçirilə bilər.

İcraiyyə Şurası Fondun başlıca icra orqanı olub, 18 üzvdən (və 17 müavindən) təşkil olunur. Hər bir kateqoriya Şurada bərabərhüquqlu 6 üzvlə təmsil olunurlar, bunlar üç illiyə seçilir və fondun cari fəaliyyətinə rəhbərlik edirlər.

BKİF-in fəaliyyətinə Müdirlər Şurası tərəfindən 4 illiyə seçilən Prezident rəhbərlik edir, ona vitse-prezident kömək edir. Prezident eyni zamanda İcraiyyə Şurasının sədri hesab edilir.

BKİF-in Katibliyi üç departamentə bölünür:

-iqtisadiyyat və planlaşdırma;

-layihələrin idarə olunması;

-ümumi məsələlər.

Fondun maliyyə vəsaitləri onun üzv ölkələrinə iki yolla verilir: a) digər dövlətlərarası təşkilatlarla birgə maliyyələşdirmə; b) öz layihələrini maliyyələşdirmə.

Kreditlər müəyyən şərtlər daxilində verilir, lakin bunları yalnız BKİF-in üzvü olan dövlətlər ala bilərlər. Fondun əsas yardım obyektləri kiçik müəssisələr, köçəri heyvandarlar, torpaqsız kəndlilər, kənd rayonlarının qadınları, əhalinin kasıblaşmış təbəqələridirlər.

BKİF meydana gəldiyi dövrdən hal-hazıradək dünyanın 111 ölkəsində 4899 layihəni maliyyələşdirmiş və bu məqsədlə 5,67 mlrd. dollar vəsait xərcləmişdir. Birgə maliyyə tədbirlərinə 11,85 milyard dollar xərclənmişdir ki, bunun nəticəsində 30 mln. yoxsul kəndli təsərrüfatı (200 mln. əhali) dirçəldilmişdir.



**Yoxlama sualları:**

1.BMT-nin kənd təsərrüfatı xarakterli ixtisaslaşdırılmış qurumlarının səciyyəsi.

2.FAO-nun fəaliyyət prinsipləri, məqsəd və vəzifələri.

3.FAO-nun quruluşu: rəhbər və icra orqanları.

4.BMT kənd təsərrüfatı xarakterli ixtisaslaşdırılmış qurumlarının dünya iqtisadiyyatının inkişafında rolu.

5.XX yüzilliyin 70-ci illərində dünyada sosial-iqtisadi vəziyyət və İFAD-ın yaradılmasını şərtləndirən amillər.

6.İFAD-ın məqsəd və vəzifələri, strukturu: rəhbər və icra orqanları.

7.IFAD üzvlərinin kateqoriyaları, üçüncü kateqoriyalı ölkələrə güzəştlər.

8.FAO və İFAD-ın dünyada aclıqla mübarizəyə qarşı fəaliyyət proqramları.

9.Azərbaycan Respublikasının kənd təsərrüfatı xarakterli ixtisaslaşdırılmış qurumlarla əməkdaşlığı.

## VII. MALİYYƏ QURUMLARININ SƏCİYYƏSİ. BEYNƏLXALQ VALYUTA FONDU (BVF) MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏRİ SİSTEMİNDƏ

BMT-nin yaradılması antihitler koalisiyası üzvlərinin birgə fəaliyyəti nəticəsində mümkün oldu, lakin birgə mübarizə "Atlantik Xartiyası"nda nəzərdə tutulmuş sahələrdəki əməkdaşlığın nəticəsi olub, iqtisadi sahədə də fəaliyyət birliyini zəruri edirdi. Digər tərəfdən, dünya müharibəsinin vurduğu zərəri aradan qaldırmaq üçün dünya dövlətlərinin iqtisadi həmrəyliyi və külli miqdarda kapital tələb olunurdu. Təsadüfi deyildi ki, hələ müharibənin gedişində iqtisadi əməkdaşlıq məsələləri müttəfiqlər arasında geniş müzakirə obyektinə çevrilmiş, 1944-cü ilin mayında Bretton-Vuds (ABŞ) iqtisadi konfransı məhz bu məqsədlə çağırılmışdı. Konfransda antihitler koalisiyasının üzvü olan 44 dövlət iştirak edirdi. Konfransın məqsədlərindən bəhs edən ABŞ-ın maliyyə naziri H.Morqentau göstərirdi ki, "məqsəd təkcə müharibə nəticəsində dağılmış Qərbi Avropanı bərpa etməkdən ibarət deyil, eyni zamanda iqtisadi potensialı zəif olan ölkələrdə sənaye və kənd təsərrüfatı istehsalının uğurlu inkişafını təmin etmək üçün uzunmüddətli maliyyə yardımı proqramlarının reallaşdırılmasından ibarətdir".

Beynəlxalq iqtisadi konfrans iki maliyyə orqanının – Beynəlxalq Valyuta Fondunun və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının yaradılması haqqında tarixi qərar qəbul etdi. Konfrans iştirakçıları "BVF haqqında saziş maddələri" və "BYİB haqqında Statutu" təsdiq etdikdən sonra hər iki qurumun strukturu və maliyyə mənbələri formalaşdırılmağa başladı. BVF 1946-cı ilin əvvəllərindən etibarən fəaliyyətə başladı.

Nizamnaməyə görə, BVF-in başlıca məqsədləri aşağıdakıladır:

-beynəlxalq valyuta əməkdaşlığının inkişafının dəstəklənməsi;



-beynəlxalq ticarətin genişlənməsi və balanslaşdırılmış şəkildə inkişafı üçün şəraitin yaradılması;

-valyuta kurslarının sabitliyinin təmin olunması, valyuta münasibətlərinin dəstəklənməsi və valyutanın devalevasiyasına imkan verilməməsi;

-çoxtərəfli ödənişlər sisteminin yaradılmasına yardım edilməsi, valyuta mübadiləsinə məhdudiyyətlərin aradan qaldırılması və bu yolla dünya ticarətinin inkişafına yardım edilməsi;

-üzv dövlətlərin iqtisadiyyatının inkişafına yardım etmək üçün müvəqqəti maliyyə vəsaitlərinin ayrılması;

-üzv dövlətlərin beynəlxalq ödəniş balanslarındakı kəsirin aradan qaldırılması.

Fondun funksiyaları aşağıdakılardır:

-davranış kodeksinə əməl olunması (və ya beynəlxalq valyuta siyasəti məsələlərində sıx əməkdaşlıq);

-valyuta sabitliyinin qorunması və maliyyə yardımlarının göstərilməsi;

-məsləhətləşmə və əməkdaşlıq.

BVF-in Nizamnaməsinə görə, təşkilata üzvlük bütün dövlətlərin üzünə açıqdır, lakin kvotaların miqdarı qeyri-məhdud olub, dövlətin iqtisadi imkanları ilə bağlıdır, daha çox kvotası olan dövlət daha çox səsə malik olur. Həmin kvotalar BVF-in kapitalını təşkil edir.

Fond 1947-ci ildən etibarən praktiki fəaliyyətə başlamışdır ki, bu zaman üzv dövlətlərin sayı 49, nizamnamə kapitalı isə 7721 mln. dollar olmuşdur. 1966-cı ildə Fond üzvlərinin sayı 105, kapitalı isə 20669 mln. dollar olmuşdur. Fondun başlıca kreditorları ilk dövrlərdə ABŞ və İngiltərə olmuşdur.

Hazırda BVF-in sıralarına 181 dövlət, o cümlədən Azərbaycan Respublikası da daxildir, maliyyə ehtiyatları 195 milyard dollardır. Iqamətgahı Vaşinqton (ABŞ) şəhərindədir.

BVF və Ümumdünya Bank qurumları bir-biri ilə sıx bağlıdır. Belə ki, BYİB-in üzvü ancaq BVF-in üzvü olan dövlət ola bilər. BMK, BIA və İTCA-nın üzvü isə ancaq BYİB üzvləri ola bilərlər. Beş maliyyə qurumunun hamısında səsvermənin eyni qaydası tətbiq olunur, belə ki, BVF-də hər bir üzv dövlət 250 səsə malikdir, əlavə hər 100 min üçün (pul vahidi nəzərdə tutulur) bir səs qazanmaq olar.

BMT maliyyə orqanları içərisində başlıca yeri BVF tutur. Nizamnaməyə görə, BVF-in strukturuna aşağıdakı orqanlar daxildir:

-Müdirlər Şurası, Müvəqqəti Komitə, İnkişaf Komitəsi;

-İcraiyyə Şurası;

-BVF-in Statistika Komitəsi;

-Bölüşdürücü direktor.

Fondun alı orqanı üzvləri 5 illiyə təyin olunan Müdirlər Şurasıdır. Şuraya üzv dövlətlərin hər birindən bir müdir və bir müavin daxil olur. Müdirlər və müavinləri, bir qayda olaraq, maliyyə naziri və Mərkəzi Bankın direktorundan ibarət olur. Şura ildə bir dəfə toplanır və BVF-də strateji rəhbərliyi həyata keçirir. Müdirlər Şurası öz səlahiyyətlərinin bir qismini İcraiyyə Şurasına həvalə etmək səlahiyyətinə malikdir.

Müdirlər Şurası öz üzvlərindən Müvəqqəti Komitə yaradır. Komitənin tərkibinə 24 icraçı direktor daxil olur, bunlardan 7-si Fondda daha çox kvotaya malik dövlətlərdən (Almaniya, İngiltərə, Çin, Fransa, Səudiyyə Ərəbistanı, ABŞ və Yaponiya) seçilir. Digər üzvlər isə ədalətli regional prinsip üzrə təyin edilirlər. Komitə ildə üç dəfə toplanır. İcraiyyə Şurasına müxtəlif xarakterli tövsiyələr verir və məruzələr hazırlayır.

İnkişaf Komitəsi və ya Birləşmiş Nazirlər Komitəsi Müvəqqəti Komitə ilə birlikdə Müdirlər Şurası üçün fond ehtiyatlarının real vəziyyəti haqqında tövsiyə və məruzə hazırlayır, inkişaf etməkdə olan ölkələrə yardımların istiqamətlərini müəyyənləşdirir və s.

İcraiyyə Şurası (və ya İcraçı Direktorlar Şurası) – 24 icraçı və bir bölüşdürücü (sədr) direktordan ibarətdir. Bölüşdürücü direktor fondun cari əməliyyatlarına rəhbərlik edir, lakin onun səs vermək hüququ yoxdur (istisna halları mövcuddur). İcraiyyə Şurasının 5 üzvü (ABŞ, Almaniya, Yaponiya, Fransa, İngiltərə) ən çox kvotaya malik olduqları üçün təyin edilirlər, qalan 19 üzv isə 2 ildən bir digər dövlətlər tərəfindən seçilirlər. Bir qayda olaraq, Şura üzvləri arasında konsensus mövcud olduğu üçün məsələlər demək olar ki, səsverməyə çıxarılmır. İcraçı direktorlar müxtəlif təyinatlı komitə və komissiyalar yaratmaq hüququna malikdirlər.

BVF-nin Statistika Komitəsi inkişaf etmiş və etməkdə olan ölkələrin nümayəndələrindən təşkil olunur və ödəniş balansları ilə bağlı statistikanı Fondun inkişaf istiqamətləri ilə əlaqələndirir.



Ənənəyə görə, Avropanı təmsil edən bölüşdürücü direktor İcraiyyə Şurası tərəfindən təyin edilir və fondun gündəlik fəaliyyətinə rəhbərlik edir. BVF-in personalı 110 ölkəni təmsil edən 2600 əməkdaşdan ibarətdir.

Fondun fəaliyyətini genişləndirmək və daha səmərəli etmək üçün 1987-ci ildə genişləndirilmiş fond yaradıldı ki, onun başlıca vəzifəsi BVF üzvü olan inkişaf etməkdə olan dövlətlərə daha güzəştli şərtlərlə kreditlərin (bir qayda olaraq üç və ya beş illik) verilməsindən ibarətdir. İnkişaf komitəsi isə bu sahədə fəaliyyəti daha da gücləndirərək 1996-cı ildə BVF/BYİB proqramı hazırladı ki, həmin proqrama görə, böyük xarici borca malik yoxsul ölkələr Fondun və Bankın maliyyə yardımlarından istifadə etmək imkanı qazanırdı.

BVF-in texniki yardım proqramlarının hazırlanması və reallaşdırılması aşağıdakı orqanlar vasitəsilə həyata keçirilir:

-Texniki Yardım Katibliyi;

-Valyuta və Mübadilə Əməliyyatları Departamenti;

-BVF İnstitutu – Vaşinqtonda fəaliyyət göstərir və yüksək ixtisaslı Fond mütəxəssislərinin hazırlanmasını həyata keçirir.

Beynəlxalq Valyuta Fondu ildə iki dəfə "Dünya iqtisadiyyatının perspektivləri" adlı məcmuənin nəşrini həyata keçirir.

**Yoxlama sualları:**

1.Bretton - Vudsda antihitler koalisiyası üzvlərinin görüşü (1944) və beynəlxalq valyuta orqanının yaradılması.

2.Valyuta siyasəti sahəsində beynəlxalq əməkdaşlığın əlaqələndirilməsi.

3.BVF-nin yaradılması, məqsəd və vəzifələri.

4.BVF-nin strukturu: rəhbər və icra orqanları.

5.BVF-ə üzvlük qaydaları və üstün kvotaya malik dövlətlər.

6.BVF-nin sabit valyuta siyasəti və beynəlxalq nəticələri.

7.BVF və beynəlxalq iqtisadi layihələrin maliyyələşdirilməsi.

8.Azərbaycan Respublikasının BVF ilə əlaqələri və əməkdaşlığı.

## VIII. ÜMUMDÜNYA BANK QURUMLARI (BYİB, BMK, BİA, İTCA)

Ümumdünya Bank qurumları bir-biri ilə sıx bağlı olan 4 təsnifatdan ibarətdir:

-Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB);

-Beynəlxalq Maliyyə Korporasiyası (BMK);

-Beynəlxalq İnkişaf Assosiasiyası (BİA),

-İnvestisiya Təminatları üzrə Çoxtərəfli Agentlik (İTCA).

Bir sıra tədqiqatlarda Ümumdünya Banklar qrupuna aid edilən qurumların içərisində Beynəlxalq İnvestisiya Mübahisələrinin Nizamlanması Mərkəzinin (BİMNM) də adı çəkilir.[1] Mərkəzin əsası 1966-cı ildə qoyulmuşdur. Başlıca məqsədi investisiya mübahisələrini nizamlamaqdan ibarətdir, 119 üzv dövləti öz sıralarında birləşdirir (1995).

ÜBQ-nin başlıca məqsədləri aşağıdakılardır:

-inkişaf etməkdə olan ölkələrdə yoxsulluğun azaldılması məqsədilə iqtisadi inkişafın dəstəklənməsi;

-həmin ölkələrdə uzunmüddətli inkişaf layihələri və proqramlarını maliyyələşdirməklə istehsalın artırılmasına yardım göstərilməsi.

ÜBQ-nin ali rəhbər orqanı Müdirlər Şurasıdır, Şura üzv dövlətlərin nümayəndələrindən təşkil olunmuşdur. İcraçı-direktorlar Şurası ÜBQ-yə cari rəhbəriiyi həyata keçirir, ümumi xarakterli bank əməliyyatlarının hamısına isə Direktorlar Şurası rəhbərlik edir, Şuraya ÜBQ-nin Prezidenti sədrlik edir. Lakin ÜBQ-yə üzv olmaq üçün ilk növbədə BVF-yə üzv olmaq lazımdır. Vahid mərkəzdən idarəçilik banklar qrupunun fəaliyyətini olduqca intensivləşdırır. BMK, BİA və İTÇA BYİB-in törəmə təşkilatları hesab edilirlər.

Ümumdünya Bankının illik mətbu orqanı "Dünya İnkişafı haqqında məruzə" adlanır. ÜBQ-nin iqamətgahı Vaşinqtondadır (ABŞ).

[1] Шреплер Х.А. Международные Экономические Организации. М., 1999. с.66



### §1. Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB)

Məlum olduğu kimi, BVF-nin və BYİB-in yaradılması haqqında təsis sənədləri 1944-cü ildə antihitler koalisiyası üzvlərinin Bretton-Vuds (ABŞ) konfransında qəbul edilmişdir. BYİB-in yaradılması haqqında statutu 28 dövlət imzalamışdı. Yarandığı dövrdən indiyədək BYİB-in Nizamnaməsi dəfələrlə dəyişdirilmişdir.

ÜBQ-yə daxil olan qurumlar strukturca eyni tiplidir, bu isə vahid mərkəzdən idarəçilik prinsipinə əsasən fəaliyyət göstərməyə imkan verir.

ÜBQ iki tip bank kreditləşməsini həyata keçirir:

-birincisi, iqtisadiyyatı bazar iqtisadiyyatına yaxın olan inkişaf etməkdə olan ölkələrə faizsiz kreditlərin və borcların verilməsi;

-ikincisi, iqtisadiyyatı bazar iqtisadiyyatına yaxın olan yoxsul ölkələrə faizsiz borc və kreditlərin verilməsi (yoxsul ölkələrə kreditlərin verilməsi siyasəti ilə Beynəlxalq İnkişaf Assosiasiyası (BİA) məşğul olur).

1995-ci il Nizamnamə dəyişikliklərindən sonra BYİB-in işinin 4 başlıca istiqaməti müəyyənləşdirildi:

1) İnkişaf etməkdə olan ölkələrin tələbatlarını ödəmək məqsədilə ehtiyatların cəlb edilməsi üçün yeni sazişin imzalanmasına çalışmaq;

2) Göstərilən siyasəti dəyişməz şəkildə davam etdirmək üçün Bankın inkişafına vahid yanaşma;

3) Dünya Bankı tərəfdaşlarının dairəsini qlobal və regional səviyyələrdə genişləndirmək və möhkəmləndirmək;

4) Bankın fəaliyyətini təkmilləşdirmək.

BYİB-in maliyyə vəsaitləri üzvlük haqları, investisiyalar və dünya kapital bazarı (fond əməliyyatlarının 90 faizi) hesabına yaradılır. Aradan keçən dövr ərzində Bank cəmi 11 milyard dollar cəlb etsə də, 280 milyard dollar kredit vermişdir. Bankın yoxsul ölkələrə etdiyi yardımların miqdarı 7,4 milyard dollardan yuxarıdır.

Yarandığı dövrdən indiyədək BYİB-in Afrika, Asiya, Avropa və Latın Amerikasında regional missiyaları fəaliyyət

göstərir. Təkcə 1994-cü il ərzində Bank Vaşinqton, London, Paris və Tokio şəhərlərində öz informasiya mərkəzlərini təsis etmişdir.

## §2. Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB)

BYİB-in törəmə təşkilatı olan BMK-nın əsası XX yüzilliyin 50-ci illərində qoyulmuşdur. Milli-azadlıq hərəkatlarının gedişində istiqlaliyyət qazanmış ölkələrə maliyyə yardımları vasitəsilə həmin ölkələrdə xarici kapitalın mövqelərini möhkəmləndirməyə çalışan ABŞ hökuməti bu məqsədlə 1950-ci ilın martında "Rokfeller komitəsi"nin yaradılmasına sərəncam verildi. Komitə 1951-ci ilin martında prezidentə hazırladığı məruzədə qeyd edirdi ki, ABŞ-dan xüsusi kapitalın inkişaf etməkdə olan ölkələrə axını ikiqat və ya üçqat artırılmalıdır, bu, geridə qalmış ölkələrin iqtisadiyyatının yüksəldilməsinə həlledici təkan verə bilər.[1] Şübhəsiz, "soyuq müharibə" şəraitində "üçüncü dünya" ölkələrinə belə kapital axınının nəzərdə tutulması dünyada gedən geosiyasi mübarizə ilə sıx bağlı idi. Lakin yeni beynəlxalq təşkilatda ABŞ-ın mövqelərinin nə dərəcədə möhkəm olması məsələsi ABŞ diplomatlarını ciddi narahat etdiyi üçün başlamış danışıqlar bir neçə il uzandı.

1955-ci ilin iyununda BYİB-in İstanbul sammitində Beynəlxalq Maliyyə Korporasiyasının yaradılması haqqında qərar qəbul edildi. Nəzərdə tutulurdu ki, bu təşkilat BYİB-in yardımçı təşkilatı olmalıdır. BMK-nın orqanları 1956-cı ilin iyulundan etibarən yaradılmağa başladı. Digər bank qruplarından fərqli olaraq BMK başlıca diqqətini sənayeyə yönəltmişdi. Struktur baxımdan BMK BYİB-lə eyniyyət təşkil edirdi, lakin müəyyən spesifik xüsusiyyətlərə də malik idi.

BMK xüsusi bölmənin inkişafına aşağıdakı yollarla yardım edirdi:

-maliyyələşdirilmə (1997-ci ildə Direktorlar Şurası ümumi dəyəri 6,7 milyard dollar olan 276 layihəni təsdiq etmişdi);

-ehtiyatların səfərbərliyə alınması;

[1] Специализированные учреждения ООН в современном мире. М., 1967.с.236



-risklərin idarə olunması;

-texniki yardım və məsləhətləşmələrin keçirilməsi;

-xüsusi bölmənin qiymətləndirilməsi məsələləri üzrə BYİB-lə əməkdaşlıq strategiyasının işlənib hazırlanması.

BMK-nın Afrikada, Asiyada, Avropa və Latın Amerikasında 27 nümayəndəliyi fəaliyyət göstərir. Təşkilatın fəaliyyətini intensivləşdirmək və daha səmərəli etmək üçün 1986-cı ildə onun tərkibində üç yeni orqan yaradıldı:

-xarici investisiyalar üzrə məsləhət xidməti – başlıca məqsədi xarici kapitaldan alınan uzunmüddətli tələbatın ödənilməsini təmin etməkdən ibarətdir, onun fəaliyyətinə bilavasitə BMT-nin vitse-prezidenti başçılıq edir.

-Afrika qitəsi üçün layihələrin işlənməsi üzrə məsləhət bürosu-başlıca məqsədi Afrikada xüsusi bölmənin və sahibkarlığın fəaliyyətinin genişləndirilməsi üçün müxtəlif tövsiyə və layihələrin təklif edilməsindən ibarətdir.

-Sakit okeanın cənub hissəsi ilə bağlı layihələrin işlənməsi üzrə məsləhət bürosu – BMK-nın üzvü olan 9 ada dövlətində bank işinin təşkili və aparılması məsələləri ilə məşğul olur.

## §3. Beynəlxalq İnkişaf Assosiasiyası (BİA)

II dünya müharibəsindən sonra başlanmış milli-azadlıq hərəkatı dünyanın siyasi xəritəsinin tamamlanması üçün geniş imkanlar açdı. Milli-azadlıq hərəkatlarının qələbəsi nəticəsində dünyanın siyasi xəritəsinə 127 dövlətin adı əlavə olundu ki, bunlardan 17-si 1960-cı ildə "Afrika ilində" istiqlaliyyət əldə etmiş dövlətlər idi.

"Üçüncü dünya" ölkələri Yer planetinin ən varlı hissələrində mövcud olmalarına baxmayaraq, ağır sosial-iqtisadı və ərzaq problemləri ilə üzləşmişdilər. Lakin bu ölkələrin dünya siyasətində artan rolu inkişaf etmiş Qərb ölkələrini, habelə SSRİ-ni həmin regionu ciddi nəzarət altında saxlamağa məcbur edirdi, üstünlük isə, bir qayda olaraq, iqtisadi sahədə cəmləşmişdi. Lakin nə BYİB, nə də BMK göstərilən problemi təkbaşına həll etmək imkanına malik deyildi. Məhz belə şəraitdə BYİB-in yeni törəmə təşkilatının – Beynəlxalq İnkişaf

Assosiasiyasının (BİA) yaradılması zərurəti meydana gəldi. Yeni təşkilatın başlıca məqsədi Asiya, Afrika və Latın Amerikasının istiqlaliyyət qazanmış ölkələrinə faizsiz borc və kreditlərin verilməsindən ibarət olmalı idi. Amerikan iqtisadçısı Ceyms Uiver göstərirdi ki, xarici kapital yeni müstəqillik qazanmış ölkələrdə nüfuz qazanmaq istəyirsə, elə sahələrə yönəldilməlidir ki, bunlardan götürüləcək gəlir tamamilə az olacaq, ya da olmayacaqdır, təhsil və sağlamlıq sistemləri, infrastrukturun qurulması belə sahələrdəndir.

BYİB-in qərarına əsasən, 1960-cı ilin noyabrında BİA fəaliyyətə başladı. Onun başlıca məqsədi zəif iqtisadiyyata malik Asiya, Afrika və Latın Amerikası ölkələrində iqtisadi inkişafı maliyyələşdirməkdən ibarət idi. Struktur baxımdan BİA BYİB-lə eyniyyət təşkil etsə də, funksiya, məqsəd və vəzifələrinə görə fərqlənirdi. BYİB-in prezidenti eyni zamanda BİA-nın da prezidenti hesab edilirdi. BYİB-dən fərqli olaraq BİA inkişaf etməkdə olan ölkələrə tamamilə faizsiz borc və kreditlər verirdi, lakin BİA-nın başlıca maliyyə mənbəyini üzvlük haqları təşkil edirdi. Bu baxımdan üzv ölkələr iki qrupa bölünürdülər:

-birincisi, iqtisadi baxımdan daha inkişaf etmiş ölkələr, bunlar 26 ölkədən ibarət olub Bankın maliyyə vəsaitlərini başlıca hissəsini ödəyənlərdir. Belə ki, 34 dövlət BİA-da 18 milyard dollar məbləğində vəsait yerləşdirməyi öhdələrinə götürmüşdülər.

-ikincisi, az inkişaf etmiş ölkələr, bunlar 134 ölkədən ibarətdir, Azərbaycan Respublikası da bu qrupa daxildir.

BİA-ya üzvlük bütün dövlətlər üçün açıqdır, hazırda üzvlüyə namizədlər içərisində üç ölkə var: Bruney, Ukrayna, Yuqoslaviya.

BİA əməkdaşları 4 bölmədə fəaliyyət göstərirlər: əməliyyat, maliyyələşdirilmə, siyasət, planlaşdırma və tədqiqatlar. Hazırda BİA 50 ölkədə 100-dən çox layihəni maliyyələşdirir: layihələr əsasən ibtidai təhsil, sağlamlığın qorunması, suyun təmizlənməsi, əkinçilik, ekologiyanın mühafizəsi və s. sahələrə aiddir.

BİA-nın kredit siyasəti digər Ümumdünya Bankı Qruplarından əsaslı şəkildə fərqlənir. Bu kreditlər, bir qayda



olaraq, adambaşına gəliri 1305 dollardan az olan ölkələrə verilir (əsasən 800-925 dollar arasında). Kreditlər 35-40 illik müddətə faizsiz verilir, ödənilməsinə isə 10 ildən sonra başlanır. Hazırda Cənubi Saxara ölkələri BİA-nın başlıca diqqət mərkəzindədir. Lakin kreditlər verilərkən dövlətin ərazisi, yeridilməkdə olan iqtisadi siyasətin səmərəliliyi, kredit yönümlülüyü və s. xüsusiyyətlər nəzərə alınır.

## §4. İnvestisiya Təminatları üzrə Çoxtərəfli Agentlik (İTÇA)

Dünya Bank qrupuna daxil olan 4-cü təşkilat İTÇA-dır. 1988-ci ilin əvvəllərindən etibarən fəaliyyətə başlayan İTÇA-nın başlıca məqsədi xüsusi xarici kapitalın inkişaf etməkdə olan ölkələrə axınının həvəsləndirilməsi, bu investisiyalara siyasi riskin əhəmiyyətli dərəcədə azaldılması və xüsusi kapitalın sığortasının gücləndirilməsindən ibarətdir.

Məlum olduğu kimi, inkişaf etməkdə olan ölkələr sosial-siyasi sarsıntılar, vətəndaş müharibələri, etnosiyasi münaqişələrlə zəngin olduğu üçün bu ölkələrə xüsusi kapital axınının yönəldilməsi həmişə böyük çətinliklərlə üzləşirdi. İTÇA-nın yaradılması nəticəsində "ikiqat" sığortalanmaq imkanı qazanmış xüsusi kapitalın "üçüncü dünya" ölkələrinə axınının güclənməsi həmin ölkələrin iqtisadi inkişafına müsbət təsir göstərdi. BMT statistikasına görə, hazırda dünyanın 40 inkişaf etmiş ölkəsinə 15 milyard dollar miqdarında xarici kapital yönəldilmişdir.

Quruluşuna görə, İTÇA Dünya Bankına daxil olan digər qurumlarla eyni tiplidir. BYİB-in prezidenti həm də İTÇA-nın prezidentidir, BİA əməkdaşları İTÇA-da əvəzçilik yolu ilə fəaliyyət göstərirlər.

Hazırda İTÇA-ya 134 dövlət, o cümlədən Azərbaycan Respublikası da daxildir. İqamətgahı Vaşinqtondadır (ABŞ).

İTÇA-nın qarantiyaları 4 sahəni əhatə edir.

İTÇA-nın fəaliyyətinin ildən-ilə genişlənməsi ilk növbədə xidmət müxtəlifliyi və texniki yardımların gücləndirilməsi, siyasi riskin azaldılması ilə bağlıdır. XX yüzilliyin 90-cı illərinin ortalarından etibarən investisiya potensialının həvəsləndirilməsinin

vüsəti elektron vasitələrin təkmilləşdirilməsi, investisiya imkanlarının artmasına imkan yaratdı ki, məhz bunun nəticəsində İTÇA-nın strukturunda digərlərindən fərqli olaraq yeni orqan – investisiya marketinq xidməti meydana gəldi. Tədricən təkcə inkişaf etməkdə olan ölkələr yox, həm də keçid iqtisadiyyatlı ölkələr İTÇA-nın fəaliyyət sahəsinə daxil olmaqdadırlar.

**Yoxlama sualları:**

1.Dünya Bank qrupuna daxil olan qurumların səciyyəsi.

2.Ümumdünya Bankının məqsədləri, funksiyaları və fəaliyyət mexanizmi.

3.ÜBQ-nın quruluşu: rəhbər və icra orqanları.

4.BYİB və beynəlxalq kapital axınlarının istehsal məqsədlərinə yönəldilməsi.

5.BYİB-in dünya kapital bazarı ilə əlaqələri, öhdəçilik və kreditləri.

6.BYİB-in BVF və digər maliyyə qurumları ilə əlaqələri.

7.BYİB-in regional şöbələri və informasiya mərkəzləri.

8.Azərbaycan Respublikasının BYİB ilə əməkdaşlığı.

9.BMK-nın yaradılması, məqsəd və vəzifələri, investisiya siyasəti.

10.BMK-nın quruluşu.

11.Xarici investisiyaların istiqamətlənməsinə dair 1986-cı il qərarı və beynəlxalq nəticələri.

12.Azərbaycan Respublikasının BMK ilə əməkdaşlığı.

13.“Afrika ili” və dünyanın siyasi xəritəsinin yeni dövlətlərlə tamamlanması.

14.BİA-nın strukturu: rəhbər və icra orqanları.

15.BİA-nın kredit siyasəti və nəticələri.

16.BİA-nın üstün istiqamətli layihələri və dünyanın iqtisadi inkişafı.

17.Azərbaycan-BİA əlaqələri və əməkdaşlığı.

18.Azərbaycan-İTÇA əlaqələri və əməkdaşlığı.

19.İTÇA və inkişaf etməkdə olan ölkələrə maliyyə yardımlarının istiqamətlənməsi.

20.İTÇA-nın strukturu və fəaliyyət mexanizmləri.



# IX. BMT-nin SƏNAYE VƏ METEOROLOGİYA YÖNÜMLÜ QURUMLARI (YUNİDO və ÜMT)

## §1. BMT Sənaye İnkişafı Təşkilatı (YUNİDO)

Elmi-texniki tərəqqinin nailiyyətləri, sənayeləndirmənin uğurları və yeni beynəlxalq iqtisadi qaydanın formalaşmağa başlaması BMT-nin bu sahəyə sistemli marağını şərtləndirmiş oldu. 1966 cı il noyabrın 17-də BMT BM-nin 21-ci sessiyasının qərarı ilə Baş Məclisin orqanı olan Sənaye İnkişafı Təşkilatı (YUNİDO) yaradıldı.

YUNİDO-nun fəaliyyətinin ilk 8 illik dövrü 1975-ci ilin sonlarında Baş Məclisdə müzakirə olunduqdan sonra onun nizamnaməsinin hazırlanması üçün xüsusi komitə yaradıldı və YUNİDO-nun BMT-nin ixtisaslaşmış qurumuna çevrilməsi qərara alındı. Nizamnamə 1979-cu il aprelin 8-də Baş Məclis tərəfindən təsdiq olundu və imzalanmaq üçün açıq elan edildi. BMT ilə YUNİDO arsında saziş 1985-ci il dekabrın 17-də qüvvəyə mindikdən sonra YUNİDO BMT-nin ixtisaslaşmış qurumuna çevrildi.

YUNİDO-nun başlıca məqsədi inkişaf etməkdə olan ölkələrdə sənayenin inkişafına yardım göstərmək, sənayeləşdirməni sürətləndirmək və yeni beynəlxalq iqtisadi qaydanı bərqərar etməkdən ibarətdir.

Nizamnaməyə görə inkişafın 5 başlıca məqsədi aşağıdakılardan ibarətdir:

-sənaye və texnoloji inkişaf;

-insan ehtiyatlarından daha səmərəli istifadə;

-sənayeləşdirmə yolu ilə ədalətli inkişaf;

-sənaye inkişafı və ətraf mühitin qorunması;

-sənaye investisiyaları və texnoloqiya sahəsində beynəlxalq əməkdaşlıq.

Göstərilən məqsədlərlə yanaşı YUNİDO Baş Konfransı 1993-cü ildə “Yaund bəyənnaməsi” və ya YUNİDO islahat

Proqramını qəbul etdi ki,onun başlıca tələblərinə aşağıdakılar daxildir:

-inkişaf etmiş ölkələrin sənayeləşdirilməsinə xüsusi diqqət verilməsi;

-Afrikanın üstün sənaye inkişafı;

-Struktur islahatlarının dəstəklənməsi, sənayenin özəlləşdirilməsi və sağlamlaşdırılması;

-İnkişaf etmiş ölkələrdə iqtisadi və texniki əməkdaşlığın təşkili və gücləndirilməsi;

-Digər beynəlxalq maliyyə təşkilatları və institutları ilə əməkdaşlığın və əlaqəli fəaliyyətin dəstəklənməsi.

-YUNİDO-nun funksiyaları:

-Sənaye texnologiyası üzrə əlaqələndirici mərkəz;

-Sənaye əməkdaşlığı sahəsində vasitəçilik;

-Sənaye məsələləri üzrə məlumat mərkəzi;

YUNİDO-nun başlıca orqanları aşağıdakılardır:

1)Baş konfrans – üzv dövlətlərin nümayəndələrindən ibarət olub ikı ildə bir dəfə keçirilir, təşkilatın proqram və büdcəsini müəyyənləşdirir, Şura üzvlərini seçir, Baş direktoru təyin edir və s.

2)Sənaye inkişafı üzrə Şura – konfransın sessiyaları arasındakı dövrdə rəhbərlik və nəzarəti həyata keçirir, ildə bir dəfədən az olmayaraq çağırılır. Şura 53 üzvdən ibarətdir, üzvlər 4 illiyə və regional nümayəndəliyə əsasən seçilir (inkişaf etməkdə olan ölkələr –33, Qərbi Avropa ölkələri – 15, Şərqi Avropa ölkələri isə – 5 nümayəndə ilə Şurada təmsıl olunurlar).

3)Baş direktor – 4 illiyə seçilir və təkrar seçki hüququna malikdır. O katibliyə rəhbərlik edir, YUNİDO-nun fəaliyyətinə məsuliyyət və rəhbərlik səlahiyyətlərinə malikdir.

Katiblik ümumi idarə departamenti (baş direktorun bürosu və xarici əlaqələr) və direktorların başçılıq etdıyi 8 şöbədən (insan ehtiyatları və sahibkarlığın inkişafı, əməliyyatların dəstəklənməsi, fondların yaradılması, mılli inkişafın strategiya və proqramının işlənməsi, informasiya və tədqiqatlar, sənaye və ətraf mühit, investisiya və texnologiya, müdiriyyət) ibarətdir.

4)Hazırda YUNİDO –nun iki şöbğəsi fəalıyyət göstərir, bunlar əlaqə büroları olub, Nyu-York və Cenevrədə yenrləşmişdir. Hər iki şöbə layihələrin əlaqələndirilməsini həyata keçirirlər.



YUNİDO-nun iki köməkçi orqanı fəaliyyət göstərir:

Proqram və Büdcə komitəsi, ixtisaslaşmış komitələr.

Proqram və büdcə Komitəsi iki illik səlahiyyətə malik olan 27 üzvdən ibarətdir. Bunlardan 15-i inkişaf etməkdə olan ölkələrdən, 9-u Qərbi Avropa, 3-ü isə Şərqi Avropa ölkələrindən seçilirlər. Komitə Şuraya müvafiq tövsiyyələr hazırlayır, layihələrin yaradılmasında iştirak edir.

Konfrans və Şura zərurət yarandıqda ixtisaslaşmış köməkçi komitələr yaratmaq hüququna malıkdir.

YUNİDO hökumətlər, təşkilatlar və xüsusi bölmə ilə birgə işləmək səlahiyyətinə malik olduğu üçün xüsusi xidmətlər (konsaltinq, elmi tədqiqatların aparılması və s.) göstərir, layihələr hazırlayır, form və konfranslar keçirir, xüsusi proqramların yaradılmasında iştirak edir (məs. Afrikanın 1993-2002-ci illərdə sənaye inkişafına dair İkinci beşillik planı), regional proqramları və əməkdaşlığı dəstəkləyir, sərbəst iqtisadi zonaların yaradılması layihələrini hazırlayır və həyata keçirir və s.

YUNİDO inkişaf etməkdə olan ölkələrə investisiya qoyuluşlarını həyata keçirmək üçün Afinada, Kölndə, Milanda, Parisdə, Seulda, Tokioda, Vaşhinqtonda, Surikdə, Vyanada və başqa şəhərlədə bürolara malikdir. Bunlarla yanaşı, beynəlxalq sənaye əsməkdaşlığı üzrə Moskva və Pekində ikı mərkəz fəaliyyət göstərir.

YUNİDO öz üzvlərinin məcburi üzvlük haqları və könüllü ödədikləri haqlar, BMT İnkişaf Proqramını dotasiyası, eləcə də özünün sənaye inkişafı fondu hesabına maliyyələşir. Hazırda YUNIDO-nun sıralarına 166 dövlət daxildir. Təşkilatın iqamıətgahı Vyana şəhərındədir.

YUNİDO-nun fəaliyyətində Azərbaycan Respublikasına da xüsusi diqqət verilir. Onun Respublikamızda sənaye inkişafına və ətraf mühitin qorunmasına, Sumqayıt şəhərinin sənaye infrostrukturunun qurulmasına dair layihələri YUNİDO-Azərbaycan əməkdaşlığının uğurlu perspektivlərini proqnozlaşdırmağa imkan verır.

## §2. Ümumdünya Meteorologiya Təşkilatı (ÜMT)

İnsan təbiətin bir hissəsi olduğu üçün atmosferdə baş verən proseslər, təbiətin şıltaqlıqları, kataklizmlər, təbii mühit insan cəmiyyətinin inkişafına təsir göstərmiş və buna görə də atmosfer hadisələrinin öyrənilməsi ictimai fikri həmişə məşğul etmişdir. Böyük coğrafi kəşflər, dünya ticarətinin yaranması və inkişafı, dəniz nəqliyyatının inkişafı və s. tədricən coğrafi xəritələrlə yanaşı sinoptik xəritələrin də meydana çıxmasını şərtləndirirdi. Bu proses dünya kapitalist təsərrüfat sisteminin inkişafı ilə əlaqədar XIX yüzilliyin ikinci yarısında xüsusilə güclənmişdi.

Atmosfer proseslərinin dövlətlərarası faydalı əməkdaşlıq əsasında öyrənilməsi zərurəti 1873-cü ildə Cenevrədə beynəlxalq Konvensiyanın qəbulu ilə nəticələndi ki, buna əsasən Beynəlxalq Meteorologiya Təşkilatı yaradıldı. Təşkilat 1878-ci ildən etibarən fəaliyyətə başladı və 1947-ci ilədək müstəqil fəaliyyət göstərdi.

Beynəlxalq Meteorologiya Təşkilatının BMT-nin ixtisaslaşmış qurumuna çevrilməsi 1947-ci ilə təsadüf etsə də, 1950-ci il martın 23-də Ümumdünya Meteorologiya Təşkilatı adı altında fəaliyyətə başlamış, lakin BMT Baş Məclisi yalnız 1951-ci il dekabrın 20-də ÜMT-nin statusunu müəyyənləşdirən müqaviləni təsdiq etmişdir. BMT BM-nin qərarına əsasən hər il martın 23-ü beynəlxalq Meteorologiya günü kimi qeyd edilir.

ÜMT-nin başlıca məqsədləri aşağıdakılardır:

-meteoroloji, hidroloji və coğrafi müşahidələrin həyata keçirilməsi üçün stansiyalar şəbəkəsinin qurulmasında qlobal əməkdaşlığa yardım göstərilməsi;

-meteoroloji mərkəz və xidmətlərin yaradılması və istismarının təşkil edilməsi;

-meteoroloji xidmətlərin sürətli mübadiləsi üçün sistemlərin yaradılması və istismarının təşkil edilməsi;

-meteoroloji müşahidələrin həvəsləndirilməsi və nəticələrin işıqlandırılmasında eynilik;

-meteoroloqiyanın aviasiyada, gəmiçilikdə, su ehtiyatları probleminin həllində, kənd təsərrüfatında və digər fəaliyyət sahələrində tətbiqinin genişləndirilməsi;



-meteoroloji tətqiqatların, kadrlar hazırlığının, beynəlxalq əməkdaşlığın əlaqələndirilməsi tədbirlərinin həvəsləndirilməsi.

ÜMT-nin başlıca proqramları aşağıdakılardır:

**Ümumdünya hava xidməti**- YMT-nin bütün digər proqramları üçün baza olub, müşahidə və əlaqə vasitələrinin fəaliyyətini əlaqələndirir, meteoroloji və hidroqrafik informasiyanın yayılmasını təşkil edir. Proqram tropik qasırğalarla mübarizə üçün dünyanın 50-dən çox ölkəsində müşahidə qurğularının fəaliyyətinə yardım edir.

**Ümumdünya iqlim proqramı**- BMT-nin ətraf mühitin qorunması ilə bağlı proqramı və tədbirləri planetdə iqlim problemlərinin öyrənilməsi sahəsində meteoroloji biliklərin yayılmasını, meteoroloji tədqiqatların əlaqələndirilməsini zəruri etmişdir. ÜMT-nin bu daimi proqramı iqlim dəyişikliklərinin insanlara və təbiətə təsirinin müxtəlif aspektlərinin öyrənilməsinə, ətraf mühitin qorunmasına, flora və faunanın inkişafına yardım göstərilməsini dəstəkləyir və həvəsləndirmə tədbirləri görür.

**Ozon təbəqəsi üzərində qlobal müşahidə sistemi**- bu sistem planetimiz üzərində Yerdən və kosmosdan qurulmuş 140-dan çox müşahidə sistemindən ibarətdir. Əldə olunmuş informasiyanın təhlili və mübadiləsi sahəsində proqramın fəaliyyəti mühüm əhəmiyyət kəsb edir.

**Tropik siklonlar proqramı** - əhalini atmosferdə baş verən proseslərdən vaxtında xəbərdar etmək və fövqəladə halların baş verməsinin qarşısını vaxtında almaq məqsədini reallaşdırır. Proqram BMT-nin təbii fəlakətlərin yaratdığı təhlükənin azaldılmasına yönəldilmiş BMT-nin onillik proqramlarının (1990-1999, 2000-2009) tərkib hissəsidir.

Göstərilən proqramlarla yanaşı ÜMT-nin qlobal xarakterli aşağıdakı proqram və tədqiqatları da fəaliyyət göstərir: Atmosferin tədqiqi və inkişafı, meteoroloji biliklərin əməli tədqiqi, hidroloji və su ehtiyatları proqramı, Tropik okeanların və Yer atmosferinin öyrənilməsi, texniki əməkdaşlıq, ÜMT kadrlarının hazırlanması və s.

ÜMT-nin quruluşuna aşağıdakı orqanlar daxildir:

1) Ümumdünya Meteorologiya Konqresi- ÜMT-nin ali orqanıdır. Konqres dörd ildə bir dəfə çağrılır, təşkilatın ümumi

iş prinsiplərini müəyyənləşdirir, rəhbər və icra orqanlarını, o cümlədən ÜMT-nin prezidenti və 3 vitse-prezidentini, İcra şurası üzvlərini seçir və Baş Katibi təyin edir.

2) İcra Şurası – 26 milli meteoroloji və hidroloji xidmət, direktorlarından. Konqresin prezidenti və vitse-prezidentindən, habelə regional təşkilatların 6 prezidentindən ibarətdir (cəmi 36 üzvdən). Şura ildə iki dəfədən az olmayaraq toplanır, Konqresin qəbul etdiyi qərarların həyata keçirilməsinə dair cari və konkret işləri görür, proqram və büdcə məsələlərinə baxır.

3) Regional cəmiyyətlər-Afrika, Asiya, Avropa, Şimali və Mərkəzi Amerika. Cənubi Amerika, Sakit okeanın Cənub-Qərb hissəsindən ibarət 6 regional təşkilatdan iböarətdir. Bu cəmiyyətlər Konqersə və ya İcra Şurasına tövsiyyələr hazırlayır, onların qərarlarını həyata keçirir, regional meteoroloji məsələlərə baxırlar.

4) Texniki komissiyalar – ÜMT-nin tərkibində umumi meteorologiya, Yer atmosferinin öyrənilməsi uçun metod və cihazları, iqlimi və su məsələlərini öyrənən ekspert və alimlərdən ibarət 8 texniki komissiya fəaliyyət göstərir. Toplanmış iformasiya tövsiyyələr şəklində Konqresə və ya İcra Şurasına təqdim edilir.

5) Katiblik – təşkilatın fəaliyyətinin əlaqələndirilməsinə və idarəetmə işlərinə baxır. Katiblik ÜMT-nin başlıca informasiya mərkəzidir, onun fəaliyyətinə YMT-nın prezidentinə tabe olan Baş Katib başçılıq edir.

Hazırda ÜMT-nın fəaliyyətində 179 dövlət və 6 ərazi iştirak edir. mənzil-qərargahı Cenevrə (İsveçrə) şəhərindədir.

Azərbaycan Respublikası ÜMT ilə yaxından əməkdaşlıq edir. Respublikamız 1993-cü il sentyabrın 3-dən ÜMT-nın üzvüdür.

Azərbaycanda meteoroloji məsələlərlə Dövlət Hidrometeorologiya Komitəsi (3 minə yaxın mütəxəsissədən ibarətdir) məşğul olur. Komitənin məlumatları milli, regionlar və qlobal xarakter daşıyır. Belə ki, onun topladığı informasiyalar dünya məlumat bürosuna, ÜMT-nın regional şöbələrinə, Rusiya. Gürcüstan və Xəzər ətrafı ölkələrə verilir.

Azərbaycanın bütün ərazisində güclü meteoroloji şəbəkə fəaliyyət göstərir: Naxçıvan MR hidrometeorologiya idarəsi, 14



ərazi idarə hidrometeoroloji, 78 hidrometeoroloji stansiya (o cümlədən sinoptik xəritədə nömrəsi 860 olan Bakı Meteoroloji Stansiyası), 140 hidrometroloji müşahidə məntəqəsi, Xəzər dənizinin hidrometrologiyasının öyrənən 6 elmi-tədqiqat gəmisi və s. Hidrometeoroloji xidmətlə bağlı 12 stansiya və 17 müyşahidə məntəqəsi isə erməni quldurları tərəfindən işğal olunmuş ərazilərdə qalmışdır.

ÜMT-nin yardımı ilə Azərbaycanda meteoroloji xidmət şəbəkəsi texniki cəhətdən yenidən qurulmaqdadır.

**Yoxlama sualları:**

1.YUNİDO və yeni dünya iqtisadi sisteminin yaradılması problemi.

2.YUNİDO-nun məqsəd və vəzifələri

3.YUNİDO-nun quruluşu: rəhbər və icra orqanları, onların fəaliyyət mexanizmi.

4.YUNİDO-nun fəaliyyət istiqamətlərinin səciyyəsi.

5.YUNİDO beynəlxalq sənaye əməkdaşlığı mərkəzləri və bürolarının xarakteristikası.

6.YUNİDO-nun Afrika qitəsinin sənaye inkişafına dair onillik planları.

7.Asiya-Sakit okean regionunun sənaye inkişafına dair YUNIDO layihə və proqramları.

8.Azərbaycan Respublikasının YUNİDO ilə əməkdaşlığı və perspektivləri.

9.YUNİDO-nun Sumqayıt sənaye inkişafı proqramı.

10.Cenevrə Konvensiyası (1873) və atmosfer proseslərinin öyrənilməsi mərkəzinin yaradılması.

11.ÜMT-nin ixtisaslaşdırılmış quruma çevrilməsi.

12.ÜMT-nin məqsəd və vəzifələri.

13.ÜMT-nin quruluşu: rəhbər və icra orqanları.

14.ÜMT-nin fəaliyyət proqramları və onları reallaşdırılması.

15.ÜMT-nin regional qurum və texniki komitələri.

16.Ozon təbəqəsinin qorunmasına dair ÜMT proqramları və onların fəaliyyət sferasının genişlənməsi.

17.ÜMT-nin fəaliyyət perspektivləri.

18.Azərbaycan Respublikasının ÜMT ilə əməkdaşlığı.

# X. KOMMUNİKASİYA QURUMLARI

## §1. Beynəlxalq Mülki Aviasiya Təşkilatı (BMAT)

Antihitler koalisiyası üzvlərinin 1944-cü il Çikaqo görüşündə aviasiya sahəsində əməkdaşlığın genişləndirilməsini nəzərdə tutan Beynəlxalq Mülki Aviasiya Konvensiyası imzalandı ki, həmin konvensiyaya əsasən BMAT-ın əsası qoyuldu. Lakin BMAT BMT-nin ixtisaslaşmış qurumuna 1946-cı il 14 dekabr sazişinə əsasən 1947-ci il aprelin 4-də çevrildi.

Çikaqo Konvensiyasına görə, təşkilatın başlıca məqsədləri mülki aviasiyanın və dövlətlərarası aviasiya əlaqələrinin inkişafına yardım etməkdən, habelə beynəlxalq konvensiyaların hazırlanmasından, aviasiya texnikasının və beynəlxalq hava daşımalarının inkişafının planlaşdırılması və dəstəklənməsindən ibarətdir. Konvensiyanın II hissəsi BMAT-ın Nizamnaməsini təşkil edir.

Çikaqo Konvensiyası 1929-cu il Varşava Konvensiyasının müddəalarını əsas götürür. 1933-cü il martın 13-də qüvvəyə minmiş Varşava Konvensiyasının hazırda 140 iştirakçısı var. Konvensiya hava daşımalarına dair (yük və sərnişin) beynəlxalq hüquqi sənəd olub sonrakı hüquqi sənədlərin meydana gəlməsində mühüm rol oynamışdır. Varşava Konvensiyası 1955, 1961 və 1971-ci illərdə üç yeni protokolla tamamlandı. 1975-ci ildə isə Monrealda 4 protokol qəbul edildi ki, həmin protokolların əsasında 1999-cu ilin mayında Monreal Konvensiyası meydana gəldi. Bu konvensiya beynəlxalq hava daşımalarının unifikasiyası yolunda mühüm addım atmaqla yanaşı, BMAT-ın inkişafı yolunda yeni mərhələnin başlanğıcını qoydu, onun paraflanması prosesi hələ də davam edir.

BMAT-ın fəaliyyəti nəticəsində əgər XX yüzilliyin 60-cı illərinin ortalarında 170 beynəlxalq hava xətti mövcud idisə, yüzilliyin sonlarında bunların sayı 2,5 dəfə artmışdır. Göstərilən dövrdə (1947-1966) təşkilatın büdcəsi 2 mlrd. dolla-



ra bərabər idisə, yüzilliyin sonları üçün bu göstərici ildə 54,5 mln. dollar təşkil edirdi.

BMAT öz sıralarında 185 BMT üzvü olan dövlətləri birləşdirir və 7 regional büroya malikdir:

-Avropa bürosu (mərkəzi Paris şəhəri olmaqla);
-Afrika bürosu (mərkəzi Dakar);
-Yaxın Şərq bürosu (mərkəzi Qahirə);
-Cənubi Amerika bürosu (mərkəzi Lima);
-Asiya-Sakit okean bürosu (mərkəzi Banqkok);
-Şimali Amerika və Karib hövzəsi (mərkəzi Mexiko);
-Şərqi Afrika bürosu (mərkəzi Nayrobi).

BMAT-ın başlıca orqanı Məclisdir. Məclis üzv dövlətlərin nümayəndələrindən təşkil olunur, üç ildən bir çağırılır və təşkilatın fəaliyyəti ilə bağlı bütün sahələri əhatə edir.

BMAT-ın ali icra orqanı olan Şura 33 dövlətin nümayəndələrindən ibarət olub, Məclis tərəfindən seçilir. Şuraya Məclis tərəfindən üç il müddətinə seçilən prezident rəhbərlik edir. Şuranın sessiyaları ildə üç dəfədən az olmayaraq keçirilir.

Şuranın üzvü olan dövlətlər aşağıdakı üç kateqoriyaya bölünürlər:

-inkişaf etmiş hava nəqliyyatına malik olan dövlətlər;
-birinci kateqoriyaya daxil olmayan, lakin beynəlxalq mülki aviasiyanın inkişafına xüsusi diqqət verən ölkələr;
-ilk iki kateqoriyaya aid olmayan, lakin iştirakı ədalətli coğrafi bölgüyə görə zəruri olan dövlətlər.

BMAT strukturlarının fəaliyyəti onun daimi orqanı olan Katiblik tərəfindən əlaqələndirilir. Katibliyə Baş katib başçılıq edir ki, onun mənzil qərargahı Monrealdadır (Kanada).

Təşkilatın köməkçi orqanları bir komissiya və beş komitədən ibarətdir. Bunlar departamentlər adlandırılır və Katibliyin strukturuna daxildirlər:

-Aeronaviqasiya komissiyası;
-Avianəqliyyat komitəsi;
-Aeronaviqasiyanın dəstəklənməsi məsələləri üzrə birgə komitə;
-Maliyyə komitəsi;

-Mülki aviasiyanın fəaliyyətinə qeyri-qanuni müdaxilə məsələləri üzrə komitə.

BMAT-ın fəaliyyəti ilə bağlı bütün problemlər, beynəlxalq müqavilələrin imzalanması və s. hüquq komissiyasında baxılır, sonra isə Məclisin gündəliyinə çıxarılır. Məhz hüquq komitəsinin təşəbbüsü ilə hazırlanmış strateji plan 1992-ci ildə BMAT Məclisi tərəfindən qəbul edildi və hal-hazıradək qüvvədədir. 90-cı illərin əvvəllərindən etibarən yaranmış yeni şərait bir sıra beynəlxalq təşkilatlar kimi BMAT-ın da fəaliyyətində ciddi yeniliklərə səbəb oldu. Bu baxımdan "Açıq səma haqqında" 1992-ci il müqaviləsi xüsusi yer tutur. Müqaviləyə əsasən "qarşılıqlı etimad" hüdudunda üzv dövlətlərin təyyarələrinə bir-birlərinin əraziləri üzərindən uçuşlar keçirməyə, yerüstü obyektlərin şəkillərini çəkməyə, hava təftişlərini həyata keçirməyə icazə verilirdi. Məlum olduğu kimi, müasir beynəlxalq hüquqda kosmik məkanın aşağı sərhədi kimi dəniz səviyyəsindən 100-110 km-lik hündürlük qəbul edilmişdir, uçuşlar məhz bu sərhəd daxilində aparıla bilərdi.

ABŞ-da 2000-ci il sentyabrın 11-də baş vermiş terror aktından sonra hava gəmilərinin qeyri-qanuni ələ keçirilməsini məhkum edən 1970-ci il Haaqqa konvensiyasının hüdudları olduqca genişləndirildi, beynəlxalq hava cinayətkarlığına qarşı mübarizə tədbirləri, o cümlədən BMAT-ın rolu olduqca gücləndirildi. 2000-2002-ci illərdə ABŞ-ın Əfqanıstanda və İraqda beynəlxalq terrorizmə qarşı apardığı mübarizənin Azərbaycan tərəfindən dəstəklənməsi, bu məqsədlə hava sərhədlərinin açılması respublikamızın beynəlxalq nüfuzunun yüksəlməsində mühüm rol oynadı.

BMAT-ın üzvü olan Azərbaycan Respublikası onun fəaliyyətinin genişlənməsində, beynəlxalq naviqasiyanın inkişafında yaxından iştirak edir.

## §2. Beynəlxalq Dəniz Təşkilatı (BDT)

Dəniz nəqliyyatının inkişafı, dənizdə təhlükəsizlik məsələləri, nəqliyyat gəmilərinin toqquşması nəticəsində insan tələfatının qarşısının alınması, dəniz və okeanların flora və fau-



nasının qorunması hələ XIX yüzillikdə bir sıra beynəlxalq sənədlərin meydana gəlməsini şərtləndirmişdi. 1914-cü il yanvarın 20-də "Titanik" sərnişin gəmisinin məhvindən sonra Londonda "Dənizlərdə insan həyatının qorunması haqqında" ilk beynəlxalq Konvensiya imzalandı, lakin 1929 və 1948-ci illərdə həmin konvensiyaya xeyli dəyişikliklər edilsə də, hal-hazıradək mövcud olan son konvensiya 1960-cı ildə qəbul edilmiş London konvensiyasıdır.

XX yüzilliyin əvvəllərindən etibarən Beynəlxalq Dəniz Təşkilatının yaradılması ideyası olduqca populyar olsa da, Millətlər Cəmiyyətinin laqeyd münasibəti ucbatından reallaşmadı. Yalnız II dünya müharibəsindən sonra belə bir orqanın yaradılması məsələsi yenidən gündəliyə çıxarıldı. 1948-ci ildə EKOSOS-un təşəbbüsü ilə Cenevrədə BMT dəniz konfransı çağırıldı ki, konfrans dövlətlərarası dəniz məsləhət təşkilatının (DDMT) yaradılması haqqında qərar və təşkilatın Nizamnaməsini qəbul etdi.

DDMT-nin Nizamnaməsi 1958-ci il martın 17-də qüvvəyə mindi və təşkilat 1958-82-ci illərdə belə adlandırıldı. Lakin dünya okean və dənizlərindən istifadənin genişləndirilməsi 1973-cü ilin dekabrında BMT-nin dəniz hüququna dair III Beynəlxalq konfransının çağırılması ilə nəticələndi. Konfransın sonuna yaxın – 1982-ci il mayın 22-də DDMT-nin adı dəyişdirildi və BMT Beynəlxalq Dəniz Təşkilatı adlandırıldı. III Beynəlxalq konfrans 1982-ci il dekabrın 10-da dəniz hüququna dair Beynəlxalq Konvensiyanın imzalanması ilə başa çatdı. Bu vaxtdan etibarən hər il sentyabrın sonuncu günlərindən biri Beynəlxalq Dənizlər günü kimi qeyd edilməyə başlanmışdır.

1982-ci il Konvensiyasına əsasən BDT-nin başlıca orqanları aşağıdakılardır:

a) Məclis – BDT-nin üzvü olan 150 dövlətin nümayəndələrindən ibarət olub, təşkilatın proqram və büdcəsini qəbul edir, Şura üzvlərini və Şuranın Baş Katibini seçir.

b) Şura – BDT-nin başlıca icra orqanı olub, 32 dövlətin nümayəndələrindən 2 illiyə seçilir. Şura üzvləri üç kateqoriyaya bölünür və ədalətli coğrafi bölgü prinsipinə əsasən seçilirlər. Şura ildə iki dəfə öz sessiyalarını keçirir və təşkilatın cari fəaliyyətinə rəhbərlik edir.

v) Katiblik – BDT-nin bütün orqanlarının fəaliyyətini əlaqələndirir və 6 şöbədən ibarətdir:
-gəmilərin təhlükəsizliyi;
-dəniz aləminin təhlükəsizliyi;
-hüquqi məsələlər və beynəlxalq əlaqələr şöbəsi;
-konfranslar,
-texniki əməkdaşlıq;
-idarəçilik şöbəsi.
q) Baş komitələr:
-dənizdə təhlükəsizlik və hüquqi məsələlər komitəsi;
-dəniz aləminin müdafiəsi komitəsi (1974);
-texniki əməkdaşlıq komitəsi;
-beynəlxalq dəniz nəqliyyatı işinin asanlaşdırılması komitəsi.

Baş komitələrlə yanaşı, xüsusi məsələlərin həllini sürətləndirmək və asanlaşdırmaq üçün Şuranın nəzdində 11 alt komitə fəaliyyət göstərir ki, bunlar təşkilatın bütün fəaliyyət sahələrini əhatə edir.

BDT-nin fəaliyyəti haqqında informasiyaların hazırlanması və yayılması ilə Londondakı Mətbuat və İnformasiya Mərkəzi məşğul olur. Təşkilatın başlıca təhsil ocaqları isə aşağıdakılardır:

-Ümumdünya Dəniz Universiteti – 1983-cü ildə İsveçin Malta şəhərində yaradılmışdır; başlıca vəzifəsi yüksək ixtisaslı dənizçilik mütəxəssislərinin hazırlanması üçün ixtisasartırma kurslarının təşkilindən ibarətdir.

-Beynəlxalq Dəniz hüququ İnstitutu – 1989-cu ildə La-Valettedə (Malta) yaradılmışdır, dəniz hüququ sahəsində hüquqçu kadrların hazırlanması ilə məşğul olur.

-Beynəlxalq Dəniz Akademiyası – 1989-cu ildə Triyestdə (İtaliya) yaradılmışdır; başlıca fəaliyyət sahəsi müxtəlif dəniz fənnlərinə dair qısa müddətli ixtisaslaşdırılmış dəniz kurslarının təşkilindən ibarətdir.

BDT-nin XX yüzilliyin sonları üçün illik büdcəsi 58 mln. dollar, ştatı isə 300 nəfərdən ibarətdir. İqamətgahı Londonda (İngiltərə) yerləşir.



**Yoxlama sualları:**

1.Çikaqo konvensiyası (1944) və BMAT-ın yaradılması.
2.BMAT-ın məqsəd və vəzifələri.
3.BMAT-ın quruluşu: rəhbər və icra orqanları.
4.BMAT üzvü olan dövlətlərin üç kateqoriyası.
5.BMAT-ın regional bürolarının yaradılması və fəaliyyəti.
6.Beynəlxalq mülki aviasiyanın inkişafı və təhlükəsizliyinin təmin olunması sahəsində BMAT-ın rolu.
7.BMAT-ın 1992-ci il strateji fəaliyyət proqramının qəbulu.
8.Dəniz fəaliyyəti sahəsində beynəlxalq əməkdaşlığı şərtləndirən amillər.
9.Dövlətlərarası dəniz məsləhət təşkilatının yaradılmasına dair konvensiya.
10.BDT-nin yaradılmasının məqsəd və vəzifələri.
11.BDT-nin quruluşu: rəhbər və icra orqanları.
12.BDT-nin təhlükəsizlik, dənizlərin ekologiyasının qorunması, dənizlərdə əməkdaşlıq və s. sahələrə dair konvensiyaları və onların fəaliyyəti.
13.BDT-nin beynəlxalq təhsil ocaqları və onların fəaliyyəti.
14.Azərbaycan Respublikasının BMAT və BDT ilə əməkdaşlığı.

# XI. RABİTƏ QURUMLARI

## §1. Ümumdünya Poçt İttifaqı ( ÜPİ)

Dövlətlərarası əməkdaşlığın genişləndirilməsində mühüm əhəmiyyətə malık olan ÜPİ zamanın tələbatı nəticəsində 1874-cü ıldə yaradılmışdı.

ÜPİ-nin təsis edilməsi haqqında Bern konvensıyası ( Ümumı poçt ittifaqının yaradılması haqqında Müqavılə) 1875-cı ıl ıyulun 1-də qüvvəyə mindi. İttıfaq 1878-ci ıldən etıbarən indıkı adını daşıyır. Rusiya 1875-cı ildə Bern konvensıyasına qoşulmuşdur. Konvensiyada xüsusi olaraq qeyd edılırdı kı, ÜPİnin üzvü olan dövlətlər "vahıd poçt məkanı" yaradırlar.

II Dünya müharibəsindən sonra ÜPİ ilə BMT arasında əlaqələr 1947- ci il 4 iyul sazişinə əsasən həyata keçırılır (1948-ci ılin yanvarında qüvvəyə minmişdir).

ÜPİ-nin hüquqi əsasları ümumdünya poçt konqresləri tərəfindən qəbul edilmiş konvensiyalara əsasən qoyulmuşdur. 1957-cı ıl oktyabrın 3-də keçirılmış Ottava Poçt Konqresı Ümumdünya Poçt Konvensiyasını qəbul etdi. Konvensıya 1959-cu il aprelin 1-də qüvvəyə mındı. Lakın 1969-cu ıldə olmuş Tokio, 1974-cü ildə olmuş Lozonna, 1984-cü ıldə olmuş Hamburq, 1989-cu ildə olmuş Vaşınqton, 1994-cü ıldə olmuş Seul, 1999-cu ıldə olmuş Pekın Konfransları Konvensıyaya bır sıra əlavə və düzəlışlər etdi. Konvensıyanı ımzalayan dövlətlər "adi poçt" göndərişlərinin 8 növü, poçt xıdmətlərının ısə 7 növü üzrə konkret öhdəliklər götürürlər.

ÜPİ Nizamnaməsinin 1-cı maddəsınə görə, təşkılatın fəaliyyət prinsipləri aşağıdakılardan ıbarətdır:

-vahid poçt məkanının formalaşması,

-tranzit yollarının azad olması,

-vahd tarif qaydalarının tətbiqi.

ÜPİ –nin məqsədləri:



-poçt xidmətinin səmərəli işinin təşkil edilməsi yolu ilə xalqlar arasında əlaqələrin inkişaf etdirilməsinin həvəsləndirilməsi;

-ÜPİ üzvü olan dövlətlərin tələbinə əsasən poçt xidməti sahəsində texniki yardımların göstərilməsində iştirak etmək.

ÜPİ-nın strukturuna aşağıdakı orqanlar daxildir:

-Ümumdünya Poçt Konqresi;

-İcraiyyə Şurası;

-Poçt tədqiqatlarına dair məsləhət Şurası;

-Beynəlxalq büro.

ÜPİ-nin ali orqanı Ümumdünya Poçt Konqresidir. Konqres üzv dövlətlərin nümayəndələrindən ibarət olub 5 ildə bir dəfə toplaşır. Şəraitdən asılı olaraq fövqəladə Konqreslərin çağırılması da mümkündür, bunun üçün üzv dövlətlərin üçdə iki hissəsinin razılığı tələb olunur. Konqres ÜPİ-nin sazişlər sistemini nəzərdən keçirir, İttifaqın növbəti 5 illik dövr üçün proqram və büdcəsini təsdiq edir, baş direktoru seçir.

İcraiyyə Şurası- konqres tərəfindən ədalətli coğrafi bölgü prinsipinə əsasən seçilmiş 40 üzvdən ibarətdir. Şura ildə bir dəfə toplaşır və konqreslər arasındakı dövrdə ÜPİ-nin fasiləsiz fəaliyyətini təmin edir. Şura bütövlükdə təşkilatın fəaliyyətini əlaqələndirir və Beynəlxalq Büronun fəaliyyətinə nəzarət edir; poçt işi və poçt xidmətinin təşkili ilə bağlı bütün məsələlər, texniki yardımların göstərilməsi, kadr hazırlığı, korespondensiyanın təşkili və yayılması, pul köçürmələri, aviapoçt xidmətləri və s. də Şuranın fəaliyyət sahələrinə aiddir.

Poçt xidmətlərınə dair məsləhət Şurası-konqres tərəfindən 5 illik müddətə seçilən 35 üzvdən ibarətdir. Şura texniki, istehsalat və iqtisadi problemləri, texniki əməkdaşlıq, kadrların peşə hazırlığı və təkminləşdirilməsi məsələlərini öyrənir, bunlara dair konqresə ekspert tövsiyələri verir, hesabat və məruzələr hazırlayır. Şura ÜPİ-nin fəaliyyət sahələrinə aid olan məsələlərlə bağlı komissiyalar yarada bilər. Onların fəaliyyətinə nəzarət etmək səlahiyyəti də Şuraya məxsusdur.

ÜPİ-nin daımi orqanı baş direktorun rəhbərlik etdiyi Beynəlxalq büro-Katiblıkdir. Büro poçt idarələrinin fəaliyyətlərinin əlaqələndirilməsi, informasiya və məsləhətləşmələrin keçiril-

məsı sahələrinə rəhbərlik edir, ÜPİ sazişlər sisteminə ediləcək dəyişiklikləri müəyyənləşdirir, mübahisəli məsələlərə dair ekspert rəyləri verir.

ÜPİ dünya xalqları arasında əlaqə və əməkdaşlığın dərinləşməsində müstəsna əhəmiyyətə malik universal təşkilatlardan biridir. Hazırda onun sıralarında 190 dövlət birləşmişdir. Beynəlxalq poçt əlaqələri 670 min poçt şöbəsi vasitəsilə həyata keçirilir. Bu şöbələr 430 mlrd. ədəd poçt göndərişlərini realizə edirlər.

Ümumdünya Poçt Konqresləri poçt xidmətini rəqabət qabiliyyətli etmək üçün elmi -texniki tərəqqinin nailiyyətlərini istehsala tətbiq etmək üçün bütün vasitələrdən istifadə edirlər. 1929-cu il Vaşinqton konqresi bu məqsədlə üç sənəd qəbul etmişdi:

-Ümumı fəalıyyət proqramı:

-Beynəlxalq poçt xidmətinin keyfiyyətını yuksəltmək və modernləşdirmək üzrə daimi layihə,

-Poçt markaları kodeksi- ÜPİ üzvlərinin şərəfidır.

Göstərilən sənədlərə əsasən ÜPİ üzv dövlətlərin " kiçik poçt ittifaqları" ideyasını ön plana çəkməklə dövlətlərarası əməkdaşlığın kontinental, regional və subregional səviyyələrini təmin etməyə çalışırdı ki, bu ideya müasir beynəlxalq şəraitlə uzlaşır.

ÜPİ üzv dövlətlərin poçt xidmətlərini inkişaf etdirmək üçün ilk növbədə texniki yardımların təkmilləşdirilməsinə çalışır ki, bu da BMT-nin digər ixtisaslaşdırılmış qurumları və qeyri-dövlət təşkilatları ilə sıxı əməkdaşlığın olduqca aktuallaşdırır.

ÜPİ-nın iqamətgahı Bern (İsveçrə) şəhərindədir. Təşkılatın mərkəzi aparatı 151 əməkdaşdan ibarətdır

Azərbaycan dövlət müstəqilliyi əldə etdıkdən sonra ÜPİ ilə olduqca yaxın əlaqə saxlamaqa can atan dövlətlərdəndir. Təsadüfi deyildir ki, respublikamız ÜPİ-nin qəbul etdiyi beynəlxalq konvensiyaların əksəriyyətinə qoşulmuşdur.

## §2. Beynəlxalq Elektrorabitə İttifaqı (BEİ)

Elektrikin kəşfi, XIX əsrin ortalarından etibarən İngiltərədə, Fransada, Rusiyada, İsveçrədə, İtalıyada, ABŞ-da və s.



ölkələrdə elektrik teleqraf xətlərinin meydana gəlməsi, 1866-cı ildə Avropanı Amerika ilə birləşdirən ilk Atlantik sualtı kabel xəttinin çəkilməsi elektrorabitənin beynəlxalq hüquqi tənzimlənməsi zərurətini yaratdı. Elektrik əlaqələrinin inkişafına dair imzalanmış hökumətlərarası sazişlər problemə ıkıtərəfli yanaşmanı əks etdirdiyi üçün hökumətlərin bu yolla həll edə bilmədiyi çoxlu məsələlər açıq qalırdı. Məhz buna görə, 1865-ci il mayın 17-də dünyanın 22 dövlətinin iştirakı ilə Parisdə beynəlxalq Konfrans çağırıldı. Konfrans Paris teleqraf Konvensiyasını qəbul etdi ki, buna əsasən Beynəlxalq Teleqraf İttifaqı təsis olundu. Konvensiya beynəlxalq teleqraf xidməti üçün bir sıra məcburi qaydaları müəyyənləşdirdi, vahid tarif sistemi tətbiq etdi, beynəlxalq teleqraf hesablaşmaları üçün Fransa qızıl frankını pul vahidi kimi təsdiq etdi. Konfrans Konvensiyaya əlavə kimi teleqraf reqlamentini də təsdiq etdi ki, buna əsasən beynəlxalq teleqraf xidməti texnikasının vahid standartlara uyğunluğu müəyyənləşdirildi.

1865-ci il Konvensiyanın bir sıra qaydaları bu günədək öz əhəmiyyətini itirməmişdir. Belə ki, hər hansı şəxsin beynəlxalq teleqraf xidmətindən istifadə hüququ, sazişə gələn tərəflərin beynəlxalq korrespondensiyanın sirrini saxlamaq öhdəliyi, hər hansı dövlətin müvəqqəti olaraq öz ərazisində teleqramların qəbulu və göndərişini dayandırmaq hüququ, mənəviyyata və ictimai təhlükəsizliyə zidd məzmunlu teleqramların qəbul edilməməsi və ya qəbulunun dayandırması hüququ bu günədək öz aktuallığını saxlayan problemlərdəndir.

XIX yüzilliyin 80-cı illərindən etibarən telefon rabitəsinin meydana gəlməsi bu sahədə də beynəlxalq əməkdaşlığı zəruri edirdi. Yaranmış şəraitdə 1885-ci ildə Berlində, 1903-cü ildə isə Londonda keçirilmiş beynəlxalq teleqraf konfranslarında Paris teleqraf konvensiyasını telefon xidmətinə də aid etmək qərara alındı və telefon reqlamenti ilə bağlı bir sıra yeniliklər edildi.

1895-ci ildə A.S.Popov tərəfindən radionun kəşfi bir növ "elektrik rabitəsi trio"sunu tamamladı. Dəniz gəmiləri ilə əlaqə saxlamaq üçün radionun uğurla sınaqdan çıxarılması 1903 və 1906-cı illərdə Berlində radiokonfransların keçirilməsinə imkan yaratdı. 1906-cı il Konfransında Beynəlxalq Ra-

diotelеqraf İttifaqı təsis olundu. Konfransda iştirak edən 27 dövlətin razılığı ilə müvafiq Konvensiya da qəbul edildi, lakin başlanmış I dünya müharibəsi bu sahədə müəyyən müddətə boşluq yaratdı.

1919-cu il Paris sülh konqresi elektrorabitə sisteminin təkminləşdirilməsi, vahid Konvensiyanın və reqlamentin qəbulunu başlıca şərt kimi irəli sürdükdən sonra görülmüş işlər 1932-ci ilin dekabrında keçirilmiş Madrid ( İspaniya) Konfransında yekunlaşdırıldı. Dekabrın 9-da elektrorabitəyə dair vahid Konvensiya, habelə 4 reqlament qəbul edildi. Bunlardan birincisi teleqraf, ikincisi telefon, sonrakılar isə radiorabitəyə dair baş və əlavə reqlamentlər idi. Madrid Konfransı Beynəlxalq Elektrorabitə İttifaqının yaradılması haqqında konvensiyanı da təsdiq etdi. Konvensiya 1934-cü ilin yanvarında qüvvəyə mindi.

BEİ-nin BMT ilə əməkdaşlığı 1947-ci il 15 noyabr sazişinə əsasən tənzimlənir. Lakin elmi-texniki tərəqqinin nailiyyətləri və XX əsrin 90-cı illərində yaranmış beynəlxalq şərait BEİ-nin nizamnaməsinin yeniləşdirilməsi zərurətini yaratmışdı. Məlum olduğu kimi, hələ 1952-ci il dekabrın 22-də Buenos-Ayres Konfransı Konvensiyaya bir sıra düzəlişlər etmişdi ki, bunlar problemə elə bir aydınlıq gətirməmişdi. 1994-cü il iyulun 1-də BEİ-nin yeni Nizamnaməsi qəbul edildi ki,həmin sənəd çox keçmədən təsdiq edildi.

Nizamnaməyə görə, BEİ-nin başlıca məqsədləri aşağıdakılardan ibarətdir:

-elektrik rabitəsinin yaxşılaşdırılması və səmərəli istifadə edilməsi sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi;

-inkişaf etməkdə olan ölkələrə elektrik rabitəsi sahəsində yardımların göstərilməsi,

-elektrorabitə xidmətinin səmərəliliyini artırmaq məqsədilə texniki vasitələrin təkminləşdirilməsinin davam etdirilməsi,

-elektrorabitənin genişləndirilməsi üçün digər beynəlxalq təşkilatlarla əməkdaşlığın dəstəklənməsi.

BEİ-nin nizamnamə orqanları aşağıdakılardır.

-Səlahiyyətli konfrans;

-İnzibati Şura;



-Elektrorabitə üzrə dünya konfransı;

-Radiorabitə bölməsi (dünya və regional Konfranslar, radiorabitəyə dair məsləhətçilər qrupu, tezliyin qeydiyyatı şöbəsi, direktor, büro);

-Elektrorabitənin inkişafı bölməsi;

-Baş Katiblik.

BEİ-nin ali orqanı səlahiyyətli konfransdır. Konfrans 4 ildə bir dəfə çağrılır və üzv dövlətlərin nümayəndələrindən ibarət olur. BEİ-nin büdcəsi, perspektiv fəaliyyət proqramı, Şuranın məruzələrinin müzakirəsi, elektrorabitəyə dair beynəlxalq konvensiyalara yenidən baxılması, yenilərinin təsdiq edilməsi, beynəlxalq təşkilatlarla müqavilələrin imzalanması, İnzibati Şuranın tərkibinin, baş katibin, onun müavininin, üç bölmənin direktorlarının, tezliklərin qeydiyyatı komitəsi üzvlərinin seçilməsi- bütün bunlar konfransın səlahiyyətinə aid olan məsələlərdir.

Konfransın işində üzv dövlətlərlə yanaşı, BMT orqanlarının, ixtisaslaşdırılmış təşkilatların, ATEBA-nın, hökumətlərarası və elektrorabitə təşkilatlarının, kosmik peyklərin buraxılması ilə məşğul olan qurumların nümayəndələri də iştirak etmək hüququna malikdir.

İnzibati Şura - BEİ üzvlərindən olan 46 dövlətin nümayəndələrindən ibarət olub səlahiyyətli konfrans tərəfindən seçilir. Seçki ədalətli coğrafi bölgüyə əsaslanır və üzv dövlətlər aşağıdakı regionlardan seçilirlər: Afrika, Amerika, Asiya və Avstraliya, Şərqi Avropa və Şimali Asiya, Qərbi Avropa. Şura Konfransın sessiyaları arasındakı dövrdə fəaliyyət göstərir, BEİ-nin siyasi istiqamətini və elektrorabitənin inkişaf strategiyasını müəyyənləşdirir, BEİ-nin orqanlarının fəaliyyətini əlaqələndirir, Katibliyin büdcəsinə nəzarət edir, inkişaf etməkdə olan ölkələrə yardımlar göstərir və s.

Beynəlxalq elektrorabitə üzrə dünya konfransları bir qayda olaraq Səlahiyyətli Konfransın qərarı ilə çağrılır ki, burada elektrorabitə üzrə beynəlxalq normalar müəyyənləşdirilir, texniki təchizat, ümumi istismar prinsiplərinə baxılır.

Radiorabitə, elektrorabitənin standartlaşdırılması və inkişafı

bölmələri öz sahələrinə uyğun fəaliyyətlərin həyata keçirilməsini, texniki inkişafın həvəsləndirilməsi və maliyyələşdirilməsini, bölmələrin əlaqə sistemlərinin təkimınləşdirılməsinin, toplanmış informasiyaların yayılmasını və s. təmin edirlər.

Bütövlükdə BEİ-nin fəaliyyəti Baş katıbın rəhbərlık etdıyı katiblik tərəfindən tənzimlənir. Baş Katib Konfrans tərəfindən 4 ılliyə seçilir, onun qarşısında illik və ümumi hesabat verir, BEİ-nin strukturuna daxil olan orqanların fəaliyyətini əlaqələndirir, təşkilatın maliyyə büdcəsini idarə edir, konfransın işini təşkil edır, BEİ-nin digər beynəlxalq təşkilatlarla fəalıyyətini əlaqələndirir və s.

Elmi-texniki tərəqqinin xüsusi vüsət götürduyu XX yüzilliyin 80-90-cı illərində BEİ-nin fəaliyyəti də olduqca rəngarəng olmuşdur. Belə ki, məhz bu dövrdən etıbarən Baş Katiblik hər dörd ıldən bir elektrorabitəyə dair dünya sərgiləri keçirir ( TELECOM), regionlarla bağlı keçirilən AFRİKA TELECOM, ASİYA TELECOM, AMERİKAS TELECOM, EUROPA TELECOM artıq mütəmadi xarakter almışdır.

Buenos-Ayresdə (Argentina) 1994-cü ildə keçirilən telekommunikasiyanın inkişafına dair Ümumdünya Konfransı bu rabitə növünün strateji inkişafında mühüm rol oynadı. Konfransın qarşısında iki başlıca məqsəd dururdu:

-surətlə inkişaf edən və müasir tələblərə cavab verən telekommunikasıyaya dair qlobal strategıyanın işlənib hazırlanması;

-həm inkişaf etməkdə olan, həm də digər qalan ölkələrin maraqlarına uyğun tədbirlər planının işlənib hazırlanması və həyata keçirilməsi.

Buenos-Ayres dünya konfransının ən mühüm nailiyyətlərindən birı də BEİ-nın yeni strateji konsensıyanı əks etdirən Nizamnamənin qəbulu oldu.

BEİ-nın müasir dünyada yerini müəyyənləşdırən başlıca əlamətlərdən biri də ondan ibarətdir ki, BEİ-dən başqa BMT-nin heç bir ixtisaslaşdırılmış qurumu təşkılatın bütün üzvlərini öz sıralarında birləşdirmir. Hazırda BEI-nin sıralarında 188 dövlət və 482 üzv (müxtəlif dünya qurumları, elmı və sənaye



müəsisələri, telefon, teleqraf, radio kompaniyaları və s.) təmsil olunur.

BEİ-nin iqamətgahı Cenevrə ( İsveç) şəhərindədir.

Azərbaycan Respublikası teleqraf, telefon, radio və s. rabitə növlərinin inkişafında beynəlxalq əməkdaşlığa xüsusi diqqət verdiyi üçün BEİ-nin fəaliyyətində yaxından iştirak edir.

**Yoxlama sualları:**

1 BMT-nin rabitə qurumlarının dünya inkişafında rolu.
2.Bern Konvensiyası (1874) və BPİ-nin yaradılması.
3.Ümumdünya Poçt Konvensiyasının qəbulu.
4.ÜPİ-nin yaradılması və quruluşu.
5.ÜPİ-nin XXI və XXII dünya konqresləri.
6.ÜPİ İcra Şurası, tərkibi və fəaliyyət mexanizmi.
7.ÜPİ-nin poçt tədqiqatları və üzv dövlətlərə texniki yardım proqramları.
8.Azərbaycan Respublikasının ÜPİ ilə əməkdaşlığı və beynəlxalq Konvensiyalarda iştirakı.
9.Beynəlxalq Teleqraf İttifaqının yaradılması və fəaliyyəti.
10.Teleqraf əlaqələrinə dair 1934-cü il beynəlxalq Konvensiyası və nəticələri.
11.BEİ-nin BMT ilə əməkdaşlığı.
12.BEİ-nin məqsəd və vəzifələri.
13.BEİ-nin quruluşu: rəhbər və icra orqanları.
14 Elektrorabitə sahəsində 1994-cü il Buenos-Ayres dünya konfransı və qərarları.
15.Azərbaycan Respublikasının BEİ ilə əməkdaşlığı.

## XII. BEYNƏLXALQ ƏMƏK TƏŞKİLATI (BƏT)

I Dünya müharibəsinin nəticələrini yekunlaşdıran Versal konfransının (1919) diqqət mərkəzində duran məsələlərdən biri də beynəlxavlq əmək normalarının müəyyənləşdirilməsi və məcəlləşdirilməsi problemi idi. Versal müqaviləsinin XIII hissəsi Millətlər Cəmiyyəti yanında muxtar statusa malik Beynəlxalq Əmək Təşkilatlatının (BƏT) yaradılmasına həsr olunmuşdu. Burada BƏT-in strukturu, fəaliyyət prisipləri, məqsəd və vəzifələri öz əksini tapmışdır.

Versal müqaviləsinin XIII hissəsində öz əksini tapmış "sosial tərəfdaşlıq" ideyasına görə BƏT-in orqanlarında üçtərəfli nümayəndəlik qaydası müəyyənləşdirilmişdi. Bu qaydaya əsasən, zəhmətkeşlər (Həmkarlar ittifaqları) ilə sahibkarlar arasında dialoq hökumətin vasitəçiliyi ilə həyata keçirilməli idi.

Müqavilənin XIII hissəsi eyni zamanda BƏT-in nizamnaməsi idi. Nizamnaməyə dəyişiklik və əlavələr 1921-ci il Cenevrə və 1944-cü ildə qəbul edilmiş Filadelfiya bəyannamələrinə əsasən həyata keçirilmişdi.

BƏT-in nizamnaməsinə görə, sosial tərəfdaşlıq ideyası uğrunda aparılan mübarizənin əsas istiqamətləri aşağıdakılardır:

-demokratiyanın möhkəmləndirilməsi;

-yoxsulluğa qarşı mübarizə aparılması;

-sosial müdafiənin təkmilləşdirilməsi.

BƏT BMT-nin ilk ixtisaslaşmış qurumuna çevrilən təşkilatlardan bırıdir. Belə ki, BMT yarandıqdan az sonra - 1946-cı ilin əvvəllərindən etibarən BMT ilə BƏT arasında aparılan danışıqlar nəticəsində əldə olunmuş saziş Baş Məclis tərəfindən 1946-cı il dekabrın 14-də təsdiq edildi, BƏT BMT-nin ixtisaslaşmış qurumu statusunu aldı.

BƏT-in qarşıya qoyduğu məqsədləri reallaşdırmaq uğrunda mübarizəsi və bu mübarizənin səmərəsi beynəlxalq aləmdə yüksək qiymətləndirilirdi. Təsadüfi deyil ki, 1969-cu ıldə BƏT-nin yaradılmasının 50 illik yubileyi zamanı təşkilat Nobel



sülh mükafatına layiq görülmüşdü. XX yüzilliyin 90-cı illərində Mərkəzi və Şərqi Avropa ölkələrində baş vermiş sosial siyasi dəyişikliklər, totalitar sistemin aradan qaldırılması, SSRİ-nin süqutu, Yuqoslaviyanın dağılması, Çexoslovakiyanın iki dövlətə parçalanması, Albaniyanın yeni dünya qaydasına qoşulması nəticəsində təkcə Avropa qitəsindən BƏT-ə 17 yeni üzv qəbul olundu ki, onlardan biri də Azərbaycan Respublikasıdır.

Beynəlxalq əmək normalarının işlənib hazırlanması, Əmək Konvensiyalarının qəbulu və tətbiq edilməsi sahəsində diplomatik mübarizə, sosial ədalətin möhkəmləndirilməsi və insan hüquqlarının müdafiəsi sahəsində BƏT-in apardığı mübarizə həmişə böyük uğurlarla müşayiət olunmuşdur. Yeni nizamnamə qaydalarına görə təşkilatın başlıca məqsədləri aşağıdakılardır:

-tam məşğulluğu və həyat səviyyəsinin yüksəldilməsini təmin etmək;

-iqtisadi və sosial proqramların dəstəklənməsi və həvəsləndirilməsi;

-başlıca insan hüquqlarına əməl olunması;

-zəhmətkeşlərin həyat və sağlamlığının müdafiə olunması;

-sahibkar və zəhmətkeşlər arasında əməkdaşlığın həvəsləndirilməsi;

-sosial ədalətin təmin edilməsi vasitəsilə sülhə nail olması.

Nizamnaməyə görə, BƏT-in fəaliyyət prisiplərinə aşağıdakılar daxildir:

-əməyin əmtəəyə çevrilməsi yolverilməzdir;

-fikir, düşüncə və birliklər azadlığı inkişafı şərtləndirən başlıca amillərdir;

-irqindən, dinindən və cinsindən asılı olmayaraq bütün insanlara azadlıq, ləyaqət və iqtisadi təhlükəsizlik şəraitğində maddi cəhətdən təmin olunmaq və mənəvi inkişaf hüququ.

BƏT-in strukturuna aşağıdakı orqanlar daxildir:

1 Beynəlxalq Əmək Konfransı;

2.İnzibati Şura;

3.Beynəlxalq Əmək Bürosu;

4.Üçtərəfli komitələr;

5.Regional və xüsusi konfranslar.

BƏT-in başlıca orqanı Beynəlxalq Əmək Konfransıdır. Konfrans bir qayda olaraq hər ilin iyulunda çağırılır və üzv dövlətlərin nümayəndələrinin iştirakı ilə keçirilir. Hər bir dövlət Konfransda 4 nümayəndə ilə təmsil olunur: 2 nümayəndə hökumətdən, 1- sahibkarlardan, 1 – zəhmətkeşlərdən. Nümayəndələr müstəqildir, bərabərhüquqludur və heç kəsdən asılı olmayaraq qərar qəbul etmək hüququna malikdirlər. Zərurət yarandıqda xüsusi konfranslar da çağrıla bilər.

Beynəlxalq Əmək Konfransı iki ildən bir BƏT-in proqram və büdcəsini təsdiq edir, fəaliyyət prinsiplərini və gələcək siyasətin istiqamətlərini müəyyənləşdirir, habelə əmək məsələləri ilə bağlı konvensiyaları müzakirə və təsdiq edir. Hazırda 300-dən yuxarı əmək konvensiyası qəbul olunmuşdur. Əgər müzakirə olunan məsələlərin içərisində qadınların vəziyyəti ilə bağlı mövzular olarsa, 4 nümayəndənin məsləhətçilərindən biri hökmən qadın olmalıdır.

İnzibati Şura - BƏT-in başlıca orqanı olub Konfrans tərəfindən 3 illiyə seçilir. Şura 56 üzvdən ibarətdir. Bunlardan 28 nümayəndə hökumətləri, 14 nümayəndə sahibkarları, 14 nümayəndə isə zəhmətkeşləri təşkil edir və Konfrans tərəfindən gizli səsvermə yolu ilə seçilir. Hökumətləri təmsil edən nümayəndələrin 18-i seçilir, qalan 10-u isə, bir qayda olaraq, sənaye cəhətdən inkişaf etmiş ölkələrdən – Braziliya, Böyük Britaniya, Almaniya, Hindistan, İtaliya, Çin, Rusiya, ABŞ, Fransa və Yaponiya nümayəndələrindən təyin olunur. Hər bir nümayəndə təmsil etdiyi qurumun və ya təbəqənin adından çıxış etmək hüququna malikdir.

İnzibati Şura ildə 3 iclas keçirir. Konfransın gündəliyini hazırlayır, onun qərarlarını nəzarətə götürür və icra edilmiəsi üçün müvafiq mexanizm hazırlayır.

BƏT-in daimi katibliyi - Versal müqaviləsinə əsasən yaradılan Beynəlxalq Əmək Bürosudur. Buraya Baş direktor rəhbərlik edir və 3 funksiyası var:

-icra orqanı

-əlaqələndirmə mərkəzi

-tədqiqat və sənədləşmə mərkəzi



Büronun dünyanın 40 ölkəsində regional və sahə nümayəndəlikləri fəaliyyət göstərir.

BƏT-in konvensiyalarına qoşularaq onları paraflayan dövlət həmin konvensiyaların həyata keçirilməsinə dair müntəzəm hesabat verməlidir. Bu prosesə iki orqan nəzarət edir. a) üçtərəfli komitə, v) müstəqil ekspert komitəsi (20 hüquqşünasdan təşkil olunur). Komitələr iqtisadiyyatın başlıca sahələri, habelə peşə təhsili, rəhbər kadrların ixtisaslarının artırılması, əməyin mühafizəsi, qadın və gənclərin problemləri və s. Məsələlərlə bağlı İnzibati şuraya və Beynəlxalq Əmək Bürosuna tövsiyyə və məsləhətlər verirlər.

BƏT-in strukturuna daxil olan regional və xüsusi Konfranslar əsasən bölgə və sahə maraqları ilə bağlı məsələrlə əlaqədar keçirilir.

BƏT-in fəaliyyəti əsasən dörd sahəyə yayılır:

-əmək və həyat şəraitinin yaxşılaşdırılması;

-məşğulluğa nail olunması;

-işçi qüvvəsi potensialının aşkarlanması;

-sosial institutların inkişaf etdirilməsi.

BƏT öz qarşısına qoyduğu vəzifələri həyata keçirmək üçün bir sıra təsisatlardan və aşağıdakı üç əlavə metoddan istifadə edir.

-beynəlxalq normaların müəyyənləşdirilməsi və əməl olunmasına nəzarətin həyata keçirilməsi;

-texniki sahələrdə əməkdaşlıq;

-tədqiqat işləri, sənədlərin hazırlanması və informasiyaların yayılması.

BƏT-in qəbul etdiyi beynəlxalq əmək normaları öz ifadəsinin Beynəlxalq Əmək Kodeksində tapmışdır ki, kodeks 300-ə qədər konvensiyanı əks etdirir. BƏT-in Nizamnaməsinin 19, 22 və 23-cü maddələri həmin konvensiyaların qəbul edillmə mexanizminə aiddir.

BƏT-ın fəaliyyətində mühüm yer tutan texniki əməkdaşlıq proqramı BMT İnkişaf Proqramı ilə sıx əlaqəli olub, planetin muxtəlif regionlarına məşğulluq və inkişaf, kadrların hazırlanması müxtəlif sahələrin fəaliyyəti, əmək şəraiti və münasibətləri, sosial təhlükəsizlik və s. məsələlərə maliyyə ya-

rdımları göstərilməsini nəzərdə tutur. Texniki əməkdaşlıq çərçivəsində BƏT-in tədqiqat peşə və sahibkarlıq fəaliyyətinin dəstəklənməsinə dair bir sıra proqramları mövcuddur.

BƏT-in tədqiqat işləri sahəsində fəaliyyəti aşağıdaki iki qurumun yardımı ilə həyata keçirilir:

-BƏT-in Sosial əmək problemləri Beynəlxalq İnstitutu (1960) Cenevrədə (İsveçrə) fəaliyyət göstərir, əmək və sosial sahələrdə çalışan şəxslərin hazırlığı ilə məşğul olur.

-Texniki və peşə hazırlığı Beynəlxalq Mərkəzi (1965) Turində ( İtaliya) fəaliyyət göstərir və əsasən inkişaf etməkdə olan ölkələrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin peşə hazırlığını yüksəltmək üçün müxtəlif tədbirlər görür.

Hazırda BƏT-in sıralarına 171 dövlət daxildir, iqamətgahı Cenevrə şəhərində yerləşir.

BƏT-in işçi dilləri: ingilis, ispan və fransız dilləridir.

Azərbaycanın fəaliyyətində yaxından iştirak etdiyi qurumlardan biri də BƏT-dir. Respublikamız bu quruma 19.05.92-ci ildə qəbul edilmişdir.

Toplanmış materialların təhlili göstərir ki, Azərbaycanın BƏT-lə əməkdaşlığı qanun yaradıcılığı və tövsiyyələrin qəbul edilməsi sahəsində daha güclüdür. Lakin işin texniki istiqamətdə əməkdaşlıq sahəsinə keçirilməsi zəruridir. Məlumdur ki, BƏT öz fəaliyyətini iqtisadi sahədə iş görən ixtisaslaşmış qurumlarla əlaqələndirir. Məsələn, Azərbaycanda Sumqayıt layihəsinin həyata keçirilməsində böyük rol oynayan YUNİDO ixtisaslaşmış qurumu əmək və məşğulluq sahəsinə bilavasitə təsir göstərir. Azərbaycan azad iqtisadi zona yaradılması üçün görülən işlərdə BƏT-in və YUNİDO-nun fəaliyyətini əlaqələndirən proqramlar hazırlamalı və onların reallaşdırılmasına çalışmalıdır. Beynəlxalq Əmək Təşkilatının texniki yardım çərçivəsində üzv-ölkələrə göndərdiyi ekspertləı işçi qüvvəsinin hazırlanması, məşğulluq, sosial problemlərin həlli üçün yeni metod və yolları müəyyənləşdirməkdə yardım göstərirlər.

Respublikamıza texniki yardımların göstərilməsi, iqtisadiyyatda mühüm rol oynaya biləcək proqramların ixtisaslaşmış qurumlar tərəfindən qəbul edilməsi və həyata keçirilməsi



məsələlərində ekspertlərin rəyi əsas sayılır. Azərbaycanla BMT ixtisaslaşmış qurumları arasındakı əməkdaşlıqda bu cəhət həmişə diqqət mərkəzində olmalıdır.

BƏT ekspertlərinin Azərbaycana ilk gəlişi 1993-cü ilin əvvəllərinə təsadüf edir. BƏT-in Əməyin Statistikası Departamentinin direktoru F.Mehranın başçılıq etdiyi ekspertlər qrupu milli uçot və statistika sisteminin təkmilləşdirilməsində, onun beynəlxalq norma və standartlara uyğunlaşdırılmasında Azərbaycanla əməkdaşlıq məsələlərini müzakirə etmişlər. Nəzərə almaq lazımdır ki, konkret proqram və layihələr üzrə əməkdaşlıq sosial problemlərin aradan qaldırılmasında daha səmərəli vasitədir. Azərbaycanın ixtisaslaşmış qurumlarla əlaqələrində bu istiqamət ön plana çəkilməlidir.

1993-cü ilin iyun ayında BƏT-in Cenevrədə keçirilən hesabat konfransında Azərbaycan nümayəndələrinin iştirakı zamanı ixtisaslaşmış qurumun, ərazisində müharibə gedən ölkələrə texniki yardım proqramına respublikamızın da daxil edilməsinə səbəb oldu. Bu texniki yardım kompüter sistemini, məşğulluq və sosial təminat strukturlarını, habelə mütəxəssislərin öyrədilməsinin təşkilini əhatə edirdi.

Azərbaycanda işsizlik hazırda ön plana çıxmış sosial problemlərdən biridir. İşsizliyin artım sürəti Qarabağ münaqişəsinin həllindən, fəaliyyətdə olan müəssisələrin işinin davam etməsindən, onların özəlləşdirilməsi və yenidən qurulmasından, yeni iş yerlərinin açılmasından, müxtəlif layihələrin həyata keçirilməsindən və s. asılıdır. İşsizlik probleminin həllində BƏT-in məşğulluq mərkəzi yaratmaq təcrübəsindən istifadə etmək müsbət nəticələr verir. İxtisaslaşmış qurumların həm təşkilati, həm də əməli yardımı əsasında əmək birjasının yaradılması da bu sahədə müəyyən irəliləyişlərə gətirib çıxaracaqdır.

Azərbaycanda əmək və məşğulluq sahəsində çoxplanlı fəaliyyət iqtisadi artım sürətinin yüksəldilməsini, əmək şəraitinin yaxşılaşdırılmasını, əhalinin bütün təbəqələrinin baza sosial xidmətlərlə təmin olunmasını əhatə etməli və bütün məsələlərin həllində BMT-nin ixtisaslaşmış qurumları ilə əməkdaşlığın gücləndirilməsinə xüsusi əhəmiyyət verilməlidir.

Azərbaycanla BMT-nin ixtisaslaşmış qurumları arasında əlaqələrin tədricən yeni keyfiyyət səviyyəsinə keçməsi əmək və məşğulluq sahəsində yaxın gələcəkdə ciddi dəyişikliklərin baş verəcəyini proqnozlaşdırmağa imkan verir. Göstərilən məsələlərin hər biri üzrə əməkdaşlığın genişləndirilməsi üçün real addımların atılması, texniki yardım proqramlarının həyata keçirilməsi hazırki dövrün əsas vəzifələrindən biri olmalıdır. Təsadüfi deyildir ki, məhz bu məqsədlə 1996-cı ilin sentyabrında Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "BƏT-in konvensiyaları və tövsiyələri" kitabı nəşr olunmuş, 1992-2002-ci illər arasındakı dövrdə respublikamız BƏT-in onlarla konvensiyasına qoşulmuşdur. Hazırda götürülmüş öhdəliklərin həyata keçirilməsi istiqamətində respublikamızda böyük işlər görülür.

**Yoxlama sualları:**

1.Versal sülh konqresində (1919) beynəlxalq əmək normalarının müəyyənləşdirilməsi və məcəlləşdirilməsi.

2.Versal müqaviləsi XIII bölməsinin qaydaları.

3.BƏT-in yaradılması və quruluşu.

4.BƏT orqanlarında üçtərəfli nümayəndəlik qaydası.

5.BƏT-in BMT-nin ixtisaslaşdırılmış qurumuna çevrilməsi.

6.BƏT-in fəaliyyət sahələrinin səciyyəsi.

7.BƏT-in beynəlxalq əmək normaları haqqında konvensiya və tövsiyələri

8.BƏT-in gender proqramları, qadın əməyinin mühafizəsi və iş yerləri problemləri ilə bağlı fəaliyyəti.

9.BƏT-in uşaq əməyinin qadağan olunması sahəsində fəaliyyəti.

10.BƏT və məşğulluq problemi

11.Azərbaycan Respublikasının BƏT-lə əlaqələri və əməkdaşlığı

12.Azərbaycanın BƏT-in konvensiya və tövsiyələrinə qoşulması.



## XIII. ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATI (ÜST)

XIX yüzilliyin ortalarından etibarən sağlamlığın qorunması öz lokal əhəmiyyətini itirməyə başladı. Bu ilk növbədə 1846-1847-ci illərdə baş vermiş, bütün Avropa ölkələrini və Şimali Amerikanı bürümüş aclıqla əlaqədar idi. 1845-ci ildən etibarən başlayan quraqlıq və məhsulsuzluq bu aclığı şərtləndirməklə vəba epidemiyasının yayılmasına rəvac verdi. Ayrı-ayrı ölkələrin vəba tüğyanına qarşı mübarizəsi arzu edilən nəticəni vermir və dövlətlərin bu sahədə fəaliyyətlərinin əlaqələndirilməsini tələb edirdi.

Məhz bu zərurət 1851-ci ildə başlıca kapitalist ölkələrini xəstəliklərə qarşı kollektiv "müdafiə sistemi" yaratmağa vadar etdi. Həmin ildə toplanmış I sanitar konfransı epidemiyalara qarşı mübarizənin forma, üsul və vasitələrinin müzakirə obyektinə çevirməklə dünyanın diqqətini insanların "yaşamaq hüququnun" qorunmasına yönəltdi. Lakin 1852-92-ci illər arasındakı 41 illik dövr ərzində 6 sanitar konfransı keçirilsə də, heç bir Konvensiya qəbul edilmədi. Bununla belə, görülmüş hazırlıq işləri çox tezliklə öz bəhrəsini verməyə başladı. Belə ki, 1892-97-ci illərdə keçirilmiş 4 səhiyyə konfransı 4 konvensiyanın qəbulu ilə başa çatdı.

Səhiyyə və sağlamlığın qorunması ilə bağlı görülmüş tədbirlər bu sahədə beynəlxalq əməkdaşlığı şərtləndirməklə 1903-cü ildə Beynəlxalq Sanitar Sazişinin qəbul edilməsinə gətirib çıxardı. 1907-ci ildə Beynəlxalq İctimai Gigiyena Bürosu yaradıldı ki, bununla da ilk beynəlxalq sanitar təşkilatı meydana gəldi. Onun başlıca vəzifəsi epidemik xəstəliklər haqqında informasiyanın toplanması və yayılmasından ibarət idi.

Bu sahədə başlanmış iş Millətlər Cəmiyyəti tərəfindən davam etdirildi və cəmiyyətin nəzdində xüsusi səhiyyə təşkilatı yaradıldı. 1920-30-cu illərdə səhiyyəyə, habelə müxtəlif xəstəliklərlə mübarizəyə dair bir sıra konvensiyalar qəbul

olunsa da bunlar sağlamlığın beynəlxalq miqyasda qorunması üçün kifayət edə bilməzdi.

BMT yaradıldıqdan sonra artıq qlobal mahiyyət kəsb etmiş səhiyyə və sağlamlıq problemləri ilə məşğul olmaq üçün beynəlxalq təşkilatın yaradılması problemi BMT Baş Məclisinin ciddi müzakirəsinə çevrildi. ÜST-in Nizamnaməsi 1946-cı ildə qəbul olundu və 1948-ci il aprelin 7-də qüvvəyə mindi.

Nizamnamənin 1-ci bəndinə görə, təşkilatın başlıca məqsədi "bütün xalqlar üçün yüksək sağlamlıq səviyyəsinin əldə olunmasıdır". Lakin tibb elminin nailiyyətləri ilə onların praktiki istifadə olunması arasında ciddi fərqlər mövcud idi. ÜST-in 1950-ci ildə olmuş III Ümumdünya Məclisində çıxış edən Norveç nümayəndəsi K.Evant məhz bununla əlaqədar qeyd edirdi ki, "əgər tibb elminin əldə etdiyi nailiyyətlərin hətta onda bir hissəsi cəmiyyətin sağlamlığı naminə tətbiq olunsa idi, biz olduqca böyük nailiyyətlər əldə etmiş olardıq".

Təsadüfi deyildi ki, 1960-cı ildə BMT ərzaq və kənd təsərrüfatı təşkilatının təşəbbüsü və ÜST-in iştirakı ilə aclıqla mübarizə kompaniyası başlanmışdı ki, bu zamandan etibarən güdülən başlıca məqsəd uşaq ölümünün qarşısını almaqdan ibarət idi. Bu tədbir ayrı-ayrı zonaların beynəlxalq nəzarətə götürülməsinə və vəziyyətin yaxşı mənada dəyişməsinə gətirib çıxardı.

Nizamnaməyə görə, ümumplanet miqyası almış sağlamlıq və səhiyyə məsələlərində ÜST-in rolu iki vəzifəni reallaşdırmaqdan ibarətdir: a) idarəetmə və əlaqələndirmə, b) üzv dövlətlər arasında texniki əməkdaşlığın intensivləşdirilməsi.

ÜST-in funksiyaları aşağıdakılardır:

-beynəlxalq səhiyyə sahəsində fəaliyyətlərin əlaqələndirilməsi;

-məsləhət və yardımların göstərilməsi;

-BMT, onun ixtisaslaşdırılmış təşkilatları, dövlət səhiyyə orqanları, həmkarlar və digər təşkilatlarla əməkdaşlıq;

-sazişlərin imzalanmasına, norma və məsləhətlərin işlənib hazırlanmasına yardım etmək;



-diaqnostika, ərzaq məhsulları, bioloji və dərman preparatları sahəsində beynəlxalq standartların işlənib hazırlanması və tətbiqi sahəsində əməkdaşlıq;

-milli səhiyyə sistemlərinin yaradılmasının dəstəklənməsi;

-zəruri mülki və texniki xidmətlərin təşkili və saxlanması;

-fövqəladə vəziyyətlərdə texniki dəstək və yardımların göstərilməsi, habelə bədbəxt hadisələrin qarşısının alınması;

-tibbi və səhiyyə sahələrində təhsil sisteminin təkmilləşdirilməsi;

-qida, mənzil, sanitariya və digər sahələrlə bağlı şəraitin yaxşılaşdırılması;

-epidemik, endemik və digər xəstəliklərin ləğv edilməsində iştirak etmək;

-dəyişməkdə olan ekoloji şəraitdə ana və uşaqların sağlamlığının qorunması;

-insanlararası münasibətlərdə psixi sağlamlıq və harmoniyanın qorunması uğrunda mübarizə;

-sağlamlığın qorunması məqsədilə elmi institutlar və peşə qrupları ilə sıxı əməkdaşlığın həvəsləndirilməsi;

ÜST-in nizamnamə orqanları aşağıdakılardır:

-Ümumdünya Səhiyyə Məclisi (ÜSM);

-İcra Şurası;

-Katiblik;

-regional komitə və bürolar;

-yerlərdə ÜST nümayəndələri.

ÜST-ün bütün üzvlərinin nümayəndələrindən yaradılan Ümumdünya Səhiyyə Məclisi təşkilatın ali orqanı hesab edilir. Hər bir üzv dövlət ÜSM-də ən çoxu üç nümayəndə ilə təmsil oluna bilər. ÜSM təşkilatın işinin başlıca istiqamətlərini müəyyənləşdirir, İcra Şurası və baş direktorun fəaliyyəti ilə bağlı hesabatları qəbul edir, müvafiq göstərişləri verir, iki ildən bir büdcəni müzakirə və təsdiq edir, komitələri yaradır, coğrafi bölgüyə əsasən üzv dövlətləri seçir (təkrar seçilmək hüququ saxlanmaqla üç illik müddətə), İcra Şurasının tövsiyyəsinə əsasən baş direktoru təyin edir. Məclis hər ilin mayında Cenevrədə (İsveçrə) növbəti sessiyaya toplaşır, fövqəladə sessiyalar isə şə-

raitdən asılı olaraq İcra Şurasının təşəbbüsü və ya üzv dövlətlərin əksəriyyətinin tələbi ilə çağrıla bilər.

İcra Şurası səhiyyə sahəsində 31 mütəxəssisdən təşkil olunur, Məclisin icra orqanı kimi onun qərarlarını yerinə yetirir, gündəliyini müəyyənləşdirir, Məclisə məsləhət və tövsiyələrini, habelə ÜST-in iş proqramını təqdim edir. Şura fövqəladə xarakterli qərarlar qəbul etmək və işçi komitələr yaratmag hüququna malikdir. Onun iclasları ildə iki dəfədən az olmayaraq keçirilir.

Baş direktorun idarə etdiyi Katiblik ÜST-in bütün fəaliyyətini əlaqələndirir. Katiblik 8 şöbədən ibarət olub İcra Şurası qarşısında cavabdehlik daşıyır. Baş direktor ÜST-in, İcra Şurası, habelə bütün komissiya və komitələrin katibi hesab edilir, öz səlahiyyətlərini vermək hüququna malikdir.

ÜST-in nəzdində 6 regional təşkilat fəaliyyət göstərir. Bu təşkilatlar Konqoda (Brazzavil), ABŞ-da (Vaşinqton), Misirdə (İskəndəriyyə), Danimarkada (Kopenhagen), Hindistanda (Yeni Dehli) Filippində (Manil) yerləşmişlər. Həmin təşkilatlar regional direktorun rəhbərlik etdiyi regional komitə və regional bürolardan ibarətdir.

Regional komitələr göstərilən bölgənin tam və məşvərətli üzvlərinin nümayəndələrindən təşkil olunur, regional büronun fəaliyyətinə və bölgə inkişafına nəzarəti həyata keçirirlər.

Ümumdünya Səhiyyə Təşkilatının üzv dövlətlərin hər birində nümayəndəlikləri fəaliyyət göstərir. Nümayəndələr yerlərdə ÜST-in fəaliyyətinə məsuliyyət daşıyır, hökumətə milli səhiyyə proqramlarının işlənib hazırlanması və reallaşdırılması üçün müvafiq tövsiyələr verirlər.

ÜST-in bütün dünyada sağlamlığın qorunması və səhiyyənin inkişafı sahəsində fəaliyyəti ildən-ilə genişlənir. Planetdə uşaq ölümünün səviyyəsinin xüsusilə yüksək olması ÜST-YUNİSEF birgə əməkdaşlıq proqramının meydana gəlməsini şərtləndirdi. Həmin proqramın uğurları nəticəsində hər il 3 mln. uşaq difteriya, vərəm və s. kimi 6 öldürücü xəstəliyin cəngindən xilas edilir.



1967-ci ildə ÜST BMT-nin digər qurumları ilə birlikdə dünya epidemiyası xarakteri almış çiçək xəstəliyinə qarşı ümumplanet miqyasında aparılan mübarizəyə başladı. On üç il ərzində həyata keçirilən proqram nəticəsində 1980-ci ildə ÜST bütün dünyada çiçək xəstəliyinin ləğv olunmasını bəyan etdi.

Müxtəlif xəstəliklərə qarşı çoxillik mübarizədən sonra 1977-ci ildə ÜST "Hamıya sağlamlıq!" devizini irəli sürdü.

1978-ci ilin mayında Qazaxıstanda ÜST-in YUNİSEF-lə birlikdə beynəlxalq konfransı keçirildi. Konfrans sağlamlığın qorunmasının ilkin şərtlərindən ibarət Alma-Ata bəyənnaməsini qəbul etdi. 1981-ci ilin mayında isə ÜSM-in sessiyası "2000-ci il üçün Hamıya sağlamlıq" proqramını qəbul etdi. Proqram bütün planet əhalisinin ilkin tibb-sanitar yardımı ilə əhatə edilməsini nəzərdə tuturdu.

QİÇS-in meydana çıxması və çox tezliklə ümumplanet miqyası alması 1987-ci ildə ÜSM-i QİÇS-lə mübarizə üçün ümumdünya proqramı qəbul etməyə vadar etdi. 1988-ci ilin mayından etibarən hər il dekabrın 1-i QİÇS-ə qarşı Ümumdünya mübarizə günü elan olundu. Hazırda QİÇS-ə qarşı mübarizə proqramı dünyanın 187 ölkəsi və regionunda reallaşdırılır.

ÜST-in iqamətgahı Cenevrə şəhərindədir. Hazırda təşkilatın sıralarında 189 dövlət təmsil olunur, Vatikan və Lixtenşteyn isə müşahidəçi statusuna malikdirlər.

Azərbaycanın fəaliyyətində yaxından iştirak etdiyi ixtisaslaşdırılmış BMT qurumlarından biri də Ümumdünya Səhiyyə Təşkılatıdır. Azərbaycanın BMT-yə daxil olduğu 1992-ci ildə respublikanın Ümumdünya Səhiyyə Təşkilatı ilə əlaqələri olduqca zəif olmuşdur. 1993-cü il martın 18-20-də Azərbaycan nümayəndə heyəti ÜST-in Danimarkada keçirilən və vaksınlərlə təminat probleminə həsr olunmuş müşavirəsində iştirak etmişdir. Müşavirədə difteriya və paliomelit xəstəliklərinə qarşı nəzərdə tutulmuş vaksınlərin göndərilməsi sahəsində əməkdaşlığın təşkili məsələləri müzakirə olunmuşdur.

ÜST-in ümumi proqramı çərçivəsində həyata keçirilən "Ana və uşaqların sağlamlığının mühafizəsi və ailənin planlaşdırılması" proqramı səhiyyə sahəsində bir sıra məsələlərin

həllində üzv-dövlətlərə, o cümlədən, Azərbaycana yardımları əhatə edir. 1996-2000-ci illər üçün nəzərdə tutulmuş bu proqram əsasında ana və uşaqların sağlamlığının mühafizəsi, ailənin planlaşdırılması və digər məsələlər həyata keçirmişdir.

Azərbaycanda ana və uşaqların sağlamlığının mühafizəsi və ailənin planlaşdırılması sahəsində işlər ÜST ixtisaslaşdırılmış qurumu, YUNİSEF və BMTİP arasında qarşılıqlı əməkdaşlıq şəraitində aparılır.

ÜST-nin müxtəlif ölkələrdə apardığı çoxillik iş təcrübəsinə və texniki yardımlarına əsaslanaraq respublikada xəstəliklərin qarşısını almaq, xroniki xəstəliklərin kəskinləşməsinə qarşı tədbirlər görmək, ətraf mühiti sağlamlaşdırmaq istiqamətində fəaliyyət tədricən gücləndirilir.

BMT-nin ÜST ixtisaslaşmış qurumu, YUNİSEF və Azərbaycan Səhiyyə Nazirliyinin işinin əlaqələndirməsi nəticəsində 1995-1996-cı illərdə respublikamızda həyata keçirilmiş immunlaşdırma kompaniyası müvəffəqiyyətlə başa çatmışdır. 1995-ci ildə aparılmış immunlaşma difteriya xəstəliyi ilə yoluxmanın beş dəfə azalmasına səbəb olmuşdur. 1996-cı ildə YUNİSEF xətti ilə respublikaya Fransa, İsveçrə, İtaliya, Hindistan və Macarıstandan peyvənd materialları gətirilmiş və bütün bölgələr üzrə iki yaşından qırx yaşınadək adamlar arasında immunlaşdırma işləri aparılmışdır.

ÜST ixtisaslaşmış qurumunun həyata keçirdiyi çoxsaylı proqramlardan biri də "Sağlam şəhərlər" hərəkatıdır. Bu layihənin reallaşdırılmasına ÜST-nin Avropa regional bürosu 1986-cı ildən başlamışdır. İlkin mərhələdə 11, sonra 35, nəhayət 375 şəhər bu hərəkata qoşulmuşdur. ÜST ilə əlaqələrin möhkəmlənməsi Bakı şəhərinin də layihəyə qoşulmasını təmin etmişdir. Bakıda həmin layihə üzrə perspektivdə konkret tədbirlər proqramının həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Ümumdünya Səhiyyə Təşkilatı üzv-ölkələrlə əməkdaşlıq prosesində tibb sahəsindəki kadrların ixtisas səviyyəsinin artırılması istiqamətində də işlər görür. Azərbaycanda bu sahədə fəaliyyət 1994-cü ilin axırlarında başlanmışdır. Səhiyyə və sağlamlıqla bağlı əməkdaşlıq BMT-nin digər ixtisaslaşmış



qurumlarına da aiddir. Lakin həmin qurumların fəaliyyətinin bu cəhəti başqa sahədəki işlərinin spesifikliyindən irəli gəlir. Məsələn, BVF və ÜB Bakı və Abşeronun su təchizatı sisteminin yenidən qurulmasında, YUNİDO Sumqayıtda azad iqtisadi zona yaradılmasında, BƏT əmək şəraiti və məşğulluq problemlərinin həllində, YUNESKO mədəniyyət, təhsil sistemində dəyişikliklərin həyata keçirilməsində iştirak etməklə bu və ya digər dərəcədə səhiyyə sahəsinə yardım göstərmiş olurlar.

Səhiyyə problemlərinin həllində ÜST-nin ən çox əməkdaşlıq etdiyi təşkilat YUNİSEF-dir. Azərbaycanın BMT-nin ÜST ixtisaslaşmış qurumu və YUNİSEF təşkilatı ilə əməkdaşlığı respublikada immunlaşdırmanın yüksək səviyyədə keçirilməsinə, respublika tibb işçilərinin bu sahədəki təcrübəsinin artmasına, bir sıra yoluxucu xəstəliklərlə xəstələnmə hallarının, uşaq ölümünün sayının azalmasına səbəb olmuşdur. ÜST və YUNİSEF-lə əməkdaşlıq respublika alimlərinin təbabətin müxtəlif sferalarına aid beynəlxalq elmi konfrans, simpozium və seminarlarda iştirakına şərait yaratmış, belə toplantıların Azərbaycanda təşkil olunmasını ənənə halına salmış, elmi biliklərin mübadiləsi üçün geniş imkanlar açmışdır.

**Yoxlama sualları:**

1.ÜST-in yaradılmasını şərtləndirən amillər;

2.ÜST-in başlıca məqsəd, vəzifə və funksiyaları.

3.BMT qurumlarının və sağlamlığının qorunması sahəsində fəaliyyəti.

4.ÜST-in quruluşu: rəhbər və icra orqanları.

5.Ümumdünya Səhiyyə Məclisinin yaradılması və fəaliyyəti.

6.ÜST-in regional təşkilatları.

7.Alma-Ata bəyannaməsi və milli səhiyyə sistemlərinin yaradılmasına yardımlar.

8."2000-ci il üçün hamının sağlamlığı" proqramı.

9.QİÇS-ə qarşı Ümumdünya Proqramı və onun reallaşdırılması uğrunda mübarizə.

10.Azərbaycan-ÜST əməkdaşlığı və perspektivləri.

## XIV. BMT-nin MAARİF, ELM, MƏDƏNİYYƏT VƏ HUMANİTAR MƏSƏLƏLƏRİ ÜZRƏ TƏŞKİLATLARI (YUNESKO və ÜİMT)

### §1. YUNESKO - BMT-nin Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə Təşkilatı

Müasir beynəlxalq münasibətlərin başlıca elementləri sırasına dövlətlərarası siyasi və iqtisadi əlaqələrlə yanaşı, sülh və dinc birgəyaşayışa xidmət edən elmi və mədəni əlaqələr də daxildir. Təsadüfi deyildir ki, BMT yarandıqdan sonra meydana gələn ilk universal ixtisaslaşdırılmış qurum YUNESKO olmuşdur.

BMT-nın təhsil, elm və mədəniyyət məsələləri təşkilatı 1945-ci il oktyabrın 25-də keçirilmiş London konfransında təsis olunmuş təşkilatın Nizamnaməsi 1946-cı il noyabrın 4-də qüvvəyə minmiş, dekabrın 14-dən etibarən isə BMT-nın ixtisaslaşdırılmış qurumuna çevirilmişdir.

Nizamnamənin 1-ci maddəsinə görə YUNESKO-nun başca məqsədləri aşağıdakılardır

-təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlığı həvəsləndirməklə sülhün və təhlükəsizliyin təmin olunmasına yardım göstərmək;

-BMT Nizamnaməsinə uyğun olaraq irqinə, cinsinə, dilinə və dininə fərq qoymadan bütün insan hüquqlarına və əsas azadlıqlarına, qanunçuluğa və ədalətə hörmətin təmin edilməsi.

YUNESKO-nun qarşısında duran vəzifələr:

-kütləvi informasiya vasitələrinin yardımı ilə qarşılıqlı anlaşmanın dərinləşməsi;

-xalq təhsilinin həvəsləndirilməsi;

-biliklərin saxlanması, artırılması və yayılması;

-mədəniyyətin təbliği və yayılması.

YUNESKO-nun quruluşuna aşağıdakı orqanlar daxildir:

-Baş Konfrans;

-İcraiyyə Şurası;



-Milli Komissiyalar;

-Regional qurum;

-Katiblik.

Baş Konfrans – YUNESKO-nun başlıca orqanıdır, burada bütün üzv dövlətlər beş nümayəndədən artıq olmamaq şərti ilə təmsil olunurlar. Baş konfrans iki ildə bir dəfə Parisdə toplanır. Fövqəladə sessiyalar konfransın, İcraiyyə Şurasının və ya üzv dövlətlərdən üçdə birinin tələbi ilə çağırıla bilər. Hər bir Konfransda sədr və prezidium seçilir, üzv dövlətlər bir səsə malik olurlar. Bir qayda olaraq, qərarlar sadə səs çoxluğu ilə qəbul olunur. Lakin yeni üzvlərin qəbulu, Nizamnamədə dəyişikliklər edilməsi, beynəlxaq sazişlərin və s. təsdiqi kimi məsələlərdə üçdə iki səs çoxluqu qaydasından istifadə olunur.

Baş konfrans təşkilatın cari və perspektiv (ikiillik) fəaliyyət proqramını müəyyənləşdirir, təhsil, təbii və humanitar elmlər, biliklərin yayılması və s. sahələrlə bağlı hökumətlərarası və qeyri-hökumət konfransları çağırır, İcraiyyə Şurası üzvlərini seçir və onun tövsiyyəsi ilə Baş direktoru təyin edir.

Baş konfrans dövlətlərin təyin etdiyi nümayəndələrin içərisindən 58 üzvdən ibarət İcraiyyə Şurasını seçir. Şura Baş Konfransın gündəliyini hazırlayır, proqram və büdcəyə dair tövsiyələr verir, habelə qərarların icrası ilə bağlı Baş Konfrans qarşısında məsuliyyət daşıyır. Şura ildə iki dəfədən az olmayaraq iclas keçirir.

Nizamnaməyə əsasən yaradılan milli komissiyalar təhsil, elm və mədəniyyət məsələləri ilə məşğul olan dövlət orqanlarının YUNESKO-nun fəaliyyətinə qatılması məqsədinə xidmət edirlər. Komissiyalar aşağıdakı dörd funksiyanın reallaşdırılmasına xidmət edirlər:

-dövlətlərə məsləhətləşmələrin aparılması və ictimaiyyətin məlumatlandırılması;

-üzv dövlətlərin YUNESKO-nun fəaliyyəti ilə əlaqələndirilməsi;

-YUNESKO proqramlarının işlənib hazırlanması və reallaşdırılmasında üzv dövlətlərin iştirakının təmin edilməsi;

-YUNESKO tədbirlərinin həyata keçirilməsi (sərgilər, konfranslar, kitabların nəşr olunması, kütləvi tədbirlər və s.)

YUNESKO-nun regional strukturuna 50-yə yaxın regional büro daxildir, buna görə də üzv dövlətlər beş regiona bölünmüşdür: Afrika, Latın Amerikası, Asiya-Sakit okean bölgəsi, ərəb ölkələri, Avropa və Şimali Amerika. Dövlətlərin əksəriyyəti YUNESKO-nun mənzil-qərargahında daimi nümayəndəliklə təmsil olunurlar.

Katiblik - altı illik müddətə seçilən və təkrar seçilmək hüququna malik olan Baş direktorun rəhbərliyi altında fəaliyyət göstərir və YUNESKO-nun strukturuna daxil olan orqanların fəaliyyətini əlaqələndirir. Baş direktror büdcə və proqramların hazırlanmasına rəhbərlik edir, Baş konfransın gündəliyini hazırlayır.

Katiblik altı şöbədən ibarətdir: tərbiyə, təbii elmlər, slosial və humanitar elmlər, mədəniyyət, kommunikasiya, informasiya və informatika. Şöbələrə baş direktorun müavinləri rəhbərlik edirlər.

YUNESKO-nun başlıca tərəfdaşları aşağıdakılardır:

-BMT sistemi orqanları və institutları;

-YUNESKO klub və məktəbləri;

-milli komissiyalar;

-qeyri-dövlət təşkilatları və fondları.

YUNESKO-nun fəaliyyəti beynəlxalq intellektual əməkdaşlığın, qarşılıqlı yardımın və sülh işinin dəstəklənməsinə yönəldiyi üçün aşağıdakı sahələr prioritet istiqamətlər kimi müəyyənləşdirilmişdir:

-tərbiyə;

-elm;

-mədəniyyət;

-kommunikasiya;

-sosial elmlər və inkişaf;

-sülh və insan hüquqları.

YUNESKO-nun cari və perspektiv fəaliyyəti aşağıda qeyd edilən proqram və tədbirlərin həyata keçirilməsinə yönəlmişdir:

-savadsızlığın ləğvi proqramı;

-texniki yardım proqramı;

-"Elm, texnologiya və cəmiyyət" proqramı;



-"İnsan və biosfera" proqramı;

-beynəlxalq coğrafi müqayisə proqramı;

-beynəlxalq kommunikasiyaların inkişafı proqramı;

-beynəlxalq hidroloji proqram;

- ümumi informasiya proqramı;

-hökumətlərarası informatika proqramı;

-YUNESKO tərcümə proqramı (dünya ədəbiyyatı nümunələrinin tərcüməsini həyata keçirir);

-təqaüd proqramı( təhsil üçün);

-"Hamı üçün ibtidai təhsil" proqramı;

-Fələstin qaçqınları üçün təhsil proqramı;

-Okean tədqiqatları və sahil əraziləri proqramları:

-Ümumdünya mədəniyyətin inkişafı onilliyi.

YUNESKO-nun üzərinə götürdüyü qlobal proqramları həyata keçirməsi beynəlxalq əməkdaşlıq yolu ilə reallaşdırıla bilərdi. Yaranmış şəraitdə YUNESKO bir sıra komitə və beynəlxalq komissiyalarla iş birliyi qururdu ki, bunların içərisində aşağıdakılar xüsusi yer tuturdu:

-Bəşəriyyətin elmi və mədəni inkişafı tarixi üzrə Beynəlxalq Komissiya;

-Beynəlxalq Okeanoqrafiya Komissiyası;

-Mədəniyyət və inkişaf Komissiyası (və ya Peres de Kuelyer komissiyası, 1992-ci ilin dekabrında yaradılmışdır);

-XXI əsrdə təhsil məsələləri üzrə Beynəlxalq Komissiya (Jak Delor Komissiyası, 1992-ci ildə yaradılmışdır).

-Cenevrədə məktəb təhsili məsələləri üzrə beynəlxalq büro;

-Paris beynəlxalq təhsilin planlaşdırılması institutu:

-Hamburqda tərbiyə məsələlərinə dair YUNESKO institutu və s.

Müharibədən sonrakı quruculuq işlərində YUNESKO öz dəst-xətti ilə seçilən ixtisaslaşdırılmış qurumlardandır. 50-ci illərin sonlarından etibarən YUNESKO-nun diqqəti milli-azadlıq hərəkatının geniş miqyas aldığı regionlara yönəlmişdi. 60-cı illərin əvvəllərindən etibarən Afrikada-Akkrada, Xartumda, Yaundda, Əddis-Əbəbədə, 1965-66-cı illirdə isə Şərqi və Qərbi Afrika üçün savadsızlığın ləğvi üzrə iki regional mərkəz yaradılmışdı. 1964-cü ildə YUNESKO-nun təşəbbüsü ilə

İskəndəriyyədə ərəb dövlətlərinin iştirakı ilə savadsızlığın ləğvi proqramı qəbul olundu. Proqram 90-cı illərin əvvəllərinədək həyata keçirildi və ciddi irəliləyişlərə nail olundu. Hazırda Afrikada " İstiqamət Afrikadır !", ərəb dünyasında isə ARABUPEAL proqramları həyata keçirilir.

Savadsızlığın bütün dünyada ləğvini qarşıya məqsəd qoyan YUNESKO Asiya qitəsində xüsusi geniş fəaliyyət proqramı həyata keçirirdi.1960-cı ilin aprelində Kəraçi (Pakistan) şəhərində YUNESKO-nun təşəbbüsü ilə keçirilən beynəlxalq konfransda Cənub-Şərqi Asiya ölkələrində təhsilin inkişafı üzrə 20 illik inkişaf proqramı- Kəraçı proqramı qəbul olundu. Proqram 1980-cı ilin sonu üçün bu ölkələrin ümymi yeddi illik təhsilə keçirilməsini nəzərdə tuturdu ki, buna əsasən nail olunmuşdur. Hazırda Asiya və Sakit okean regionunda iki layihə həyata keçirilməkdədir.

YUNESKO Latın Amerikası və Cənubi Afrika üçün də analoji proqramların hazırlanmasına və həyata keçirilməsinə nail olmuşdur.

Yarandığı gündən beynəlxalq sülh və təhlükəsizlik uğrunda mübarizəni bayraq edən YUNESKO hal-hazıradək bu sahəyə prioritet istiqamət kimi diqqəti zəiflətməyibdir. Baş Konfransın 1947-ci ildə keçirilmiş II sessiyasında müharibə təbliğatını bəşəriyyətə qarşı ən ağır cinayət elan edən YUNESKO öz yarım əsrlik fəaliyyəti boyu dönə-dönə bu məsələnin üzərinə qayıtmış və Stokholm çağırışına qoşulmuşdu.

80-cı illərdən etibarən YUNESKO-nun fəaliyyəti perspektiv planlar əsasında genişlənməyə başladı. 1990-95- ci illəri əhatə edən 3-cü ortamüddətli plan iki sahəni önə çəkmişdi: "İnsanlıq", "Əhalinin yoxsul təbəqələri". Göstərilən layihələrin reallaşdırılması sahəsində görülən işlər 1996-2001-ci illər üçün nəzərdə tutulmuş strategiyada da öz aktuallığını saxlayır.

YUNESKO beynəlxalq sazişlərin hazırlanmasında və müzakirəsində yaxından iştirak edirdi. Belə ki, "Müəllif hüquqlarına dair Ümumdünya konvensiyası", "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında Konvensiya", "İrqlər və irqi mövhümat haqqında bəyannamə" və s. beynəlxalq sənədlər YUNESKO-nun yaxından iştirakı ilə hazırlanmışdı.



YUNESKO Dünya İrsi Mərkəzi dünya mədəniyyəti incilərinin qorunmasında mühüm rol oynayır. Mədəni və təbii irsin qorunması haqqında konvensiyaya (1972) uyğun olaraq Mərkəz abidələrin qorunması üçün regional sisteslərin yaradılması üzərində ciddi iş aparır. Hazırda dünya mədəni abidələri sırasında 500-dən yuxarı abidə daxildir ki, "Qız qalası" və "İçəri şəhər" bunların sırasındadır.

Peres de Kuelyar komissiyası iki illik hazırlıqdan sonra 1995-ci ılın yazı üçün qarşıdakı onillik mədəni inkişaf proqramı-"Mədəniyyət və inkişaf üzrə ümumdünya məruzəsi " adlanan sənəd hazırladı.Peres də Kuelyar göstərdi ki, elm kimi, təhsil də mədəniyyətin vacib aspektlərindən biridir, buna görə də mədənı-iqtisadı və sosial inkişafla üzvi tellərlə bağlanmışdır. Təsadüfi deyildi ki, YUNESKO 1993-cü ildə təhsil məsələləri ilə bağlı İstanbulda beynəlxalq konqres keçirmiş, Monreal(1993), Nayrobi(1995), Cakarta(1995), Paris(1996) və s. yerlərdə keçirilmiş beynəlxalq konqreslərdə insan hüquqları, beynəlxalq təhlükəsizlik, tərbiyə və təhsil məsələləri ciddi şəkildə müzakirə olunmuşdu.

YUNESKO-nun əsas əlaqə saxladığı təşkilatlar içərisində qeyri-hökumət qurumları xüsusi yer tutur. Belə ki, YUNESKO hazırda 600-dən yuxarı qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq edir, bunların içərisində 14 ixtisaslaşmış elmi ittifaq və müxtəlif komitələr fəaliyyət göstərirlər.

Hazırda YUNESKO-nun sıralarında 183 dövlət birləşir,CAR 1956-cı ildə, ABŞ 1984-cü ildə, Sinqapur və İngiltərə 1985-ci ildə YUNESKO-nun sıralarını tərk etmişdir, lakin İngiltərə 1997-ci ildə YUNESKO-da öz fəaliyyətini bərpa etmişdir. Təşkilatın mənzil qərargahı Parisdə yerləşir.

1991-ci ilin oktyabrında dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasının xarici siyasət strategiyasında YUNESKO ilə əməkdaşlıq xüsusi yer tutur. Məlum olduğu kimi, Azərbaycanın təhsil sisteminin keçmiş ittifaq daxilindəki səviyyəsi yüksək göstəricilərə malik olmuşdur. Mövcud təhsil şəbəkəsi ölkənin bütün regionlarını tam əhatə etmiş, orta təhsil almaq üçün hamıya bərabər imkanlar yaradılmış, respublikada savadsızlıq ləğv edilmişdir. Bununla yanaşı, Azərbaycanda

orta- ixtisas, texniki peşə və ali təhsil sistemində ixtisaslaşma aparılmış, müxtəlif sahələrdə, o cümlədən, neft sahəsində yüksək səviyyəli mütəxəsisslərin hazırlanmasına diqqət artırılmışdır. Azərbaycan müstəqillik qazandığı və BMT-yə daxil olduğu dövrdə respublikanın 17 ali məktəbində 60 minə yaxın tələbə təhsil alırdı. Zamanın tələblərinə uyğun olarq Azərbaycanın təhsil sistemində müvafiq islahatların aparılmasında YUNESKO ilə tərəfdaşlıq uğurlu perspektivlər açır.

Azərbaycan BMT-nin ixtisaslaşmış qurumu olan YUNESKO-ya 1992-ci ilin iyun ayında qəbul olunmuşdur.Xalqların təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığını genişləndirmək yolu ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə xidmət göstərən bu təşkilatla Azərbaycanın əlaqələri öz tarixinə görə respublikanın BMT-yə daxil olduğu dövrdən əvvəlki illərə təsadüf edir. Suveren Azərbaycanın YUNESKO ilə əlaqələrinin genişləndirilməsi isə 1993-cü ilin ikinci yarısından başlamışdır. 1993-cü il noyabr ayının 3-də Azərbaycan Respublikasının Xarici işlər naziri H.Həsənov YUNESKO-nun Parisdə keçirilən baş konfransının 27-ci sessiyasının çıxış edərək təşkilatla əlaqələrin əsas istiqamətlərindən danışmışdır. Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsi respublikanın təhsil, elm və mədəniyyət sisteminə ağır yaralar vurmuşdur. Təhsil ocaqları, elmi laboratoriyalar, mədəniyyət abidələri (2000-dən çox sosial-mədəniyyət xarakterli obyekt) bu muharibə prosesində dağıdılmış, məcburi köçkün şəraitinə düşmüş minlərlə uşaq təhsil sistemindən kənarda qalmışdır. YUNESKO Baş Konfransının 27-ci sessiyasında H.Həsənov Azərbaycanın qədim mədəniyyət mərkəzindən biri olan Şuşa şəhərinin dağıdılması məsələsi üzərində xüsusi dayanmış, Azərbaycan mədəniyyəti və sivilizasiyasının mərkəzinin salamat qalmasına nəzarət etmək üçün təcili olaraq YUNESKO-nun missiyasının göndərilməsini xahiş etmişdir.

Artıq YUNESKO Azərbaycanda təhsil islahatlarının keçirilməsində iştirak etməklə yanaşı, təhsil, elm və mədəniyyətlə bağlı bir sıra digər proqramlar üzrə də



respublikamızla əməkdaşlığa başlamışdır. "Xəzər dənizinə dair regionlararası layihəni'n işlənib hazırlanması bu təşkilatın proqramına daxil edilmişdir. Beynəlxalq hidroloji proqram YUNESKO tərəfindən hələ 1975-ci ildə hazırlanmışdı. Bu proqram çərçivəsində mütəxəssislər üçün beynəlxalq hidrologiya kursları təşkil olunur.

YUNESKO-nun fəaliyyət dairəsində əsas yerlərdən birisini də informasiya proqramı tutur. 1993-cü ilin noyabrında Hindistanın Bombey şəhərində YUNESKO-nun informasiya proqramı çərçivəsində keçirilmiş, Cənubi, Mərkəzi, Cənub-Şərqi Asiya və Sakit okean ölkələri üzrə regional informasiya şəbəkəsi yaradılması problemlərinə həsr olunmuş müşavirədə Azərbaycanın da bu şəbəkəyə qoşulması və peyk rabitəsi ilə təmin olunması barədə qərar qəbul edildi. Həmin qərarın həyata keçirilməsi prosesində Azərbaycanın BMT-nin başqa bir ixtisaslaşmış qurumu- olan Beynəlxalq Telekommunikasiya İttifaqı əməkdaşlığı üçün real zəmin yarandı.

1994-cü ilin iyun ayında Budapeştdə YUNESKO-nun Avropa regionu komitəsinin VII sessiyasında Azərbaycan bu komitəyə üzv seçildi. Məlumdur ki, Avropa regionu üçün akademik tanınma məsələsi bu komitə tərəfindən həll olunur. Akademik tanınma tədris kurslarının, ali təhsil haqqında diplomların, elmi ad və dərəcələrin beynəlxalq səviyyədə qəbul olunmasını əhatə edir. Azərbaycanın akademik tanınma konvensiyasına qəbul olunmasına üzv-ölkələr tərəfdar çıxdılar Beləliklə, 1994-cü il iyunun 18-də Azərbaycan YUNESKO-nun Avropa regionu komitəsinə daxil olan ölkələr tərəfindən irəli sürülən akademik tanınma konvensiyasına qəbul edildi. Bu, Azərbaycanın beynəlxalq aləmdə təhsil və elm sahəsində qazandığı böyük uğurlardan biri idi. Respublikada verilən diplomlar tanınmaqla yanaşı, komitə üzv ölkəyə təhsil və elmin inkişaf etdirilməsi məqsədilə yardımlar da göstərirdi

Azərbaycanla YUNESKO arasındakı əlaqələrin möhkəmlənməsində Respublika Prezidenti H.Əliyevin bu ixtisaslaşmış qurumun baş direktoru Federiko Mayorla görüşləri müstəsna əhəmiyyət kəsb edir. Təkcə son illərdə onların dörd görüşü olmuş, görüşlərdə Azərbaycanla bağlı təhsil, elm və

mədəniyyət məsələləri müzakirə edilmişdir. Təsadüfi deyildi ki, YUNESKO-nun baş direktoru Azərbaycan Prezidenti ilə Bakıdakı görüşündə: "Sizinlə YUNESKO-nun qərargahındakı ilk görüşümüz və o zaman "sülhü möhkəmlətmək bizim hər hər ikimizin ümdə vəzifəmizdir" deməyiniz heç vaxt yadımdan çıxmayacaqdır. Görüşlərimizin birində isə demişdiniz ki, YUNESKO Parisdə deyil, məktəblərdə, tədqiqat mərkəzlərində, gözəl yazıçıların kitablarındadır. Çox şadam ki, Sizin yaratdığınız milli komitə vasitəsilə biz işimizi adı çəkilən yerlərdə görə bilərik"- demişdi.

YUNESKO-nun baş qərargahında dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyinə həsr olunmuş mərasimin keçirilməsi, həmin tədbirdə F.Mayorun şəxsən iştirakı, nəhayət, Baş direktorun 1996-cı ilin noyabrında yubiley şənliklərinə Bakıya gəlişi əlamətdar hadisə olmaqla yanaşı, Azərbaycanla YUNESKO arasında əməkdaşlığın yüksək səviyyədə qurulmasını təsdiq edən faktdır. Səfər zamanı mədəniyyət sahəsində ikitərəfli əməkdaşlıq haqqında saziş imzalandı.

1994-cü il noyabr ayının 18-də Azərbaycan Prezidenti H.Əliyev və YUNESKO-nun baş direktoru Federiko Mayor Azərbaycan Respublikası ilə YUNESKO arasında əməkdaşlıq haqqında memorandum imzalandı. Memorandumda respublikamıza təhsil, mədəniyyət və digər sahələrdə yardımların göstərilməsi nəzərdə tutulurdu. Burada Azərbaycanın mədəniyyət abidələrinin mühafizəsi və bərpası sahəsində əməkdaşlıq məsələləri də öz əksini tapmışdı.

Təhlil göstərir ki, "Mədəni sərvətlərin qanunsuz olaraq ölkədən aparılması gətirilməsi və onların barəsində mülkiyyət hüququnun başqasına verilməsini qadağan etmək yolları" haqqında beynəlxalq konvensiyanın müddəalarını əsas götürməklə Azərbaycanın işğal olunmuş ərazilərindəki maddi-mədəniyyət abidələrinin qaytarılması, mühavizəsi və bərpası istiqamətində YUNESKO ilə əməkdaşlığı müsbət nəticələr verə bilər.

BMT-nin ixtisaslaşmış qurumları ilə elm sahəsində əməkdaşlıq özünü əsasən elmi konfranslarda, simpoziumlarda,



seminarlarda iştirak etməkdə göstərir. Azərbaycan alimləri müxtəlif məsələlərə həsr olunmuş konfrans və seminarlarda çıxış etməklə yanaşı, qlobal problemlərlə bağlı beynəlxalq məclislərdə də öz sözlərini deyirlər. Bir sıra elmi toplantıların Bakıda keçirilməsi isə Azərbaycan elminin böyük uğurudur. Qeyd etmək lazımdır ki, YUNESKO dünya şöhrətli alimlərin elmi irsinin öyrənilməsinə və təbliğinə də xüsusi diqqət verir. Görkəmli Azərbaycan alimi akademik Azad Mirzəcanzadənin elmi-pedoqoji irsi haqqında YUNESKO xətti ilə konfrans keçirilməsi qərarı hələ 1992-ci ildə qəbul edilmişdi. Bu cür konfransların keçirilməsi istər Azərbaycan alimlərinin dünyada tanınmasında, istərsə də respublikada elmin inkişafında böyük əhəmiyyət kəsb edir.

BMT və onun ixtisaslaşmış qurumları ilə mədəni əlaqələr çərçivəsində sərgilərin, baxış müsabiqələrin, foto sərgilərin təşkil edilməsi səmərəli nəticələr vermişdir. Görkəmli Azərbaycan rəssamı S.Bəhlulzadənin əsərlərindən ibarət sərginin BMT-nın Nyu-Yorkdakı iqamətgahında nümaiş etdirilməsi respublikanın təsviri incəsənət sahəsində qazandığı uğurların beynəlxalq səviyyədə təsdiqi kimi qiymətləndirilməlidir. BMT Baş Katibin həmin sərginin açılışında iştirakı Azərbaycan mədəniyyətinə göstərilən böyük diqqətdir. YUNESKO Baş direktorunun kabineti yanındakı sərgidə dünya incəsənət inciləri ilə bir sırada Lətif Kərimovun müəllifi oldunu "Memar Əcəmi" xalçasının asılması (bu xalça 1983-cu ildə Bakıda YUNESKO xətti ilə keçirilən xalça simpoziumunda o dövrki Baş direktor A. Bouya hədiyyə edilmişdi) Azərbaycan mədəniyyətinə olan diqqətin nəticəsi idi.

Azərbaycan YUNESKO əməkdaşlığına dair 1996-cı ilin noyabrında imzalanmış saziş təhsil, elm, mədəniyyət və humanitar sahələrdə əməkdaşlığın yeni mərhələsinin başlanğıcı idi. Təsadüfi deyil ki, məhz bundan sonra Azərbaycanda ali təhsilin TASIS və TEMPUS proqramlarına uyğun şəkildə yenidən qurulmasına dair iki layihə reallaşdırılmağa başladı, 2000-ci il YUNESKO tərəfindən Böyük İpək yolu -TRACEKA ili elan olundu.

## § 2. Ümumdünya İntellektual Mülkiyyət Təşkilatı (ÜİMT)

İnsan fikrinin nailiyyətlərinin qorunması bəşəri təfəkkürü zaman-zaman məşğul etmiş, intellektin inkişafı, intellektual fikrin mühavizəsi və həvəsləndirilməsi, nailiyyətlərin əlaqələndirilməsi daim BMT-nın diqqət mərkəzində olmuşdur. İntellektual mülkiyyətin başlıca sahələri olan sənaye mulkiyyəti və müəllif hüquqlarının qurulması hələ XIX əsrin sonlarından - elmi-texniki tərəqqinin və sənaye inkişafının böyük vüsət aldığı dövrdən etibarən beynəlmiləlləşmiş və bir sıra dövlətlərarası konvensiyaların imzalanması ilə nəticələnmişdi. Bu konvensiyaların içərisində ıkı konvensiya mühüm yer tuturdu:

-Sənaye mülkiyyətinin mühafizəsinə dair Paris Konvensiyası (1883).

-Ədəbi və bədii əsərlərin mühafizəsinə dair Bern Konvensiyası (1886).

1893-cü ildə hər iki konvensiyaya əsaslanan yeni yeni birlik formalaşdı: İntellektual mülkiyyətin qorunmasına dair Beynəlxalq birləşmiş büro yradıldı. Büro mövcud olduğu dövr ərzində intellektual mülkiyyətin qorunması ilə bağlı onlara konvensiyanın qəbuluna nail olmuş və həmin sənədlərin həyata keçirilməsinə nəzarət etmişdi. Beynəlxalq bürənun 1967-ci ıl Stokholm konfransında büroda struktur dəyişiklikləri edildı və adı dəyişdirilərək Ümumdünya İntellektual Mülkiyyəti Təşkilatına (ÜİMT) çevrildi. Konvensiya 1970-ci ilin yanvarında qüvvəyə mindi. Elə Stokholm konfransı dövründə təşkilatın BMT ilə əlaqələndirilməsi məsələsi müzakirə olundu ki, sonradan bu məsələ BMT ilə ÜİMT arasında 1974-cü ıl 19 dekabr sazişinın imzalanması ılə nəticələndi və ÜİMT BMT-nin ixtisaslaşdırılmış qurumuna çevrıldi.

ÜİMT-in başlıca məqsədləri aşağıdakılardır:

-Dövlətlər və beynəlxalq təşkılatlar arasında əməkdaşlıq yolu ilə bütün dünyada intellektual mülkiyyətin qorunması;

-İntellektual mülkiyyətin qorunması sahəsində ittifaqlar arasında əməkdaşlığın təmin olunması.

1967-ci il Konvensiyasına əsasən ÜİMT-nin funksiyaları:

-yeni beynəlxalq müqavilələrin bağlanması üzərində iş və



bütün dünyada intellektual mülkiyyətin qorunmasının həvəsləndırılməsı sahəsində milli qanunvericiliyin təkmilləşdırilməsi və inkişaf etdirilməsi;

-dövlətlər arasında mülki əməkdaşlığın beynəlxalq səviyyədə koordinasiyası və inkişafı;

-inkişaf etməkdə olan ölkələrə texniki yardımların göstərilməsi;

-informasiyanın toplanması və mübadilə edilməsi;

-ölkələrə ixtiralara, əmtəə nişanlarına, sənaye nümunələri və modellərinə görə müəllif hüquqları verilməsinin dəstəklənməsi və s.

Paris, Bern, habelə Stokholm konvensiyalarına əsasən ıntellektual mülkiyyət iki sahəyə ayrılır:

-sənaye mülkiyyəti (ixtiralar, əmtəə nişanları, sənaye nümunələri və modelləri);

-müəllıf hüquqları (ədəbi, musiqi, bədii, fotoqrafiya, kınematoqrafiya və audiovizual əsərlər).

ÜİMT onlarla beynəlxalq müqavilə, saziş və razılaşma əsasında fəaliyyət göstərir ki, bunlar sənaye mülkiyyəti və müəllif hüquqlarının bütün sahələrini əhatə edir. Bunların içərisində Paris və Bern konvensıyalarına əsasən yaradılmış ittifaqlarla yanaşı, 1891-cı ıl Madrid ittifaqı (əmtəə nişanlarının beynəlxalq qeydıyyatı), 1968-ci il Lokarno Konvensiyası, 1971-ci il Beynəlxalq Patent təsnifatı müqaviləsi, Olimpiya simvolunun qorunmasına dair Nayrobi müqaviləsi (1981), sputnik əlaqəsi yarandıqdan sonra 1974-cü ıldə ımzalanmış Brüssel Konvensiyası, 1989-cu ıl filmlərin qeydiyyatı müqavıləsi, əmtəə ünvanlarının qorunması sazişi və s. göstərmək olar.

Stokholm Konvensiyasına əsasən Paris və ya Bern ittifaqlarından birinin üzvü olan hər hansı dövlət ÜİMT-nin üzvü ola bilər. 1974-cü ıl 19 dekabr sazışınə əsasən isə BMT-nin, ATEBA-nın, habelə hər hansı ixtisaslaşdırılmış qurumun üzvü olan dövlət də ÜİMT üzvlüyünə qəbul olunmaq imkanına malıkdır.

ÜİMT- in nizamnamə orqanları aşağıdakılardır:

Baş Məclis;

Konfrans;

Koordinasiya komitəsi;

Beynəlxalq büro.

ÜİMT-nin bütün üzvlərinin ali orqanı olan Baş Məclis Paris və Bern konvensiyasının üzvləri ilə birlikdə iki ildə bir dəfə sessiyaya toplaşır. Baş Məclis iki il müddətinə ÜİMT-ə daxil olan bütün ittifaqlar üçün birgə büdcəni müəyyənləşdirir, habelə strateji xətti qəbul edir.

Konfrans-ittifaqlara mənsubiyyətindən asılı olmayaraq ÜİMT-in bütün üzvlərinin iştirakı ilə keçirilir, konfransın iki illik büdcəsi, intellektual mülkiyyətin problemləri, tövsiyələr və s. konfransda müəyyənləşdirilir.

Koordinasiya komitəsi-1967-ci il Stokholm Konvensiyasının üzvü olan 58 dövlətin nümayəndələrindən ibarət olub təşkilatın icra orqanlarının fəaliyyətlərini əlaqələndirir. ÜİMT-in bütün idarə, maliyyə, konfransın gündəliyi ilə bağlı məsələləri, habelə Baş direktorun tövsiyə olunmasını komitə təklif edir.

Beynəlxalq büro-təşkilatın daimi orqanı olub katiblik funksiyasını yerinə yetirir. Büroya 6 illiyə seçilmiş və təkrar seçilmək hüququna malik olan Baş direktor rəhbərlik edır. Bir neçə şöbədən ibarət olan büro ÜİMT-ə daxil olan bütün ittifaqların və digər qurumların fəaliyyətlərini əlaqələndırir. Büronun fəaliyyət sahəsinə habelə beş beynəlxalq qeydiyyat xidmətinin işini təşkil etmək də daxildir.

Hazırda ÜİMT-yə BMT-nin üzvü olan dövlətlərdən 169-u daxildır. Təşkilatın mənzil – qərargahı Cenevrə şəhərindədir. BMT Nizamnaməsinə görə, qurumun bütün başlıca orqanları köməkçi orqanların yaradıcısı kimi çıxış etmək imkanına malikdir. Belə orqanlar xüsusi təyinatlı qurum və proqramlardan da ibarət ola bilər ki, bunlar BMT-nin işinin daha səmərəli olması məqsədilə yaradılır və fəaliyyət göstərir.

**Yoxlama sualları:**

1.London konfransı (1945) və YUNESKO-nun yaradılması.

2.Təhsil, elm, mədəniyyət və humanitar sahələrdə beynəlxalq əməkdaşlığın yaradılması zərurəti.

3.YUNESKO-nun başlıca məqsəd və vəzifələri.



4.YUNESKO-nun tərkibi və quruluşu.

5.YUNESKO-nun nizamnamə orqanlarının səciyyəsi.

6.YUNESKO fəaliyyətinin prioritet istiqamətləri.

7.Müxtəlif beynəlxalq proqramların həyata keçirilməsi sahəsində YUNESKO-nun fəaliyyəti.

8.Müəllif hüquqlarına dair Ümumdünya Konvensiyasının qəbulu.

9.Mədəni və təbii irsin qorunması haqqında Ümumdünya Konvensiyası.

10.YUNESKO-nun dünya xalqları arasında təhsil, elm, mədəniyyət və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsində rolu.

11.YUNESKO-Azərbaycan əməkdaşlığı.

12.YUNESKO-nun Azərbaycanla əlaqədar həyata keçirdiyi proqram və tədbirlər.

13.Stokholm konvensiyası (1967) və ÜİMT-nin yaradılması.

14.İntellektual mülkiyyətin qorunmasına dair beynəlxalq konvensiya və sazişlər.

15.ÜİMT-nin quruluşu: rəhbər və icra orqanları.

16.ÜİMT-nin məqsəd və vəzifələri.

17.ÜİMT-nin sənaye mülkiyyəti və informasiya üzrə Daimi Komitəsi.

18.ÜİMT və müəlliflik hüquqlarının beynəlxalq səviyyədə qorunması.

19.Azərbaycan Respublikasının ÜİMT ilə əlaqələri və əməkdaşlığı.

## XV. BMT-nin İXTİSASLAŞMIŞ TƏŞKİLATLARINA DAXİL OLMAYAN XÜSUSİ TƏYİNATLI QURUM VƏ PROQRAMLARI (ÜTT, BMT İP VƏ UF, BMT QAKİ VƏ S.)

### §1. Ümumdünya Ticarət Təşkilatı

II Dünya müharibəsindən sonra dövlətlərarası iqtisadi əlaqələrin canlanması ticarət və tariflərə xüsusi diqqət verməyi tələb edirdi. Məhz bu zərurət 1947-ci ilin noyabrında Ticarət və Tariflərə dair Baş Sazişin (TTBS) imzalanmasını zəruri etdi. Saziş 1948-ci ilin əvvəllərində qüvvəyə mindi və TTBS BMT sisteminə daxil oldu.

TTBS-in funksiyaları aşağıdakılardır:

-dövlət ticarət siyasətinə dünya ticarəti qaydalarını işləyib hazırlamaqla təsir göstərmək;

-ticarət münasibətlərini daha liberal etmək üçün danışıqlar forumu;

-mübahisələrin nizamlanması.

TTBS-nin strukturuna aşağıdakılar daxildir:

-razılığa gələn tərəflər sessiyası;

-TTBS nümayəndələri Şurası;

-mübahisələri nizama salmaq üçün komitələr, işçi qrupları və digər orqanlar.

TTBS katibliyi.

TTBS-nin mövcudluğu dövründə 8 çoxtərəfli ticarət konfransı keçirilmiş, dünya ticarətinin problemləri müzakirə olunmuş və müvafiq qərarlar qəbul edilmişdi.

TTBS danışıqlarının sonuncu Uruqvay raundu 1986-1993-cü illəri əhatə edir. Danışıqlarda 118 üzv dövlət iştirak edirdi. 1984-cü ilin əvvəllərində imzalanmış sənəddə: 1) əmtəələrin sərbəst hərəkəti; 2) təşkilatın adının dəyişməsi və 3) strukturunun təkmilləşməsi nəzərdə tutulurdu.



Uruqvay danışıqları nəticəsində qəbul edilmiş Yekun Aktı 550 səhifə əsas mətn və 20 min səhifə milli şərtlərdən ibarət olub, əmtəə və xidmətlər bazarına daxil olma yollarından bəhs edirdi.

Yekun Aktına dair sənədlərin içərisində Ümumdünya Ticarət Təşkilatının yaradılması haqqında saziş xüsusi yer tuturdu. Bütövlükdə, ÜTT-nin yaradılması və fəaliyyətinə dair hüquqi sənədlər 28 sazişdən ibarətdir. TTBS-ni əvəz edən ÜTT beynəlxalq ticarətə nəzarət funksiyasını öz üzərinə götürürdü.

ÜTT-nin məqsədləri aşağıdakılardır:

-dünya iqtisadiyyatının möhkəmləndirilməsi;

-həyat şəraitinin yüksəldilməsi üçün üzv dövlətlərin kommersiya və iqtisadi fəaliyyətlərinin gücləndirilməsi;

-tam məşğulluğun təmin olunması;

-əmtəə və xidmətlər vasitəsilə istehsalın və ticarət mübadiləsinin yuksəldilməsi;

-ətraf mühitin mühafizəsi və uzunmüddətli inkişafın təmin olunması məqsədilə xammal mənbələrindən səmərəli istifadə;

-ticarətin daha sərbəst inkişafına yardım edilməsi;

-daimi inkişaf yolu ilə ticarətin liberallaşdırılmasının daha da dərinləşməsi;

-ticarətdə diskriminasiya və himayəçi gömrüklər siyasətindən imtina edilməsi;

-ədalətli rəqabətə imkan yaradılması.

ÜTT-ün quruluşuna aşağıdakı orqanlar daxildir:

-Nazirlər Konfransı;

-Ümumi Şura;

-7 köməkçi orqanları;

-Katiblik.

Nazirlər Konfransı ÜTT-ın başlıca orqanı hesab edilir və üzv dövlətlərin nümayəndələrindən yaradılır. Konfranslar iki ildən bir çağırılır. ümumi strateji xətti və büdcə məsələlərini müəyyənləşdirir.

Ümumi Şura təşkilatın cari fəaliyyətinə rəhbərliyi həyata keçirir. Şuranın tərkibində iki komissiya fəaliyyət göstərir:

-Mübahisələri nizamlama komissiyası;

-Ticarət siyasətinə nəzarət komissiyası.

ÜTT-ün başlıca köməkçi orqanları aşağıdakılardır:

-Əmtəələrlə Ticarət Şurası;
-Xidmətlə Ticarət Şurası;
-İntellektual Mülkiyyət Hüququnun Ticarət Aspekti Şurası;
-Ticarət və Ekologiya Komitəsi;
-Ticarət və İnkişaf Komitəsi;
-Ödəniş balansının məhdudlaşdırılması Komitəsi;
-Büdcə, maliyyə və idarə məsələləri üzrə Komitə.

ÜTT Katibliyi təşkilatın qurum və komitələrinin fəaliyyətini əlaqələndirir, Nazirlər Konfransı sessiyalarının gündəliyini hazırlayır. Katibliyə baş direktor rəhbərlik edir, onun 4 müavini olur.

ÜTT-ün texniki əməkdaşlıq orqanı Beynəlxalq Ticarət Mərkəzidir (BMT). Mərkəzin fəaliyyəti ÜTT və YUNKTAD-tərəfindən nizamlanır.

1995-ci ildə BMT ÜTT və YUNKTAD-la texniki yardım haqqında birgə layihə hazırlamışdı ki, həmin layihə bu üç BMT orqanı arasında əməkdaşlığı daha da dərinləşdirdi. 1996-cı ildə Sinqapurda keçirilmiş sessiyanın qəbul etdiyi Yekun bəyannaməsi də göstərilənləri təsdiq etdi. Bəyannamə həbelə "Regional Ticarət Sazişləri Komitəsinin yaradıldığını da elan edirdi.

BMT ÜTT-in fəaliyyətinin başlıca istiqaməti inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrlə texniki və digər sahələrdə əməkdaşlıq təşkil edir.

Hazırda ÜTT öz sıralarında 128 dövləti birləşdirir.

## §2. BMT İnkişaf Proqramı (BMT İP)

BMT İP Baş Məclisin 1965-ci il 22 noyabr tarixli 20-ci sessiyasında iki orqanın: geniş texniki yardım Proqramı ilə xüsusi fondun birləşdirilməsi nəticəsində yaradılmış və 1966-cı ilin yanvarından etibarən fəaliyyət göstərməyə başlamışdı.

BMT İP-in başlıca məqsədləri aşağıdakılardır:

-inkişaf etməkdə olan ölkələrin milli inkişafına yardımların göstərilməsi;

-milli inkişafa texniki yardım proqramlarına əsasən dəstək verilməsi;

-insan ehtiyatlarının inkişaf etdirilməsi sahəsində beynəlxalq əməkdaşlıq, yoxsulluğa qarşı mübarizə, iş yerlərinin yaradılması, qadınların vəziyyətinin yaxşılaşdırılması və s.



BMT İP bütün dünyaya yayılmış 132 şöbəsi vasitəsilə 174 inkişaf etməkdə olan ölkə və ərazidə hökumətlər, təşkilatlar və əhali ilə işbirliyi qurmuş, lakin Proqramın daxili ehtiyatlarının 90 faizi 66 ölkəyə yönəldilmişdir ki, bu ölkələrdə planetimizdə yaşayan yoxsul əhalinin 90 faizi cəmlənmişdir. İP heyətinin 85 faizi bu ölkələrdə fəaliyyət göstərir.

IP-in maliyyə vəsaitlərinin başlıca hissəsi könüllü yardımlardan ibarətdir. 1997-ci il üçün bu məbləğ 760 mln. dollardan ibarət olmuşdur, digər mənbələrin yardımları isə 1,4 milyard dollar təşkil etmişdir.

BMT İP aşağıdakı fondları idarə edir:

-BMT könüllülər proqramı;
-BMT qadın naminə inkişaf fondu;
-Ekoloji fəlakətlə mübarizə idarəsi;
-BMT əsaslı inkişaf Fondu;
-BMT elmi-texniki inkişaf Fondu;
-BMT təbii ehtiyatları mühafizə Fondu.

BMT IP-ə ümumi rəhbərliyi EKOSOS tərəfindən seçilmiş Mudirlər Şurası həyata keçirir. İlk dövrdə şura 37 üzvdən ibarət idi, hazırda isə üç illiyə seçilən 48 üzvdən ibarətdir. Şura ildə iki dəfə toplaşır, müxtəlif layihə və proqramları müzakirə və təsdiq edir, vəsaitləri bölüşdürür və s.

BMT İP Katibliyinin iqamətgahı Nyu-Yorkdadır (BMT).

## §3. BMT Uşaq Fondu (BMT UF)

BMT Uşaq Fondu uşaq və körpələrin problemlərini ön plana çəkən yeganə universal qurumlardan hesab olunur. Təşkilatın əsası BM tərəfindən 1946-cı il dekabrın 11-də qoyulmuş və ilk dövrlərdə Beynəlxalq Fövqəladə Uşaqlara Yardım Fondu (YUNİSEF) adlandırılmışdı.

Baş Məclis 1953-cü ilin aprelində Fondu müddətsiz elan etdi və adını müasir formaya saldı, 1959-cü ildə "Uşaq hüququ Bəyannaməsi" qəbul edildi.

Uşaq Fondunun yardımları aşağıdakı üç formada həyata keçirilir:

-uşaqlara yardım proqram və planlarının hazırlanmasının dəstəklənməsi;

-bu proqramların həyata keçirilməsi üçün material və avadanlığın verilməsi;

-inkişaf etməkdə olan ölkələrin özündə Fond heyətinin hazırlanması üçün lazımi vəsait və kadrların ayrılması;

1965-ci ildə Uşaq Fondunun son dərəcə məhsuldar fəaliyyəti və yubileyi onun dünya Nobel mükafatına layiq görülməsilə nəticələndi, 1976-cı il dekabrın 21-də isə BMT 1979-cu ili Beynəlxalq Uşaq İli elan etdi, habelə Fondu BMT sisteminin uşaq və körpələrlə bağlı başlıca orqanı elan etdi.

BMT Baş Məclisi 1989-cu ilin dekabrında "Ümumdünya Uşaq hüquqları haqqında" Konvensiyanı qəbul və təsdiq etdi, bu məqsədlə 1990-cı ildə Ümumdünya görüşü çağırıldı.

YUNİSEF Uşaq konvensiyasını həyata keçirmək üçün bütün dövlət və qeyri-dövlət təşkilatları ilə əməkdaşlıq edir, cari və perspektiv BMT proqramlarına uyğun olaraq fəaliyyət göstərir.

Fonda rəhbərliyi İcraiyyə Şurası həyata keçirir, Şura 36 üzvdən ibarətdır. YUNİSEF-ın 113 ölkədə və 242 məntəqədə 6200 əməkdaşı çalışır, bunların 84%-i bilavasitə yerlərdə fəaliyyət göstərir. Uşaq Fondunun mənzil qərargahları Nyu-York, Kopenhagen və Florensiyada, regional şöbəsi isə Cenevrədə fəaliyyət göstərir.

Uşaq Fondu tamamilə könüllü yardımlar hesabına fəaliyyət göstərir, bütün yardımların 30 faizdən çoxu uşaq sağlamlığının qorunmasına (vaksinlər, uşaq qıdası və s. alınmasına) sərf olunur.

Fondun başlıca mətbu orqanları "Dünyada uşaqların vəziyyəti" və "Millətin inkişafı" jurnallarıdır.

## §4. BMT QAKİ-nin yaradılması

Dünya müharibəsindən sonra ümumplanet miqyası almış qa-
çqınlar probleminin nizamlanması, qaçqın və köçkünlərin ərzaq
və dərmanla təmin edılməsi, öz yurd-yvalarına qaytarılması
digər beynəlxalq qurumlar kimi BMT-nı də xüsusi narahat edi-
rdı. Bir neçə dəfə müzakirə olunmasına baxmayaraq, qaçqın və
köçkünlərin problemləri ilə məşğul olan ayrıca orqanın yaradı-
lması BM-in 1949-cu il 3 dekabr tarixli 3190 saylı qətnaməsinə
əsasən mümkün olmuşdur. Qətnaməyə əsasən, 1951-ci ilin yan-
varından etibarən fəaliyyətə başlayan BMT Qaçqınların işı üzrə
Alı Komissarı İdarəsi (QAKİ) yaradılırdı. Alı komissarlığın ılk
işi sayı 30 min nəfərə çatan qaçqın və məcburi köçkünlərin



problemlərinin aradan qaldırılmasından ibarət idi. Bunlar müharibə dövründə, habelə müharibədən sonra etnosiyasi münaqişə nəticəsində öz yurd-yuvasından qovulanlar idilər.

QAKİ-nin başlıca məqsəd və vəzifələri aşağıdakılardan ibarətdir:

-qaçqınların hüququnun beynəlxalq səviyyədə qorunması;

-qacqınların müdafiəsi üçün beynəlxalq konvensiyaların qəbulu və təsdiq edilməsi;

-beynəlxalq konvensiyaların tələblərinə əməl olunmasına nəzarət edilməsi;

-hökumətlərə və xüsusi təşkilatlara köçkünlərin yerləşdirilməsi ilə əlaqədar yardımların göstərilməsi;

-qaçqın və köçkünlərə yerləşdikləri ərazilərə alışmaq üçün yardımların göstərilməsi;

-hökumətlərin və ya BMT-nin xahişinə əsasən qaçqınlara maddı yardımların göstərilməsi.

Məlum olduğu kimi, qaçqınların rəsmi statusu iki beynəlxalq müqavilə ilə müəyyənləşdirilirdi: "Qaçqınların statusu haqqında Konvensiya" (1951) və Protokol (1967). Həmin sənədlər qaçqınların hüquq və vəzifələrini konkret olaraq müəyyənləşdirirdi. 2000-ci ilədək həmin konvensiyaları 136 dövlət imzalamışdır.

QAKİ-yə BM tərəfindən 5 illiyə seçilmiş Ali Komissar rəhbərlik edir. O öz fəaliyyəti haqqında həm BM-ə, həm də EKOSOS-a illik və xüsusi hesabatlar təqdim edir.

QAKİ-yə ümumi rəhbərliyi İcraiyyə Komitəsi həyata keçirir. Komitəyə 53 dövlətin nümayəndələri daxildir. Komitənin sessiyaları ildə bir dəfə Katibliyin yerləşdiyi Cenevrədə keçirilir.

QAKİ-nin 122 ölkədə 246 şöbəsi fəaliyyət göstərir ki, bunlarda 5475 əməkdaş çalışır. İdarə 453 qeyri-hökumət təşkilatı ilə əlaqəli şəkildə fəaliyyət göstərir.

Qaçqınların problemlərinin aradan qaldırılmasında, onların yerləşdirilməsində, ərzaq və geyimlə təmin olunmasında, hüquqlarının qorunmasında göstərdiyi xidmətlərə görə QAKİ iki dəfə – 1954 və 1981-ci illərdə Nobel sülh mükafatına layiq görülmüşdür.

XX yüzilliyin 90-cı illərində dünyada baş vermiş qlobal dəyişikliklər bir tərəfdən dünyanın siyasi mənzərəsini dəyişmiş, digər tərəfdən qaçqınlar problemini olduqca aktuallaşdırmışdı. Təkcə 1997-ci il ərzində QAKİ 22 milyon nəfər qaçqına humanitar yardım göstərmişdi. Yaranmış şəraitdə QAKİ "dərhal təsir göstərən layihələr" adlı proqramı həyata keçirməyə başlamışdı ki, həmin proqrama əsasən 3,5 mln. nəfər öz yaşayış yerlərinə qaytarılmışdı. Məhz QAKİ-nin fəaliyyəti nəticəsində münaqişə zonalarından bəzilərində dərhal sabitliyi təmin etmək mümkün olmuşdu.

**Yoxlama sualları:**

1.ÜTT və TTBS-nin oxşar və fərqli cəhətləri
2.ÜTT-in strukturu; rəhbər və icra orqanları, yaradılma qaydası və səlahiyyətləri.
3.ÜTT ətrafında Uruqvay danışıqları və Yekun Aktının imzalanması.
4.ÜTT-in məqsəd və vəzifələri.
5.ÜTT-in törəmə təşkilatları.
6.Beynəlxalq ticarət mərkəzi və inkişaf etməkdə olan ölkələr.
7.Azərbaycan Respublikasının beynəlxalq ticarət təşkilat və proqramları ilə əməkdaşlığı.
8.BMT İnkişaf Proqramının yaradılması və fəaliyyəti.
9.BMT İP-in quruluşu, maliyyə mənbələri və proqramları.
10.BMT İnkişaf Proqramı və Azərbaycan.
11.BMT və Sumqayıtda "azad iqtisadi zona"nın yaradılması problemi.
12.BMT Uşaq Fondu və Azərbaycan.
13.BMT Uşaq Fondunun yaradılması və Uşaq Konvensiyasının qəbulu.
14.Azərbaycan Respublikasının QAKİ ilə əməkdaşlığı.
15.Azərbaycanda QAKİ nümayəndəliyinin yaradılmiası və fəaliyyəti.
16.BMT-nin qaçqınlar probleminin aradan qaldırılması uğrunda mübarizəsi.
17.BMT QAKİ-nin quruluşu; rəhbər və icra orqanları.
18.Qaçqınlar probleminə dair beynəlxalq hüquqi sənədlər.



## XVI. ATOM ENERJİSİ ÜZRƏ BEYNƏLXALQ AGENTLİK (ATEBA)

Atom silahının meydana gəlməsi və ABŞ-ın bu silahın yeganə sahibinə çevrilməsi dünya dövlətləri, o cümlədən, SSRİ tərəfindən birmənalı qarşılanmadı. ABŞ-ın atom inhisarı ilk növbədə SSRİ-nin güclü müqaviməti ilə qarşılaşdı. 1945-ci ilin dekabrında SSRİ, ABŞ və İngiltərə Xarici İşlər Nazirlərinin Moskva müşavirəsi "atom problemlərini" müzakirə edərək BMT Baş Məclisinin 1946-cı ilin yanvarında olacaq I sessiyasına Atom enerjisi üzrə komissiya yaratmağı tövsiyə etdi. Tövsiyəyə əsasən müşavirə 1946-cı il yanvarın 24-də müvafiq qətnamə qəbul etdi ki, buna əsasən "Atom enerjisi üzrə komissiya" yaradıldı.

1946-cı il iyulun 19-da Komissiya atom enerjisindən dinc məqsədlər üçün istifadə etmək haqqında sovet layihəsini müzakirə etdi. Layihəyə görə, bu məqsədlə iki orqan yaradılmalı idi:

1.Elmi informasiyanın mübadiləsi üzrə komitə.

2.Atom enerjisindən insanlığa qarşı istifadəyə imkan verilməməsi üzrə Komitə.

Layihəyə görə, komitə atom silahının hamılıqla ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya hazırlamalı idi. Bununla yanaşı, atom enerjisindən ancaq dinc məqsədlərlə istifadəyə nəzarət etməli olan Beynəlxalq Nəzarət Komissiyası yaradılmalı idi.

Sovet layihəsinə alternativ kimi ABŞ əvvəlcə "Açreson-Liliental" sonra isə "Barux planını" irəli sürdü. B.Barux 1946-47-ci illərdə ABŞ-ın BMT atom enerjisi üzrə Komissiyasında nümayəndəsi olmuş, ABŞ-ın atom enerjisi üzərində nəzarətini əks etdirən planı işləyib hazırlamışdı.

BMT Baş Məclisi 1948-ci ilin əvvəllərində həm sovet, həm də amerikan layihələrini təkrar işləmək üçün komissiyaya qay-

tarmışdı. Lakin Baş Məclisin qərarı ilə 1949-cu ildə Komissiya ləğv edildikdən sonra bu sahədə boşluq yaranmışdı.

Atom enerjisindən dinc məqsədlərlə istifadə ətrafında müzakirələrin getdiyi bir dövrdə SSRİ ABŞ-ın atom silahı üzərində inhisarını aradan qaldırmaq üçün zəncirvari reaksiyanın sirrinə yiyələndi. 1947-ci il noyabrın 6-da rəsmi şəkildə atom bombasının sirrinin mövcud olmadığı elan edildi. 1948-ci ilin payızında BMT Baş Məclisinin III sessiyası da SSRİ-nin atom silahına malik olduğunu təsdiq etdi. 1949-cu il sentyabrın 25-də Sovet İttifaqı Teleqraf Agentliyi SSRİ-də atom silahının sınaqdan keçirilməsi haqqında məlumatı bütün dünyaya yaydı. 1952-ci ildə İngiltərə, 1960-cı ildə Fransa, 1964-cü ildə isə Çin "öz atom bombalarını" yaratdılar.

ABŞ prezidenti D.Eyzenhauer ABŞ-ın atom inhisarına malik olduğu dövrdə də dönə-dönə qeyd edirdi ki, dünyanın sülhdən başqa yolu yoxdur. Məhz D.Eyzenhauer BMT Baş Məclisinin 1953-cü il sentyabrın 15-dən dekabrın 9-dək Nyu-Yorkda olmuş 8-ci sessiyasında atom enerjisindən dinc məqsədlər üçün istifadəyə nəzarəti həyata keçirəcək beynəlxalq orqanın yaradılması fikrini irəli sürmüşdü.

Baş Məclisin 1954-cü ilin sentyabr-dekabrında olmuş 9-cu sessiyası həmin təklifi əsas götürərək "Atom enerjisindən dinc məqsədlərlə istifadəni inkişaf etdirmək üçün beynəlxalq əməkdaşlıq haqqında" qətnamə qəbul etdi, habelə, işçi qrupu yaradıldı. İşçi qrupunun tərkibinə İngiltərə, Avstraliya, Belçika, Braziliya, Hindistan, Kanada, Portuqaliya, SSRİ, ABŞ, Fransa, Çexoslavakiya və Cənubi Afrika daxil idilər.

1956-cı ilin oktyabrı üçün işçi qrupu Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin Nizamnaməsini işləyib hazırladı. Oktyabrın 26-da Nyu-Yorkda dünyanın 81 ölkəsi nümayəndələrinin iştirakı ilə beynəlxalq konfrans keçirildi. Konfrans ATEBA-nın nizamnaməsini müzakirə və təsdiq etdi. Nizamnamə imzalanmaq üçün nüvə və qeyri-nüvə dövlətlərinin üzünə açıq elan edildi və iştirakçı dövlətlər tərəfindən təsdiq edildikdən sonra 1957-ci il iyulun 29-da qüvvəyə mindi. ATEBA Baş Konfransının ilk sessiyası 1957-ci ilin oktyabrında çağırıldı, onun ilk üzvləri 26 dövlət hesab edilir.



Hazırda ATEBA-nın sıralarına dünyanın 127 dövləti daxildir. Təşkilatın mənzil-qərargahı Vyana şəhərində yerləşir.

ATEBA BMT-nin ümumi strukturuna daxil olsa da BMT-nin ixtisaslaşdırılmış təşkilatı statusuna malik deyildir. Lakin ATEBA BMT ilə münasibətlərini 1957-ci il noyabrın 14-də Baş Məclislə imzalanmış sazişə əsasən nizamlayır. ATEBA öz fəaliyyəti haqqında müntəzəm olaraq BMT Baş Məclisinə, Təhlükəsizlik Şurasına illik və xüsusi hesabatlar verir.

ATEBA-nın Nizamnaməsinə görə onun başlıca məqsədləri aşağıdakılardır:

-dünyada sülhün qorunmasında, əhalinin sağlamlığının və rifah halının yaxşılaşdırılmasında atom enerjisindən surətlə və geniş istifadə edilməsinə nail olunması;

-ATEBA-nın və ya onun tələbi ilə ayrılan yardımların hərbi məqsədlərə sərf olunmamasının təmin edilməsi.

ATEBA-nın funksiyalarına aşağıdakılar daxildir.

-bütün dünyada atom enerjisinin mülki məqsədlərlə öyrənilməsi, inkişafı və praktiki istifadəsinin dəstəklənməsi və təşviq edilməsi;

-öz üzvləri arasında onların istəyinə əsasən xidmət və materiallar mübadiləsini həyata keçirmək üçün vasitəçilik edilməsi;

-atom energetikasının dinc məqsədlərlə inkişaf etdirilməsi üçün material, xidmət və avadanlıqlardan istifadənin təmin edilməsi;

-atom enerjisindən dinc məqsədlərlə istifadə sahəsində elmi və texniki informasiya mübadiləsini təşviq edilməsi;

-nüvə materiallarından hərbi məqsədlərlə istifadənin qarşısının alınması üçün təhlükəsizlik tədbirlərinin görülməsi;

-BMT sisteminin bu məqsədlərə cavabdeh orqan və institutları ilə birgə təhlükəsizlik və sağlamlığın qorunması sahəsində normaların müəyyənləşdirilməsi və tətbiq olunması.

Nizamnaməyə əsasən ATEBA-nın rəhbər və icra orqanları aşağıdakılardır.

Baş konfrans-təşkilatın ali orqanıdır. Bu orqan təşkilatın cari və perspektiv fəaliyyətinə rəhbərlik edir, ATEBA-nın proqramlarını və siyasi fəaliyyətini istiqamətlərini müəyyənləşdirir.

Onun növbəti sessiyaları ildə bir dəfə, xüsusi sessiyaları isə şəraitdən asılı olaraq keçirilir.

Müdirlər Şurası - təşkilatın başlıca icra orqanı olub onun bütün fəaliyyətinə rəhbərlik edir. Şuranın tərkibinə 35 dövlətin nümayəndələri daxildir. Bunlardan 22-si Baş Konfrans tərəfindən dünyanın aşağıdakı 7 regionundan seçilir: Qərbi Avropa, Şərqi Avropa, Latın Amerikası, Afrika, Orta Şərq, Cənubi Asiya, Cənub-Şərqi Asiya və Sakit okean rayonu. Şuranın qalan 13 üzvü isə atom enerjisi texnologiyası sahəsində inkişaf etmiş ölkələrin nümayəndələrindən təyin olunur. Şuranın iki daimi komitəsi var:

-idarə və büdcə məsələləri komitəsi:

-texniki yardım komitəsi.

ATEBA Katibliyi-təşkilatın bütün fəaliyyətini əlaqələndirir və mülki-texniki rəhbərliyi həyata keçirir. Katibliyə Müdirlər Şurasının təyin etdiyi və Baş Konfransın təsdiq etdiyi 4 illik səlahiyyətə malik Baş direktor rəhbərlik edir. Katibliyin əməkdaşları iki kateqoriyaya bölünür;

-mütəxəssis kadrlar (600 nəfərdən yuxarı);

-ümumi xidmət üzrə əməkdaşlar (700 nəfər).

ATEBA-nın strukturuna daxil olan Elmi-məsləhət Komitəsi bir növ təşkilatın ekspertlər şurasıdır. Komitə atom tədqiqatları sahəsində məşhur olan 15 adlı-sanlı alimdən təşkil olunmuşdur. Komitə baş direktora tövsiyələr hazırlayır, habelə təşkilatın elmi-texniki fəaliyyətinin ümumi istiqamətlərini müəyyənləşdirir.

ATEBA-nın fəaliyyətinə xüsusi diqqət yaradan məsələlərdən biri də onun nəzarət (və ya təminat) səlahiyyətlərinə malik olmasıdır. Nüvə materialı və avadanlığının hərbi məqsədlərə sərf olunmasına imkan verməmək üçün ATEBA-nın 200 nəfərdən yuxarı yüksək ixtisaslı müfəttişi yoxlama aparmaq səlahiyyətlərinə malıkdirlər. 1968-ci il Nüvə silahının yayılması haqqında Müqavilənin iştirakçısı olan qeyri-nüvə dövlətləri ATEBA ilə dinc məqsədlərlə nüvə proqramlarından istifadə haqqında saziş bağlamağa məcburdurlar. 1968-ci il müqaviləsinə qoşulmayan dövlətlərin də belə bir öhdəlik götürməsi məcburidir.



ATEBA yaradılandan sonra dünyanın 50 ölkəsində 900-dən yuxarı nüvə qurğusu Agentliyin müfəttişlərinin nəzarəti altındadır. ABŞ, İngiltərə, Fransa, Çin və Rusiya, könüllü şəkildə bir sıra nüvə obyektlərini ATEBA-nın nəzarətinə verilmişdir. Lakın Argentinanın, İsrailin, Hindistanın, Pakistanın və Cənubi Afrika Respublikasının bir sıra nüvə qurğuları agentliyi nəzarətindən kənarda qalmışdır. Təsadüfi deyil ki, məhz bunun nəticəsində 1998-ci ılın may ayında həm Hindistan, həm də Pakistan "öz atom bombalarını" yaratmağa müvəffəq oldular.

Nüvə silahının yayılmasına imkan verməmək üçün BMT-nin sanksiyasına əsasən ATEBA müfəttişləri 1992-ci illərin əvvəllərindən indiyədək İraqda təftiş aparırlar.

İstılık-nüvə tədqiqatları üzrə Beynəlxalq Şuranın tövsiyəsinə əsasən 1981-1982-ci illərdə beynəlxalq işçi qrupu yaradılmışdır ki, həmin qrup ATEBA üçün "Tokamak" tipli nəzarət-axtarış qurğularının yaradılması işini reallaşdırdı. Hazırda ATEBA çərçivəsində onun üzvü olan ölkələr arasında 30-dan yuxarı əlaqəli elmi-tədqiqat proqramı həyata keçirilir. Bu proqramların dəstəklənməsi üçün 300-dən yuxarı elmi tədqiqat institutu öz fəaliyyətlərini birləşdirmişdi. Atom enerjisindən dinc məqsədlərlə istifadə məsələsini reallaşdırmaq üçün ATEBA BMT-nın bütün qurumları ilə sıx əməkdaşlıq edir. Bu mənada ATEBA-nın Avropa Atom Enerjisi Birliyi ilə məqsəd və vəzifələri üst-üstə düşür.

ATEBA-nın başlıca fəaliyyət proqramları:

OSART- bütün dünyadakı nüvə qurumlarına nəzarət və texniki təcrübənin mübadiləsi yolu ilə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi;

ASSET - baş vermiş hadisələrdən çıxış edərək AES-lərin təhlükəsizliyinin yoxlanması;

İRS – milli səviyyədə təhlilə dair informasiyaların verilməsi zərurıliyi;

İPERS – nüvə qurğularında risk dərəcəsinin beynəlxalq müstəqil ekspertlər tərəfindən öyrənilməsi və belə təhlillərin təkmilləşdırılməsi üçün tövsiyələrin hazırlanması;

INIS – beynəlxalq nüvə informasiya sistemi və s.

Azərbaycan Respublikası qeyri-nüvə dövləti olduğu üçün

ATEBA ilə əlaqələrə beynəlxalq konvensiyalara qoşulmaq prizmasından yanaşır. 1992-ci ildə "Nüvə silahının yayılması haqqında" müqaviləyə qoşulan Azərbaycan bununla ATEBA-nın təminatlarını əldə etmiş oldu.

**Yoxlama sualları:**

1.Atom enerjisindən qeyri-dinc məqsədlərlə istifadə və nəticələri

2.Atom enerjisindən qeyri-dinc məqsədlərlə istifadəyə qarşı BMT-nin mübarizəsi və ATEBA-nın yaradılması.

3.ATEBA-nın Nizamnaməsinin qəbulu. təşkilatın xüsusi statusu

4.ATEBA-nın məqsəd, vəzifə və funksiyaları.

5.ATEBA-nın strukturu: rəhbər və icra orqanları

6.ATEBA-nın atom enerjisindən dinc məqsədlərlə istifadə olunmasına nəzarət sahəsində fəaliyyəti.

7.ATEBA-nın təminat proqramı.

8.ATEBA ilə nüvə silahının yayılmasına dair 1968-ci il müqaviləsinin iştirakçısı olan qeyri-nüvə dövlətləri arasında münasibətlər.

9.ATEBA-nın fəaliyyət proqramları.

10.ATEBA və nüvə silahının yayılmaması problemi.

11.ATEBA-nın fövqəladə vəziyyətlərdə fəaliyyəti.

12.ATEBA-nın İraqın kütləvi qırğın silahına yiyələnməsinə qarşı mübarizəsi.

13.Azərbaycan - ATEBA əməkdaşlığı.

14.Azərbaycanın atom enerjisi ilə bağlı beynəlxalq konvensiyalara qoşulması və əməli fəaliyyəti.



## XVII. BMT VƏ QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARI

Beynəlxalq qeyri-dövlət təşkilatlarının yaranması ictimai fikrin ictimai inkişafın gedişində rolunun güclənməsi, xalq kütlələrinin dövlətin xarici siyasət fəaliyyətinə artan təsiri ilə bağlıdır. Təsadüfi deyildi ki, qeyri hökumət təşkilatlarını ilk dövrlərdə "beynəlxalq ictimai təşkilatlar" adlandırırdılar. Hazırda qeyri-dövlət təşkilatları müasir beynəlxalq münasibətlərdə mühüm rol oynayır ki, onların sayı 6000-dən çoxdur. İnsan hüquq və azadlıqlarının genişlənməsi, demokratiyanın inkişafı, aşkarlılıq və s. amillər qeyri-dövlət təşkilatlarının inkişafında və əksinə mühüm rol oynamaqdadır.

"Qeyri-dövlət təşkilatları" anlayışı BMT Nizamnaməsində öz əksini tapmışdır. Belə ki, Nizamnamənin İqtisadi və Sosial Şurada (EKOSOS) prosedur qaydalarından bəhs edilən 71-ci maddəsində deyilir: "İqtisadi və Sosial Şura onun səlahiyyətləri çərçivəsində olan məsələlərlə məşğul olan **qeyri-hökumət təşkilatları** ilə məsləhətləşmə aparılması üçün müvafiq tədbirlər həyata keçirə bilər". EKOSOS-un 27 fevral 1950-ci il tarixli 288 (X) B saylı qətnaməsi "qeyri-dövlət təşkilatı" anlayışının məzmununa aydınlıq gətirir. Qətnamədə deyilir: "**Hökumətlərarası sazişə əsasən yaradılmayan hər hansı beynəlxalq təşkilat qeyri-dövlət təşkilatı hesab edilər bilər**". Təsadüfi deyildi ki, EKOSOS-un tərkibindəki 4 daimi komitədən biri "qeyri-dövlət təşkilatları komitəsi"dir.

70-ci illərin ortalarınadək BMT-nin qeyri-dövlət təşkilatları ilə münasibətləri EKOSOS-un 23 may 1968-ci il tarixli 1296 saylı qətnaməsi ilə ("Qeyri-dövlət təşkilatları, ilə məsləhətləşmə tədbirləri") tənzimlənirdi. Qətnaməyə əsasən, iki məsləhət statusu və reyestr (siyahı) müəyyənləşdirilmişdi.

I status ümumi məsləhət statusu adlanırdı, buraya fəaliyyət sahəsi EKOSOS-a daha yaxın olan təşkilatlar daxil edilirdilər.

II status xüsusi məsləhət statusu hesab edilirdi, buraya

EKOSOS-un yalnız müəyyən fəaliyyət sahələri ilə bağlı olan təşkilatlar daxil edilirdi.

Reyestrə (siyahıya) isə I və II kateqoriyaya daxıl edılməyən qeyri-dövlət təşkilatları daxil edilirdi. Bunlar EKOSOS-a yardım etməyə hazır olan qeyri-dövlət təşkilatları idi.

Hazırda EKOSOS-la əməkdaşlıq edən qeyri-dövlət təşkilatlarının sayı 3100-dən yuxarıdır, bunlardan 1600-ü I və II kateqoriyaya daxil olan, 1500-ü isə Reestrə daxil olan qeyri-dövlət təşkilatlarıdır. 1996-cı ildə EKOSOS 31 və 297 saylı iki yeni qətnamə ilə 1296 (1968) saylı qətnaməni tamamladı. 31 saylı qətnaməyə görə, qeyri-dövlət təşkilatlarının da üç səviyyəsi – milli, regional və universal səviyyələri müəyyənləşdirilir, habelə onların sayı artırılırdı. Digər tərəfdən, EKOSOS qeyri-hökumət təşkilatları Daimi Komitəsinin səlahiyyətləri genişləndirilir, qeyri-dövlət təşkilatlarının BMT Konfranslarında iştirakının standart qaydaları müəyyənləşdirilirdi. 297 saylı qətnaməyə görə isə, Baş Məclis qeyri-dövlət təşkilatlarının BMT fəaliyyətinin bütün sahələrinə cəlb edilməsi imkanlarını araşdırmalı idi. Məlumdur ki, ixtisaslaşdırılmış qurumlardan qeyri-dövlət təşkilatları ilə ən yaxın əməkdaşlıq edəni YUNESKO-dur.

Qeyri-dövlət təşkilatları ilə iş aparılmasının aktuallığı 1975-ci ilin ortalarında BMT qeyri-hökumət təşkilatları ilə Əlaqə Xidmətinin (QHTƏX) meydana gəlməsini şərtləndirmiş oldu. QHTƏX-in iki iqamətgahı mövcuddur: birincisi-Cenevrədə, ikincisi-Nyu-Yorkda.

BMT Xidməti praktiki fəaliyyət göstərən bütün QHT-lərlə işləyir, onların qüvvə və imkanlarından müxtəlif proqram və layihələrdə istifadə olunur. QHTƏX iki orqana illik hesabat verir: 1) BMT Proqram və əlaqə Komitəsinə; 2) BMT birgə informasiya Komitəsinə.

BMT xidmətinin ali orqanı, BMT İnkişaf Proqramı hesab edilir. İdarəçiliyi YUNKTAD-Ticarət və İnkişaf Konfransı həyata keçirir.

Azərbaycan Respublikası Dövlət müstəqilliyini elan etdikdən sonra respublikamızda qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün əlverişli şərait yarandı. 1992-ci ilin



əvvəllərində respublikamız "Mülki və siyasi hüquqlar haqqında" beynəlxalq pakta qoşuldu ki, bununla da Azərbaycanda ictimai birliklər və fondların yaradılması üçün qanunvericilik əsaslarının hazırlanmasına başlandı. Respublikamız qısa müddətə "İnsan Haqlarının Ümumi Bəyannaməsi"nə (1948) və "İnsan Haqlarına dair Avropa Konvensiyası"na (1950) qoşuldu. Həmin sənədlər isə ictimai birliklərin yaradılması üçün çıxış nöqtəsi oldu.

Aradan keçən on illik dövr ərzində Azərbaycanda 1500-ə yaxın qeyri-hökumət təşkilatı Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir ki, bunlardan 400-ü daimi əsaslarla fəaliyyət göstərir. Respublikamızda qeyri-hökumət təşkilatlarının orta fəaliyyət müddəti 4-5 ildir. Müqayisə üçün göstərək ki, ABŞ-da 1 milyona yaxın, Rusiyada 250 min, Gürcüstanda isə 17 minə yaxın QHT fəaliyyət göstərir. İspaniyada iş yerlərinin 18%-i qeyri-hökumət təşkilatları tərəfindən təklif edilirdi.

Azərbaycanda demokratik hüquqi dövlət quruculuğu prosesində qeyri-hökumət təşkilatları-ictimai birliklər və fondlarla əlaqədar müvafiq qanunvericilik bazasının işlənib hazırlanması olduqca aktuallaşdı. Milli Məclisin müvafiq komissiyası tərəfindən hazırlanmış "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" qanun layihəsi 2000-ci il iyunun 13-də qüvvəyə mindi.

Qeyri-hökumət təşkilatları haqqında qanun 7 fəsil və 33 maddədən ibarətdir. I fəsildə QHT-nin məqsədi, anlayışın mahiyyəti, adı və yeri kimi məsələlər aydınlaşdırılır (maddə 3).

QHT-lərin təşkilati-hüquqi formaları, növləri və iştirakçılarına aid məsələlər II fəsildə, QHT-lərin yaradılması, yenidən təşkili və ləğv olunması III fəsildə, onların fəaliyyət növləri, əmlakı, əmlakın formalaşdırılması mənbələri IV fəsildə, idarəçiliklə bağlı məsələlər və QHT-nin strukturu V fəsildə, QHT-lərin dövlət orqanları ilə əlaqələri VI fəsildə, QHT-lərin məsuliyyəti, yenidən qeydiyyata alınması şərtləri, qanunun qüvvəyə minməsilə bağlı məsələlər isə VII fəslində şərh edilir. QHT-lərin rolunun artması dünya inkişafının gedişi ilə müəyyənləşdiyi üçün Azərbaycan Respublikası da bu prosesdə fəal iştirak edir.

**Yoxlama sualları:**

1.Beynəlxalq qeyri-hökumət təşkilatları anlayışı və mahiyyəti.

2.İlk qeyri-hökumət təşkilatlarının yaradılması və onların sürətlə artması səbəbləri.

3.Qeyri-hökumət təşkilatları XX yüzilliyin ikinci yarısında.

4.BMT-nin qeyri-hökumət təşkilatları ilə əlaqə və əməkdaşlığı.

5.EKOSOS-un QHT-yə dair tövsiyə Statusu və Reyestri.

6.BMT-nin universal xarakterli QHT-lərlə əməkdaşlığı.

7.QHT-lərin BMT-nin ixtisaslaşmış qurumları ilə əməkdaşlığı.

8.YUNESKO-nun qeyri-hökumət təşkilatları ilə əlaqələri.

9.QHT-BMT əməkdaşlığı və qlobal dünya problemləri.

10.Azərbaycan Respublikasının QHT-lərlə əməkdaşlığı.



## XVIII. BMT-nin İXTİSASLAŞMIŞ QURUMLARI İLƏ AZƏRBAYCAN RESPUBLİKASI ARASINDA ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ

### §1. Əməkdaşlığın məqsəd və formaları

Sovet imperiyasının dağılma prosesi onun strateji əhəmiyyət kəsb edən zonalarında lokal münaqişələrlə müşayiət olunurdu. Əslində imperiyanın tərkib hissəsi olan hər bir müttəfiq respublikanın ərazisində münaqişənin yaradılması ehtimalı var idi. Çünki Sovetlər İttifaqının dağılmasının zəruri şərtini respublikaların SSRİ-nin tərkibindən çıxması, müstəqillik qazanması təşkil edirdi. Onların müəyyən münaqişəyə cəlb edilməsi suverenlik uğrunda mübarizəyə mane olmaq məqsədi daşıyırdı. SSRİ-də isə potensial münaqişə ocaqlarının sayı 100-dən yuxarı idi.

Azərbaycanda da suverenliyin bərpası prosesi DQMV-də süni şəkildə yaradılmış etnik münaqişə ilə paralel gedirdi. Aydındır ki, bu münaqişənin yaranmasının əsas səbəbləri respublikanın geosiyasi mövqeyi və enerji ehtiyatları ilə bağlı idi. "Şərq və Qərb sivilizasiyasının qovşağında yerləşən ölkəmizin coğrafi mövqeyindən, sosial-siyasi yönümündən və tarixi mədəni ənənələrindən irəli gələn xüsusiyyətlər beynəlxalq münasibətlər sistemində mənim respublikamın roluna və yerinə səciyyəvi təsir göstərir".[1]

Avropa və Asiyanın qovşağında, Avropa ölkələrindən Mərkəzi Asiyaya, Yaxın Şərqə istiqamətlənən və geriyə qayıdan yolların kəsişdiyi ərazidə yerləşən respublikamız iki qitənin dövlətləri arasındakı qarşılıqlı əlaqə və münasibətlərdə həmişə əhəmiyyətli rol oynamışdır. Digər tərəfdən, Azərbaycanın əhəmiyyətini artıran növbəti fakt bu ölkənin "zəngin təbii ehtiyatları, hər şeydən əvvəl nefti" olmuşdur.

[1] H.Əliyevin BMT Baş Məclisinin 49-cu sessiyasındakı çıxışı //"Azərbaycan" qəzeti, 1994, 30 sentyabr.

Qeyd olunan xüsusiyyətlər – Azərbaycanın strateji əhəmiyyət kəsb edən mövqeyi və sərvətləri onun suverenlik uğrunda mübarizəsinə kənar təsirlərin göstərilməsinə səbəb olmuşdur. Azərbaycanın ərazisində yaradılmış etnik münaqişə ocağının sonralar regional münaqişəyə çevrilməsində və bu günədək həll olunmamasında eyni amillərin təsiri aydın sezilir. Bütün bunlar Azərbaycanın suverenlik qazandığı ilk dövrlərdə nəzərdən qaçırılmış, əvvəl etnik, sonralar isə regional münaqişənin asanlıqla aradan qaldırılacağına ümid bəslənmişdir. 1991-ci il oktyabrın 18-də Azərbaycan Ali Sovetinin Dövlət müstəqilliyi Konstitusiya Aktını qəbul etməsi yeni bir dövlətin yaranmasını ifadə edirdi. Lakin dövlətin öz suverenliyini elan etməsi onun beynəlxalq hüquq subyekti kimi fəal mövqeyə çıxmasını dərhal reallaşdırmır. Hər şeydən əvvəl, suveren dövlətin başqa dövlətlər tərəfindən tanınması lazım gəlir.

Suverenliyin ilk dövrlərindən başlayaraq Azərbaycan BMT-yə daxil olmağa çalışmışdır. Bu istiqamətdə fəaliyyət göstərmək məsələnin yalnız bir tərəfidir. BMT-yə daxil olmaq, hər şeydən əvvəl, TŞ-nin beş daimi üzvünün razılığını tələb edir. Deməli, dövlətin BMT-yə daxil olması üçün TŞ-nin beş daimi üzvü olan ölkələr onu "de-yure" tanımalıdır. Əlbəttə, bu zəruri şərt sayıla bilməz. Yəni dövlətlərarası diplomatik münasibətlər yüksək səviyyədə təmin olunmadıqda da BMT-yə üzvlük mümkündür. Lakin bütün hallarda beşliyin yeni yaranmış beynəlxalq hüquq subyektinə münasibəti sırf mənfi səciyyə daşımamalıdır.

Azərbaycanın BMT-yə daxil olması onun suverenliyinin ilk dövrlərində aşağıdakı səbəblərdən böyük əhəmiyyət daşıyırdı:

-respublika beynəlxalq hüquq subyektliyini tam təsdiq etdirmiş olurdu;

-ölkə beynəlxalq siyasi prosesin iştirakçısına çevrilirdi;

-beynəlxalq birlik tərəfindən qəbulolunma faktı və dövlətin strateji mövqeyi onu dünyanın tanınmış siyasətşünaslarının təhlil və tədqiqat obyekti edirdi;

-Azərbaycanda etnik münaqişə səviyyəsində qəbul olunan "Dağlıq Qarabağ" probleminin regional münaqişə olması faktını sübut etmək imkanı yaranırdı;



-Azərbaycanın beynəlxalq əməkdaşlıq imkanları genişlənirdi.

-dost ölkələrin Azərbaycana humanitar yardım göstərməsi üçün əlavə şərait yaranırdı;

-beynəlxalq aləmdən təcridetmə təsirlərinin qarşısını almaq reallaşırdı;

-informasiya blokadasını yarmaq, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq imkanları genişlənirdi;

-ölkənin iqtisadi, sosial-mədəni həyatında müsbət dəyişikliklər aparmağa yol açılırdı.

Azərbaycan Respublikası ilə BMT qurumları arasında əlaqələrin yaradılmasına suverenliyin ilk illərindən rast gəlinir. Məsələn, "Azərinform"a istinadla verilmiş məlumatda Azərbaycan, Rusiya, Qazaxıstan, Ukrayna və üç Baltikyanı dövlətin Beynəlxalq Valyuta Fonduna 1992-ci ilin sentyabrında qəbul ediləcəyi haqqında xəbər yayılmışdı. Həmin xəbəri Ümumdünya Bankının Şərqi Avropa Departamenti rəhbərinin Fransanın paytaxtında elan etməsi və Frans Press Agentliyi tərəfindən yayılmış bəyanatda qeyd olunması göstərilirdi.[1] Bu məlumat istər Azərbaycan, istərsə də digər keçmiş sovet respublikalarının BMT-yə geniş marağını əks etdirir.

1992-ci il yanvarın 22-də Azərbaycan prezidentinin BMT-yə qəbul edilmək haqqındakı bəyanatı respublika Xarici İşlər Nazirliyi xətti ilə BMT Baş katibinə rəsmən təqdim edildi. Bəyanatdan iki aya yaxın vaxt keçdikdən sonra, 1992-ci il martın 2-də BMT Baş Məclisinin 46-cı sessiyasında Azərbaycanın keçmiş sovet respublikalarından olan Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldava, Tacikistan, Türkmənistan, Özbəkistanla eyni vaxtda BMT-yə qəbul olunması haqqında qərar qüvvəyə mindi.

1992-ci il aprelin ikinci yarısından respublikanın BMT-dəki daimi nümayəndəliyi fəaliyyətə başladı. Azərbaycanın BMT yanındakı ilk daimi nümayəndəsi, fövqəladə və səlahiyyətli səfiri Həsən Əziz oğlu Həsənov təyin olundu. Müstəqil dövlətimizin göstərilən sahədə tarixi təcrübəsinin və

[1] "Həyat" qəzeti, 1992, 15 yanvar

ənənəsinin olmaması baxımından bu iş son dərəcə çətin və məsuliyyətli idi. Mövcud problemlərin çoxluğuna, Ermənistan-Azərbaycan münaqişəsinin özünün yüksək mərhələsinə keçməsinə, ölkə daxilində siyasi sabitliyin dayanıqsızlığına, xarici siyasətdə dövlət rəhbərliyinin qeyri-ardıcıl mövqe tutmasına baxmayaraq, BMT yanındakı daimi nümayəndəlik öz işini yüksək səviyyədə qura bildi.

Suveren dövlətlərin bərabər hüquqlar əsasında beynəlxalq təşkilatlara qoşulması onların maraq və mənafelərinə xidmət göstərir. Heç bir elmi-nəzəri müddəaya əsaslanmadan qəbul etmək olar ki, dövlətin beynəlxalq təşkilata üzvlüyü onun strateji, uzunmüddətli məqsədləri ilə uzlaşır. İstər siyasətşünaslığa, istərsə də beynəlxalq münasibətlərə aid tədqiqat işlərində beynəlxalq təşkilatlarla əlaqələrin mahiyyət və məzmunu haqqında müəyyən fikirlər söylənmiş, onların bir qismi obyektiv həqiqət kimi qəbul olunmuşdur. Buna baxmayaraq, hər hansı dövlətin, o cümlədən də Azərbaycanın BMT-yə daxil olmasının, bu sistemin təşkilatları ilə əlaqələr yaratmasının elmi-nəzəri və praktik cəhətləri müxtəlif tərəflərdən araşdırılmalı, ümumi qanunauyğunluqlar, qarşıya qoyulan məqsədlər, onların həyata keçirilməsi yolları, formaları öyrənilməlidir.

Azərbaycanın BMT-dəki fəaliyyətinin əsas məqsədləri və onların beynəlxalq təşkilatın vəzifələri ilə uzlaşdırılması son dərəcə əhəmiyyətli məsələlərdən biridir. Azərbaycanın BMT və onun ıxtisaslaşmış qurumlarındakı fəaliyyətinin məqsədlərini iki zaman çərçivəsi daxilində ümumiləşdirmək olar: a) hazırkı dövrdəki vəziyyətlə əlaqədar məqsədlər; b) tarixi inkişafın gələcək mərhələsi ilə əlaqədar məqsədlər. Zaman bölgüsündən asılı olmayaraq beynəlxalq təşkilata üzvlüyün məqsədi siyasi, iqtisadi, elmi-texniki, sosial, mədəniyyət və s. sahələr üzrə ayrıca müəyyənləşdirilməlidir.

Dövlətlərin beynəlxalq təşkilatlardakı fəaliyyətinə aid fikirlərin təhlili, müxtəlif problemlərin həllində BMT-nin roluna dair elmi tədqiqatların araşdırılması, nəhayət, Azərbaycan Respublikasının dövlətlərarası qurumlara münasibətinin və xarici siyasətinin öyrənilməsi ölkənin hazırkı dövr üçün



məqsədlərinin ayrı-ayrı sahələrə görə ümumiləşdirilməsinə imkan verir.

Azərbaycanın BMT sistemi təşkilatları ilə əlaqələrinin hazırkı dövr üçün siyasi sahədə aşağıdakı məqsədləri əhatə etməsini qeyd etmək mümkündür:

-qazanılmış suverenliyin təsdiqi, möhkəmləndirilməsi və inkişaf etdirilməsi;

-ölkəni cəlb olunduğu regional münaqişədən onun ərazi bütövlüyünü saxlamaq şərti ilə dinc yolla xilas edilməsi;

-dünya dövlətləri ilə diplomatik münasibətlərin yüksək səviyyədə qurulmasına imkan verilməsi;

-ölkənin xarici siyasətinin dinc yanaşı yaşamaq, sülhü və təhlükəsizlıyı qorumaq, daxili işlərə qarışmamaq və s. beynəlxalq hüquq prinsiplərinə əsaslandığının nümayiş etdirilməsi və digər dövlətlərə çatdırılması;

-öz məqsəd və məramları haqqında məlumat vermək üçün BMT-nin alı tribunasından istifadə olunması.

BMT-yə üzvlükdə perspektiv məqsədlər inkişaf etmiş dövlətlərin məqsədləri ilə üst-üstə düşür. İnkişaf etmiş dünya dövlətləri BMT çərçivəsində fəaliyyətlərinin əsas məqsədlərini sülhün və təhlükəsizliyin qorunması, xalqların hərtərəfli inkişafı üçün şərait yaradılması, insan hüquqları və azadlıqlarının qorunması, qlobal problemlərin həllində əməkdaşlıqda görürlər. Eyni məqsədlər Azərbaycan dövlətinin özünün həm xarici, həm də daxili siyasətində nəzərdə tutduğu alı vəzifələrdir. Azərbaycan dünyada sülhün və təhlükəsizliyin qorunmasında, dinc yanaşı yaşamaq, bərabər səviyyəli əməkdaşlıq məsələlərində maraqlı tərəf olduğunu, bütün bu prinsiplərin respublikanın tutduğu siyasi xəttə uyğun gəldiyini həmişə etiraf etmişdir. Bəşəriyyət üçün təhlükə törədən qlobal problemlərin həllı istiqamətində əməkdaşlıq Azərbaycanın xarici siyasətində özünəməxsus yer tutur.

Dövlətlərarası təşkilatlarla əlaqələrində iqtisadi siyasət sahəsindəki məqsədlərini dövlət öz iqtisadiyyatının real vəziyyətinə əsasən müəyyənləşdirir. Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərində qarşılaşdığı iqtisadi problemlərdən özünü daha qabarıq şəkildə büruzə verəni mövcud

iqtisadi əlaqələrin qırılması idi. Beynəlxalq təşkilata daxil olmaq Azərbaycanın dünya iqtisadi mexanizminə fəal şəkildə qoşulması üçün geniş perspektivlər açır və göstərilən problemi sürətlə aradan qaldırmaq imkanı yaradırdı. Bu, bir tərəfdən, BMT-nin siyasi və iqtisadi münasibətlərdə harmoniya axtarmasından, beynəlxalq əməkdaşlığın iki əsas sahəsini əlaqələndirməyə çalışmasından, digər tərəfdən iqtisadiyyatla siyasətin üzvi vəhdətindən irəli gəlir. Obyektiv vəziyyəti nəzərə alaraq Azərbaycanın BMT-dəki fəaliyyətinin iqtisadi məqsədlərini aşağıdakı kimi qruplaşdırmağı daha optimal saymaq olar:

-iqtisadi əlaqələrin yaradılması və bərpasında BMT-nin ixtisaslaşmış qurumları ilə əməkdaşlığın yardım mexanizmindən istifadə etmək;

-idxal və ixrac əməliyyatlarını qaydaya salmaq;

-dövrün ən düzgün iqtisadi mexanizmi sayılan bazar iqtisadiyyatına keçmək;

-Azərbaycan iqtisadiyyatının sağlamlaşdırılması üçün BMT-nin ixtisaslaşmış qurumlarının müvafiq sahələr üzrə ekspertlərinin köməyi ilə proqram və layihələr hazırlamaq;

-BMT-nin ixtisaslaşmış qurumlarının ölkə iqtisadiyyatına kreditlər ayırmasına nail olmaq;

-yeni istehsal sahələri açmaq və azad iqtisadi zonalar yaratmaqda BMT sistemi təşkilatlarının köməyindən istifadə etmək.

Əlaqələrin sosial siyasət sahəsindəki məqsədləri dövlətin öz ictimai sabitliyini saxlamaq, ölkə vətəndaşlarının yaşayış səviyyəsini hərtərəfli yaxşılaşdırmaq üçün tədbirlərin həyata keçirilməsi istiqamətində əməkdaşlığın gücləndirməsini əhatə edir.

Azərbaycan Respublikasının sosial siyasəti ilk növbədə qaçqın və məcburi köçkünlərin real vəziyyətini yaxşılaşdırmaq, onların məruz qaldıqları maddi və mənəvi problemləri tədricən aradan qaldırmaq imkanlarını genişləndirməyə yönəldilmişdir. BMT və onun ixtisaslaşmış qurumları ilə əlaqələrin başlanğıc dövründə bu məqsəd açıq şəkildə qoyulurdu. Bununla yanaşı, regional münaqişənin və keçid dövrünün birbaşa təsiri nəticəsində ölkədə normal səviyyədən aşağı düşmüş sosial vəziyyətin qaydaya salınması tələb olunurdu.



Elmi-texniki və mədəni sahələrdə əməkdaşlığın məqsədi bu istiqamətlərdə çoxtərəfli əlaqələrin yaradılmasını əhatə etməlidir. Azərbaycan Respublikasının elmi potensialının beynəlxalq münasibətlər sistemində istifadə olunması, az inkişaf etmiş ölkələrin təhsil sistemlərində, elmi tədqiqat laboratoriyalarında alimlərimizin işləməsi imkanlarını müəyyənləşdirmək göstərilən məsələnin qismən sosial problemlərlə bağlı olan tərəfidir. Bu sahələrdə əsas məqsəd dünyanın inkişaf etmiş ölkələrindəki xüsusi elmi mərkəzlərdə Azərbaycan mütəxəssislərinin ixtisaslarını artırmasına şərait yaratmağı, bir çox sahələr üzrə kadrlar hazırlamağı, respublikanın elmi-texniki potensialını gücləndirməyi özündə birləşdirməlidir.

Mədəni sahədə beynəlxalq təşkilatlarla əlaqələrin məqsədi həm Azərbaycan mədəniyyətini dünyada tanıtdırmaq, həm də digər xalqların mədəniyyəti ilə yaxından tanışlığı nəzərdə tutmalıdır. Bu sahədəki fəaliyyət erməni işğalçıları tərəfindən dağıdılmış nadir mədəniyyət inciləri haqqında məlumatların dünya ictimaiyyətinə çatdırılması ilə yanaşı, həmin abidələrin, mədəniyyət ocaqlarının bərpası, qarət olunub respublikadan çıxarılmış sənət əsərlərinin qaytarılması məsələlərini ön plana çəkməlidir.

Azərbaycan dövlətinin suverenlik qazandığı dövr mürəkkəb beynəlxalq siyasi proseslərlə səciyyələnir. Bəşəriyyət bu dövrdə üçüncü dünya müharibəsi təhlükəsi altında yaşasa da, tarixi inkişaf prosesi hadisələrin axarını müsbət istiqamətə yönəltmiş, yer üzündə əmin-amanlığın, beynəlxalq təhlükəsizliyin bərqərar olması üçün geniş imkanlar açmışdır. Bu prosesdə BMT-nin də rolu az olmamışdır. Buna baxmayaraq, Azərbaycan Prezidenti H.Əliyevin dediyi kimi, bəşəriyyət qarşısında duran təhlükələr hələ heç də tamamilə aradan qaldırılmamışdır. Hələ də köhnə stereotiplər mövcuddur, on illərlə davam etmiş qarşıdurma dövrü ərzində yığılıb qalmış çoxsaylı problemlər, xüsusən tərksilah, kütləvi qırğın silahının məhv edilməsi sahəsindəki problemlər aradan qaldırılmamışdır. İqtisadi imkanları müxtəlif olan dövlətlərin qarşılıqlı münasibətləri də əvvəlki kimi, yenə də keçmişin bəlalarına düçar olmuşdur. Zaman ekoloji təhlükələr, əhali və inkişaf problemləri ilə əlaqəd-

ar bizi yeni-yeni sınaqlara çəkir.

Xarici siyasət dövlətin BMT-dəki mövqeyinə birbaşa təsir göstərir, lakin bu təsir qarşılıqlı mahiyyət kəsb edir. Ölkənin xarici siyasətindəki düzgün xətt onun beynəlxalq təşkilatlardakı fəaliyyətini aktivləşdirməklə bərabər, belə təşkilatların ona münasibətinin də yaxşılaşmasına səbəb olur. Qeyd etdiyimiz kimi, BMT-yə daxil olmaq dövlətin beynəlxalq əlaqələrini genişləndirir, onun təcrid olunmasının qarşısını alır. Lakin BMT üzvü olmaq dövləitin digər dövlətlərlə münasibətlərinin yaxşılaşmasına tam təminat vermir. Dövlətlərarası münasibətlər xarici siyasət zəminində qurulur. Daha çox ölkə ilə qarşılıqlı əməkdaşlıq, onlarla münasibətlərin düzgün qurulması BMT-də bu və ya digər məsələnin həllində tərəfdarların çoxalmasına imkan yaradır. Təhlükəsizlik Şurasında qəbul olunan qərarlar 15 dövləti təmsil edən nümayəndələrin səsverməsindən asılıdır. Oxşar vəziyyət BMT Baş Məclisində və ümumiyyətlə, BMT sisteminin bütün təşkilatlarında qərarların qəbul olunması prosesində də özünü göstərir. Məsələn, 1994-cü il aprelin 19-da BMT-nin YUNİSEF təşkilatının idarə heyətinə seçkilərdə Azərbaycanın namizədliyini Anqola, Baham Birliyi, Banqladeş, Belarus, Benin, Böyük Britaniya, Butan, Rusiya, Yaponiya, İtaliya, Misir, Küveyt, Çili, Kolumbiya, Kosta-Rika, Kuba, Efiopiya, Qabon, Qana, Hindistan, Zimbabve, Nigeriya, Pakistan, Paraqvay, Rumıniya, Seneqal, Surinam, Şri-Lanka, Venesuela və Zair dövlətləri müdafiə etmişdilər. Səsvermənin nəticəsinə görə, Azərbaycan 30, Polşa 24 səs yığmışdır. Göründüyü kimi, Azərbaycan 6 səs çoxluğu ilə YUNİSEF-in idarə heyətinə seçilmişdir. Belə nəticənin əldə olunması İSOŞ üzvü olan ölkələrdən əksəriyyətinin Azərbaycana üstünlük verməsindən irəli gəlmişdir. Şübhəsiz ki, Azərbaycanla həmin ölkələr arasındakı münasibət burada həlledici rol oynamışdır.

BMT-nin Ermənistanın təcavüzü və Azərbaycan torpaqlarının işğalı ilə bağlı qətnamə və bəyanatları, bir qayda olaraq, Fransa və Rusiyanın müqaviməti ilə qarşılaşırdı. Belə ki, 822 saylı (1993, 30 aprel) qətnamənin qəbulu ilə əlaqədar Fransa və Rusiyaya qarşı Azərbaycanı Pakistan, Venesuela, Cibuti, Mərakeş və Kabo-Verde dövlətləri dəstəkləmişdilər.



Azərbaycanla BMT ixtisaslaşmış qurumları arasındakı əlaqələrin öyrənilməsi zamanı ölkənin xarici siyasətinin onun beynəlxalq təşkilatlarda iştirakı ilə uzlaşdırılmasının forma və üsullarını təyin etmək üçün xüsusi metodika lazım gəlir. Biz bu məsələnin aşağıdakı ardıcıllıqla araşdırılmasını düzgün sayırıq:

1.BMT sistemi təşkilatlarının rəhbər strukturlarında müxtəlif ölkələrin təmsil olunması mexanizminin ümumi qanunauyğunluqlarını müəyyənləşdirmək;

2.BMT sistemi təşkilatlarının rəhbər orqanlarında təmsil olunmanın mövcud vəziyyətini və onun davametmə müddətini aydınlaşdırmaq,

3.müasir beynəlxalq münasibətlər sistemində aparıcı mövqedə duran ölkələrlə əməkdaşlığın səviyyəsini araşdırmaq;

4.dost və müttəfiq ölkələr dairəsini təyin etmək;

5.başqa dövlətlərlə diplomatik münasibətlərin genişlənməsi perspektivlərini öyrənmək;

6.BMT sistemi təşkilatları ilə əlaqələrin inkişaf istiqamətlərinin üstünlük verilməli olan qollarını təyin etmək;

7.üstünlük verilməli olan qoldakı əlaqələrlə xarici siyasət sahəsindəki əlaqələri müqayisə etmək;

8.müəyyənləşdirilmiş birtərəfli əlaqələr üzrə xarici siyasətlə BMT sistemi təşkilatlarındakı iştirakı uzlaşdırmaq

Əlaqələrin formaları. Azərbaycanla ixtisaslaşmış qurumlar arasında əlaqələrin formalarını müəyyənləşdirmək üçün siyasətşünaslıqda tətbiq olunan tarixi-müqayisəli və sistem metodları əsasında tədqiqat aparmaq lazım gəlir. İxtisaslaşmış qurumların BMT ilə əlaqələrinin sistem metodu üzrə tədqiqinin və politoloji təhlilinin nəticələri göstərir ki, dövlətin dünya birliyinin müəyyən orqanı, yaxud təşkilatı ilə əməkdaşlığı başqa təşkilatlarla əlaqələr üçün əlavə imkanlar açır. Bu müddəanı siyasi tədqiqatların xronoloji üsullarla təhlili prosesində bir daha əsaslandırmaq mümkündür. Göstərilən metod və üsullardan istifadə etməklə Azərbaycanla BMT-nin ixtisaslaşmış qurumları arasındakı əlaqələrin yaranma formalarını tapmağa çalışaq.

Azərbaycanın BMT-yə qəbul edilməsindən cəmi on gün sonra, yəni 1992-ci ilin martın 12-də dünya birliyinin

respublikaya gəlmiş ilk nümayəndə heyətinin tərkibində ÜST-nin ekspertləri də olmuşdur. Bu hadisə, bilavasitə BMT ixtisaslaşmış qurumları ilə əlaqələrin ilk rəsmi tarixi kimi qəbul oluna bilər. MDB üzvü olan ölkələrə kömək göstərilməsi üzrə beynəlxalq əlaqələndirmə konfransını təmsil edən nümayəndə heyəti tərkibində Azərbaycana gəlmiş ÜST ekspertləri respublikanın bu ixtisaslaşmış quruma daxil olması haqqında müxtəlif səviyyələrdə danışıqlar aparmışdılar.

BMT-nin yardım proqramlarının böyük bir qismində ÜST-nin iştirakı nəzərə alınır. ÜST ekspertlərinin Azərbaycana gəlişi bu baxımdan heç bir təəccüb doğurmur. Lakin bu fakt başqa məzmun kəsb edən tədbir çərçivəsində ixtisaslaşmış qurumla əlaqə yaradılması forması kimi əhəmiyyətlidir. Beləliklə, ixtisaslaşmış qurumlarla əlaqələrin yaranması formalarından birincisini aşağıdakı kimi təyin edə bilərik: BMT-nin müəyyən proqram çərçivəsində fəaliyyəti nəticəsində dövlətlə ixtisaslaşmış qurum arasında əlaqə yaranır.

İxtisaslaşmış qurumlarla əlaqələrin yaradılmasının ikinci forması beynəlxalq siyasi prosesə ciddi təsir göstərə biləcək siyasi hadisələrlə bağlı olaraq BMT-nin diqqətini ayrılıqda götürülmüş bir ölkəyə və ya ölkələr qrupuna cəlb olunmasıdır.

1992-ci ilin 17 martında BMT Baş katibinin xüsusi nümayəndəsi Sayrus Vens Dağlıq Qarabağ bölgəsindəki vəziyyəti öyrənmək üçün Azərbaycana gəlmişdi. Martın 25-də həmin səfərin nəticələri baş katiblə müzakirə olunduqdan sonra BMT rəhbərliyinin respublikaya diqqəti artdı. Azərbaycana humanitar yardım göstərilməsi işinə BMT-nin ixtisaslaşmış qurumlarının cəlb olunması qərara alındı. Adətən, dövlətlərarası, yaxud lokal münaqişələrin öyrənilməsi prosesində ölkənin iqtisadi, sosial, mədəni vəziyyəti də ön plana çəkilir və təqdim olunan məruzələrdə, hesabatlarda bu məsələlər öz əksini tapır. Aydındır ki, iqtisadi, sosial, mədəni, humanitar problemlər ixtisaslaşmış qurumların fəaliyyət sahələrini təşkil edir. Münaqişələrin BMT səviyyəsində müzakirələrinin əsas obyekti siyasətlə bağlı problemilər paketi olsa da, ikinci mövqedə duran digər məsələlər unudulmur. Lazımı təşkilatlar göstərilən problemlərin həllinə cəlb edilir. BKİF, BƏT, YƏP,



YUNISEF, YUNESKO, BMT QAKİ kimi təşkilatların Azərbaycana yardım proqramına cəlb olunması məhz belə müzakirədən sonra reallaşmışdır. Deməli, ixtisaslaşmış qurumların Azərbaycanla əlaqələrinin yaranmasının ikinci forması beynəlxalq siyasi prosesə təsir göstərən münaqişəyə BMT-nin reaksiyasının nəticəsi kimi təzahür etmişdir.

Əlaqələrin üçüncü forması BMT orqanının, təşkilatının, yaxud komissiyasının işində iştirakla yaranır. Məsələn, 1992-ci ilin aprelində Azərbaycan nümayəndə heyəti Pekində BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının (ESKATO) 48-ci sessiyasında iştirak etməsi respublika nümayəndələrinin kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən ixtisaslaşmış qurumlarla əlaqələrini reallaşdırmışdır.

Əlaqələrin dördüncü forması dövlətin müəyyən ixtisaslaşmış qurumun keçirdiyi tədbirə dəvət olunması və onda istirak etməsidir. 1992-ci ilin 18 mayında BMT-nin BKİF ixtisaslaşmış qurumunun dəvəti ilə Azərbaycan nümayəndə heyəti bu təşkilatın İranda keçirilən 21-ci regional konfransında iştirak etmişdir. Konfransda iştirak prosesində Azərbaycanın bu təşkilata üzvlük məsələsi haqqında danışıqlar aparılmışdır.

Bir sıra ixtisaslaşmış qurumlar öz məqsəd və funksiyalarını həyata keçirmək prosesində bəzi dövlətlərlə əməkdaşlıqda maraqlı tərəf kimi çıxış edirlər. Bu halda onlar dövlətin təşkilata daxil olmaq məsələsində təşəbbüskarlıq göstərirlər. Beynəlxalq maliyyə təşkilatlarından olan BVF və ÜB qrupu ixtisaslaşmış qurumları ilə Azərbaycanın əlaqələri bu formada yaranmışdır.

BMT ixtisaslaşmış qurumlarının dövlətlə əlaqəsinin əsas formalarından biri ölkənin bu təşkilatlara üzvlüklə bağlı rəsmi müraciət etməsidir.

İxtisaslaşmış qurumlarla Azərbaycan arasındakı əlaqələrin təcrübədə rast gəlmiş digər formaları aşağıdakıları özündə birləşdirir:

-dövlət başçısının rəsmi səfərləri və görüşləri prosesində yaranan əlaqələr,

-ölkədəki BMT nümayəndəliyinin fəaliyyəti nəticəsində yaranan əlaqələr;

-ölkənin BMT-dəki daimi nümayəndəliyinin fəaliyyəti nəticəsində yaranan əlaqələr.

Beləliklə, mövcud sənəd və materialların xronoloji və problem xronoloji təhlili prosesində BMT ixtisaslaşmış qurumları ilə Azərbaycan arasında əlaqələrin doqquz müxtəlif forması aşkara çıxır. Təhlil göstərir ki, başqa əlaqə formalarının müəyyənləşdirilməsi mümkün sayıla bilər.

Əlaqə formalarının tədqiqi Azərbaycanla BMT və onun ixtisaslaşmış qurumları arasında əməkdaşlığı dövrlərə ayırmaq imkanı verir. Fikrimizcə, belə dövrləşdirmə ümumi şəkildə qəbul olunmalı və Azərbaycanla BMT arasında əlaqələrin dövrlərini əhatə etməlidir. Bu müddəanın elmi əsası kimi BMT sistemi təşkilatlarının öz işlərini qarşılıqlı əlaqələndirməsinə istinad etmək mümkündür.

Elmi dövriyyəyə cəlb etdiyimiz materialların təhlili və tədqiqi BMT ilə Azərbaycan arasında əlaqələri şərti olaraq aşağıdakı mərhələlərə ayırmağa imkan verir:

1.1991-ci ilin oktyabrınadək;

2.18.10.91-ci il tarixdən 02.03.92 tarixədək;

3.02.03.92 tarixdən 1993-cü ilin sonunadək;

4.4) 1993-cü ildən sonrakı mərhələ.

Birinci dövr Azərbaycanın SSRİ-nin tərkibində BMT ilə əlaqələrini əhatə edir. Bu dövrdəki əlaqələr daha çox mədəniyyət sahəsinə aid olmuşdur. Daha doğrusu, mədəniyyətlə bağlı əlaqələrdə bilavasitə Azərbaycana aidlik özünü göstərmişdir. Məsələn, Azərbaycan muğamlarının YUNESKO-nun kolleksiyalarına daxil edilməsi, Azərbaycan mütəfəkkirlərinin yubileylərinin beynəlxalq səviyyədə qəbul olunması və s.

İkinci dövr suverenliyin bərpa olunmasından BMT-yə üzv qəbul olunma tarixinə qədərki müddəti əhatə edir. Bu dövrdə BMT-yə müxtəlif müraciətlərin olması istisna edilmir. Lakin həmin dövrdəki əlaqələr öz xarakterinə görə istər birinci, istərsə də üçüncü dövrdən fərqli cəhətlərə malikdir. Məhz bu cəhətlər nəzərə alınaraq ikinci dövr müəyyənləşdirilmişdir.

Üçüncü dövr əlaqələrin birtərəfli, yayğın şəkildə qurulması ilə səciyyələnir, əlaqələrdəki belə qeyri-müəyyənlik isə



diqqətin regional münaqişəyə cəlb olurması ilə bağlıdır. Lakin bu məsələdə daxili və xarici siyasətdə qeyri-sabitliyin mövcudluğu amilinin təsiri aydın duyulur. Əlbəttə, bu dövrün başaçatma həddinin 1993-cü ilin sonu kimi qəbul edilməsi şərti xarakter daşıyır. Dəqiq sərhədi müəyyənləşdirmək əlavə politoloji tədqiqat tələb edir və bu mövzudan kənarda qalır. BMT ilə əlaqələrdə məqsədəuyğun fəaliyyət 1993-cü ilin sonlarından etibarən hiss olunduğu üçün biz bu tarixi qəbul etməyə üstünlük vermişik.

## §2. Siyasi sahədə əməkdaşlıq

Azərbaycanın beynəlxalq münasibətlər sisteminə daxil olması, dünya siyasət aləminə qoşulması çətin və ağrılı proses olmuşdur. Əslində suveren Azərbaycan diplomatiyasının qurulmasına sıfırdan başlanmışdır. Öz tarixinin yeni dövrünə qədəm qoyan Azərbaycan Respublikası çoxlu problemlərlə üzləşmişdi ki, bunlardan ən kəskini və mürəkkəbi Azərbaycanın beynəlxalq aləmdən təcrid edilməsi təhlükəsi olmuşdur. Təsadüfi deyildi ki, respublikamız düşdüyü çətin vəziyyətin dünya birliyi tərəfindən dərk olunmasına uzun müddət nail ola bilməmişdi. Problemin araşdırılması bunu aşağıdakı səbəblərlə izah etməyə imkan verir: Sovet imperiyasının dağılma prosesinə müqavimət; Azərbaycanın geosiyasi mövqeyi; daxili vəziyyətin sabitsizliyi; xarici siyasətdə səbatsızlıq və qeyri-ardıcıllıq; Ermənistan təcavüzkarlığına qarşı mübarizənin ilk dövrlərdə tam aydınlığı ilə dərk edilməməsi; geniş informasiya blokadası, xarici təzavüzə qarşı diplomatik-siyasi müqavmtəin lazımınca təşkil olunmaması; diplomatik korpusun zəifliyi və təcrübəsizliyi. Göstərilən səbəblər Azərbaycanın dünya siyasətindəki mövqeyinin güclənməsinə imkan verməmiş və onun inkişafını hərtərəfli məhdudlaşdırmışdır.

Azərbaycanın beynəlxalq aləmdə tanınması onun siyasi problemlərinin bir tərəfini təşkil edirdi. Respublikanın müstəqilliyini təhlükə altına alan əsas siyasi məsələ isə Ermənistanın onun ərazısının 20%-ni – 16 mln. kv.km-ni işğal etməsi faktı ilə bağlı idi. Suverenliyin ilk illərində Ermənistanın

təcavüzkarlığının dünya ictimaiyyətinə çatdırılması böyük çətinliklər yaradırdı. "Dağlıq Qarabağ problemi" adlandırılan bu məsələ əvvəlcə respublikanın göstərilən regionunda yaşayan erməni əhalisinin iqtisadi və sosial cəhətdən sıxışdırılmasının, onların Ermənistanla mədəni əlaqələrinə yol verilməməsinin nəticəsi kimi təqdim edilmiş, erməni əhalisinin öz müqəddəratını təyin etmək məqsədilə Ermənistanla birləşmək arzusu kimi qələmə verilmişdi. İttifaqdaxili siyasət xəttini qəbul etmiş Azərbaycan rəhbərliyi məsələnin qoyuluşundakı bəzi məqamlarla razılaşmaqla, münaqişənin kənardan deyil, daxildən həll olunması istəyini göstərməklə "Dağlıq Qarabağ problemi"nin daxili münaqişə xarakterini bir növ təsdiqləmiş oldu. Halbuki, bu problem geniş siyasi məzmun daşıyırdı və öz tarixi kökləri ilə keçmişlə bağlanırdı.

Münaqişə ilə bağlı Azərbaycanın BMT-yə ilk rəsmi müraciəti 1992-ci il fevralın 13-də olmuşdur. Azərbaycan parlamenti həmin tarixdə BMT TŞ-yə rəsmi müraciət qəbul etmişdir. Müraciətdə Ermənistanın Azərbaycan Respublikası ərazisinin bir hissəsini qopartmağa yönəlmiş fəaliyyətinin təcavüz və dövlət terrorizmi səciyyəsi daşıması və bu barədə kifayət qədər faktın olması qeyd edilirdi. Azərbaycan tərəfindən BMT TŞ-nin regiona səlahiyyətli nümayəndə heyəti göndərməsi, vəziyyəti obyektiv qiymətləndirərək qərar qəbğul etməsi xahiş olunurdu.[1] Respublikamız müvafiq sənədləri təqdim etdikdən sonra 1992-ci il martın 2-də BMT üzvləri sırasına qəbul edildi və 1992-ci il mayın 6-da Azərbaycanın BMT yanında daimi nümayəndəliyi təsis edildi.

Azərbaycanla BMT arasında əlaqələrə aid materialların politoloji təhlili göstərir ki, ilk dövrlərdə respublikanın BMT-dəki fəaliyyəti Ermənistan təcavüzkarlığının bu mötəbər təşkilatın tribunasından dünyaya yaymaq istiqamətində köklənmiş və onun mahiyyətinin açılması ilə bağlı cəhdlərlə səciyyələnir. BMT-nin müxtəlif konfranslarına, seminar və müşavirələrinə dəvət olunmuş Azərbaycan nümayəndələrinin öz çıxışlarında diqqəti Qarabağ probleminə yönəltməsi münaqişə haqqında həqiqətlərin geniş ictimaiyyətə çatdırılmasında müəyyən mənada müsbət rol oynasa da, respublikanın BMT ixtisaslaşmış qurumları ilə əlaqəsindəki əsas istiqamətlərin arxa plana keçməsinə səbəb olmuşdur.



BMT ilə əlaqələrin ilk dövrlərində Ermənistanın təcavüzkarlığının bütünlüklə BMT çərçivəsinə çıxarılması üçün yalnız bircə dəfə – 1992-ci ilin ortalarında real zəmin yaranmış, Azərbaycanın BMT yanındakı daimi nümayəndəliyinin ardıcıl səylərinə baxmayaraq, dövlətin xarici siyasət sahəsindəki zəifliyi, TŞ-nin daimi üzvü olan ölkələrin hamısı ilə münasibətin yüksək səviyyədə və müsbət şəkildə qurulmaması nəticəsində həmin imkan itirilmişdir.

BMT TŞ-nin Dağlıq Qarabağ münaqişəsi haqqında qəbul etdiyi dörd qətnamə problemin həlli üçün müəyyən istinad əsaslarını yaratsa da, BMT məsələnin ATƏT çərçivəsində müzakirəsini rəhbər götürmüşdür.

Ermənistanın təcavüzkarlığının qarşısını almaq sahəsində BMT ilə əməkdaşlıq zamanı BMT-nin ixtisaslaşmış qurumlarına müraciət etməyə imkan verən bəzi cəhətləri aydınlaşdırmaq lazımdır.

Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüz etməsi məntiqi cəhətdən heç bir əlavə sübut və fakt tələb etmir. Respublika prezidenti H.Əliyev dönə-dönə deyirdi ki, "açıq təcavüz faktı o dərəcədə aşkardır ki, hər hansı əlavə faktlar gətirmək lüzumsuzdur".[1]

Subuta ehtiyacı olmayan təcavüz faktının beynəlxalq təşkilat tərəfindən etiraf edilə bilməməsi belə bir orqanın digər sahələrdəki məsuliyyətini artırırdı. Daha doğrusu, bir istiqamətdə imkanları reallaşdırmaqda çətinlik, digər sahələrdə əməkdaşlığa mane olmamağa zəmin yaradırdı. Azərbaycanın Ermənistanın təcavüzkarlığı ilə bağlı siyasi probleminin həllinə münasibət onun ixtisaslaşmış qurumlarla əlaqələri üçün imkanlar açırdı. Azərbaycan tərəfinin bu istiqamətdə cəhdləri bir çox cəhətdən fəallaşdırılmalı idi. Münaqişənin BMT səviyyəsində müzakirələri prosesində ixtisaslaşmış qurumların sosial, rabitə, mədəniyyət, iqtisadi qrupları ilə əlaqələrə diqqəti cəlb etmək

[1] Bax: BMT Təhlükəsizlik Şurasına //"Həyat" qəzeti, 1992, 13 fevral

[1] Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin BMT TŞ sədrinə məktubu. "Azərbaycan" qəzeti, 1993, 19 avqust.

olardı. İxtisaslaşmış qurumlarla yanaşı, bu dövrdə BMT-nın digər orqan və proqramları çərçivəsində əməkdaşlıq da vacib idi. Burada iki istiqaməti fərqləndirə bilərik: birincisi, Ermənistanın münaqişədə iştirakını sübut etmək məqsədilə müxtəlif təşkilatlara faktların təqdim edilməsi yolu ilə onların həm problemin həllinə cəlb olunması, habelə bu təşkilatlarla əlaqələrin yaradılması; ikincisi, münaqişə nəticəsində meydana çıxmış vəziyyətlər, hadisələr və digər faktlardan müvafiq ixtisaslaşmış qurumlarla əlaqələr üçün istifadə olunması.

Ermənistanın münaqişədə iştirakını sübut edə biləcək əsas faktları formal olaraq aşağıdakı şəkildə təsnif etmək mümkündür: Ermənistan əsgərlərinin münaqişədə iştirakı; əsirlərin Ermənistan ərazisinə aparılması; Azərbaycan ərazisindəki şəhər və kəndlərin qarət edilib Ermənistana daşınması; Ermənistan xətti ilə silah və digər hərbi sursatın Dağlıq Qarabağa daşınması; sıradan çıxmış hərbi texnikanın təmir üçün Ermənistana daşınması; münaqişədə iştirak etmək üçün əsgərlərin Ermənistanda hazırlanması; Ermənistanın münaqişəni dərinləşdirən qərarlar qəbul etməsi; muzdlu əsgərlərin Ermənistan vasitəsilə münaqişəyə cəlb olunması, Azərbaycanın informasiya blokadasına alınması və s.

Ermənistanda azərbaycanlı əsirlərinin saxlanması BMT-nın bir sıra təşkilatlarına müraciət etməyə imkan verir. Əsirlərin xəstə olmasını əsas götürüb ÜST-yə, onların arasında uşaqların olmasına istinad edib YUNİSEF-ə, qadınlara görə YUNİFEM-ə və QVK-ya (Qadınların Vəziyyəti Üzrə Komissiyaya), kənd təsərrüfatı ilə məşğul olan dinc əhaliyə aidliyə əsaslanmaqla FAO-ya, BKİF-ə, YƏP-ə, BƏT-ə və s. müraciət etmək olar. Beləliklə, bir əsas informasiyalı faktdan çıxış etməklə müəyyən sayda ixtisaslaşmış qurumun reaksiyasını tələb etmək reallaşdırılır. Ermənistanın işğalçılıq müharibəsi nəticəsində isə külli miqdarda belə faktlar meydana çıxmışdır. Biz bu cür faktların müəyyən qisminin sadalanması ilə kifayətlənirik: - kəndlərin və şəhərlərin yandırılması; kənd təsərrüfatı sistemlərinin dağıdılması; zəmilərin, tarlaların, bağların, suvarma qurğularının məhv edilməsi, kənd təsərrüfatı ilə məşğul olan əhalinin əsir götürülməsi, fermaların, mal-qaranın məhvi (FAO, BKİF, BƏT,



YƏŞ, YUNEP, HABİTAT, BTT, ÜST); mədəniyyət abidələrinin dağıdılması, maddi-mədəni sərvətlərin talan edilməsi, təhsil müəssisələrinin dağıdılması, kitabxanaların yandırılması, heykəllərin uçurulması və s. (YUNESKO, ÜİMT, BMTIP); aerodromların dağıdılması (BMAT); meşələrin qırılması, yandırılması, təbiətə ziyan vurulması (YUNEP, HABITAT, FAO, YUNESKO); uşaqlar, qocalar və əlillərə işgəncə verilməsi, onların didərgin salınması, xəstəxanaların, tibb məntəqələrinin dağıdılması və s.( ÜST, BƏT, YUNİSEF); rabitə və kommunikasiya xətlərinin dağıdılması, avadanlıqların məhvi və s. (YPI, YTİ) və i.a.

1994-cü ilin sentyabrında Qahirədə "Əhali məskunluğu və inkişaf"ı üzrə BMT-nın konfransı keçirildi. Konfransa hazırlıq mərhələsində Azərbaycan da fəal iştirakçısıdır.[1] 1994-cü il sentyabrın 4-də Azərbaycan prezidenti Heydər Əliyev həmin konfransda iştirak etmək üçün Misirə yola düşərkən jurnalistlərlə görüşündə demişdi: "Hər bir beynəlxalq toplantı, beynəlxalq konqres, şübhəsiz ki, dünyada gedən proseslərin müəyyən cəhətini müzakirə, təhlil edir və müəyyən qərarlar çıxarır".[2]

H.Əliyev Misirdə BMT Baş katibi Butros Qali ilə söhbətdə Ermənistan təcavüzkarlığı ilə yanaşı, respublikanın ümumi, o cümlədən iqtisadi vəziyyətini də müzakirə etdi. Tərəflər BMT-nın ixtisaslaşmış qurumu olan YUNİDO-nun Sumqayıtda azad iqtisadi zona yaratmaq fəaliyyəti haqqında fikir mübadiləsi etdilər.

BMT-dəki siyasi fəaliyyətin ixtisaslaşmış qurumların işi ilə əlaqələndirilməsinin bir yolu da daimi nümayəndəlikdə müxtəlif məzmunlu press-relizlərin hazırlanıb yayılmasıdır. Məlumdur ki, BMT böyük informasiya mərkəzidir, belə bir mərkəzdə Azərbaycanın vəziyyəti, onun problemləri ilə bağlı press-relizlərin buraxılması yaxşı nəticələr verir. Əvvələ, çap olunmuş materiallar həqiqəti müntəzəm olaraq yayılmasını təmin edir; ikincisi, həmin materiallar respublikanın bu və digər

[1] Bax AXİN arxivi Sən.-1086-10.12.93, sən.-1058-29.11.93

[2] "Azərbaycan" qəzeti, 1994, 6 sentyabr

problemine dıqqəti cəlb edir. Azərbaycanın BMT yanındakı daimi nümayəndəliyi təkcə 1993-cü ilin birinci doqquz ayı ərzində 21 press-reliz hazırlayıb yaymışdı.

BMT-nin Azərbaycanla əməkdaşlığının genişləndirilməsində, Azərbaycan haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında 1992-ci ilin noyabrında Bakıda təsis olunmuş BMT daimi nümayəndəliyi mühüm rol oynamışdı.

Dağlıq Qarabağın və onun ətrafındakı Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarının Ermənistan tərəfindən işğalı problemi BMT Təhlükəsizlik Şurası səviyyəsində müzakirəsini şərtləndirmiş oldu. 1992-96-cı illərdə BMT TŞ Azərbaycan rayonlarının Ermənistan tərəfindən işğalı ilə əlaqədar 822, 853, 874 və 884 saylı dörd qətnamə, habelə Təhlükəsizlik Şurasının sədri 8 bəyanat qəbul etmişdı.

1994-cü il mayın 12-də Ermənistanla Azərbaycan arasında müvəqqəti atəşkəs rejimi yaradılandan sonra Azərbaycanın BMT strukturlarına inteqrasiyası üçün geniş imkanlar açıldı. Respublikamız qısa müddətə BMT-nin ixtisaslaşmış qurumlarının hamısına üzv seçilmiş, 2000-ci ildə BMT-nin minillik sammitində iştirak edən Azərbaycan Prezidenti H.Əliyev dünya ictimaiyyətinin diqqətini Cənubi Qafqazda genişlənməkdə olan qloballaşma proseslərinə cəlb etməyə müvəffəq olmuşdu.

Azərbaycan Respublikası 1995-ci ildən başlayaraq qadınların vəziyyəti haqqında BMT Komissiyasının "Hərbi münaqişələr zamanı girov götürülmüş, daha sonra əsir düşmüş qadın və uşaqların azadlığı haqqında" illik qətnaməsinin müəllifi və əsas sponsorudur. Respublikamız 1995-97 və 1998-2000-ci illər ərzində BMT Uşaq Fondu icraçı orqanının üzvü olmuş, 2002-ci ilin aprelində Azərbaycan nümayəndə heyəti "İtkin düşmüş şəxslər haqqında" layihəni müzakirəyə çıxarmış və layihə 2003-cü ilin əvvəllərindən etibarən beynəlxalq-hüquqi status qazanmışdır.

Azərbaycanın beynəlxalq nüfuzunun artdığını göstərən faktorlardan biri də respublikamızın müxtəlif BMT qurumlarına üzv seçilməsidir. Respublikamızın YUNESKO,



ÜST, BMT maliyyə qurumları yanında komissiya və nümayəndəlikləri fəaliyyət göstərməkdədir. Azərbaycan BMT Baş Məclisının 2003-cü il seçkilərində 2003-2005-ci illər üçün İqtisadi və Sosial Şuranın (EKOSOS-un) üzvü seçilmişdir

## §3. İqtisadi sahədə əməkdaşlıq

Azərbaycanla BMT-nin ixtisaslaşmış qurumları arasında iqtisadi sahədə əməkdaşlıq sənaye, maliyyə və kənd təsərrüfatı sahələrində intensiv şəkildə inkişaf etməkdədir

YUNİDO-nun bu və ya digər ölkədəki fəaliyyəti çox vaxt BMT İnkişaf Proqramı ilə əlaqələndirilir. Məlumdur ki, Azərbaycan BMTİP-ə 1992-ci il mayın 26-da qoşulmuş və sentyabrın 6-da Azərbaycan nümayəndə heyəti BMTİP-in Rumıniyada keçirilən konfransında iştirak etmişdir

BMTIP texniki yardım göstərməzdən əvvəl ölkənin iqtisadiyyatını öyrənir, orada iqtisadi inkişafla bağlı hazırlanmış layihələri qiymətləndirir. Məhz bu məqsədlə 1994-cü il martın 9-da BMTİP-in baş məsləhətçisi Uılyam Navxof Azərbaycana gəlmişdı. Baş məsləhətçinin respublikamızda apardığı işlər Azərbaycan sənayesinə BMT səviyyəsində diqqətin artırılmasının vacibliyini sübuta yetirdı. Məhz bu səfərdən sonra artıq iyun ayında YUNİDO Azərbaycanla beynəlxalq əməkdaşlığı gücləndirmək haqqında qərar qəbul etdi BMTİP və YUNİDO Azərbaycan sənayesinin əsas bölmələri strukturlarının dəyişdirilməsinə aid texniki yardım layihəsi hazırlamaq məqsədilə avqust ayında respublikaya xüsusi missiya göndərdı. Bakıda keçirilmiş səmərəli görüşlər Azərbaycan sənayesinə texniki yardım göstərilməsi zəminində respublikada azad iqtisadi zonanın yaradılması ilə bağlı məsləhətləşmələr keçirilməsi və qərar qəbul edilməsi planlaşdırıldı. Avqustun 25-də Sumqayıtda azad iqtisadi zonanın yaradılmasına dair layihə imzalandı.

Sumqayıtın azad iqtisadi zonaya çevrilməsi üçün təxmini hesablamalara görə 12 milyard dollardan artıq vəsait tələb olunur. Belə vəsaitin bütünlüklə bir təşkilat tərəfindən

qoyulması çətindir. Problemin həlli Sumqayıta xarici investorların cəlb edilməsi yolu ilə mümkündür.

Sumqayıt sənayesinin neft və kimya sənaye sahələri istiqamətində inkişaf etdirilməsi ilkin bazanın mövcudluğu baxımından sürətlə həyata keçirilə bilər. Bu cəhəti nəzərə alaraq YUNİDO ilk mərhələdə Sumqayıtın neft kimyası, kimya, metallurgiya və toxuculuq sənayesi müəssisələrinin inkişafına diqqət yetirməyi nəzərdə tuturdu.

1995-ci il oktyabrın 21-də Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevlə BMTİP-in rəhbəri Ceyms Spet arasındakı görüşdə Sumqayıt layihəsinin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi olmuşdur. C.Q.Spet YUNİDO və başqa təşkilatların dəstəklədiyi bu layihənin reallaşdırılmasına BMTİP-in hər cür yardım göstərəcəyini bildirmişdir. Bununla yanaşı, qonaq Azərbaycan iqtisadiyyatının inkişaf etməsi üçün özəl bölmə investisiyalarının respublikaya cəlb olunmasının əhəmiyyətini qeyd etmiş, 1994-cü ilin sentyabrında "Əsrin Müqaviləsi"nin bu işə təkan verəcəyini söyləmişdi.

YUNİDO-nun Azərbaycandakı fəaliyyəti Sumqayıt sənaye müəssisələri ilə xarici şirkətlər arasında iqtisadi əlaqələrin qurulmasına müsbət təsir göstərir. "Kura Treyd ənd Development LTD", "Kelleqq limited", "Con Braun LTD", "Saymon Karaz LTD" və bir sıra digər firmaların nümayəndələri ilə aparılmış danışıqlar bu sahədə irəliyə doğru addım sayıla bilər".[1]

1996-cı il iyulun 31-də Bakıda Sumqayıt layihəsinin ikinci mərhələsi və bu şəhərdə biznes mərkəzinin yaradılmasına dair sazişlər imzalanmışdır. Sumqayıtda biznes mərkəzinin yaradılması proqramının həyata keçirilməsində BMTİP, YUNİDO ilə yanaşı, İsrail Respublikasının da iştirakı nəzərdə tutulurdu.

Sumqayıt layihəsinin ikinci mərhələsi xarici investisiyaların axınını əlaqələndirmək və onların kifayət qədər olmasını təmin edəcək strukturların yaradılmasını nəzərdə tutur. YUNİDO Sumqayıt layihəsinin həyata keçirilməsində marağı olan iri xarici şirkətlərin Azərbaycanda forumunu keçirməyi planlaşdırmışdı.

[1] "Azərbaycan" qəzeti, 1996, 17 yanvar



Sumqayıt layihəsinin həyata keçirilməsi prosesinə respublika prezidenti xüsusi diqqət yetirir. Türkdilli ölkələrin dövlət başçılarının 1996-cı ilin oktyabr ayında keçirilmiş Zirvə Toplantısında qəbul olunmuş Daşkənd Bəyannaməsinin 10-cu maddəsində deyilir: "Dövlət başçıları BMT İnkişaf Proqramını, Ümumdünya Bankını, Beynəlxalq Valyuta Fondunu və regional inkişaf banklarını daha çox fəallıq göstərib, türkdilli ölkələrin hər birindən ötrü keçid dövrü üçün fəaliyyət strategiyasının işlənib hazırlanmsasında bu ölkələrlə əməkdaşlığı genişləndirməyə çağırmışlar".[1]

**Maliyyə sahəsində əməkdaşlıq.** BVF-nin Müdirlər Şurası 1992-ci il aprelin 22-də Vaşinqtonda keçirilmiş iclasında İcraiyyə Şurasına Azərbaycanın bu təşkilata həmin ilin mayın 4-dək qəbul edilməsini tövsiyə etmiş və Azərbaycan üçün 78 milyon SDR alqı hüququ müəyyənləşdirmişdi.

1992-ci ilin may ayında ÜB eksperti Conatan Braun müsahibələrindən birində qeyd etmişdi ki, beynəlxalq maliyyə təşkilatları keçmiş Sovet İttifaqının neft hasil edən ölkələrinə kredit verə bilərlər. Lakin bu o zaman ediləcək ki, MDB ölkələri öz neft sənayelərinin inkişaf etdirilməsinə və modernləşdirilməsinə kommersiya banklarını və xüsusi investisiyaları cəlb etmək üçün şərait yaratmış olsunlar.

ÜB ekspertlər qrupunun hələ 1992-ci ilin iyun ayında Azərbaycanda olmasına baxmayaraq, Azərbaycanın BİYB-ə və BVF-yə daxil olması ilə bağlı respublika səviyyəli qərarın layihəsi avqustun 19-da hazırlanmışdır. Azərbaycan Respublikası Milli Məclisinin İqtisadiyyat, xarici işlər və büdcə nəzarəti komissiyası bu qərarı həmin gün işləyib Milli Məclisin təsdiqinə vermişdir.[2]

1992-ci il sentyabrın 28-dən oktyabrın 20-dək ÜB-nin iqtisadi ekspertləri Azərbaycanda olmuşlar. Onların səfərində əsas məqsəd mühüm iqtisadi sahələrdə vəziyyəti öyrənmək, iqtisadi islahat proqramlarının həyata keçirilməsini qiymətləndirmək, kənd təsərrüfatı, nəqliyyat, səhiyyə və təhsil

[1] Daşkənd Bəyannaməsi //"Azərbaycan" qəzeti, 1996, 23 oktyabr
[2] Bax: Komissiyaların fikrincə //"Həyat" qəzeti, 1992, 20 avqust

sahəsində islahatların hazırlığı gedişi ilə tanış olmaqdan ibarət olmuşdur. Qeyd etmək lazımdır ki, iqtisadi ekspertlərin Azərbaycana bu gəlişi respublikanın ÜB-yə qəbulundan əvvəl olmuşdur. Halbuki rəsmi Azərbaycan mənbələrində respublikanın BVF-yə 1992-ci ilin avqustunda daxil olması qeyd olunmuşdur.[1] 18.08.92 tarixdə Azərbaycan Respublikasının BVF-yə, BYİB-yə və onlarla bağlı digər təşkilatlara daxil olması haqqında respublika prezidentinin fərmanı imzalanmış, 19.08.92 tarixdə isə bu təşkilatların sazişlərinin və konvensiyalarının Azərbaycan Respublikasında tətbiqi haqqında qanun qüvvəyə minmişdir.

Azərbaycanın BVF-dəki kvotası 117 mln. SDR təşkil edir ki, bu da 175 mln. ABŞ dollarına yaxın məbləğdir.

ÜB-də Azərbaycan və digər keçmiş sovet respublikalarına ayrılmış səhmlərin və səslərin sayı bir-birindən fərqlənir. Bu rəqəmlər dövlətin BYİB üzvü olan ölkələr arasındakı yerini təyin etməyə imkan verir.

1993-cü ilin fevralında Conatan Braunun başçılığı ilə beynəlxalq maliyyə təşkilatlarının nümayəndə heyəti Azərbaycana gəlmişdir.[2] Azərbaycana gəlmiş ekspertlər burada üç istiqamətdə iş görmüşlər: 1) əvvəlki missiyanın pul-kredit statistikası üzrə məsləhətlərinin yerinə yetirilməsi vəziyyətinin öyrənilməsi; 2) pul-kredit sahəsində göstəricilərin təhlili; 3) pul-kredit sahəsinin xülasəsinin tərtibi prinsiplərinin öyrənilməsi.

1994-cü ildə Azərbaycanın maliyyə sisteminin həm öyrənilməsi, həm də təkmilləşdirilməsi istiqamətində BMT-nin ixtisaslaşmış qurumlarının fəaliyyəti daha geniş miqyas aldı. Azərbaycanın maliyyə sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlər planının həyata keçirilməsi üçün ÜB respublikaya 20 milyon dollar məbləğində yardımı hələ 1993-cü ildə vəd etmişdi. Bu yardım aşağıdakı məqsədlər üçün istifadə edilməli idi: respublika daxilində və ondan kənarda mütəxəssis hazırlanması; özəlləşdirmə və sahibkarlıq işlərinin gedişinə xarici mütəxəssislərin cəlb edilməsi; hüquqi sənədlərin hazırlanması;

[1] "Azərbaycan" qəzeti, 1992, 12 dekabr

[2] "Azərbaycan" qəzeti, 1993, 13 fevral



Bakıda biznes məktəbinin yaradılması; Azərbaycanda peşə yönümü kurslarının təşkili; əmək bazarının yaradılması.

BVF xətti ilə 1994-cü ilin fevralında Azərbaycanda pul-kredit hesablarının təsnifatı, onların iqtisadiyyat sektorları üzrə bölünməsi öyrənilmişdir. Bu dövrdə xarici məsələlər üzrə əməkdaşlığa can atan bu ixtisaslaşmış qurumlar öz fəaliyyətinə başlamaq üçün müəyyən tələblər toplusunun ödənilməsi şərtini qoyurlar. Həmin şərtlərin yerinə yetirilməsinə görə ixtisaslaşmış qurumlar nəzərdə tutulan dövlətin iqtisadi siyasətini, maliyyə sistemini, ümumi iqtisadi vəziyyətini və bir çox digər məsələləri dərindən öyrənir, göstərilən sahələrdə dönüş yaratmaq üçün məsləhətlər verilməsi, ekspertizalar aparılması, konkret proqramlar hazırlanması istiqamətində texniki yardım göstərirlər.

1994-cü il sentyabrın 28-də BVF-nin Bakıda olan nümayəndə heyətinin başçısı, fondun ikinci Avropa departamentinin direktoru Con Oldinq Smit keçirdiyi brifinqdə Azərbaycana kredit verilməsi üçün aşağıdakı şərtlərin ilk növbədə yerinə yetirilməsinin zəruriliyini qeyd etmişdir: 1) Azərbaycan-Ermənistan münaqişəsinin aradan qaldırılması; 2) 1995-ci il üçün Azərbaycan hökumətinin iqtisadi proqramının BVF tərəfindən bəyənilməsi və onun həyata keçirilməsi üçün tədbirlərin görülməsi; 3) kredit emissiyasını aşağı salmaq yolu ilə makroiqtisadi sabitləşdirmənin aparılması; 4) inflyasiya səviyyəsini aşağı salmaq yolu ilə makroiqtisadi sabitləşdirmənin aparılması, 5) inflyasiya səviyyəsinin aşağı salınması üçün tədbirlərin görülməsi; 6) iqtisadi islahatların aparılması; 7) özəlləşdirilmənin həyata keçirilməsi; 7) iqtisadiyyatın, valyuta rejiminin, xarici ticarətin sərbəstləşdirilməsi.[1] Yuxarıda qeyd edilənlərdən aydın görünür ki, YUNİDO-dan fərqli olaraq, maliyyə xarakterli ixtisaslaşmış qurumlar kredit ayırarkən risk dərəcəsini hesablayır, onun qaytarılmasına təminat bazasının hazırlanması qayğısına qalırlar.

Azərbaycanla BMT-nin maliyyə xarakterli ixtisaslaşmış qurumları arasında əlaqələrin möhkəmlənməsi və inkişafı üçün

[1] "Azərbaycan" qəzeti, 1994, 28 sentyabr

zəruri şərtlərin aşağıdakı dörd əsas istiqaməti əhatə etməsini göstərə bilərik: müharibədən imtina, daxili sabitlik, iqtisadi islahatlar və iqtisadi göstəricilər. Məhz bu dövrdə digər aktiv və pulların tədavüldə lazımi uçotunu təmin etmək üçün Azərbaycan Milli Bankının balansındakı valyuta əməliyyatlarının qeydiyyatı və manatın emissiyası da araşdırılmışdır. 1994-cü ilin martında Azərbaycan Milli Bankında BVF-nin məsləhəti ilə statistik bölmə yaradılmışdır.

BVF və ÜB nümayəndələri Azərbaycana maliyyə sahəsində texniki yardım göstərmək istiqamətində də geniş tədbirlər planı həyata keçirmişlər. Onların köməyi ilə hazırlanmış materiallar büdcə proqnozlarının tərtibinin təkmilləşdirilməsi, xərclərə nəzarət mexanizminin yaradılması, vergi sisteminin təhlili, sosial təminat sisteminin nizamlanması və onun səviyyəsinin yüksəldilməsi məsələlərini əhatə edirdi.

1995-ci il aprelin 19-da respublika iqtisadiyyatında sistem dəyişiklikləri yolu ilə dövlətin makroiqtisadiyyatının sabitləşdirilməsi və sistem islahatları proqramlarının həyata keçirilməsi məqsədilə BVF Azərbaycana 46 milyon dollar vəsait vermişdi. BVF və ÜB-nin maliyyə sahəsində Azərbaycandakı fəaliyyətinin nəzərdən keçirilən mənzərəsi bu ixtisaslaşmış qurumların respublikanın maliyyə sistemini dərindən öyrənmək, onun işinin beynəlxalq standartlara uyğunlaşdırılmasına yardım etməyə üstünlük verdiklərini aşkara çıxarır. BMT-nin ixtisaslaşmış qurumu olan BVF-nin 1994 və 1995-ci illərdə Azərbaycanda müvafiq olaraq on və on bir missiyası olmuş, həmin missiyaların işləri dörd istiqaməti əhatə etmişdir.

BVF-nin texniki köməyi vergi siyasəti və vergi xidmətinin təşkili, makroiqtisadi statistika, mərkəzi bankın əməliyyatları və sosial müdafiənin fəaliyyətdə olan sisteminin yaradılması sahələrindəki yardımları əhatə etmişdir. Bu məqsədlə Bakıda, Vyana İnstitutunda və BVF-nin iqamətgahında tədris kursları təşkil edilmişdir.

Sistem dəyişikliklərinin maliyyələşdirilməsi mexanizmi üzrə birinci alqı 1995-ci ilin 19 aprelində təsdiq edilmişdir. "Stendbay" krediti üzrə razılıq isə 1995-ci ilin sentyabrında əldə olunmuşdur.



İstər BVF, istərsə də ÜB təşkilatları ilə Azərbaycan arasındakı əlaqələrin yaranması və inkişaf mexanizmini öyrəndikdə bu maliyyə xarakterli ixtisaslaşmış qurumların respublikaya münasibətində bir xətt aydın seçilir, maliyyə yardımları dörd istiqamətdən birində cəmləşir. Məsələn, xüsusi sahibkarlığa şərait yaradılması iqtisadi islahatlar zəminində həll olunandır.

ÜB öz işini konkret layihələrin həyata keçirilməsi yolu ilə görür. Ümumdünya Bankı tərəfindən maliyyələşdirilməsi nəzərdə tutulacaq layihələri borc alan dövlət təklif edir. lakin bir sıra hallarda bu işdə ÜB ekspertləri də iştirak edirlər. Layihə təklif edən ölkə onun seçilməsinin mümkünlüyünü nəzərə almalıdır. Əlbəttə, ÜB ekspertlərinə daha çox layihə təklif etməyə deyil, seçilə biləcək layihələr verməyə çalışmaq lazımdır. Azərbaycanın ÜB-yə daxil olduğu ilk aylarda respublikanın ÜB ekspertlərinə seçilmək üçün təklif etdiyi layihələr say çoxluğu ilə diqqəti cəlb edir. Məsələn, 1992-ci ilin 16 dekabrından ÜB və BVF-nin Direktorlar Şurasının Parisdə keçirilən iclasına Azərbaycan nümayəndə heyəti 62 layihə aparmışdı.[1] Lakin həmin layihələrin seçilməsinin nəticələri heç də müsbət olmamışdır. Bu fakt BMT-nin ixtisaslaşmış qurumları ilə əməkdaşlığın ilk dövrləri üçün səciyyəvidir. Əlaqələrin düzgün istiqamət alması üçün ilk növbədə maliyyə xarakterli ixtisaslaşmış qurumların tələblərinin yerinə yetirilməsi sahəsinə diqqəti artırmaq lazım gəlirdi. Belə ki, Azərbaycan-Ermənistan münaqişəsində atəşkəsə nail olunması, respublikada daxili sabitliyin yaradılması, iqtisadi göstəricilərin öyrənilməsi, iqtisadi islahatların keçirilməsinə başlanması həm BVF, həm də ÜB ilə Azərbaycan arasındakı əməkdaşlığın normal qaydaya düşməsinə imkan yaratdı. Artıq 1996-cı ilin noyabrında struktur dəyişiklikləri üçün kredit məsələsində respublika hökuməti ilə tam razılıq əldə olundu. 70 milyon dollar məbləğində olan bu kredit büdcə və tədiyyə balansı məsələsinin həllinə ayrılırdı.[2]

"Stend-bay" proqramı üzrə Azərbaycana kreditin ayrılması və onun birinci iki hissəsinin respublikaya gətirilməsini

[1] "Azərbaycan" qəzeti, 1992, 12 dekabr

[2] "Azərbaycan" qəzeti, 1996, 14 avqust

Azərbaycanın BMT-nin ixtisaslaşmış qurumları ilə iqtisadi sahədəki əməkdaşlığının uğurlarından hesab etmək olar.

**BMT-nin ixtisaslaşmış qurumları ilə kənd təsərrüfatı sahəsində əməkdaşlıq.** Kənd təsərrüfatı iqtisadiyyatın əsas manqalarından biridir və inkişaf etməkdə olan ölkələrin həyatında xüsusi əhəmiyyətə malikdir. İqtisadi siyasət mexanizminin dəyişdirildiyi dövrdə, başqa sözlə, keçid dövründə ölkənin sənaye potensialı zəifləyir. Bu, bir tərəfdən, mövcud iqtisadi əlaqələrin zəifləməsi ilə əsaslandırılırsa da, digər tərəfdən, istehsal səviyyəsinin aşağı düşməsinin nəticəsi kimi qəbul olunur. Ümumi iqtisadi geriləmə prosesində ölkənin ərzaq təminatının müəyyən səviyyədə ödənilməsinin əsas ağırlığı kənd təsərrüfatı bölməsinin üzərinə düşür. Eyni zamanda islahatlar kənd təsərrüfatı sahəsini də əhatə etməli və bu ümumi iqtisadi inkişaf konsepsiyasının tərkib hissəsi olmalıdır.

Keçid dövründə iqtisadi tənəzzül özünü həm də kənd təsərrüfatında göstərir. Bununla yanaşı, kənd əhalisinin böyük şəhərlərə yönəlmiş miqrasiyası başlanır ki, bu da kənd təsərrüfatı məhsullarının lazımi səviyyədə gəlir gətirməməsi, kəndin sosial problemlərinin kəskin şəkildə artması və bir çox digər səbəblərlə əlaqələnir. Lakin aydındır ki, miqrasiya kənd əhalisinin problemlərini nəinki həll edə bilmir, əksinə, ümumi vəziyyətin daha da ağırlaşmasına şərait yaradır. Bütün bu məsələlər beynəlxalq birliyin diqqət mərkəzindən yayınmamışdır. BMT sistemi təşkilatları kənd təsərrüfatı ilə bağlı problemlərin həllinə yardım göstərməkdə həmişə fəal mövqe tutur. BMT-nin ixtisaslaşmış qurumlarından ikisi bilavasitə kənd təsərrüfatı ilə bağlıdır. Azərbaycanın BMT sistemi ilə əlaqələr mexanizmində bu iki ixtisaslaşmış qurumun da öz yeri vardır. Lakin qeyd etmək lazımdır ki, Azərbaycanla kənd təsərrüfatına aid ixtisaslaşmış qurumlar arasında əlaqələrin yaradılmasında ləngliк göstərilməklə yanaşı, onlarla əməkdaşlığın inkişaf etdirilməsində də az iş görülmüşdür. Azərbaycanın BMT yanındakı Daimi nümayəndəliyinin respublika Xarici İşlər Nazirliyinə göndərdiyi iki məktubda göstərilən ixtisaslaşmış qurumlarla əlaqələrin tarixi haqqında bəzi məlumatları əldə etmək olur. 20 sentyabr 1994-cü il tarixli məktubda qeyd



olunur ki, BMT Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) respublikaya göndərdiyi notaya cavab verilməməsi nəticəsində Azərbaycanın bu təşkilata qəbul edilməsi gecikdirilir.

İkinci məktubda Azərbaycanın 1994-cü il aprelin 11-də BMT-nin Beynəlxalq Kənd Təsərrüfatı İnkişaf Fonduna (BKİF) üzv qəbul edilməsi haqqında məlumat verilir. BKİF prezidenti Fövzi əs-Sultan tərəfindən respublikanın xarici işlər naziri Həsən Həsənovun adına göndərilmiş məktubda Azərbaycanın bu təşkilata daxil olmaq üçün 31.12.93 tarixdə ərizə verməsi qeyd edilmişdir. BKİF-nin qeyri-ilkin üzvü kimi Azərbaycan Fondun üzvü olan ölkələrin üçüncü kateqoriyasına daxil edilmişdir.[1]

BKİF-ın yardım proqramları çərçivəsində ölkəyə gətirilən mallar arasında kənd təsərrüfatı məhsullarının toxumları da olur. Toxumların göndərilməsi çətinlik çəkən ölkələrdə kənd təsərrüfatı məhsullarının istehsalına məqsədli yardımları nəzərdə tutur. BKİF ərzaq istehsalının artırılmasına təsir göstərə biləcək layihələr üçün güzəştli şərtlərlə kredit ayırır. Təəssüf ki, Azərbaycan BKİF xətti ilə belə proqramların həyata keçirilməsi sahəsində əhəmiyyətli irəliləyiş əldə etməmişdir. Respublikada kənd təsərrüfatının inkişaf etdirilməsi məqsədi ilə təklif olunmuş yeganə layihə üzrə ÜB və BKİFtərəfindən kredit ayrılmasına razılıq əldə edilmişdir. vəsaitin ayrılması haqqında sənədlər 1996-cı ildə Vaşinqton və Romada keçirilmiş iclaslarda imzalanmışdır.

Azərbaycan BMT-nin daha üç ixtisaslaşmış qurumunun üzvüdür. 1992-ci ilin noyabrında respublika Beynəlxalq Mülki Aviasiya Təşkilatına daxil olmuş və həmin təşkilatın bir sıra tədbirlərində fəal iştirak etmişdir. BMAT-ın üzvü olduqdan sonra aviatorlarımız hələ 1994-cü ilə kimi 7300 beynəlxalq reys yerinə yetirmiş, o cümlədən 280 300 sərnişin, 360,47 ton yük, 7 tonadək poçt daşımışlar.

1996-cı ilin 21 fevralında BMTİP, BMAT və "Azal" Dövlət Konserni "Mülki aviasiyanın inkişaf etdirilməsi haqqında" layihə sənədi imzalamışlar. Həmin sənəddə "Azal" Dövlət

[1] "Azərbaycan" qəzeti, 1994, 11 iyun

Konsernina texniki və məsləhət xidmətlərinin göstərilməsi, habelə Bakı Beynəlxalq hava limanında sərnişinlərə və yüklərə xidmətin səmərəliliyini və keyfiyyətini yüksəltmək üçün avadanlıq alınması, "Azal"a işçilərin təlim keçməsində də kömək ediləcəyi nəzərdə tutulurdu.

1993-cü ilin sentyabrında Azərbaycan nümayəndə heyətinin Cenevrəyə İntellektual Mülkiyyətin Ümumdünya Təşkilatına işgüzar səfəri olmuşdur. Həmin səfər zamanı respublikamızda dünya standartlarına uyğun patent-lisenziya işinin təşkil edilməsi məsələsi İMÜT-ün Baş katibi və onun ekspertləri ilə müzakirə edilmişdir. Eyni zamanda, Azərbaycan Respublikası tərəfindən sənaye mülkiyyəti üzrə beynəlxalq saziş və müqavilələrin imzalamağın məqsədəuyğunluğu da hərtərəfli təhlil olunmuşdur. İMÜT-la əməkdaşlıq xarici texnologiya və investisiyaları respublikamızda yerləşdirmək işində müsbət rol oynayır, əmtəə nişanlarının beynəlxalq qeydiyyatı üzrə Madrid sazişinə qoşulmaq isə respublikamızın büdcəsinə ildə xeyli gəlir gətirirdi.

Azərbaycan Ümumdünya Meteorologiya təşkilatının keçirdiyi müxtəlif proqram və tədbirlərdə yaxından iştirak edir. ÜMT xətti ilə informasiya mübadiləsi, texniki təchizat, kadr hazırlığı və s. məsələlər həyata keçirilir. ÜMT-nin hazırladığı "Çərçivə" konvensiyasının əsas məqsədi atmosferə atılan "parnik" qazlarının miqdarını tənzimləmək, onların konsentrasiyasını müəyyən çərçivə daxilində saxlamaqdır. Bu konvensiyaya qoşulan ölkələrin ərazilərindən atmosferə atılan qazlar haqqında müfəssəl məlumatlar beynəlxalq mərkəzlərə göndərilir. Bu mərkəzlər inkişaf etməkdə olan ölkələrə sənaye potensialını artırmaqda yardımlar edir, yeni texnologiyaların istifadə edilməsinə şərait yaradırlar. Müstəqil respublikamızın sənaye müəssisələrində yeni texnologiyaların mənimsənilməsində belə əməkdaşlığın böyük əhəmiyyəti ola bilər.

BMT-nin ixtisaslaşmış qurumları ilə siyasi və iqtisadi sahədə əməkdaşlığa aid materialların təhlilini aşağıdakı kimi ümumiləşdirmək olar:

İxtisaslaşmış qurumların fəaliyyəti siyasi məsələləri bilavasitə əhatə etmədiyindən, onlarla bu istiqamətdə əməkdaşlıq məhdud xarakter daşıyır. Təhlil göstərir ki, Azərbaycan BMT-



nin ixtisaslaşmış qurumları ilə siyasi sahədə əməkdaşlığın bəzi cəhətlərinə ilk dövrlərdə lazımi səviyyədə yanaşmamışdır. Ölkənin cəlb olunduğu regional münaqişənin nəticələrindən irəli gələn iqtisadi, sosial, mədəni problemlərin müvafiq qurumlarda müzakirə səviyyəsinə çıxarılması vacib olduğu halda, bu istiqamətdə işlər unudulmuşdur.

Sumqayıt şəhərində azad iqtisadi zona yaradılması proqramının YUNIDO ixtisaslaşmış qurumu ilə əlaqələr zəminində reallaşdırılması, bu məsləyə BMT-nin digər orqanlarının cəlb edilməsi Azərbaycanla dünya birliyi təşkilatı arasındakı əməkdaşlığının böyük uğuru kimi qiymətləndirilməlidir. Proqramın yerinə yetirilməsinin yüksək sürətlə davam etdirilməsi məqsədilə BMT-nın BƏT, YUNESKO, BMAT, ÜST, ÜPİ kimi ixtisaslaşmış qurumlarının işə cəlb olunması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirilməlidir.

Azərbaycanın kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən ixtisaslaşmış qurumlarla əlaqələri zəif olub, dinamikasına görə ətalət üzrə inkişaf edən sistem təsirini bağışlayır. İstər FAO, istərsə də BKİF ixtisaslaşmış qurumları ilə əməkdaşlıq çərçivəsində həyata keçiriləcək real proqramlar hazırlanmaqdadır.

## §4. Sosial sahədə əməkdaşlıq

Keçid dövründə Azərbaycanda iqtisadiyyatda olduğu kimi digər sahələrdə də yeni-yeni problemlər meydana çıxmışdır. Bu vəziyyət özünü sosial sahədə daha kəskin şəkildə göstərmişdir. Mövcud iqtisadi əlaqələrin qırılması əhalinin məşğulluq sferasında ciddi dəyişikliklər yaratmışdır. Keçmiş ittifaqın vahid siyasi məkanına hesablanmış bir çox istehsal müəssisələrinin fəaliyyəti tədricən dayanmış, əlaqələrin pozulması səhiyyə, təhsil, mədəniyyət sahələrinə də əsaslı təsir göstərmişdir. İqtisadi tənəzzül yaşayış yerlərindəki vəziyyətin və məişət şəraitinin pisləşməsinə səbəb olmuşdu.

Azərbaycanda sosial sferada dəyişiklik yaradan əsas səbəblərdən biri də respublika ərazisində regional münaqişə ocağının genişlənməsidir.

Əmək və məşğulluq şəraiti sosial problemlərin həllində aparıcı mövqedə durur. BMT-nin BƏT ixtisaslaşmış qurumu bilavasitə əmək problemləri sahəsində fəaliyyət göstərir. Azərbaycan bu quruma 19.05.92 tarixdə qəbul edilmişdir.

Təhlil göstərir ki, Azərbaycanın BƏT-lə əməkdaşlığı qanun yaradıcılığı və tövsiyələrin qəbul edilməsi sahəsində daha güclüdür. Lakin işin texniki istmiqamətdə əməkdaşlıq sahəsinə keçirilməsi zəruridir. Məlumdur ki, BƏT öz fəaliyyətini iqtisadi sahədə iş görən ixtisaslaşmış qurumlarla əlaqələndirir. Məsələn, Azərbaycanda Sumqayıt layihəsinin həyata keçirilməsində aparıcı rol oynayan YUNİDO ixtisaslaşmış qurumu əmək və məşğulluq sahəsinə bilavasitə təsir göstərir. Beynəlxalq Əmək Təşkilatının texniki yardım çərçivəsində üzv ölkələrə göndərdiyi ekspertlər işçi qüvvəsinin hazırlanması, sosial təminat, kollektiv müqavilələr və s. istiqamətlərdə problemlərin həlli üçün yeni metod və yolları müəyyənləşdirməkdə yardım göstərirlər. BMT mütəxəssislərinin fikrincə, əmək problemləri üzrə fəaliyyət göstərən bir ekspertin işi bu və ya digər ölkədəki əməkçilərin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün bir neçə yüz milyon dollarlıq borcun alınmasından daha böyük fayda verə bilər.[1] Ölkəyə texniki yardımın göstərilməsi, onun iqtısadiyyatında mühüm rol oynaya biləcək proqramların ixtisaslaşmış qurumlar tərəfindən qəbul edilməsi və həyata keçirilməsi məsələlərində ekspertlərin rəyi əsas sayılır. Azərbaycanla BMT ixtisaslaşmış qurumları arasındakı əməkdaşlıqda bu cəhət həmişə diqqət mərkəzindədir.

BƏT ekspertlərinin Azərbaycana ilk gəlişi 1993-cü ilin əvvəllərinə təsadüf edir. BƏT-in Əməyin Statistikası Departamentinin direktoru F.Mehranın başçılıq etdiyi ekspertlər qrupu milli uçot və statistika sisteminin təkmilləşdirilməsində, onun beynəlxalq norma və standartlara uyğunlaşdırılmasında respublika ilə əməkdaşlıq məsələlərini müzakirə etmişlər. Lakin nəzərə almaq lazımdır ki, konkret proqram və layihələr üzrə əməkdaşlıq sosial problemlərin aradan qaldırılmasında

[1] Специализированные учреждения ООН в современном мире. М., 1967, с.143



daha səmərəli vasitədir. Azərbaycan ixtisaslaşmış qurumlarla əlaqələrində bu istiqaməti ön plana çəkməlidir.

1993-cü ilin iyun ayında BƏT-in Cenevrədə keçirilən hesabat konfransında Azərbaycan nümayəndələrinin iştirakı ixtisaslaşmış qurumun ərazisində müharibə gedən ölkələrə texniki yardım proqramına respublikanın daxil edilməsinə səbəb oldu. Bu texniki yardım kompüter sistemi, məşğulluq və sosial təminat strukturlarını, habelə mütəxəssislərin öyrədilməsinin təşkilini əhatə edirdi.

Azərbaycanda işsizlik hazırda ön plana çıxmış sosial problemlərdən biridir. İşsizliyin artım sürəti Qarabağ münaqişəsinin həllindən, fəaliyyətdə olan müəssisələrin işinin davam etməsindən, onların özəlləşdirilməsi və yenidən qurulmasından, yeni iş yerləirinin açılmasından, müxtəlif layihələrin həyata keçirilməsindjən və s. asılıdır. İşsizlik probleminin həllində BƏT-in məşğulluq mərkəzi yaratmaq təcrübəsi, əmək birjasının yaradılması və s. bu sahədə müəyyən irəliləyişə səbəb olacaqdır.

Azərbaycanda əmək və məşğulluq sahəsində çoxplanlı fəaliyyət iqtisadi artım sürətinin yüksəldilməsini, əmək şəraitinin yaxşılaşdırılmasını, əhalinin bütün təbəqələrinin baza sosial xidmətlərlə təmin olunmasını əhatə etməli və bütün məsələlərin həllində BMT ixtisaslaşmış qurumları ilə əməkdaşlığın gücləndirilməsinə xüsusi əhəmiyyət verilməlidir.

Azərbaycanla BMT ixtisaslaşmış qurumları arasında əlaqələrin tədricən yeni keyfiyyət səviyyəsinə keçməsi əmək və məşğulluq sahəsində yaxın gələcəkdə ciddi dəyişikliklərin baş verəcəyinə imkan yaradır.

Azərbaycanın BMT-yə daxil olduğu 1992-ci ildə respublikanın Ümumdünya Səhiyyə Təşkilatı ilə əlaqələri olduqca zəif olmuşdur. 1993-cü ilin 18-20 martında Azərbaycan nümayəndə heyəti ÜST-in Danimarkada keçirilən və vaksinlərlə təminat probleminə həsr olunmuş müşavirəsində iştirak etmiş, müşavirədə difteriya və paliomelitə qarşı nəzərdə tutulmuş vaksinlərin göndərilməsi sahəsində əməkdaşlığın təşkili məsələləri müzakirə olunmuşdur.

ÜST-nin ümumi proqramı çərçivəsində həyata keçirilən "Ana və uşaqların sağlamlağının mühafizəsi və ailənin planlaşdırılması" proqramı səhiyyə sahəsində bir sıra məsələlərin həllində üzv-dövlətlərə yardımı əhatə edir. 1996-2000-ci illər üçün nəzərdə tutulmuş bu proqram əsasında ana və uşaqların sağlamlığının mühafizəsi, ailənin planlaşdırılması və digər məsələlər həyata keçiriləcəkdir.

Azərbaycanda ana və uşaqların sağlamlığının mühafizəsi və ailənin planlaşdırılması sahəsində işlər ÜST ixtisaslaşdırılmış qurumu, YUNİSEF və BMTİP arasında qarşılıqlı əməkdaşlıq şəraitində aparılır.

ÜST-nin müxtəlif ölkələrdə apardığı çoxillik iş təcrübəsinə və texniki yardımlarına əsaslanaraq respublikada xəstəliyin qarşısını almaq, xroniki xəstəliklərin kəskinləşməsinə qarşı tədbirlər görmək, ətraf mühiti sağlamlaşdırmaq istiqamətində fəaliyyətini tədricən gücləndirilir.

BMT-nin ÜST ixtisaslaşmış qurumu, YUNİSEF və Azərbaycan Səhiyyə Nazirliyinin işi əlaqələndirməsi nəticəsində 1995-1996-cı illərdə respublikada həyata keçirilmiş immunlaşdırma kompaniyası müvəffəqiyyətlə başa çatmışdır. 1995-ci ildə aparılmış immunlaşma difteriya xəstəliyi ilə yoluxmanın beş dəfə azalmasına səbəb olmuşdur. 1996-cı ildə YUNİSEF xətti ilə respublikaya Fransa, İsveçrə, İtaliya, Hindistan və Macarıstandan peyvənd materialları gətirilərək bütün bölgələr üzrə iki yaşından qırx yaşınadək əhali arasında immunlaşdırma işləri aparılmışdır.

ÜST ixtisaslaşmış qurumunun həyata keçirdiyi çoxsaylı proqramlardan biri də "Sağlam şəhərlər" hərəkatıdır. Bu layihənin reallaşdırılmasına ÜST-nin Avropa regional bürosu 1986-cı ildən başlamışdır. İlkin mərhələdə 11, sonra 35, nəhayət 375 şəhər bu hərəkata qoşulmuşdur. ÜST ilə əlaqələrin möhkəmlənməsi Bakı şəhərinin də layihəyə qoşulmasını təmin etmişdir. Bakıda həmin layihə üzrə konkret tədbirlər proqramının həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Ümumdünya Səhiyyə Təşkilatı üzv-ölkələrlə əməkdaşlıq prosesində tibb sahəsindəki kadrların ixtisas səviyyəsinin artırılması istiqamətində də işlər görür. Azərbaycanda bu sahədə fəaliyyət 1994-cü ilin axırlarında başlanmışdır.[1] Səhiyyə və sağlamlıqla bağlı əməkdaşlıq BMT-nin digər ixtisaslaşmış qurumlarına da aiddir. Lakin həmin qurumların fəaliyyətinin bu cəhəti başqa sahədəki işlərinin spesifikasından irəli gəlir. Məsələn, BVF və ÜB Bakı və Abşeronun su təchizatı sisteminin yenidən qurulmasında, YUNİDO Sumqayıtda azad iqtisadi zona yaradılmasında, BƏT əmək şəraiti və məşğulluq problemlərinin həllində, YUNESKO mədəniyyət, təhsil sistemində dəyişikliklərin həyata keçirilməsində iştirak etməklə bu və ya digər dərəcədə səhiyyə sahəsinə yardım göstərmiş olur. Səhiyyə problemlərinin həllində ÜST-nin ən çox əməkdaşlıq etdiyi təşkilat YUNİSEF-dir.

BMT-nin ixtisaslaşmış qurumları ilə sosial sahədə əməkdaşlıq məsələlərini aşağıdakı kimi ümumiləşdirə bilərik:

Müasir dövrün əsas problemlərindən biri olan məşğulluğun yaxın gələcəkdə Azərbaycan üçün başlıca çətinliklərdən birinə çevrilməsi real təhlükədir. Məşğulluq problemi sahəsində fəaliyyət göstərən BƏT ixtisaslaşmış qurumu ilə əlaqələr müvafiq qanunvericilik aktlarının qəbulu və respublikanın bu təşkilatın konvensiyalarına qoşulması sahəsində uğurla həll olunmuşdur. Respublikada əlaqələrin bu istiqamətinə fikir verilmiş, BƏT-lə işsizliyin aradan qaldırılması sahəsində əməkdaşlıq məsələlərinə isə diqqət yetirilməmişdir.

Azərbaycanın BMT-nin ÜST ixtisaslaşmış qurumu və YUNİSEF təşkilatı ilə əməkdaşlığı respublikada immunlaşdırmanın yüksək səviyyədə keçirilməsinə, respublika tibb işçilərinin bu sahədəki təcrübəsinin artmasına, bir sıra yoluxucu xəstəliklərlə xəstələnmə hallarının, uşaq ölümünün sayının azalmasına səbəb olmuşdur. ÜST və YUNİSEF-lə əməkdaşlıq respublika alimlərinin təbabətin müxtəlif sferalarına aid beynəlxalq elmi konfrans, simpozium və seminarlarda iştirakına şərait yaratmış, belə toplantıların Azərbaycanda təşkil olunmasını ənənə halına salmış, elmi biliklərin mübadiləsi üçün geniş imkanlar açmışdır.

[1] Bax: Dünyada SPİD xəstəliyinə tutulanların sayı 60% artmışdır// "Azərbaycan" qəzeti, 1998, 8 iyul

## §5. Təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlıq

Məlum olduğu kimi, Azərbaycanın təhsil sisteminin keçmiş ittifaq daxilindəki səviyyəsi yüksək göstəricilərə malik olmuşdur. Mövcud təhsil şəbəkəsi ölkənin bütün regionlarını tam əhatə etmiş, orta təhsil almaq üçün hamıya bərabər imkanlar yaradılmış, respublikada savadsızlıq ləğv edilmişdi. Bununla yanaşı, Azərbaycanda orta ixtisas, texniki peşə və ali təhsil sistemi geniş imkanları ilə fərqlənmişdir. Respublikanın ali təhsil sistemində ixtisaslaşma aparılmış, müxtəlif sahələrdə, o cümlədən, neft sahəsində yüksək səviyyəli mütəxəssislərin hazırlanmasına diqqəi artırılmışdır. Azərbaycanın müstəqillik qazandığı və BMT-yə daxil olduğu dövrdə respublikanın 17 ali məktəbində 60 minə yaxın tələbənin təhsil alırdı.

İnsan kapitalının inkişafı üçün savad dərəcəsinin əsas meyarlardan biri kimi qəbul edilməsinə baxmayaraq, həyat səviyyəsinə və məşğulluğa ixtisaslaşma tələblərinin təsiri ayrıca öyrənilir. Bazar iqtisadiyyatı şəraitində ali təhsil müəssisələrində verilən savada müəyyən tələblər qoyulur. Bu, hər şeydən əvvəl, müəyyən sahə üzrə hazırlanmış mütəxəssisin daha universal keyfiyyətlərə malik olması tələbi ilə bağlıdır.

Ali təhsil məktəblərini bitirənlərin əvvəlki dövrlərdə dərhal işlə təmin olunması, onların bəzi imtiyazlar qazanması bu sahədə artım sürətini saxlamağa imkan yaratmışdı. Lakin cəmiyyətin iqtisadi strukturunda gedən dəyişikliklər təhsil sahəsinə təsir göstərməyə başladı. “1993-cü ildə ali təhsil almış vətəndaşların ümumi sayı 18800 nəfər olmuşdur. Onların 7400 nəfəri (ümumi sayın 39,3%-i) texniki yönümlü ali məktəbləri bitirmiş, 11,2%-i nəqliyyat, kommunikasiya və kənd təsərrüfatı üzrə mütəxəssislər olmuşlar. Tibb sahəsi üzrə mütəxsssislər ümumi sayın 10,2%-ni, müəllimlər 32,4%-ni, iqtisadiyyat və hüquq sahəsinin mütəxəssisləri 4,3%-ni, incəsənət və kinematoqrafiya işçiləri ümumi sayın 2,6%-ni təşkil edirdi. 1994-cü ildə cəmi 16098 vətəndaş ali təhsil almışdır”.[1] Göründüyü kimi, 1994-cü ildə əvvəlkinə nisbətən 1702 nəfər

[1] Azərbaycan Respublikasında insan inkişafı haqqında hesabat. Bakı, 1995, s.16



az adam ali təhsil almışdır. Bu, ümumi sayın təqribən 10%-ə qədər azalmasını göstərir. Ali təhsilli vətəndaşların hər 1000 nəfər üçün 105 olmasını nəzərə alsaq, ali təhsil sisteminə meylin aşağı düşməsinin tezliklə bu göstəriciyə təsir edəcəyini aydın görərik. Lakin 1995-1996-cı illərdə özəl sektorunun sürətli inkişafı gələcəkdə ali təhsilli vətəndaşların sayının artacağını proqnozlaşdırmağa imkan verir.

Azərbaycanda təhsil sistemində islahatların aparılması hazırda vacib şərt kimi özünü göstərir, təhsil sistemində islahatların aparılmasında YUNESKO-nun təcrübə və köməyinə arxalanmaq müəyyən uğurların qazanılmasına zəmin yarada bilər.

Azərbaycan BMT-nin ixtisaslaşmış qurumu olan YUNESKO-ya 1992-ci ilin iyun ayında qəbul olunmuşdur.[1] Xalqların təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığını genişləndirmək yolu ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə xidmət göstərən bu təşkilatlarla Azərbaycanın əlaqələri öz tarixinə görə respublikanın BMT-yə daxil olduğu dövrdən əvvəlki illərə təsadüf edir. Suveren Azərbaycanın YUNESKO ilə əlaqələrinin genişləndirilməsi isə 1993-cü ilin ikinci yarısından başlamışdır. 1993-cü il noyabr ayının 3-də Azərbaycan Respublikasının Xarici İşlər Naziri H.Həsənov YUNESKO-nun Parisdə keçirilən Baş Konfransının 27-ci sessiyasında çıxış edərək təşkilatla əlaqələrin əsas istiqamətlərindən danışmışdır. Məlum olduğu kimi, Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsi respublikanın təhsil, elm və mədəniyyət sisteminə ağır yaralar vurmuşdur. Təhsil ocaqları, elmi laboratoriyalar, mədəniyyət abidələri (2000-dən çox sosial-mədəni xarakterli obyekt) müharibə dövründə dağıdılmış, məcburi köçkün şəraitinə düşmüş minlərlə uşaq təhsil sistemindən kənarda qalmışdır. YUNESKO Baş Konfransının 27-ci sessiyasında H.Həsənov Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Şuşa şəhərinin dağıdılması məsələsi üzərində xüsusi dayanmış, Azərbaycan mədəniyyəti və sivilizasiyasının mərkəzinin sala-

[1] Bax: Azərbaycan YUNESKO-nun üzvüdür //"Azərbaycan"qəzeti. 1992, 10 iyun

mat qalmasına nəzarət etmək üçün təcili olaraq YUNESKO-nun missiyasının göndərilməsini xahiş etmişdir.

Hazırda YUNESKO Azərbaycanda təhsil islahatlarının keçirilməsində iştirak etməklə yanaşı, təhsil, elm və mədəniyyətlə bağlı bir sıra digər proqramlar üzrə də respublikamızla əməkdaşlığa başlamışdır. "Xəzər dənizinə dair regionlararası layihə"nin işlənib hazırlanması bu təşkilatın proqramına daxil edilmişdir. Beynəlxalq hidroloji proqram YUNESKO tərəfindən hələ 1975-ci ildə hazırlanmışdı. Bu proqram çərçivəsində mütəxəssislər üçün beynəlxalq hidrologiya kurslarının təşkili işi davam etdirilməkdədir.

YUNESKO-nun fəaliyyət dairəsində əsas yerlərdən birini informasiya proqramı tutur. 1993-cü ilin noyabrında Hindistanın Bombey şəhərində YUNESKO-nun informasiya proqramı çərçivəsində keçirilmiş, Cənubi, Mərkəzi, cənub-Şərqi Asiya və Sakit okean ölkələri üzrə regional informasiya şəbəkəsi yaradılması problemlərinə həsr olunmuş müşavirədə Azərbaycanın bu şəbəkəyə qoşulması və peyk rabitəsi ilə təmin olunması barədə qərar qəbul edildi. Həmin qərarın həyata keçirilməsi prosesində Azərbaycanın BMT-nin başqa bir ixtisaslaşmış qurumu olan Beynəlxalq Telekommunikasiya İttifaqı ilə əməkdaşlığı üçün real zəmin yarandı.

1994-cü ilin iyununda Budapeştdə YUNESKO-nun Avropa regionu komitəsinin VII sessiyasında Azərbaycan bu komitəyə üzv seçildi. Məlumdur ki, Avropa regionu üçün akademik tanınma məsələsi bu komitə tərəfindən həll olunur. Akademik tanınma tədris kurslarının, ali təhsil haqqında diplomların, elmi ad və dərəcələrin beynəlxalq səviyyədə qəbul olunmasını əhatə edir. Azərbaycanın akademik tanınma konvensiyasına qəbul olunmasına üzv-ölkələr tərəfdar çıxdılar. Beləliklə, 1994-cü ilin iyunun 18-də Azərbaycan YUNESKO-nun Avropa regionu komitəsinə daxil olan ölkələr tərəfindən irəli sürülən akademik tanınma konvensiyasına qəbul edildi. Bu, Azərbaycanın beynəlxalq aləmdə təhsil və elm sahəsində qazandığı böyük uğurlardan biridir. Respublikada verilən diplomlar tanınmaqla yanaşı, komitə üzv ölkələrə təhsil və elmin inkişaf etdirilməsi məqsədilə yardımlar da göstərir.



Azərbaycanla YUNESKO arasındakı əlaqələrin möhkəmlənməsində Respublika Prezidenti H.Əliyevlə bu ixtisaslaşmış qurumun Baş direktoru Federiko Mayorun görüşləri müstəsna əhəmiyyət kəsb edir. Bu görüşlərin hər birində Azərbaycanın təhsil, elm və mədəniyyət məsələləri müzakirə edilmişdir. Təsadüfi deyil ki, YUNESKO-nun baş direktoru Azərbaycan prezidenti ilə Bakıdakı görüşündə demişdir: "Bu bizim dördüncü görüşümüzdür. Sizinlə YUNESKO-nun qərargahındakı ilk görüşümüz və o zaman "sülhü möhkəmlətmək bizim hər ikimizin ümdə vəzifəmizdir" deməyiniz heç vaxt yadımdan çıxmayacaqdır. Görüşlərimizin birində isə demişdiniz ki, YUNESKO Parisdə deyil, məktəblərdə, tədqiqat mərkəzlərində, gözəl yazıçıların kitablarındadır. Çox şadam ki, Sizin yaratdığınız milli komitə vasitəsilə biz işimizi adı çəkilən yerlərdə görə bilirik".[1]

1996-cı ildə YUNESKO-nun baş qərargahında dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyinə həsr olunmuş mərasimin keçirilməsi, həmin tədbirdə F.Mayorun şəxsi iştirakı, nəhayət baş direktorun yubiley şənliklərində Bakıya gəlişi əlamətdar hadisə sayılmalı, Azərbaycanla YUNESKO arasında əməkdaşlığın yüksək səviyyədə qurulmasını təsdiq edən fakt kimi qiymətləndirilməlidir.

1994-cü il noyabr ayının 18-də Azərbaycan prezidenti H.Əliyev və YUNESKO-nun baş direktoru F.Mayor Azərbaycan Respublikası ilə YUNESKO arasında əməkdaşlıq haqqında memorandum imzaladılar. Həmin memoranduma əsasən respublikamıza təhsil, mədəniyyət və digər sahələrdə yardım göstərilməsi nəzərdə tutulur. Rəsmi sənəd Azərbaycanın mədəniyyət abidələrinin mühafizəsi və bərpası sahəsində əməkdaşlığı da nəzərdə tuturdu.

Təhlil göstərir ki, "Mədəni sərvətlərin qanunsuz olaraq ölkədən aparılması, gətirilməsi və onların barəsində mülkiyyət hüququnun başqasına verilməsini qadağan etmək yolları" haqqında beynəlxalq konvensiyanın müddəalarını əsas götürməklə Azərbaycanın işğal olunmuş ərazilərindəki maddi-mədəniyyət abidələrinin qaytarılması, mühafizəsi və bərpası

[1] "Azərbaycan" qəzeti, 1996, 9 noyabr

istiqamətində YUNESKO ilə əməkdaşlığı müsbət nəticələr verə bilər.

BMT-nin ixtisaslaşmış qurumları ilə elmi sahələrdə əməkdaşlıq özünü əsasən elmi konfranslarda, simpoziumlarda, seminarlarda iştirak etməkdə göstərir. Azərbaycan alimləri müxtəlif məsələlərə həsr olunmuş konfrans və seminarlarda çıxış etməklə yanaşı, qlobal problemlərlə bağlı beynəlxalq məclislərdə də öz sözlərini deyirlər. Bir sıra elmi toplantıların Bakıda keçirilməsi isə Azərbaycan elminin nailiyyəti hesab edilməlidir. Qeyd etmək lazımdır ki, YUNESKO dünya şöhrətli alimlərin elmi irsinin öyrənilməsinə və təbliğinə də xüsusi diqqət verir. Görkəmli Azərbaycan alimi, akademik Azad Mirzəcanzadənin elmi-pedaqoji irsi haqqında YUNESKO xətti ilə konfrans keçirilməsi qərarı hələ 1992-ci ildə qəbul edilmişdi. Bu cür konfransların keçirilməsi istər Azərbaycan alimlərinin dünyada tanınmasında, istərsə də respublikada elmin inkişafında böyük əhəmiyyət kəsb edir.

BMT və onun ixtisaslaşmış qurumları ilə mədəni əlaqələr çərçivəsində sərgilərin, baxış müsabiqələrin, foto sərgilərin təşkil edilməsi səmərəli nəticələr verir. Görkəmli Azərbaycan rəssamı S.Bəhlulzadənin əsərlərindən ibarət sərginin BMT-nin Nyu-Yorkdakı iqamətgahında nümayiş etdirilməsi respublikanın təsviri incəsənət sahəsində qazandığı uğurların beynəlxalq səviyyədə təsdiqi kimi qiymətləndirilməlidir. BMT baş katibinin həmin sərginin açılışında iştirakı Azərbaycan mədəniyyətinə göstərilən böyük diqqətdir.

### §6. Humanitar sahədə əməkdaşlıq

Siyasətşünaslıqda beynəlxalq təşkilatlarla, o cümlədən ixtisaslaşmış qurumlarla humanitar sahədə əməkdaşlığın səbəblərini əsasən təbiətdə və cəmiyyətdə baş verən irimiqyaslı böhran hadisələri ilə bağlayırlar. Təbii və texnogen fəlakətlər, müharibələr, demoqrafik "partlayış"lar, yoluxucu xəstəliklərin yayılması və s. belə hadisələrə aid edilə bilər.[1] Bu

[1] Баку: Политология: Энциклопедический словарь.М.,1993,с.358



cür hadisələrin miqyasını təyin etməkdə müəyyən şərtilik vardır. Politoloji təhlil əsasında belə qənaətə gəlmək olur ki, bu məsələdə əsas kriteriya baş vermiş hadisənin beynəlxalq siyasi prosesə təsir dərəcəsidir. Ermənistanın monomillətçilik, ərazi iddiaları siyasətinin və geosiyasi səbəblərin nəticəsi olan regional münaqişə Azərbaycanda qaçqınlar və məcburi köçkünlər problemini yaratmışdır. Münaqişənin əhatə dairəsi, onun müxtəlif şəkillərdə həllinə marağı olan dövlətlər, respublikanın strateji əhəmiyyəti, qaçqın və köçkünlərin sayca çoxluğu bu hadisənin beynəlxalq siyasi proseslərə təsir dərəcəsinin böyüklüyünü göstərir. Buna görə də, beynəlxalq təşkilatlar Azərbaycanla humanitar sahədə əməkdaşlığa xüsusi diqqət yetirirlər.

Qaçqınlar problemi beynəlxalq münasibətlər müstəvisində yerləşir və onun bir çox cəhətləri beynəlxalq hüquq normalarına əsasən həll olunmalıdır. Problemin beynəlxalq münasibətlərə aidliyini sübut edən başlıca amil bir dövlətin vətəndaşının başqa bir dövlətin ərazisində sığınacaq axtarması, öz hüquqlarını tələb etməsi faktında üzə çıxır. Vətəndaşlıq və ərazi kriteriyaları qaçqınlar problemi üzrə beynəlxalq münasibətlərin iki əsas beynəlxalq hüquq subyektini təyin edir. bu subyektlərdən birincisi, qaçqının ərazisini tərk etdiyi, ikincisi qaçqının məskunlaşdığı dövlətdir. Bununla yanaşı, qaçqınlar probleminin həllinə bilavasitə qoşula biləcək başqa beynəlxalq hüquq subyektlərini də aşkara çıxarmaq mümkündür. Məsələn, Ermənistan ərazisindən qovulmuş rus millətinə mənsub vətəndaşın Azərbaycanda sığınacaq tapması bu məsələ ilə bağlı beynəlxalq münasibətlərin üçüncü tərəfində Rusiyanın durmasını reallaşdırır.

Politoloji təhlil qaçqınlar probleminin aşağıdakı məsələlərini ayırmaq zəminində öyrənməyin məqsədəuyğunluğunu aşkara çıxarır: qaçqınlığı meydana çıxaran səbəblərin müəyyənləşdirilməsi, qruplaşdırılması və təsnifatı; qaçqınlıq səbəblərini doğuran şəraitin göstəricilərini təyin etmək; qaçqınlıq doğura biləcək şəraiti proqnozlaşdırmaq; qaçqınlıq, məcburi köçkünlük, yaşayış yeri dəyişdirilmiş şəxslər və miqrasiyanın digər formalarına məruz qalanlar

arasında oxşar və fərqli cəhətlər; bir formadan digərinə keçid məsələləri; qaçqınlar probleminin beynəlxalq münasibətlərə təsiri; qaçqınlar problemi və daxili siyasət; qaçqınlar problemi və insan hüquqlarının müdafiəsi; qaçqınlara sığınacaq verilməsi problemi; qaçqınların diskriminasiyasına qarşı mübarizə; repatriasiya məsələləri və s.

BMT-nin miqrasiyanın çox vacib istiqamətlərindən biri olan qaçqın və köçkünlər problemi ilə bağlı Azərbaycandakı fəaliyyətinin iki istiqamətini fərqləndirmək lazımdır. Birinci istiqamət birbaşa humanitar yardımların göstərilməsini, ikinci istiqamət isə humanitar yardımların qaçqın və köçkünlərin sosial problemlərini tədricən tam aradan qaldırmağa yönəldilməsini əhatə edir.

Azərbaycandakı miqrasiya probleminin yeni xüsusiyyətlər kəsb etməsi müxtəlif səviyyələrdə qeyd olunmuşdur. Respublika prezidenti H.Əliyevin qeyd etdiyi kimi, «Dünyanın hər bir regionunda qaçqınların, məcburi köçkünlərin özünəməxsus xüsusiyyətləri var. Bunun həm səbəbləri, həm də qaçqınların düşdüyü vəziyyətlər müxtəlifdir və bəzən bir-birindən çox fərqlənir. Ancaq biz belə hesab edirik ki, Azərbaycan Respublikası ərazisində olan qaçqınların, məcburi köçkünlərin vəziyyəti ən ağırdır, ən çətindir, ən dözülməzdir. Respublika Prezidentinin qeyd etdiyi fərqləri, özünəməxsus cəhətləri təyin etmək miqrasiya probleminin Azərbaycanda təzahürünün əsas elementlərini aşkara çıxarmaq mahiyyəti daşıyır. Bu cəhətlərin təyini BMT-nin ixtisaslaşmış qurumları ilə əməkdaşlığın qurulması istiqamətlərini aydınlaşdırmaq üçün əhəmiyyətlidir.

Qaçqın və məcburi köçkünlərin birinci və başlıca problemi sığınacaq problemidir. BMT-nin ixtisaslaşmış qurumlarının və digər təşkilatların köməyi ilə bu problemin həlli ilkin mərhələdə müvəqqəti sığınacaq yerləri hazırlanması və təchizatı ilə məhdudlaşır. Lakin məsələnin sonrakı yüksək səviyyədə həlli bir çox sosial problemlərin aradan qaldırılmasını nəzərdə tutur. Qaçqınların tərk etdikləri ölkəyə qayıtmaq istəməməsi onlar üçün yeni yaşayış məskənlərinin salınması tələblərini ortaya atır. Bu cəhətin qabaqcadan nəzərə alınması qaçqınların ilkin yerləşdirmə məskənlərinin düzgün seçilməsi ilə fərqlənir. Məsələn,



Ermənistanı tərk edib Azərbaycana pənah gətirmiş qaçqınların bir qisminin Abşeronun Altıağac-Xızı zonasında yerləşdirilməsi yeni yaşayış məskəninin düzgün müəyyənləşdirilməsi kimi qiymətləndirilməlidir. Qaçqınların bu ərazidə yerləşdirilməsi ilə yanaşı, həmin zonanın inkişaf etdirilməsi istiqamətində ardıcıl tədbirlər planı həyata keçirilmişdir. Məsələnin bu şəkildə həlli BMT ixtisaslaşmış qurumlarının yardım imkanlarından daha optimal istifadə olunmasına şərait yaradır.

Humanitar yardım göstərilməsi sahəsində BMT ixtisaslaşmış qurumlarının fəaliyyətinin zaman baxımından iki dövrə bölünməsi lazım gəlir. Denpartasiya nəticəsində boşalmız ərazilərin mühafizəsinə yardım və bərpa işlərinə hazırlıq perspektiv iş kimi səciyyələnirsə, qaçqın və köçkünlər üçün yeni yaşayış şəraitinin yaradılmasında iştirak birbaşa reaksiya verilməsini tələb edir. Bu, ən zəruri tələbatların ödənməsini nəzərdə tutur. Qaçqın və köçkünlər təkcə BMT ixtisaslaşmış qurumları xətti ilə deyil, daha çox BMT-nin digər orqanları vasitəsilə yardımlar alırlar. Yardımların alınması və bölüşdürülməsi yeni-yeni problemlər meydana çıxarır. Bizim fikrimizcə, bu problemlərin əsas səbəbi uçot və nəzarətin düzgün təşkil olunmamasında axtarılmalıdır. Dövlətin miqrasiya problemi ilə üzləşməsi çox vaxt qəfil baş verməklə yanaşı, daha ağır və vacib məsələlərdən doğur. Məsələn, Azərbaycanda məcburi köçkünlər problemi respublika ərazisində müharibə getməsi, torpaqların işğalı ilə bağlı olmuşdur. Bu məqamda ilkin məsələlərdən biri müdafiənin təşkili, yeni ərazilərin itirilməsinə yol verilməməsidir və əsas diqqət göstərilən istiqamətə yönəldilir. Qaçqın və köçkünlər probleminin birinci mərhələsi – dinc əhalinin təhlükəli zonalardan çıxarılması nəzarət altında getsə də, sonrakı mərhələ müdafiə tədbirləri ilə müqayisədə arxa plana keçir.

BMTQAKİ-nin fövqəladə vəziyyətlər üzrə apardığı tədqiqatların ümumiləşdirilməsi əsasında tərtib olunmuş məlumat kitabında qaçqınlar və köçkünlərlə işin planayüğun şəkildə təşkili hərtərəfli işıqlandırılmışdır.[1] Fövqəladə

[1] Баку: Справочник по чрезвычайным ситуациям. Женева, 1982

vəziyyətlərdə meydana çıxan miqrasiya probleminin düzgün əsaslar üzərində həlli üçün müvafiq xidmət sahələri olmadıqda BMT-nin bu cür işlər üzrə ekspertlərinin köməyinə arxalanmaq, humanitar yardımlara bel bağlamaqdan daha səmərəli nəticələr verə bilər.

ÜB beynəlxalq miqrasiya ilə bağlı problemin həllində iştirak edir. Qaçqınlarla əlaqədar ÜB yardımın əlaqələndirilməsi, iqtisadi və sektorial işlərin, siyasi dialoqların, fövqəladə reabilitasiyanın aparılması, müxtəlif borcların verilməsi, texniki yardımların göstərilməsi sahəsində fəaliyyətlə məşğul olur. Bankın göstərdiyi kömək BMTQAKİ-nin və digər təşkilatların işləri ilə əlapqələndirilir.

Azərbaycanda qaçqınlar problemi ilə bağlı beynəlxalq humanitar yardımın istifadə olunmasında BMT-nin BƏT, YUNESKO, ÜB və ÜST ixtisaslaşmış qurumlarının tövsiyələrinin əsas götürülməsi daha vacibdir. Respublikaya qaçqınlar problemi ilə bağlı BMT ixtisaslaşmış qurumlarının göstərdiyi yardımlar daha çox maddi səciyyə daşımışdır. Buna baxmayaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin bu sahədəki qərarlarında BMT ixtisaslaşmış qurumlarının tövsiyələri bir sıra hallarda nəzərə alınmış, Azərbaycan nümayəndələrinin müxtəlif beynəlxalq konfranslarda iştirakı prorbleminin həlli istiqamətində görülən işlərdə müəyyən ardıcıllığın əldə olunması üçün imkanlar yaratmışdır.

BMT-nin FAO, BKİF, ÜST, ÜB, YUNİDO, BVF ixtisaslaşmış qurumları qaçqın və köçkünlərə humanitar yardım göstərilməsi prosesində iştirak etmişlər. Qaçqın və köçkünlərin sosial problemlərinin tədricən aradan qaldırılması prosesində yuxarıdakı ixtisaslaşmış qurumlarla yanaşı, BƏT və YUNESKO-nun fəaliyyətini də qeyd etmək mümkündür.

BMT və onun ixtisaslaşmış qurumlarının qaçqınlar problemi ilə bağlı humanitar yardım işləri üzrə əməkdaşlığının bəzi cəhətlərinin təhlili prosesində Azərbaycana göstərilmiş yardımlara aid konkret məsələləri aşağıdakı yığcam şəkildə araşdırmağa çalışaq.

BMT çərçivəsində humanitar yardım onun Siyasi Məsələlər üzrə Departamentinin, Sülhü Saxlamaq Üzrə Əməliyyatlar Departamentinin və Humanitar Məsələlər Üzrə Departamentinin iştirakı ilə tədbirlərin planlaşdırılması və əlaqələndirilməsi yolu ilə həyata keçirilir. BMT-də humanitar yardım problemi ilə məşğul olan İdarələrarası Daimi Komitə yaradılmışdır. Komitə humanitar tədbirlərin əlaqələndirilməsi, planlaşdırılması ilə yanaşı, onların proqnozlaşdırılması, humanitar böhranların meydana çıxması hallarının müəyyənləşdirilməsi işlərini də həyata keçirir. Bu komitənin qərarı ilə keçmiş sovet respublikalarına kömək göstərilməsi nəzərdə tutulmuşdu. 1992-ci ilin yanvarında ABŞ-ın dövlət katibi Ceyms Beykərin təşəbbüsü əsasında Vaşinqtonda MDB ölkələrinə kömək göstərilməsi üzrə beynəlxalq əlaqələndirmə konfransı keçirildi. Həmin konfransın qərarı ilə onun ekspertləri martın 12-də Azərbaycana gəldilər. ÜST və digər ixtisaslaşmış qurumların nümayəndələrinin daxil olduğu bu nümayəndə heyəti respublikanın humanitar yardıma ehtiyacına aid məlumatlar toplamalı idi.

BMT xətti ilə humanitar yardım göstərilməsinin mexanizmini tədqiq edərkən üç əsas istiqaməti ayırmaq olur: 1) ölkə humanitar yardım üçün BMT-yə müraciət edir; 2) humanitar yardım BMT tərəfindən planlaşdırılır; 3) humanitar yardım şəraitinə BMT reaksiya verir. Sonuncu istiqamət daha çox fövqəladə hallara aiddir. Birinci və ikinci istiqamət üzrə humanitar yardımın göstərilməsi zamanı BMT ölkənin ehtiyacını qiymətləndirmək üçün müxtəlif məlumatlara istinad edir. həmin məlumatlar ya ölkə tərəfindən təqdim olunur, ya da onların toplanması üçün BMT-nin müvafiq orqanlarının nümayəndədəri ölkəyə gəlir. 1992-ci ilə əldə olan materialların təhlilindən belə nəticə çıxır ki, həmin dövr üçün Azərbaycana humanitar yardım ölkənin öz müraciətinə və məlumatlarına əsasən planlaşdırılır. 1992-ci ilin dekabrında BMT-nin Humanitar Məsələlər Departamentində 1993-cü ildə Azərbaycana humanitar yardım göstərilməsi məsələsi müzakirə olunarkən BMT-nin digər humanitar idarələri ilə məsləhətləşmələr nəticəsində Humanitar məsələlər Departamenti həm Azərbaycana, həm də Ermənistana 12 min dollarlıq yardım çağırışı ilə çıxış etmişdir. İki ölkənin hökumətindən yeni xahişlər alındıqd-

an sonra, tələbin idarələrarası qiymətləndirilməsi keçirilmiş və humanitar tələbin Ermənistan üçün 22,5 milyon dollar, Azərbaycan üçün isə 12,4 milyon dollar olması haqqında məlumat verilmişdir. Bu, donor ölkələrin Cenevrədə 10-11 iyun tarixində keçirilmiş yığıncağında müzakirə edilib təsdiq olunmuşdur.[1] Humanitar yardım kompaniyasını BMTQAKİ, YUNİSEF, ÜST və digər təşkilatların 01.07.93-cü il tarixdən 31.03.94-cü il tarixədək həyata keçirməsi nəzərdə tutulmuşdu.

Azərbaycanın rəsmi informasiya mənbələrində 1992-ci ildə respublikaya BMTQAKİ, YUNİSEF və ÜST xətti ilə humanitar yardım göstərilməsi haqqında məlumatlardan görünür ki, həmin dövrdə yardım mexanizmi yüksək səviyyədə qurulmamışdır.[2] Respublikada BMTQAKİ-nin nümayəndəliyi 1992-ci ilin dekabrında açılmışdır. 14 dekabr 1992-ci il tarixində BMTQAKİ-nin nümayəndəsi Maykl Alfrod Azərbaycan Respublikası Ali Sovetinin sədri ilə görüşündə respublikaya gətiriləcək 6 aylıq humanitar yardımın əsas cəhətlərini açıqlamış, onun miqdarının 2 milyon dollar təşkil edəcəyini bildirmişdi.[3] Bu yardımın ilk hissəsi respublikaya 22.12.92-ci il tarixdə gətirilmişdir.

1993-cü ilin axırlarında BMT-nin Humanitar Məsələlər üzrə Departamenti öz missiyasını iki dəfə Cənubi Qafqaza göndərmiş və bu regionda humanitar yardıma olan tələbləri öyrənmişdir. Cənubi Qafqaza humanitar yardım göstərilməsi işində regional prinsip əsas götürülərək 1994-cü ilin martında Azərbaycan, Gürcüstan və Ermənistana yeni missiya yola salınmış, onun topladığı materiallar əsasında 1,4 milyon adam üçün humanitar yardım strategiyası hazırlanmışdır. Ölkə daxilində yerini dəyişənlər və əhalinin ən köməksiz təbəqələri yardıma ehtiyacı olan şəxslər

[1] Boutros Boutros Ghali. Report on the work of the Orqanization from the Forty-eighth Session of the General Assambly. New York. UN, 1993., p.111

[2] Bax: MDB ölkələri və BMT //"Həyat" qəzeti. 1992, 29 fevral; BMT nümayəndəliyinin açılması haqqında saziş imzalanmışdır //"Həyat" qəzeti. 1992, 3 dekabr

[3] Bax: Bakıda BMT komissarlığının ofisi açılacaqdır //"Həyat" qəzeti. 1992, 5 dekabr; Ali Sovetdə qəbul //"Azərbaycan" qəzeti. 1992, 15 dekabr.



sırasına aid edilmişdir. Bu cür şəxslərin sayı Azərbaycan üçün 447 000 nəfər göstərilmişdir.[1] Azərbaycana humanitar yardım göstərilməsi ilə bağlı BMT Baş Məclisi ayrıca qərar da qəbul etmişdir (RES.48/114). "Azərbaycandakı qaçqınlara və köçkünlərə fövqəladə beynəlxalq yardım" qərarı ayrılıqda götürülmüş bir ölkə üçün qəbul edilməsinə görə diqqəti cəlb edir.

1993-cü il dekabrın 20-də BMT Baş Məclisinin iclasında qəbul olunmuş bu qərara 184 ölkənin nümayəndələri yekdilliklə səs vermişlər. Fövqəladə yardım göstərilməsinə dair qətnaməni Azərbaycan nümayəndə heyəti noyabrın 8-də irəli sürmüşdür. Həmin layihəyə Banqladeş, Belarus, Bosniya və Hersoqovina, Qazaxıstan, Qvineya-Bisau, Qırğızıstan, Efiopiya, Əfqanıstan, İordaniya, İran, Yəmən, Kosta-Rika, Kuba, Seneqal, Səudiyyə Ərəbistanı, Syerra-Leone, Tacikistan, Türkiyə və Ukrayna şərikli müəllif kimi qoşulmuşlar.

Qətnamədə Azərbaycana humanitar yardım göstərilməsi barədə bu vaxta qədər qəbul olunmuş proqramların həyata keçirilməsi istiqamətində iş apaılmasına baxmayaraq, bu ölkədə humanitar vəziyyətin pisləşməsi qeyd edilir. Sənəd bütün döbvlətləri, BMT-nin orqanlarını, ixtisaslaşmış qurumları və digər təşkilatları bu işdə əməli yardım göstərməyə çağırırdı.

BMT-nin Baş katibi Butros Qali 1994-cü il oktyabrında Azərbaycanda rəsmi səfərdə olarkən Respublika Prezidenti ilə danışıqlar zamanı demişdir: "Humanitar yardımla əlaqədar mən Sizi əmin etmək istəyirəm ki, BMT-nin Sizin regionda fəaliyyət göstərən Qaçqınlar Üzrə Ali Komissarlığı, Ali Ərzaq Proqramı, həmçinin BMT-nin ixtisaslaşmış təşkilatları olan YUNESKO, Dünya Bankı azərbaycanlı qaçqınlara bundan sonra da hərtərəfli yardım göstərəcəkdir. BMT Baş Katibinin Azərbaycana gəlişi ilə əlaqədar 31.10.94 tarixdə Milli Məclisdə keçirilmiş təntənəli iclasda Azərbaycan Respublikasının Prezidenti BMT-nin humanitar yardım sahəsindəki fəaliyyətini yüksək qiymətləndirməklə yanaşı demişdir, "Cənab Bütros Qalidən xahiş edirəm ki, Azərbaycana humanitar yardım edilməsi sahəsində tədbirlər görsün".

[1] Бутрос Бутрос Гали. Во имя мира и развития. Нью-Йорк, 1994, с.184

BMT-nin Baş Katibinin Baş Məclisin 50-ci sessiyasındakı çıxışında bu məsələyə toxunulmuş, regionda humanitar yardıma tələbatın daha ətraflı öyrənilməsinin vacibliyi qeyd edilmişdır. Eyni zamanda Baş Katib fövqəladə humanitar yardımdan inkişafa keçidı təmın edəcək layıhələrin həyata keçirilməsinə keçməyin vaxtı çatdığını bildirmişdir.

BMT xətti ilə humanitar yardım göstərilməsi işində bir məsələni aydınlaşdırmaq lazımdır. Məlumdur ki, beynəlxalq birliyin özünün humanitar yardım fondu zəruri tələbatı ödəyə bilmır. Buna görə də təşkilatın Humanitar Məsələlər üzrə Departamenti donor ölkələrin iclaslarını çağırır. Bu iclaslarda hər hansı dövlətə yardım göstərəcək donor ölkələr müəyyənləşdirilir, nəzərdə tutulan məbləğin toplanması donor ölkələrin ayırmalarından bilavasitə asılıdır. Humanitar yardım üçün vəsait ayıran ölkələr onun hansı dövlət üçün nəzərdə tutulduğunu qabaqcadan bilirlər. Bu cəhət yardım alan dövlətin başqa dövlətlərlə münasibətlərinin yaxşı olmasını tələb edir. Azərbaycana göstərilən humanitar yardımın getdikcə artmasının əsas səbəbi bu baxımdan respublikanın xarici siyasət sahəsindəki son illərdəki uğurları ilə bağlıdır.

BMT ixtisaslaşmış qurumlarının respublikaya göstərdiyi humanitar yardım maksimum optimal şəkildə istifadə edilməli, bu sahədəki əlaqələr humanitar çərçivədən insan potensialının inkişafına, qaçqın və köçkünlərin işə cəlb olunmasına yönəldilməlidir. İxtisaslaşmış qurumların köməyi ilə qaçqın və məcburi köçkünlər üçün yeni iş yerlərinin açılmasına, yaşayış yerlərinin tikilməsinə, onların təhsil və səhiyyə problemlərinin həllinə, dağıdılmış ərazilərin bərpasına, məcburi köçkünlərin repatriasiyasına ciddi diqqət yetirilməlidir.

**Yoxlama sualları:**

1.Azərbaycan-BMT əməkdaşlığını şərtləndirən amillər.
2.Azərbaycanın BMT-yə qəbulu.
3.Azərbaycan-BMT əməkdaşlığının məqsəd və vəzifələri.
4.Azərbaycan-BMT əməkdaşlığının formaları.
5.Azərbaycan-BMT əməkdaşlığının mərhələləri və xüsusiyyətləri.



6.BMT və Ümumqafqaz problemlərində Azərbaycanın yeri.
7.Ümumqafqaz problemləri və BMT-nin ixtisaslaşmış qurumları.
8.Siyasi sahədə BMT-Azərbaycan əməkdaşlığı.
9.İqtisadi sahədə BMT-Azərbaycan əməkdaşlığı.
10.Sosial sahədə BMT-Azərbaycan əməkdaşlığı.
11.Elm, təhsil, mədəni və humanitar sahələrdə BMT-Azərbaycan əməkdaşlığı.
12.Azərbaycanın BMT-nin rəhbər və icra orqanları ilə əlaqələri.
13.Azərbaycanın BMT-nin ixtisaslaşdırılmış qurumları ilə əməkdaşlığının xüsusiyyətləri.
14.Azərbaycan Respublikasının beynəlxalq terrorizmə və cinayətkarlığa qarşı mübarizədə BMT və onun qurumları ilə əməkdaşlığı.
15.BMT-nin Azərbaycanla bağlı qlobal layihələri.
16.BMT-nin Sumqayıtda "azad iqtisadi zona" yaradılması proqramı.
17.BMT-nin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi ilə bağlı qətnamə və bəyanatları.
18.Dağlıq Qarabağ problemi və BMT vasitəçiliyi.
19.Azərbaycan-BMT əməkdaşlığının perspektivləri.

## NƏTİCƏ

Müasir beynəlxalq münasibətlərdə, dövlətlərarası əməkdaşlıqda, çoxtərəfli diplomatiyada beynəlxalq təşkilatlar mühüm rol oynayırlar. Beynəlxalq təşkilatların meydana gəlməsi və çoxtərəfli fəaliyyəti dünya inkişafının gedişi ilə şərtlənmişdir və obyektiv xarakter daşıyır. Hazırda beynəlxalq təşkilatların inkişafı həm kəmiyyət, həm də keyfiyyət dəyişiklikləri ilə müşahidə olunur. Əgər XX yüzilliyin əvvəllərində dünyada 20-yə qədər daimi beynəlxalq təşkilat (bunların əksəriyyəti qeyri-dövlət təşkilatı idi) mövcud idisə, hazırda onların sayı 7 minə yaxındır (bunlardan yalnız 300-ə qədəri dövlət təşkilatı hesab edilır). Bu bizə beynəlxalq təşkilatlar sisteminin yaradılmasından bəhs etməyə imkan verir. Müasir dövrdə beynəlxalq təşkilatların səlahiyyət və funksiyaları genişlənir, mürəkkəb təşkilatı strukturu formalaşır, insan hüquqları və demokratik vətəndaş cəmiyyətinin inkişafında rolu və əhəmiyyəti artır.

Beynəlxalq təşkilatlar içərisində öz universallıq dərəcəsinə, əhatəliliyinə, dünya siyasətindəki roluna və yerinə görə sayılıb-seçilən qurumlardan biri də Birləşmiş Millətlər Təşkilatıdır. BMT sistemi son dərəcə çoxşaxəli olub, müxtəlif təşkilat və qurumlardan ibarətdir. Bu sistemdəki avtonom qurumlar içərisində ixtisaslaşmış təşkilatlar xüsusi yer tutur. Bu təşkilatlardan bir qismi BMT-dən xeyli əvvəl meydana gəlmiş və sonralar xüsusi müqavilə ilə ixtisaslaşdırılmış quruma çevrilmiş, digər qismi isə BMT tərəfindən təsis edilmişdir. İxtisaslaşmış qurumların hamısı EKOSOS-la sıx bağlı şəkildə fəaliyyət göstərirlər.



İxtisaslaşmış qurumlar dünyanın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrini əhatə edən universal təşkilatlardır. Kitabda onların yaradılması, təyinatı, fəaliyyət sahələri, təsnifatı, quruluşu, rəhbər və icra orqanlarının fəaliyyət mexanizmi, hüquqi təbiəti, müasir beynəlxalq münasibətlərdə oynadığı rol, ixtisaslaşmış qurumlarla xüsusi təyinatlı qurum, proqram və qeyri-hökumət təşkilatları ilə əlaqə mexanizmi və s. məsələlər öz ətraflı şərhini tapmışdır.

Azərbaycan Respublikasının BMT-nin ixtisaslaşmış qurumları ilə əlaqə və əməkdaşlığına xüsusi fəsil həsr edilmişdir, burada siyasi, iqtisadi, sosial, təhsil, elm, mədəniyyət və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi və inkişaf perspektivləri ətraflı işıqlandırılır.

Azərbaycanın BMT və onun ixtisaslaşdırılmış qurumları ilə əməkdaşlığını şərti olaraq iki mərhələyə bölə bilərik:

-birinci mərhələ – dövlət müstəqilliyi elan edildikdən 1993-cü ilin iyununadək olan dövrü əhatə edir; bu mərhələdə respublikamızın BMT qurumları ilə əməkdaşlığı yolunda ilk addımların atılmasına, hüquqi bazanın yaradılmasına, Ermənistanın Azərbaycan torpaqlarının işğalı ilə bağlı 4 məlum qətnamə və bəyanatların qəbul edilməsinə baxmayaraq, əməkdaşlığın səviyyəsi qənaətbəxş olmamışdır.

İkinci mərhələ – 1993-cü ilin iyunundan hal-hazıradək davam edir. Bu mərhələdə Azərbaycanın BMT qurumları, ixtisaslaşmış təşkilatlarla əlaqələri yüksələn xətlə inkişaf etmiş, BMT-nin respublikamızla bağlı irəli sürdüyü layihələrin bir çoxu reallaşmış, Azərbaycana təzyiqlər qismən azalmış, əməkdaşlığın yeni forma və üsulları meydana gəlmişdi. XXI yüzilliyin əvvəllərindən etibarən genişlənməkdə olan Azərbaycan BMT əməkdaşlığının perspektivləri olduqca nikbindir.

## TÖVSİYƏ ƏDƏBİYYATI

**Azərbaycan dilində**


1.Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin BMT Təhlükəsizlik Şurasının üzvü olan dövlətlərin daimi nümayəndələri ilə görüşü. "Azərbaycan" qəzeti, 1997, 28 avqust.

2.Azərbaycan YUNESKO-nun üzvüdür. "Azərbaycan" qəzeti, 1992, 10 iyun.

3.Azərbaycan QHT-lərinin məlumat kitabçası. B., 2002

4."Azərbaycan" qəzeti, 1999, 18 dekabr (BMT Azərbaycanda görülən işləri yüksək qiymətləndirir. H.Rəcəbli ilə müsahibə).

5.Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin BMT Baş Məclisinin 49-cu sessiyasında çıxışı. "Azərbaycan" qəzeti, 1994, 30 sentyabr.

6.Azərbaycan hökuməti və BMT Uşaq Fondu. Fəaliyyətin baş planı, 2000-2004. 1999

7.Azərbaycan Respublikasında insan inkişafı haqqında hesabat. 2002 (http //www.un-az.org/undp)

8.Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin BMT TŞ sədrinə məktubu. "Azərbaycan" qəzeti, 1993, 19 avqust.

9.AXİN arxivi Sən.-1086-10.12.93; sən.-1058-29.11.93

10."Azərbaycan" qəzeti, 1994, 6 sentyabr

11."Azərbaycan" qəzeti, 1996, 17 yanvar

12."Azərbaycan" qəzeti, 1992, 12 dekabr

13."Azərbaycan" qəzeti, 1993, 13 fevral

14."Azərbaycan" qəzeti, 1994, 28 sentyabr

15."Azərbaycan" qəzeti, 1992, 12 dekabr

16."Azərbaycan" qəzeti, 1996, 14 avqust

17."Azərbaycan" qəzeti, 1994, 11 iyun

18.Azərbaycan Respublikasında insan inkişafı haqqında hesabat. Bakı, 1995

19.Azərbaycan YUNESKO-nun üzvüdür //"Azərbaycan"qəzeti. 1992, 10 iyun.

20."Azərbaycan" qəzeti, 1996, 9 noyabr





21.Beynəlxalq Əmək Təşkilatı. Azərbaycan Respublikası tərəfindən ratifikasiya edilmiş konvensiyalar və tövsiyələr. B., 1996

22.Bakıda BMT komissarlığının ofisi açılacaqdır //"Həyat" qəzeti. 1992, 5 dekabr; Ali Sovetdə qəbul //"Azərbaycan" qəzeti. 1992, 15 dekabr.

23.BMT Təhlükəsizlik Şurasına //"Həyat" qəzeti, 1992, 13 fevral

24.Daşkənd Bəyannaməsi //"Azərbaycan" qəzeti, 1996, 23 oktyabr

25.Dünyada SPİD xəstəliyinə tutulanların sayı 60% artmışdır// "Azərbaycan" qəzeti, 1998, 8 iyul

26.Əsgərov Ə. Beynəlxalq hüquq. B., 1979

27.Hacıbəyli Ə. Qeyri-hökumət təşkilatları: Azərbaycan qanunvericiliyi və beynəlxalq standartlar. B., 2001

28."Xalq qəzeti", 2001, 24 mart.

29.Istanbul protokolu. Peşəkar hazırlıq məsələlərinə dair nəşrlər seriyası – 8.1999, 9 avqust (BMT İnsan hüquqları Ali Komissarlığı).

30.Rəcəbli H. BMT-nin ixtisaslaşmış qurumları və Azərbaycan. B., 1997

31.Rəcəbli H. BMT-nin ixtisaslaşmış qurumları ixtisas kursunun proqramı. B., 1998

32.Surət və reallıq. BMT haqqında suallar və cavablar. 2000

33.Sumqayıt: ekologiya və inkişaf elmi-praktiki konfransının tezisləri. 15-16 dekabr 1999-cu il.

34."Həyat" qəzeti, 1992, 15 yanvar

35.Komissiyaların fikrincə //"Həyat" qəzeti, 1992, 20 avqust

36.MDB ölkələri və BMT //"Həyat" qəzeti. 1992, 29 fevral; BMT nümayəndəliyinin açılması haqqında saziş imzalanmışdır //"Həyat" qəzeti. 1992, 3 dekabr

37.YUNESKO-nun beynəlxalq normativ aktları. Bakı, 1998.

**Rus dilində**


1.Азербайджан. Экономические обзоры МВФ. 1994, № 9

2.Алмонд Г., Пауелл К., Стром К., Далтон Р. Сравнительная политология сегодня. Мировой обзор. Учеб.пособие. М., Аспект Пресс, 2002

3.Аррис К. Понятие и структура системы ООН. АКД. М., 1989.

4.Беженцы. II- 1995, № 3 (УВКБ ООН).

5.Блищенко И.П., Бикулов А.В. Координация деятельности в системе ООН //Советский ежегодник международного права. 1988. М., 1989.

6.Бутрос Бутрос Гали. Во имя мира и развития. Нью-Йорк, 1994.

24.10.97 BMT günü münasibətilə BMT baş katibi Kofi Annanın müraciətinə deyilirdi ki, BMT zorakılığa son qoymağa və dözümlülüyü dəstəkləməyə, inkişafı sürətləndirməyə və bərabərliyi təmin etməyə, insan hüquqlarını müdafiə və yoxsulluğu ləğv etməyə can atan hər bir vətəndaşın qəlbində və düşüncəsindədir.



16.12.97 Azərbaycan Prezidenti H.Əliyev Tehranda BMT-nin Baş katibi Kofi Annanla görüşü zamanı Baş katibin İslam Konfransı Təşkilatının VIII zirvə toplantısında iştirakının böyük əhəmiyyət kəsb etdiyini vurğuladı.

## 1998

18.01.98 "Genderin inkişafı" üzrə Azərbaycan milli şöbəsi yanvarın 16-da BMT İnkişaf Proqramının Azərbaycanda genderin inkişafı layihəsi çərçivəsində BMT-nin Azərbaycandakı nümayəndəliyində BMTİP tərəfindən alınmış texniki avadanlığın gender məsələləri ilə məşğul olan qeyri-hökumət qadın təşkilatlarına verilməsi ilə əlaqədar mərasim təşkil etmişdir.

07.02.98 ABŞ-ın Nyu-York şəhərində BMT-nin qadınlara münasibətdə ayrı-seçkiliyin ləğv olunması üzrə komitəsinin XVIII sessiyası keçirilmişdir.

07.03.98 Azərbaycan Prezidenti H.Əliyev martın 6-da prezident sarayında Dünya Bankı nümayəndəliyinin rəhbəri Tevfiq Yaprağı və BMT-nin Qaçqınların işi üzrə Ali Komissarlığı Azərbaycan nümayəndəliyinin rəhbəri Didye Layı qəbul etmişdir. Cənab Yapraq bildirmişdir ki, Azərbaycanın 12 rayonunu əhatə edən kompleks bərpa və reabilitasiya proqramı hazırlanmışdır ki, təxmini dəyəri 100 milyon ABŞ dollarıdır.

13.03.98 Martın 12-də M.F.Axundov adına Respublika Dövlət Kitabxanasında BMT-nin İctimai İnformasiya Departamentinin Azərbaycandakı nümayəndəliyi tərəfindən hazırlanmış və Beynəlxalq birliyin dünyada, o cümlədən ölkəmizdəki fəaliyyətindən bəhs edən

bülletenlərin təqdimatı olmuşdur.

17.04.97 Azərbaycan prezidenti H.Əliyev aprelin 16-da Prezident sarayında BMT-nin Azərbaycandakı əlaqələndirici rezidenti və BMT-nin İnkişaf Proqramının respublikamızdakı nümayəndəsi Ərcan Muradı qəbul etmişdir. Azərbaycanda demokratiyanın inkişaf etdirilməsi sahəsində bir sıra qanun və qərarların qəbul olunmasına, bunların icrasına nəzarət edilməsi, insan hüquqlarının qorunması sahəsində imzaladığı fərmana, ölüm hökmünün ləğv olunması barədə verdiyi bəyanata və parlamentə etdiyi müraciətə görə Ərcan Murad dövlətimizin başçısına təşəkkürünü bildirdi.

27.05.1998 Azərbaycan hökumətinin dəvəti ilə BMT Baş katibinin köçkünlərlə iş üzrə xüsusi nümayəndəsi Frensis Denq ölkəmizə rəsmi səfərə gəlmişdir. Səfərdə məqsəd Azərbaycan köçkünlərinin vəziyyəti ilə tanış olmaq, onların problemlərinin daha da səmərəli sürətdə həll olunması üçün Azərbaycan hökumətinin beynəlxalq və yerli qeyri-hökumət humanitar təşkilatları ilə əməkdaşlığını dərinləşdirməkdir.

31.05.98 BMT Baş katibinin qaçqınların işi üzrə nümayəndəsi Fransis Denqin başçılıq etdiyi İnsan Hüquqları Departamentinin, Qaçqınların İşi üzrə Ali Komimssarlığın respublikamızdakı nümayəndəliyinin, Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpası və yenidən qurulması üzrə agentliyin əməkdaşlarından ibarət nümayəndə heyəti qaçqınların və məcburi köçkünlərin vəziyyəti ilə tanış olmaq məqsədilə Bərdədə olmuşlar.

31.05.98 Azərbaycanın Prezidenti H.Əliyev BMT nümayəndələrini qəbul etmişdir. Görüşdə qaçqınların problemləri müzakirə olunmuşdur.



23.06.98 Cenevrədə (İçveçrə) BMT-nin Qaçqınların İşi üzrə Ali Komissarlığı tərəfindən MDB ölkələrində qaçqın və məcburi köçkünlərin problemlərinə həsr olunmuş regional konfrans keçirilmişdir. Konfransda Azərbaycanı Qaçqınların və Məcburi Köçkünlərin İşi üzrə Dövlət Komitəsinin sədri G.Qəhrəmanovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

01.07.98 Nyu-Yorkda BMT Baş Məclisinin narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehsalı, satışı, tələbatı, dövriyyəsi, yayılması və bununla mübarizəyə həsr olunmuş XX xüsusi sessiyası keçirilmişdir. Sessiyanın işində Azərbaycan Respublikasının nümayəndə heyəti də iştirak etmişdir.

07.07.98 Azərbaycan Respublikası ilə BMT-nin İnkişaf Proqramı və BMT-nin narkotiklərə Nəzarət üzrə Beynəlxalq Proqramı arasında imzalanmış sazişə əsasən, "Azərbaycan Respublikasında narkotiklərə nəzarət və institusional quruluşa çoxsahəli yardım proqramı" çərçivəsində təkmilləşdirilmiş kursu keçirilir.

02.09.98 BMT QAKİ-nin köməkçisi C.Yessen-Petersenin başçılığı ilə komissarlığın nümayəndə heyəti sentyabrın 1-də Füzuli rayonunun Horadiz qəsəbəsində olmuşdur.

03.09.98 Azərbaycan Prezidenti H.Əliyev sentyabrın 2-də Prezident sarayında BMT QAKİ-nin köməkçisi Soren Yessen-Peterseni qəbul etmişdir. Görüşdə Füzuli və Bərdə rayonlarında qaçqın və məcburi köçkünlərin problemləri müzakirə olunmuşdur.

06.09.98 Sentyabrın 9-da "Gənclik" Beynəlxalq Turizm Mərkəzində Narkotiklərlə mübarizə sahəsində çalışan polis əməkdaşları üçün təlim

kursunun açılışı nəzərdə tutulurdu. Bu kursun BMT-nin İnkişaf Proqramı və BMT-nin narkotiklərə nəzarət üzrə Beynəlxalq Proqramının Azərbaycanda narkotiklərə nəzarət və institusional quruluşa çoxsahəli texniki yardım layihəsi çərçivəsində keçirilməsi planlaşdırılmışdı.

22.09.98 Azərbaycan Prezidenti H.Əliyev BMT-nin Əhaliyə Yardım Fondu ilə İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO) birgə keçirdiyi reproduktiv sağlamlıq problemlərinə dair beynəlxalq konfransın sentyabrın 20-də respublika Dövlət Opera və Balet Teatrında açılışı zamanı BMT Baş katibinin müavini və Əhaliyə yardım fondunun icraçı direktoru, doktor Nəfis Sadıkı qəbul etmişdir.

24.09.98 BMT Baş katibinin müavini, BMT Əhali Fondunun Baş icraçı direktoru xanım Nəfis Sadık sentyabrın 22-də "Həyat-Naxçıvan" mehmanxanasında keçirilmiş mətbuat konfransında bildirmişdir ki, Azərbaycan Səhiyyə Nazirliyinin qaçqın qadınların reproduktiv sağlamlığına dair hazırladığı proqram Əhali Fondunun İcra Şurasının yaxın vaxtlarda çağırılacaq iclasında müzakirə olunacaqdır.

22.10.98 YUNİSEF-in Zaqafqaziya üzrə regional direktoru Boris Tolstonyatov Azərbaycanın təhsil naziri M.Mərdanovla görüşündə respublikamızda YUNİSEF-in xətti ilə ixtisasartırma kursları təşkil ediləcəyi haqqında məlumat vermişdir.

25.10.98 Milli Məclisin sədri M.Ələsgərovun başçılıq etdiyi nümayəndə heyəti BMT Baş Məclisinin 53-cü sessiyasında iştirak etmək üçün Nyu-Yorka yola düşmüşdür. Səfər zamanı Azərbaycanda siyasi və iqtisadi vəziyyət, oktyabr



ayında keçirilmiş prezident seçkilərinin nəticələri, Dağlıq Qarabağ ətrafında münaqişə, 907-ci düzəlişin ləğvi, ölkəmizin müxtəlif beynəlxalq təşkilatlarla əlaqələri və digər məsələlər barəsində fikir mübadiləsi aparılacaqdır.

27.10.98 Oktyabrın 26-da BMT-nin yaranmasının 53-cü ildönümü münasibətilə Azərbaycan Dövlət Opera və Balet Teatrında təntənəli mərasim olmuşdur.

31.10.98 Nyu-Yorkda səfərdə olan Milli Məclisin nümayəndə heyəti oktyabrın 28-də BMT Baş Məclisinin BMT ilə Parlamentlərarası İttifaq arasında əməkdaşlığa həsr olunmuş plenar iclasında iştirak etmiş, toplantı iştirakçılarına respublikamızdakı iqtisadi və siyasi vəziyyət, hüquqi, dünyəvi dövlətin qurulması, insan hüquqlarının qorunması, azad və demokratik seçkilərin keçirilməsini təmin edən qanunvericilik bazasının yaradılması, oktyabrın 11-də keçirilmiş prezident seçkilərinin yekunları, söz və mətbuat azadlığının bərqərar olunması və s. haqqında məlumat verilmişdir. MM-in sədri M.Ələsgərov BMT-nin qaçqınlar və məcburi köçkünlərlə iş üzrə baş komissarlığının müavini Kofi Asomani ilə görüşmüşdür.

06.11.98 BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illiyinin qeyd edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi X.Xasməmmədov adına Hüquq Kadrlarını Təkmilləşdirmə İnstitutu ilə birlikdə Göyçay, Yevlax və Gəncə şəhərləərində zonalararası elmi-praktiki konfranslar keçirmişdir.

19.11.98 Noyabrın 18-də Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda kütləvi informasiya

vasitələrinin və qeyri-hökumə təşkilatlarının nümayəndələri üçün BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illiyinə həsr edilmiş seminar-müşavirə keçirilmişdir. BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisinin müavini Abdullah Dorani müşavirədə iştirak etmişdir.

02.12.98 M.Ə.Rəsulzadə adına BDU-da Azərbaycan Respublikası Təhsil Nazirliyinin, Qadın Problemləri üzrə Dövlət Komitəsinin və BMT-nin Bakıdakı nümayəndəliyinin təşəbbüsü ilə BMT-nin "Ümumdünya İnsan hüquqları Bəyannaməsi"nin 50 illiyi münasibəti ilə elmi-praktiki konfrans keçirilmişdir.

04.12.98 Dekabrın 3-də Prezident sarayında Azərbaycan Prezidenti H.Əliyevin sədrliyi ilə ölkəmizdə BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illik yubileyini keçirən Dövlət Komissiyanın iclası olmuşdur.

09.12.98 Azərbaycan Prezidenti H.Əliyev dekabrın 8-də Prezident sarayında BMT-nin ölkəmizdəki rezident-əlaqələndiricisi Ercan Muratı qəbul etmişdir.

11.12.98 Şıxəli Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrında BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illiyinə həsr olunmuş təntənəli yığıncaq keçirilmişdir, tədbirdə Azərbaycan Prezidenti H.Əliyev də iştirak etmişdir.

16.12.98 Daşkənddə YUNESKO-nun xətti ilə Mərkəzi Asiya, Cənubi Qafqaz və Sakit Okean regionu ölkələrində təhsilin problemləri ilə bağlı regional seminar keçirilmişdir. Azərbaycanı bu seminarda Təhsil Nazirliyi təmsil etmişdir.

16.12.99 İnsan hüquqları Ümumi Bəyannaməsinin 50 illiyi ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin BMT-yə, Dünya ölkələrinin parlamentlərinə müraciəti olmuşdur.

17.12.98 YUNESKO M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin maddi-texniki bazasının möhkəmləndirilməsinə 50 min ABŞ dolları məbləğində yardım göstərilməsi haqqında qərar qəbul etmişdir.

18.12.98 BMT-nin Azərbaycandakı nümayəndəliyinin dövri nəşri olan "BMT bülleteni"nin iki növbəti nömrəsi çapdan çıxmışdır.

## 1999

15.01.99 Azərbaycan Prezidenti H.Əliyev yanvarın 14-də Prezident sarayında BMT-nin Ümumdünya Ərzaq Proqramının Şərqi Avropa və MDB ölkələri üzrə şöbəsinin müdiri Robert Houzerin rəhbərliyi ilə ölkəmizə gəlmiş nümayəndə heyətini qəbul etmişdir.

28.01.99 Yanvarın 26-da Parisdə YUNESKO-nun «Mədəni sərvətlərin qeyri-qanuni çıxarıldığı və ya mənimsənildiyi hallarda onların vətənə qaytarılması» hökumətlərarası komitəsinin X sessiyası keçirilmişdir. Sessiyada Azərbaycanı Mədəniyyət Nazirliyi təmsil etmişdir.

14.02.99 BMT-nin Əhali Fondu fevralın 8-dən 12-dək Hollandiyanın Haaqa şəhərində «Ailənin planlaşdırılması və reproduktiv sağlamlıq» mövzusunda ümumdünya forumu keçirmişdir. Forum növbəti 5 illik üçün fəaliyyət proqramı qəbul etmişdir. Forumda Azərbaycan nümayəndə heyəti də iştirak etmişdir.

21.02.99 İsveçrənin Cenevrə şəhərində YUNESKO və ÜMT-nin beynəlxalq konfransı keçirilmişdir. Konfransda Azərbaycan Dövlət Hidrometeorologiya İnstitutunun direktoru, prof.R.Mahmudov da iştirak etmişdir.

| | |
|---|---|
| | Konfransda işğal olunmuş torpaqlarımız azad edildikdən sonra həmin ərazilərdə müşahidə məntəqələrini bərpa etmək üçün YUNESKO və ÜMT tərəfindən kömək göstərilməsi qərara alınmış, 2000-2009-cu illər üçün on illik hidroloji proqram qəbul edilmişdir. |
| 21.02.99 | Baş Nazirin müavini Əli Həsənov və BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Ercan Murad ölkəmizdə bir neçə layihənin beynəlxalq səviyyədə həyata keçməsi üçün mühüm sənədlər imzalamış, həmin layihələrdən biri də Sumqayıt Kompressorlar zavodunda yenidənqurma ilə əlaqədardır. |
| 19.03.99 | Azərbaycan Respublikasının Prezidenti H.Əliyev martın 18-də prezident sarayında BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Avropa Bürosunun direktoru Anne-Villem Baylaveldin başçılığı ilə Ali Komissarlığın Şərqi Avropa dövlətləri rezident nümayəndələrini qəbul etmişdir. |
| 22.04.99 | BMT-nin İnkişaf Proqramı (BMTİP) rəhbərinin müavini Zefirin Diabre aprelin 25-dək Azərbaycanda səfərdə olmuş, danışıqlar zamanı BMTİP ilə Azərbaycan arasında əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı məsələlər müzakirə edilmişdir. |
| 25.04.99 | BMT İnkişaf Proqramının Azərbaycanda həyata keçirdiyi layihələrlə bağlı işlərin gedişi ilə yaxından tanış olmaq üçün ölkəmizə işgüzar səfərə gəlmiş bu proqramın rəhbərinin müavini Zefirin Diabre aprelin 24-də Füzuli rayonunun işğaldan azad edilmiş ərazilərində olmuş, ermənilərin hərbi təcavüzü nəticəsində İkinci Mahmudlu kəndində dağıdılmış orta məktəbin bərpası işlərinin gedişi ilə tanış olmuşdu. |
| 27.04.99 | Dünya Bankının Azərbaycandakı nümayəndəsi |



| | |
|---|---|
| | Tevfiq Yapraq aprelin 26-da keçirilən mətbuat konfransında Dünya Bankı Direktorlar şurasının Rusiyadakı maliyyə böhranının Azərbaycan iqtisadiyyatına mənfi təsirini aşağı salmaq üçün Azərbaycana təqriibən 7 milyon dollar SDR məbləğində kredit vermək haqqında qərarını təsdiq etmişdir. |
| 30.04.99 | YUNESKO mayın 3-dən 7-dək Bakıda «Həyat Recensi-Naxçıvan» mehmanxanasında «Yeni qlobal kontekstdə Azərbaycanda tərcümə, dilmanclıq və terminologiyanın gələcək perspektivləri» mövzusunda konfrans keçirəcəyi planlaşdırılmışdı. |
| 04.05.99 | Bolqarıstanın Varna şəhərində Balkan və Qara dəniz regionları ərazisində transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında BMT Konvensiyası prinsiplərinin həyata keçirilməsi məsələlərinə dair seminar keçirilmişdir. |
| 13.05.99 | YUNESKO-nun Parisdəki Beynəlxalq Musiqi Şurası Alim Qasımovu bu beynəlxalq təşkilatın 1999-cu il üçün mükafatına layiq görmüşdür. |
| 13.05.99 | BMT-nin ölkəmizdəki nümayəndəliyinin nəşr etdirdiyi rüblük «BMT bülleteni»nin bu ililk sayı çapdan çıxmışdır. |
| 01.06.99 | Dünya Bankının prezidenti Ceyms Vulfonson Azərbaycanda səfərdə olmuşdur. Qonaq Biləsuvarda qaçqınlar və məcburi köçkünlərlə, habelə Salyan rayon fermerləri ilə görüşmüşdür. |
| 13.06.99 | Dünya Bankı Azərbaycanın kənd təsərrüfatının inkişafına və kreditləşdirilməsinə dair layihə üçün 30 milyon dollar məbləğində borc verilməsini təsdiqləmişdir. |
| 30.06.99 | Dünya bankı 2000-ci ilin problemlərinin həlli üçün Azərbaycana 100 min dollar qrant |

ayırmışdır. Sazişi iyunun 29-da respublikanın Nazirlər Kabinetində baş nazirin müavini Abid Şərifov və Dünya Bankının Azərbaycandakı nümayəndəsi Tevfik Yapraq imzalamışlar. İyunun 29-da Nazirlər Kabinetində Baş Nazirin müavini Elçin Əfəndiyevin iştirakı ilə Təhsil Nazirliyi və Dünya Bankının Beynəlxalq İnkişaf Assosiasiyası arasında Azərbaycanda təhsil islahatı proqramının həyata keçirilməsi üçün kredit ayrılmasına dair saziş imzalanmışdır.

03.07.99 İyunun 25-26-da Moskvada BMT-nin Narkomaniya və Narkobizneslə Mübarizə Üzrə Beynəlxalq Assosiasiyasının, Beynəlxalq Polis Təşkilatının (İNTERPOL) və Moskva hökumətinin birgə təşkil etdikləri «XXI əsrə narkotiklərsiz» devizi altında Ümumdünya Konqresində Azərbaycan nümayəndə heyəti də iştirak etmiş, Azərbaycan «Antinarkotizm» Elmi-Analitik Mərkəzinin direktoru M.Qarayev və nümayəndə heyətinin digər üzvləri müzakirələrdə çıxış etmişlər. Mərkəz Narkomaniya və Narkobizneslə Mübarizə Üzrə Beynəlxalq Assosiasiyaya üzv qəbul olunmuş və həmin assosiasiya ilə əməkdaşlığın genişləndirilməsi barədə müqavilə bağlamışdır.

04.08.99 BMT-nin respublikamızdakı nümayəndəliyi Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsinə 37 min ABŞ dolları dəyərində texniki avadanlıq-kompüter, videokamera, televizor, soyuducu və s. hədiyyə etmişdir.

08.09.99 BMT-nin Qaçqınlar üzrə Ali Komissarı Sadako Oqata sentyabrın 7-də Bakıya gəlmişdir və həmin gün Baş Nazirin müavini, Dövlətqaçqınkomun sədri Ə.Həsənov tərəfindən qəbul edilmişdir.



09.09.99 BMT-nin Qaçqınlar üzrə Ali Komissarı xanım Sadako Oqata sentyabrın 8-də respublikamızın müxtəlif bölgələrində müvəqqəti məskunlaşmış qaçqın və köçkünlərlə görüşərək onların yaşayış şəraiti, işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa işləri ilə tanış olmuşdur.

10.09.99 Azərbaycan Prezidenti Heydər Əliyev sentyabrın 9-da Prezident sarayında BMT-nin Qaçqınlar üzrə Ali Komissarı xanım Sadako Oqatanı qəbul etmişdir.

24.09.99 Sentyabrın 22-də Cenevrədə YUNİSEF-in icraçı direktoru xanım Kerd Vellami «Mərkəzi və Şərqi Avropa keçid dövründə: ictimai siyasət və sosial şərait» layihəsi çərçivəsində «Qadınlar keçid dövründə» mövzusuna həsr olunmuş 6-cı regional monitorinq hesabatının təqdimatını keçirmişdir. Respublikamızın KİV-nin nümayəndələri Azərbaycan televiziyasının «Xəzər» studiyasında telekörpü vasitəsilə təqdimat mərasimində iştirak etmişlər.

26.09.99 Parisdə YUNESKO-nun insan hüquqları təsisatları direktorlarının 10-cu konfransı keçirilmişdir. Konfransda Azərbaycan EA nəzdindəki İnsan Hüquqları İnstitutunun direktoru, s.e.d. R.Mustafayev də iştirak etmişdir.

26.10.99 BMT-ni Azərbaycanda təmsil edən nümayəndəlik bundan sonra «BMT iqamətgahı» adlandırılacaqdır. Nümayəndəliyin adının dəyişdirilməsi münasibətilə oktyabrın 25-də keçirilmiş mərasimdə BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Ercan Murat BMT Baş katibininin müraciətini yaydı.

14.11.99 YUNESKO Baş Konfransının Parisdə keçirilən 30-cu sessiyasının gedişində

noyabrın 11-də onun müxtəlif komitə, komissiya və digər orqanlarına seçkilər keçirilmişdir. Seçkilərdə Azərbaycan da iştirak edərək üç orqana – «İnsan və biosfer» proqramının beynəlxalq şurasına, beynəlxalq hidroloji proqramın hökumətlərarası şurasına və bioetika üzrə hökumətlərarası komitəyə öz namizədliyini irəli sürmüşdür. Azərbaycan topladığı səslərin sayına görə (157 səsdən 116-cı) öz seçki qrupunda üçüncü yerə çıxaraq hər üç quruma üzv seçilmişdir.

09.12.99 1999-cu il dekabrın 3-4-də BMT-nin Qaçqınların işi üzrə Ali Komissarlığı və Danimarka Qaçqınlar Şurasının Praqa şəhərində birgə təmsil etdikləri «Qaçqın statusunun müəyyən edilməsi, sübutetmə standartı və şəxsiyyəti təsdiq edən sənədi olmayan sığınacaq axtaran şəxslərlə iş» mövzusunda beynəlxalq seminar keçirilmişdir. Seminarda Azərbaycan nümayəndə heyəti də iştirak etmişdir.

11.12.99 Dekabrın 10-da «Hyatt Recensi-Naxçıvan» mehmanxanasında BMT Əhali Fondunun (YUNFPA) Azərbaycanda fəaliyyət silsiləsinin yeni proqramına dair sənədlər toplusu imzalanmışdır. Həmin gün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində BMT ilə nazirlik arasında əməkdaşlıq haqqında proqramı sənədi imzalanmışdır.

17.12.99 Nümunəvi özəl kənd təsərrüfatı müəssisələrinin yaradılması layihəsinın tətbiqi üzrə mərkəzi işçi orqan Dünya Bankının Beynəlxalq İnkişaf Assosiasiyasından kredit almışdır. Həmin kreditdən ölkəmizdə «Təsərrüfatların özəlləşdirilməsi layihəsi»nin həyata keçirilməsində istifadə ediləcəkdir.



**2000**

06.01.2000 Beynəlxalq Miqrasiya Təşkilatı BMT İnkişaf Proqramının xüsusi layihəsi çərçivəsində Naxçıvan MR-in Ordubad və Culfa rayonlarında bağçılıqla məşğul olan fərdi təsərrüfat sahiblərinə mikrokreditlər verməyə başlamış, 9 ay müddətinə verilən 250-2000 dollarlıq kreditlər fərdi təsərrüfatlarda yetişdirilmiş meyvələrin emalına və konservləşdirilməsinə yardım məqsədi daşıyır.

13.01.2000 Yanvarın 12-də Xarici İşlər Nazirliyində YUNESKO üzrə Azərbaycan Milli Komissiyasının iclası keçirilmiş, Azərbaycanda YUNESKO çərçivəsində dörd böyük tədbirin həyata keçirilməsi məsələsi müzakirə edilmişdir:

1)Kitabi-Dədə Qorqudun 1300 illik yubileyinin YUNESKO çərçivəsində qeyd edilməsi.

2)2000-ci ildə Beynəlxalq Sülh mədəniyyəti ilinin Azərbaycanda qeyd edilməsi.

3)Azərbaycanda YUNESKO günlərinin qeyd olunması.

4)N.Tusinin 800 illik yubileyinin 2001-ci ildə YUNESKO çərçivəsində qeyd olunması.

29.01.2000 BMT-nin İnkişaf Proqramı və Azərbaycan hökuməti 2000-2004-cü illər üçün ölkə ilə «Əməkdaşlıq çərçivəsi» adlı yeni sənəd layihəsi hazırlamışlar. Sənəd yaxın 5 ildə BMT İnkişaf Proqramının Azərbaycana yardımının strateji istiqamətlərini müəyyən edir.

04.02.2000 Azərbaycan Prezidenti H.Əliyev yanvarın 29-da Davosda BMT-nin Qaçqınlar üzrə Ali Komissarı Sadako Oqata ilə görüşmüş, söhbət zamanı Azərbaycandakı vəziyyət və BMT-nin Qaçqınlar üzrə Komissarlığı ilə Azərbaycan arasındakı münasibətlərə toxunulmuşdur.

12.02.2000 BMT-nin Azərbaycandakı nümayəndəliyi Mingəçevirdə şəhər gəncləri ilə görüş keçirmişdir. təşkilatın nümayəndəsi Abdulla Dorani BMT-nin yaranma tarixi, onun strukturu, ölkəmizdəki fəaliyyəti barədə danışmış, suallara cavab vermişdir.

10.03.2000 Seçkilərin BMT-nin himayəsi altında keçirilməsi Azərbaycan Respublikasının dövlət suverenliyini məhdudlaşdırır və BMT nizamnaməsinə ziddir (bu başlıq altında yazının müəllifi EA-nın İnsan Hüquqları İnstitutunun beynəlxalq hüquq departamentidir).

25.03.2000 BMT narkotiklərlə mübarizədə Azərbaycana yardım edir.

Bu məqsədlə layihə həyata keçirilir. Bu sahədə tədqiqatların aparılması üçün Yaponiyada istehsal olunmuş 225 min dollar dəyərində müasir laboratoriya avadanlığı, kimyəvi preparatlar və xüsusi ədəbiyyat Azərbaycana verilmişdir.

07.04.2000 BMT-nin Azərbaycandakı nümayəndəliyindən AzərTAC-a bildirmişlər ki, Baş katib K.Annan aprelin 3-də dünyanın XXI əsrdə üzləşdiyi çətinliklərə həsr olunmuş məruzə etmişdir.

07.04.2000 Aprelin 7-də MM sədr müavini Yaşar Əliyev Avstriyada keçiriləcək «Cinayətkarlığın aradan qaldırılması və hüquq pozuntusu etmiş şəxslərlə iş məsələləri» mövzusuna həsr edilmiş BMT-nin 10-cu konqresində iştirak etmək üçün Vyanaya yola düşmüşdür.

26.04.2000 Azərbaycanda keçiriləcək parlament seçkilərinin BMT-nin nəzarəti altında keçirilməsi təklifi ilə sosial-demokratlar BMT-yə müraciət ediblər, cavab mənfi olmuşdur.

16.05.2000 Mayın 15-də BMT nümayəndəliyində mətbuat konfransı keçirilmiş, məruzəçi Naysela Rodlin çıxış edərək bildirmişdi ki, o, müxtəlif yerlərdə dustaqlarla məxfi söhbət etmiş, o cümlədən Azərbaycanın hüquq mühafizə orqanlarının rəhbərləri ilə görüşmüşdür.



01.06.2000 Beynəlxalq Konfransda. BMT-nin Ekoloji proqramı çərçivəsində İngiltərədə beynəlxalq uşaq ekoloji konfransı keçirilmişdir. Ölkəmizi toplantıda Təhsil Nazirliyinin 2 üzvü təmsil etmişdir.

14.06.2000 Azərbaycan Prezidenti H.Əliyev BMT Baş katibinin müavini Pino Arlaki ilə Tehranda görüşmüş, P.Arlaki Azərbaycana işgüzar səfərə dəvət olunmuşdur.

14.07.2000 Azərbaycan Prezidenti H.Əliyev BMT Baş katibinin müavini, BMT-nin Vyana nümayəndəliyinin baş direktoru Pino Arlaki ilə görüşdə narkotiklərə nəzarət və qanunsuz əldə edilmiş pulların qanuniləşdirilməsinə qarşı mübarizə haqqında memorandum imzalanmışdır.

İyulun 5-də isə YUNİDO-nun baş direktorunun müavini Nilmadxan Moxanti və H.Əliyev «Azərbaycan Respublikası hökuməti və BMT-nin sənaye inkişafı təşkilatı arasında sənaye inkişafı sahəsində əməkdaşlıq haqqında» memorandum imzalamışlar.

25.08.2000 Avqustun 24-də Milli Məclisin sədri M.Ələsgərov YUNİSEF-in Azərbaycandakı nümayəndəsi Akid Saatçıoğlunu qəbul etmişdir.

Sentyabrın 7-də Nyu-Yorkda minilliyin Zirvə görüşündə çıxış edən Azərbaycan prezidenti H.Əliyev başlıca beynəlxalq problemlərdən, qloballaşmadan, münaqişələrdən, o cümlədən Ermənistan-Azərbaycan münaqişəsindən bəhs etmişdir.

07.10.2000 Azərbaycanın BMT yanındakı daimi nümayəndəliyinin başçısı Eldar Quliyev

sentyabrın 4-də Baş Məclisin 55-ci sessiyasında 3-cü komitənin «Narkotiklər üzərində beynəlxalq nəzarət» maddəsi üzrə GUAM ölkələri adından çıxış etmişdir.

20.10.2000 Xarici İşlər Naziri V.Quliyev BMT Uşaq Fondunun yeni təyin olunmuş regional direktoru Filipp Obreyeni qəbul etmişdir.

21.10.2000 Azərbaycan Prezidenti H.Əliyev oktyabrın 20-də Prezident sarayında BMT Uşaq Fondunun Mərkəzi və Şərqi Avropa, MDB və Baltik ölkələri üzrə regional nümayəndəsi Filipp Obreyeni qəbul etmişdir.

14.11.2000 Azərbaycan Prezidenti H.Əliyev BMT-nin Qaçqınlarla iş üzrə Ali Komissarı Rund Yunbersə yeni vəzifəyə seçilməsi münasibəti ilə təbrik məktubu göndərmişdir.

22.11.2000 BMT Baş Məclisinin iclasında «Mədəniyyətlərarası dialoq» məsələsi üzrə çıxış edən Azərbaycanın BMT yanındakı daimi nümayəndəsi Eldar Quliyev xatırlatmışdır ki, terror milli, dini mənsubiyyət tanımır, son onilliklərdə Avropada, Amerikada və başqa yerlərdə həyata keçirilən terror aktları cürbəcür dini şüarlar altında keçmişdir, ona görə də islam dininə qarşı belə qeyri-obyektiv mövqe əsassızdır.

25.11.2000 Noyabrın 24-də Xarici İşlər Nazirliyində BMT-nin Sənaye İnkişafı Proqramı ilə Azərbaycan arasında əməkdaşlıq protokolunun imzalanma mərasimi olmuşdur. Protokolu V.Quliyev və BMT SİP-in ölkəmizdəki əlaqələndiricisi Mustafa Qulam imzalamışlar.

05.12.2000 Dekabrın 4-də Xarici İşlər Naziri V.Quliyev BMT-nin Əhali Fondunun regional direktoru Alen Muşeridonu qəbul etmişdir.

19.12.2000 Azərbaycan Humanitar Yardım Proqramına daxil edilmişdir. Vaksinlər və immunlaşma



üzrə Qlobal Alyansın Hollandiyada Nordvid şəhərində keçirilən iclasının qərarına əsasən Azərbaycan həmin qurumun yardım proqramına daxil edilmişdir.

**2001**

09.01.2001 Azərbaycan hökumətinin müraciətinə əsasən, BMT-nin Kənd Təsərrüfatı və Ərzaq Təşkilatının nümayəndələri uzun müddətli quraqlıq nəticəsində respublikamızda kənd təsərrüfatına dəymiş ziyanın miqdarını dəqiqləşdirmək üçün ölkəmizə gəlmişlər.

14.01.2001 Beynəlxalq Valyuta Fondu Azərbaycanda maliyyə-büdcə sahəsinin şəffaflığı haqqında məruzə yaymışdır. Sənəddə işin bu istiqamətində Bakının uğurları, o cümlədən mərkəzi Dövlət Xəzinədarlığının yaradıldığı, yeni Vergi Məcəlləsinin qəbul olunduğu, vergi idarəçiliyinin yaxşılaşdırıldığı və digər müsbət cəhətlər qeyd edilir.

16.01.2001 BMT-nin internet ünvanında «Birləşmiş Millətlərin sivilizasiyalar arasında Dialoq ili - 2001» adı altında yeni internet səhifələri açılıb, BMT İctimai İnformasiya Departamenti tərəfindən BMT-nin istifadə etdiyi altı dilin hamısını nəzərə almaqla hazırlanmış «Sivilizasiyalar arasında Dialoq» səhifəsində həmin illə bağlı informasiya və yeniliklər əhatə olunmuşdur.

19.01.2001 Azərbaycan Prezidenti H.Əliyev yanvarın 18-də Prezident sarayında Dünya Bankının Azərbaycan, Ermənistan və Gürcüstan üzrə direktoru Sudi O'Konnoru qəbul etmişdir. Görüşdə Azərbaycanda ictimai-siyasi problemlər, Ermənistan-Azərbaycan münaqişəsi, Qaçqınların və məcburi köçkünlərin problemləri haqda söhbət aparılmışdır.

02.02.2001 Beynəlxalq Valyuta Fondunun Azərbaycanda səfərdə olan nümayəndə heyəti Bakı Fond Birjasında (BVF) olmuşdur. BFB-nin prezidenti Ülvi Hacıyev Azərbaycanda bu yaxınlarda fəaliyyətə başlamış və bazar iqtisadiyyatının başlıca elementlərindən biri olan birjanın yaranma tarixi, işi, perspektivləri haqqında məlumat vermişdir.

07.02.2001 Nazirlər Kabinetində Azərbaycan hökuməti ilə BMT-nin İnkişaf Proqramı arasında saziş imzalanmışdır. Sənəddə BMT İP tərəfindən dəstəklənən layihələrin həyata keçirilməsinin və buna yardım göstərilməsinin əsas istiqamətləri müəyyənləşdirilir.

04.03.2001 Martın 2-də «Həyat Recensi-Naxçıvan» mehmanxanasında Dünya Bankının «Qlobal inkişaf portalı» layihəsi çərçivəsində reallaşdırılan «Azərbaycan inkişaf portalı» layihəsinə həsr olunmuş mətbuat konfransı keçirilmişdir.

15.05.2001 Baş nazirin müavini A.Şərifovun rəhbərlik etdiyi nümayəndə heyətinin ABŞ-da Dünya Bankının təmsilçiləri ilə danışıqları başa çatmışdır. Maliyyə Nazirliyinin və «Azəravtoyol» Dövlət Şirkətinin nümayəndələrindən ibarət qrup İpək yoluna daxil olan Gəncə-Qazax avtomagistralının bərpası üçün Dünya Bankından 40 milyon dollar məbləğində kreditin alınmasına dair razılığa gəlmişlər.

17.05.2001 Görkəmli Azərbaycan şərqşünası, rus şərqşünaslıq elminin banilərindən biri Mirzə Kazım bəyin anadan olmasının 200 illiyi 2002-2003-cü illərdə YUNESKO çərçivəsində təntənəli şəkildə qeyd ediləcəkdir.

31.05.2001 Azərbaycan prezidenti H.Əliyev mayın 30-da Prezident sarayında BMT-nin Azərbaycandakı



rezident-əlaqələndiricisi Ercan Muratı və bu təşkilatın ölkəmizdəki nümayəndələrini qəbul etmişdir. Görüş Ercan Muratın Azərbaycandan getməsi münasibəti ilə keçirilmişdir.

12.06.2001 İyunun 11-15-də Nyu-Yorkda BMT Baş Məclisinin İşaq hüquqlarına həsr olunmuş xüsusi sessiyasına hazırlıq komitəsinin 3-cü sessiyasında uşaqlar və silahlı münaqişələr, uşaqlar və kommersiya, seksual zorakılıq məsələləri müzakirə ediləcək, BMT-nin Baş katibi Kofi Annanın hesabatı dinləniləcək, təşkilat məsələlərinə baxılacaqdır. Azərbaycanın gənclər, idman və turizm nazirinin birinci müavini V.Əliyev 3-cü sessiyanın işində iştirak edəcəkdir.

15.07.2001 Azərbaycan Prezidenti H.Əliyev iyulun 14-də Prezident sarayında Dünya Bankının Avropa və Orta Asiya regionu üzrə vitse-prezidenti Yohannes Linnin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

30.08.2001 Sentyabrın 19-21-də Nyu-Yorkda keçiriləcək uşaqlara həsr edilən BMT-nin Baş Assambleyasının xüsusi sessiyasında 75 dövlətin başçısı, müxtəlif beynəlxalq agentliklərin, 2400-dən artıq qeyri-hökumət təşkilatının nümayəndələri iştirak edəcək, Azərbaycanı Baş Nazirin müavini E.Əfəndiyevin başçılıq etdiyi nümayəndəlik təmsil edəcəkdir.

02.09.2001 BMT-nin elan etdiyi «Sivilizasiyalar arasında dialoq ili» çərçivəsində, habelə «Dünyanın uşağı» Beynəlxalq Təşkilatının təşəbbüsü və Azərbaycan Gənclər, İdman və Turizm Nazirliyinin dəstəyi ilə sentyabrın 2-9-da «Gənclik» Beynəlxalq Turizm Mərkəzində gənclərin ümumdünya zirvə görüşü keçiriləcəkdir.

08.09.2001 Beynəlxalq Valyuta Fondunun missiyası

Azərbaycana avqustun sonlarındakı səfərinin yekunlarından razıdır. Bununla əlaqədar BVF-nin ölkəmizdəki daimi nümayəndəsinin ofisi bəyanat yaymışdır. Bəyanatda deyilir ki, bu yaxınlarda BVF-nin İcra Şurası Azərbaycan hökumətinin üçillik iqtisadi islahatlar proqramını bəyənmişdir.

16.09.2001 Sentyabr ayının 12-14-də Parisdə YUNESKO-nun binasında bu təşkilatın Bioetika üzrə Beynəlxalq Komitəsinin «Patentlər, insan geni və əxlaqi məsələlər» mövzusunda səkkizinci iclası keçirilmişdir. İclasda Azərbaycanı C.Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

20.09.2001 Sentyabrın 19-da Rəşid Behbudov adına Mahnı Teatrında YUNESKO-nun mədəni irsin qorunmasına dair normativ aktlarına həsr edilmiş seminar keçirilmişdir.

25.09.2001 Sentyabrın 24-də Bakıda BMT Əhali Fondunun «Demoqrafik təhlil metodları» mövzusunda altıgünlük məşq seminarı işə başlamışdır.

20.10.2001 YUNESKO-nun idarə orqanı baş konfransın, dünyanın 189 dövləti bu konfransın üzvüdür, 31-ci sessiyası öz işinə başlamışdır. Konfrans təşkilatın iki illik fəaliyyətinə yekun vurur, onun yeni rəhbər orqanlarını seçir və gələcək perspektiv işləri müəyyənləşdirir. YUNESKO üzrə Azərbaycan Milli Komissiyasının sədri, Xarici İşlər Naziri V.Quliyev, Milli EA-nın Prezidenti M.Kərimov və Mədəniyyət Naziri P.Bülbüloğlu 31-ci sessiyada respublikamızı təmsil edəcəklər.

29.11.2001 «Avropa» otelində YUNİSEF-in Azərbaycandakı fəaliyyətinə həsr olunmuş illik hesabat yığıncağı başlanmışdır. Noyabrın 30-da başa çatacaq yığıncaqda YUNİSEF-in 2001-ci il ərzində Azərbaycan hökuməti ilə birlikdə gördüyü işlərin həyata keçirilməsinin nəticələri müzakirə ediləcəkdir.



02.12.2001 Milli Məclisin Mədəniyyət məsələləri daimi komissiyasının sədri A.Rzayev, Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyasının sədri Asya Manafova və deputat Elton Məmmədov BMT-nin baş qərargahında keçiriləcək parlament üzvlərinin görüşündə iştirak etmək üçün dekabrın 3-dən 6-dək Nyu-York şəhərində səfərdə olacaqlar.

09.12.2001 BMT İnkişaf Proqramının təbii fəlakətdən zərər çəkənlərə ilk tibbi yardım göstərilməsi və əhalinin psixonevroloji reabilitasiyası layihəsi çərçivəsində təşkil olunmuş xüsusi kurslarda azərbaycanlı mütəxəssislər də təlim keçəcəklər.

12.12.2001 Dekabrın 11-də «Həyat Recensi-Naxçıvan» mehmanxanasında Azərbaycan hökumətinin və BMT Əhali Fondunun ölkəmizdəki nümayəndəliyinin əhali və inkişaf sahəsində həyata keçirilən proqramın illik icmalına həsr edilmiş ikigünlük birgə iclası işə başlamışdır.

## 2002

09.01.2002 YUNESKO-nun cəlb edilmiş üzvlərinin həyata keçirdikləri həmrəylik layihəsində və digər proqramlarda fəal iştirakına görə Bakının 160 saylı məktəbinə bu nüfuzlu təşkilatın mükafatı və sertifikatı təqdim olunmuşdur.

10.02.2002 Dünya Bankının dəvəti ilə ABŞ-da səfərdə olan Azərbaycanın Maliyyə Naziri Ə.Ələkbərovun başçılıq etdiyi nümayəndə heyəti bu beynəlxalq maliyyə qurumu tərəfindən ölkəmizə ikinci struktur islahatları kreditinin (SAC-2) verilməsi haqqında dan-

| | |
|---|---|
| | ışıqları başa çatdırmış və müvafiq protokol imzalanmışdır. Sənədə əsasən Dünya Bankı Azərbaycana 60 milyon məbləğində kredit ayıracaqdır. Azərbaycanın dövlət büdcəsinə keçiriləcək bu vəsait enerji, kommunal, özəl və bank sektorunun təkmilləşdirilməsinə sərf olunacaqdır. |
| 01.03.2002 | BVF Direktorlar Şurasının 2002-ci il fevralın 20-də keçirilən iclasında Azərbaycanın sosial-iqtisadi inkişafı yüksək qiymət almış və üçillik proqram çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsi, Azərbaycana 10 milyon ABŞ dolları məbləğində növbəti kreditin verilməsi qərara alınmışdı. Bütövlükdə, üçillik proqram çərçivəsində BVF tərəfindən Azərbaycana 100 milyon ABŞ dolları məbləğində güzəştli kredit ayrılması nəzərdə tutulur. |
| 01.03.2002 | Martın 1-də Milli EA-nın Beynəlxalq Münasibətlər İnstitutu İctimai-Siyasi Proseslər və Beynəlxalq Əlaqələr Elmi Araşdırmalar Mərkəzi ilə birlikdə Azərbaycanın BMT-yə üzv qəbul olunmasının 10 illiyinə həsr edilmiş elmi-əməli konfrans keçirilmişdir. |
| 03.04.2002 | BMT-nin Hüquqi İşlər İdarəsindən bildirmişlər ki, dünyanın 139 ölkəsi Beynəlxalq Cinayət Məhkəməsi haqqında konvensiyaya qoşulmuş, onların 56-sı isə artıq bu sənədi ratifikasiya etmişdir. BMT 2002-ci il iyulun 1-dən Beynəlxalq Cinayət Məhkəməsini yaratmaqa başlayacaqdır. |
| 12.05.2002 | BMT BM-in xüsusi sessiyasında Azərbaycanı təmsil edən baş nazirin müavini, prezidentin şəxsi nümayəndəsi E.Əfəndiyev mayın 9-da geniş iclasda çıxış edərək bildirmişdir ki, Ermənistanın ölkəmizə təcavüzü nəticəsində qaçqın və məcburi köçkünə çevrilən bir |



| | |
|---|---|
| | milyon azərbaycanlıdan 250 min nəfəri uşaqlardır. O, BMT Baş katibinin uşaqların məsələləri üzrə xüsusi nümayəndəsi Olara Otunu Azərbaycana səfərə dəvət etmişdir. |
| 13.06.2002 | İqtisadi inkişaf naziri F.Əliyevin başçılıq etdiyi nümayəndə heyəti və ölkəmizin Ümumdünya Ticarət Təşkilatına üzv olması ilə əlaqədar qurumun Azərbaycan üzrə işçi qrupu bu günlərdə Cenevrə şəhərində olmuşdur. |
| 18.07.2002 | Azərbaycan Prezidenti H.Əliyev iyulun 17-də Prezident sarayında BVF-i ikinci Avropa Departamentinin direktoru Col Odlohq-Snunin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. |
| 26.07.2002 | İyulun 25-də Azərbaycanın Xarici İşlər Naziri V.Quliyev ölkəmizdə səfərdə olan YUNESKO-nun Qeyri-maddi mədəni irs şöbəsinin direktoru xanım Noriko Aikavanı qəbul etmişdir. |
| 31.07.2002 | BMT-nin Baş katibi Kofi Annan Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə məktub göndərib. Məktub Dağlıq Qarabağda separatçılar tərəfindən keçirilən «prezident seçkiləri»nə həsr olunub. |
| 31.07.2002 | Azərbaycanın qədim musiqi janrı – muğam YUNESKO tərəfindən tərtib edilmiş dünya sənət inciləri siyahısına daxil edilməyə təqdim olunmuşdur. |
| 12.10.2002 | Dünya Bankının baş əməliyyat əməkdaşı Rozel Hiltonun başçılığı ilə bu təşkilatın nümayəndə heyəti maliyyə sektoruna texniki yardım layihəsinin icrasına nəzarət etmək üçün Bakıya səfərə gəlmişdir. |
| 13.10.2002 | BMT-nin Qadınların Mənafeyi Naminə İnkişaf Fondu (YUNİSEF) «Qadınlar Cənubi Qafqazda münaqişələrin aradan qaldırılması və sülh yaradılması uğrunda» regional layihəsi |

çərçivəsində qadınların «Koalisiya 1325» adlı yeni koalisiyasını yaratmaq təşəbbüsü ilə çıxış etmişdir.

24.11.2002 YUNESKO-nun qərarı ilə hər il noyabrın 21-i bütün dünyada «Fəlsəfə günü» kimi qeyd olunur. Həmin gün YUNESKO-da «Qloballaşma prosesində dünya filosoflarının qarşısında duran vəzifələr» mövzusunda konfrans keçirilmişdir. Konfransa Amerika, Almaniya, İtaliya, Fransa, Türkiyə və Danimarka ilə yanaşı, MDB məkanından yalnız Azərbaycan dəvət almışdır.

18.12.2002 Dünya Bankının maliyyə təşkilatının Direktorlar Şurası Azərbaycana təxminən 13 milyon dollar məbləğində kredit ayrılması haqqında qərar qəbul etmişdir. Bu vəsaitin Bakı şəhərinin su təchizatı sisteminin yaxşılaşdırılmasına yönəldilməsi nəzərdə tutulurdu.

25.12.2002 Dekabrın 20-də BMT Baş Məclisinin 57-ci sessiyasının plenar-iclasında gündəliyin 22(1)-ci bəndinin BMT və ATƏT arasındakı əməkdaşlığa dair qətnaməsinə baxılmışdır. BMT-nin üzvü olan 150-dən çox dövlət Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bir daha bəyan etmişdir.

**2003**

12.01.2003 Yanvarın 9-10-da Parisdə YUNESKO-nun iqamətgahında bədən tərbiyəsi və idman nazirlərinin, bu sahənin nümayəndələrinin «dəyirmi masa» ətrafında yığıncağı keçirilmişdir. Yığıncaqda ölkəmizi gənclər, idman və turizm naziri Ə.Qarayev təmsil etmişdir.

24.01.2003 Azərbaycan Prezidenti H.Əliyev yanvarın 23-də Prezident sarayında YUNESKO-nun Baş direktorunun müavini Munir Puşenakini və Baş direktorun Baş müşaviri Korst Qodikeni qəbul etmişdir.



14.02.2003 Ölkəmizin kvotasını və yoxsulluğun azaldılmasına, əhalinin gəlirlərinin artırılmasına dair milli strategiyanın dəstəklənməsinə yönəldilmiş yeni, üçillik proqramın həyata keçirilməsinə başlamaq məsələsini müzakirə etmək üçün Beynəlxalq Valyuta Fondunun İkinci Avropa Departamenti direktorunun müavini Con Veykmann-Linn başda olmaqla fondun nümayəndə heyəti fevralın 19-da Bakıya ikigünlük səfəri nəzərdə tutulurdu.

15.02.2003 Ağcabədidəki «Ağ göl» Dövlət Təbiət Qoruğunun adı YUNESKO-nun beynəlxalq əhəmiyyətli siyahısına daxil edilmişdir.

19.02.2003 Dünya bankı bakılı alimlərin ixtiraları üçün 100 min ABŞ dolları məbləğində qrant ayırmışdır.

20.02.2003 Fevralın 19-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Dünya Bankı İnsan Resurslarının İnkişafı Departamentinin nümayəndə heyəti ilə nazir Ə.Nağıyevin görüşündə Azərbaycanda pensiya və sosial yardım sistemi islahatlarının həyata keçirilməsi məsələsi müzakirə olunmuşdur.

21.02.2003 Dünya Bankının respublikamızda həyata keçirdiyi kənd təsərrüfatının inkişafı və kreditləşdirilməsi layihəsinə uyğun olaraq, Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi Aqrar sektorun inkişafına Yardım Agentliyinin Şəkidə regional məsləhət mərkəzi yaradılmışdır.

06.03.2003 Milli Məclisin deputatlarından H.Rəcəbli, F.Heydərov, M.Qənbərov, T.Hüseynli, O.Əsədov və A.Axundzadə BVF-nin təşəbbüsü ilə keçiriləcək seminarda iştirak etmək üçün martın 8-dən 15-dək Vyanada səfərdə olacaqlar. Seminarda beynəlxalq maliyyə sisteminin islahatı, Avropa ölkələrinin iqtisadi inkişafının perspektivləri,

qloballaşma və Beynəlxalq Valyuta Fondu, vergi-büdcə siyasəti, MDB ölkələrinin bu sahədəki təcrübəsi müzakirə ediliсəkdir.

13.04.2003 Aprelin 9-11-də BMT-nin İnsan hüquqları Komissiyasının 59-cu sessiyası keçirilmişdir. Azərbaycan Xarici İşlər Nazirinin müavini X.Xələfov sessiyanın işində iştirak və çıxış etmişdir.

19.04.2003 Aprelin 16-17-də Vyanada BMT-nin Narkotik Vasitələr üzrə komissiyasının 46-cı sessiyası keçirilmişdir. Sessiyada Azərbaycanı Xarici İşlər Nazirinin müavini X.Xələfovun başçılığı ilə nümayəndə heyəti təmsil etmişdir.

07.05.2003 Mayın 5-də Azərbaycan Respublikası Nazirlər Kabinetinin nümayəndə heyəti Vaşinqtonda Dünya Bankı ilə bir həftəyə yaxın apardığı danışıqları başa vuraraq protokol imzalamışdır.

09.05.2003 Mayın 7-də Baş Nazirin birinci müavini Y.Eyyubov Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Yohannes Linnin rəhbərliyi ilə Dünya Bankının nümayəndələrini qəbul etmişdir. Qəbul zamanı Dünya Bankı ilə Azərbaycan arasında əməkdaşlığın hazırkı vəziyyəti, eləcə də Azərbaycan üzrə 2003-2005-ci maliyyə illərini əhatə edən yardım strategiyası, qaçqınlar problemi, ərazilərin bərpası üzrə kredit layihəsi müzakirə edilmişdir. Görüşdə həmçinin ərazilərin bərpası üzrə əlavə kredit layihəsi ilə bağlı məsələlər müzakirə edilmişdir.

10.05.2003 ABŞ-da yaşayan azərbaycanlılar mayın 8-də Nyu-Yorkda BMT-nin iqamətgahı qarşısında etiraz aksiyası keçirmişlər. Şuşanın işğalı gününə təsadüf edən bu aksiyada Azərbaycan diasporunun nümayəndələrinə Amerikanın Türk Assosiasiyaları Federasiyasının üzvləri də qoşulmuşdur.



15.05.2003 Xarici İşlər Naziri V.Quliyev BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə Ermənistanın on ildən bəri əməl etməməsi və ərazilərimizi işğal altında saxlaması ilə bağlı BMT Baş katibi Kofi Annana və Təhlükəsizlik Şurasının Sədri Munir Əkrəmə məktub göndərmişdir.

17.05.2003 BVF Azərbaycanda iqtisadi inkişafa təkan vermək və yoxsulluğun azaldılması üçün 18 milyon dollar məbləğində vəsait ayırmışdır.

19.06.2003 BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Bakıdakı nümayəndəliyinin rəhbəri Bordan Nahaylo iyunun 18-də öz iqamətgahında 20 iyun – Ümumdünya Qaçqınlar gününə həsr olunmuş mətbuat konfransı keçirmişdir.

08.07.2003 İyulun 6-da BMT-nin Qaçqınlar üzrə Ali Komissarının müavini Kamel Morcan Sumqayıtda olmuş, «Bərpa» və «Təhsil» layihələri üzrə Sumqayıtda görülmüş işlərlə tanış olmuşlar.

08.07.2003 İyulun 7-də Azərbaycanın Xarici İşlər Naziri V.Quliyev ölkəmizdə səfərdə olan BMT-nin Qaçqınlar üzrə Ali Komissarının müavini Kamel Morcanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

11.07.2003 Parisdə YUNESKO-nun «Bioetika, elm və texnologiyaların etikası» məsələləri üzrə hökumətlərarası komitəsinin 3-cü sessiyası keçirilmişdir. Respublikamızda 1999-cu ilin mart ayının 24-dən akad. C.Əliyevin rəhbərliyi ilə YUNESKO-nun xətti ilə fəaliyyətə başlayan «Bioetika, elm və texnologiyaların etikası» məsələləri üzrə Azərbaycan Milli Komitəsini bu sessiyada akad. Ə.Abbasov təmsil etmişdir.

18.07.2003 Xarici İşlər Naziri V.Quliyev iyulun 17-də BMT-nin Azərbaycandakı rezident

əlaqələndiricisi və BMT İnkişaf Proqramının rəhbəri Marko Borsotti ilə görüşmüşdür.

20.07.2003 İyulun 18-də Dünya Bankının Azərbaycana texniki yardım göstərilməsi layihəsi üzrə nümayəndə heyəti Bakıya gəlmişdir. Səfər iki layihənin həyata keçirilməsinin gedişi ilə tanışlıq məqsədi daşıyır: birinci layihə hökumətdə struktur dəyişikliklərinə və ölkənin büdcə sisteminin islahatına dair kompleks tədbirlərdən ibarətdir, bununla əlaqədar Dünya Bankı Azərbaycan hökumətinə 18 milyon dollar ayırmışdır. İkinci layihənin gerçəkləşdirilməsi üçün 9,4 milyon dollar həcmində kredit ayrılması və bir sıra dövlət müəssisələrinin özəlləşdirilməsinə, makroiqtisadi idarəetmə sisteminin möhkəmləndirilməsinə, maliyyə sektorunun inkişafına dair tədbirlərin maliyyələşdirilməsi nəzərdə tutulur.



# MÜNDƏRİCAT


Giriş ........................................11
I. BMT-nin yaradılması. Təşkilatın məqsəd və vəzifələri. BMT sisteminin təsnifatı və strukturu ..............15
II. BMT-nin müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu ..............................24
III. EKOSOS-BMT-nin başlıca iqtisadi və sosial qurumudur ..............................30
IV. BMT-nin ixtisaslaşmış qurumları və onların təsnifatı ........34
V. BMT-nin ixtisaslaşmış qurumlarının idarəetmə mexanizmi və fəaliyyətinin hüquqi əsasları ...........45
VI. Kənd təsərrüfatı xarakterli ixtisaslaşmış qurumlar (FAO; İFAD) ..............................54
§1.BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ..............................54
§2.Beynəlxalq Kənd Təsərrüfatının İnkişaf Fondu (İFAD) ..............................57
VII. Maliyyə qurumlarının sociyyəsi. Beynəlxalq Valyuta Fondu (BVF) müasir beynəlxalq münasibətlər sistemində ........60
VIII. Ümümdünya bank qurumları (BYİB, BMK, BİA, İTCA) ..............................64
§1. Beynəlxalq Yenidonqurma və İnkişaf Bankı (BYİB) .....65
§2. Beynəlxalq Maliyyə Korporasiyası (BMK) .........66
§3. Beynəlxalq İnkışaf Assosiasiyası (BİA) ..........67
§4. İnvestisiya Təminatları üzrə Çoxtərəfli Agentlik (İTÇA) ..............................69
IX. BMT-nin sənaye və meteorologiya yönümlü qurumları (YUNİDO və ÜMT) ..............................71
§1. BMT Sənaye İnkişafı Təşkilatı (YUNİDO) .........71
§2. Ümumdünya Meteorologiya Təşkilatı (ÜMT) .......74
X. Kommunikasiya qurumları ..............................78
§1. Beynəlxalq Mülkı Aviasiya Təşkılatı (BMAT) ......78
§2. Beynəlxalq Dəniz Təşkilatı (BDT) ..............80
XI. Rabitə qurumları ..............................84
§1. Ümumdünya Poçt İttifaqı ( ÜPİ) ..............84
§2. Beynəlxalq Elektrorabitə İttifaqı (BEI) ...........86

**HADI MUSA oğlu RƏCƏBLİ**
BMT-nin İXTİSASLAŞMIŞ QURUMLARI

Nəşriyyat redaktoru
**Varis Yolçiyev**
Rəssamı
**Nazim Rzaquliyev**

Çapa imzalanmışdır 07.10.2003. Kağız formatı 84x108 1/32.
Şərti çap vərəqi 13,44. Uçot-nəşr vərəqi 11,09. Tirajı 2000.
Sifariş 4469. Müqavilə qiyməti ilə.

"Azərbaycan" nəşriyyatının mətbəəsində çap edilmişdir.
370073 Bakı, Mətbuat prospekti, 529-cu məhəllə.